

TBİLİSİ-2019

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Kitabın orjinal adı: Hak Din İslam
Müəllif: Osman Nuri TOPBAŞ
Nəşrə hazırlayan: t.f.d. Abbas QURBANOV
Hacı BƏKİROĞLU
Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran: Eldəniz SALMANOV
Bədii redaktor: Nurlan MƏMMƏDZADƏ
Dizayn: Nicat QƏRİBOV
Elsevər ƏHMƏDOV

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

ჭეშმარიტი რელიგია
ისლამი

Haqq Din
İSLAM

Osman Nuri TOPBAŞ
ოსმან ნური თოფბაში

ÖN SÖZ

Bizi yoxdan var edən, insan olaraq ən gözəl biçimdə yaradan və sayılmayacaq qədər nemətlər lütf edən Rəbbimizə sonsuz həmd və şükrlər olsun!

Bütün peyğəmbərlərin, xüsusilə Kainatın Fəxri, son Peyğəmbəri Həzrət Muhəmməd Mustafaya ﷺ ailəsinə və əshabına sonsuz salat və salam olsun!

Heç şübhəsiz insan, həm maddi, həm də mənəvi quruluşu etibarilə mükəmməl bir biçimdə yaradılmış, Haqqa dost ola bilməsini təmin edəcək bir çox üstün vəsflər verilmişdir. Könül gözü ilə baxdığımızda digər məxluqatdan ayrı olaraq yalnız insana lütf edilən nemət və qabiliyyətlərin möhtəşəmliyinə heyran olmamaq mümkün deyildir.

Allah-Təala insanı öz qüdrət və əzəmətinə dəlil olaraq ən gözəl şəkildə xəlq etmişdir. Ona ağıl, qəlb, idrak və vicdan lütf etməklə yanaşı, əbədi səadətə necə istiqamətlənəcəyi xüsusunda bir də peyğəmbərlər və kitablarla yardım etmişdir. Bununla yanaşı dünyaya gəliş və oradan qəbir aləminə gedişin səbəbini, kimin mülkündə yaşadığını, bu dünyanın -kimin daha gözəl davranacağını sınamaq üçün- ilahi imtahanlarla dolu bir məktəb olduğunu və son nəfəslə başlayan ya səadət, ya da peşmanlıqla davam edən sonsuzluq yolçuluğu-

nu bəyan etmişdir. Məhz bu şəkildə Allah-Təalanın, bəndəsinin səadəti üçün bəyan etdiyi əmr və qadağaların məcmusuna "din" adı verilir.

Allah-Təala bəndələrinə qarşı sonsuz mərhəmət sahibidir. Bu səbəbdən onları bir an belə başıboş və nəfasani arzularının əsiri olaraq qalmasını istəməz.[1] Bu səbəbdən də insan ruhunun ən təbii və fitri səadət (hüzur) mənbəyi olan din, ilk insan Həzrət Adəm عليه السلام ilə başlamışdır. O, ilk insan və ilk peyğəmbərdir. Beləliklə bəşəriyyət, yerüzündəki ilk günündən qiyamətə qədər dünya və axirət səadəti üçün zəruri olan məlumatları, Allahın elçiləri olan peyğəmbərlər vasitəsilə canlı nümunələrdən birbaşa tətbiq ediləni görüb öyrənməklə ən gözəl formada əldə etmişdirlər.

Keçib gedən əsrlər ərzində bu məlumatlar unudulduğu, zay edildiyi və ya təhrifə uğradığı vaxtlarda Allah-Təala yeni bir peyğəmbər göndərib dinin əsas mahiyətini təkrar bəyan etmiş, bəndələrinə ən doğru səadət məlumatlarını lütf etmişdir.[2]

Bəşəriyyət, fitrətindən gələn inanmaq meylinə görə tarix boyunca heç vaxt dinsiz olmamışdır. Vəhydən və peyğəmbərlərin irşadından uzaqlaşdıqca həqiqəti itirmiş və bu dəfə də batil inanclara meyl etmişdir. Belə ki, elmi araşdırmalar, hər qəbilə və cəmiyyətdə doğru və ya yanlış bir Allah inancının və haqq din izlərinin olduğunu isbat etmişdir.[3]

1. əl-İnsan, 36; əl-Muminun, 115; əl-İnşirah, 7-8.
2. Bax. Məryəm, 34-59.
3. Bax. Prof.Dr. Günay Tümer, "*Din*" mad., DİA, IX, 315-317.

Tarix şahiddir ki, insana yalnız bu dünya həyatında xoşbəxtlik vəd edən bəşəri sistemlər həmişə gəlib getmiş, peyğəmbərlər isə bəşəriyyətə hər iki dünyada səadət əlacı təqdim edərək fani həyatlardan sonra da qəlblərdə yaşamağa davam etmişdir.

Heç bir dövrdə nəbəvi tərbiyədən məhrum edilməyən bəşəriyyət, yüz iyirmi dörd min peyğəmbərin irşadı ilə həyatına davam etmiş və axır zaman gəldiyində, bu zamanın ehtiyaclarına ən gözəl şəkildə cavab verən son din islam ilə şərəflənmişdir. Allah-Təala islamı Həzrət Peyğəmbərimizin iyirmi üç illik nübüvvət həyatında mərhələlərlə kamillik zirvəsinə çatdırmış və beləliklə bəndələrinə olan din nemətini tamamlamışdır. Çünki islam nemətindən daha böyük bir nemət təsəvvür edilə bilməz. Bundan sonra Allah-Təala bəndələri üçün din olaraq yalnız İslamdan razı olduğunu, ondan başqa bir yol seçənlərdən bunu əsla qəbul etməyəcəyini bəyan etmişdir.[4]

Belə olan halda İslam, zühurundan etibarən bütün bəşəriyyətin dinidir və yenə islam Allah nəzdində məqbul və mötəbər olan yeganə haqq dindir. Bəşəriyyət, əbədi səadət və xoşbəxtliyə yalnız islam ilə qovuşa bilər.

İslam, ən mükəmməl dünya görüşünə sahibdir. Bir sistemin kamil dünya görüşü sayıla bilməsi üçün insanın xəyal və təsəvvürü daxilində ağıla gələ bilən hər suala cavab verə bilməsi və bu cavabların da öz daxilində təzadsız, məntiqi bir ardıcıllıq halında sistemli və ahəngli olması lazımdır. Bu vəsflər isə yalnız

4. əl-Maidə, 3; Ali-İmran, 19, 85.

islam dünya görüşündə mövcuddur. Digər dinlərin və ya fəlsəfi sistemlərin fikirləri ya nöqsan, ya da təzadlarla doludur; etiqadı və əxlaqı tam şəkildə anlada bilməmişdirlər. Məsələn, təhrif edilmiş yəhudilik yalnız Bəni İsrailə həsr edilmişdir. Yenə təhrif edilmiş xristianlıq da yalnız bəndənin qəlbi ilə Allah arasına həbs edilmiş, həyatın digər sahələri üzərində hər hansı bir təsir gücü, tənzim və tətbiqi olmayan bir sistem halına gətirilmişdir. Əqaid/iman əsasları belə rahiblər məclisi tərəfindən müəyyən edilmiş və bir çox dəyişikliklər tətbiq olunmuşdur.

İslam isə bütün bəşəriyyət üçün göndərilmişdir və həyatın bütün sahələrini ehtiva edən dünyagörüşü və davranış qaydaları mənzuməsini təbliğ etmişdir. Həyatın heç bir mərhələsini boş buraxmadan insanlararası münasibətləri bir sıra prinsiplər əsasında bütün təfərrüatı ilə nizamlamışdır.

Allah-Təala; İslamı və Həzrət Muhəmmədi ﷺ bütün bəndələrinə "Rəhmətən lil-aləmin: Aləmlərə rəhmət" olaraq göndərdiyini bəyan edir.[5] Buna baxmayaraq insanların bir qismi müxtəlif səbəblərlə islamı tanıya bilməmiş və ya ona qarşı təəssübkeşlik və mənfi münasibət göstərməklə tərbiyə edilmişdir. Bu səbəbdən möminlərin hər fürsətdə islamı insanlara təbliği və öyrətməsi zəruridir. İslamı öyrəndikdən sonra onu qəbul edib etməmək, hər kəsin öz iradəsi daxilindədir. Allah-Təala bəndələrinin bu xüsusda sərbəst olduğunu və hər hansı bir məcburi təzyiqə məruz qalmayacaqla-

5. ən-Nisa, 79; əl-Əraf, 158; əl-Ənbiya, 107; Səbə, 28; Buxari, Təyəmmüm, 1.

rını bəyan etmişdir. Çünki bu dünya, bütün ehtişamı ilə bir ilahi imtahan məkanıdır.

Allah-Təala istəsəydi bütün bəndələrinə hidayət nəsib edərdi. Lakin Uca Rəbbimiz bəndələrinə dəyər vermiş, onların ağıllarını və sərbəst iradələrini istifadə edərək doğru yolu seçmələrini istəmişdir.[6]

Lakin insanlara verilən bu azadlıq, onların etdiklərindən məsul olmayacaqları mənasına gəlməz. Çünki Allah-Təala göndərdiyi son dinin ən doğru yol olduğunu göstərən bütün dəlilləri isbat etmiş və insanlara bunu idrak edə biləcək ağıl vermişdir. Yəni, bəndələrinin doğru yolla gedə bilməsi üçün onlara ağıl, təfəkkür gücü, peyğəmbərlər və kitablarla kömək etmiş, hər çür asanlıq imkanı yaratmışdır. Bütün bunlar arasında bəlkə də ən möhtəşəm möcüzə olaraq Qurani-Kərimi bəşəriyyətə lütf etmişdir. Bu lütf, Allah-Təalanın bəndələrinə olan mərhəmət və məhəbbətinin qiyamətə qədər davam edəcək ən canlı təzahürüdür. Buna baxmayaraq insanlar Allahın göndərdiyi dinə tabe olmayıb öz arzu və istəklərinin dalınca gedərlərsə, bunun müqabilində necə bir cəza ilə qarşılaşacaqlarını da Qurani-Kərim aşkar şəkildə bəyan etmişdir.

Məhz biz də bu acizanə əsərimizdə, İslamı kifayət qədər tanımayanlara bir zərrə də olsa kömək etmək istədik. Onu kamil bir dünyagörüşü olaraq etiqad, ibadət, davranış, əxlaq etibarilə xülasə halında tanıtmağa çalışdıq. Bu zəhmətimiz eyni zamanda hər mü-

6. Yunus, 99; əl-Kəhf, 29; əz-Zümər, 7; əl-Casiyə, 15; M. F. Abdulvaqi, əl-Mucəm, "*rvd*," "*şye*" maddələri.

səlman üçün bir axirət məsuliyyətidir. Yəni Rəbbimizin bütün bəşəriyyətə göndərdiyi dini təbliğ etmək, müsəlmanların ən mühüm vəzifəsidir. Bu vəzifəni yerinə yetirməyənlər sabah ilahi hüzurda çətin hesaba çəkiləcəklər. Bu səbəbdən hər müsəlman, bəşəriyyətin gedişatından özünü məsul hiss edərək islamı gücü nisbətində və üsuluna görə təbliğ etməyə səy göstərməlidir. Bundan sonrakı məsuliyyət isə onu eşidib qəbul etməyənlərə aiddir.

Digər yandan günümüzdə yaşayan hər insanın islamı araşdırıb öyrənməsi zəruridir. Çünki bu, insanı yaradan Rəbbimizin onun üzərinə qoyduğu ən başlıca vəzifədir. Bunun imkan və fürsətlərini hazırlamaq isə Allah-Təalanın hidayət lütf etdiyi müsəlman bəndələrinin şükür borcudur.

Bu çox aşkar bir həqiqətdir ki, dünyəvi və üxrəvi səadət, Allah və Rəsuluna itaət etməyə bağlıdır. Buna müvəffəq olan xoşbəxt insanlar, salehlər dəftərinə qeyd edilmiş və Allah-Təalanın məhəbbət, iltifat və ikramlarına nail olmuşlardır. İman həqiqətlərini eşitdikləri halda ondan imtina edənlər isə iki dünya bədbəxti olaraq bu dünyadan köçüb getmiş və ilahi əzaba düçar olmuşdurlar. Axirəti unudacaq qədər nəfsani arzularına aldanıb bağlandıqları dünya, onların arxasınca ağlamaması olduqca ibrətlidir.

Bu baxımdan müsbət və ya mənfi xatirələrin hər kəsə göstərildiyi keçmiş nəsillər, sonradan gələn yeni nəsillər üçün bir ibrət səhnəsidir. Üzərimizdəki səma, Allahı inkar edənlərə iztirab və fəlakətlər yağdıran qədim səmadır. Başımızın üzərindəki Günəş; bir

zamanlar Firon, Haman, Qarun və Nəmrud kimi neçə-neçə zalımların köşk və saraylarını işıqlandıran, sonra da xarabaları üzərinə doğan eyni Günəşdir. Və hər zaman olduğu kimi yenə bəşəriyyətin könül dünyasını bəzəyəcək səma, İslam səması; qəflət qaranlıqlarını yox edib nura qərq edəcək yeganə qəndil və iman günəşidir. O halda adəmoğlunun üzərinə düşən, islam səması və iman günəşi altında özünü tanıyıb Rəbbinə bəndə ola bilməsidir.

Bu vəsilə ilə əsərin hazırlanmasında əməyi keçən Dr. Murad Qaya və digər tələbələrimizə təşəkkür edir, bu xidmətlərinin onlar üçün sədəqeyi-cariyə olmasını Allah-Təaladan arzu edirik.[7]

Ya Rəbb! Bizi peyğəmbərlərinin nurlu izindən və uca kitabının könül feyzindən məhrum etmə! Göndərdiyin bütün kitab və peyğəmbərlərin, Sənin uca dərgahındakı həqiqi və əsl ehtivasına iman edərək haqq din islamı ən gözəl şəkildə yaşamağı və bəlaliklə razı olduğun bəndələrinin arasına qatılmağı bütün bəşəriyyətə nəsib eylə!

Amin!..

Osman Nuri Topbaş
Avqust 2012
Üsküdar

7. Fürsətdən istifadə edərək, bu kitabın Azərbaycan dilində nəşrində zəhmət çəkən t.f.d Abbas Qurbanov, Eldəniz Salmanov və Nurlan Məmmədzadəyə təşəkkür edir və çalışmalarının özləri üçün bir sədəqeyi-cariyə olmasını Rəbbimizdən niyaz edirəm.

I Hissə

İslam Nədir?

İslamı ruh və şəkil baxımından layiqincə idrak edərək onu sanki bir gül rayihəsi kimi bütün zərrələrinə hopdura bilmiş bir cəmiyyət, tariximizin şan və şərəflə dolu bir çox mərhələsində olduğu kimi, bir "fəzilətlər mədəniyyəti" inşa edər. Bu xüsusiyyətə sahib olan möminlər, hansı zaman və məkanda yaşayırsa-yaşasın iki dünya səadətinə nail olan bəxtiyarlardır.

Bir sözlə hər cəhəti sürprizlər və məchullarla əhatələnmiş həyat yolçusunun xoşbəxtliyi və səadəti, islamın ruhani aləmindən layiqincə hissə ala bilməyə bağlıdır.

1. Allah-Təala Bəndələrini Çox Sevir

Allah-Təala insan nəslinə digər məxluqatdan daha fərqli ikramlar lütf etmişdir. Çünki O, bəndələrini çox sevir və onlara çox mərhəmət edir. Ətrafımızda hər an tamaşa edib heyranlıqla seyr etdiyimiz min bir cür sənət möcüzələri, ilahi naxışlar və qüdrət təcəlliləri sanki bir məhəbbət məktubu kimi bizə ikram edilir. Ayeyi-kərimədə bu nemətlərlə əlaqədar olaraq belə buyurulur:

"**Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!**" (əl-Casiyə, 13)

Yenə ayeyi-kərimələrdə Allah-Təalanın mömin bəndələrini çox sevdiyi belə ifadə edilir:

"**...**(Allah) **onları, onlar da** (Allahı) **sevərlər...**" (əl-Maidə, 54)

"**Allah öz bəndələrinə qarşı çox mehribandır!**" (əl-Bəqərə, 207; Ali-İmran, 30)

Uca Rəbbimiz Qurani-Kərimin yenə bir çox yerində müxtəlif vəsilələrlə bəndələrinə olan məhəbbətini ifadə

edir. Məsələn, ehsan sahiblərini,[8] çox tövbə edənləri, çox təmizlənənləri,[9] təqva sahiblərini,[10] səbr edənləri[11], təvəkkül əhlini[12], adil davrananları[13] sevdiyini bəyan edir.

Həzrət Rəsulullah ﷺ də Allah-Təalanın mülayimliklə davranan[14], təqva sahibi, könül zəngini, özünü ibadətə həsr edib şan və şöhrətdən uzaq duran, nəfsinin islahı ilə məşğul olan[15], həya sahibi[16], xeyir əhli, itaətkar, xoş və təvazökar[17], bəndələrini sevdiyini xəbər verir. Yenə Allah-Təala dilənçilik və haram qazancdan uzaq duran[18], ailəsini dolandırmaq üçün işləyib qazanan[19], halalın arxasınca qaçmaqdan yorulmayan[20], dünyaya qarşı zahid davranan[21], bir şey satarkən, alarkən, borcunu ödəyərkən və borcunu istəyərkən anlayış göstərən[22], fərz və nafilə ibadətlərlə ona yaxınlaşan[23], işini ən gözəl şəkildə edən[24], insanlara faydalı

8. əl-Bəqərə, 195.
9. əl-Bəqərə, 222
10. Ali-İmran, 76.
11. Ali-İmran, 146.
12. Ali-İmran, 159.
13. əl-Maidə, 42.
14. Buxari, Ədəb, 35.
15. Müslim, Zöhd, 11.
16. Əbu Davud, *Hammam*, 1/4012.
17. İbn Macə, Fitən, 16.
18. İbn Macə, Zöhd, 5.
19. Deyləmi, Müsnəd, I, 155.
20. Suyuti, *əl-Camiu-s-Sağir*, I, 65.
21. İbn Macə, Zöhd, 1.
22. Muvatta, Büyü, 46.
23. Buxari, Riqaq, 38; İbn Macə, Fitən, 16.
24. Deyləmi, Müsnəd, I, 157.

olan[25], comərd[26], duada israr edən[27], Allah rizası üçün bir-birini sevən, ziyarətləşən, dost və qohumları ilə xoş davranan[28] fəzilət əhli bəndələrinə məhəbbətlə davranır.

Demək ki, Allah-Təala bəndələrini sevmək üçün bir çox bəhanələr xəlq etmişdir. Bu vəsilə ilə onları məhəbbət və mərhəmət dəryasına daldırmışdır. Onsuz da Onun gözəl adlarından biri də əl-Vədududdur. Yəni çox sevən və çox çox sevilən...

Allah-Təalanın insanları ən gözəl şəkildə yaratması, hər cür neməti lütf etməsi, günahlarını həmişə əfv etməsi və cəzalarını gecikdirərək tövbə etmələrinə fürsət verməsi... onları çox sevdiyinin ən bariz nümunəsidir. Yenə bu məhəbbət və mərhəmətin bir təzahürü olaraq Uca Rəbbimiz, insanlara dünya və axirətdə nəyin faydalı, nəyin zərərli olduğunu bütün təfsilatı ilə bəyan etmişdir. İnsana lütf edilən ən böyük nemət də budur. Allah-Təala bəndələrinin bu qaydalara riayət edərək ona dost olmalarını və nəticədə əbədi səadətə qovuşmalarını arzu etmişdir. Bu səbəbdən Allah-Təala insan fitrətini ilahi iman həqiqətləri üzərinə qurmuş və müqəddəs nəşələrlə bəzəmişdir. İnsan qəlbinin dərinliklərində haqq duyğusu, şiddətli bir inanc ehtiyacı ilə Allahı qəlbdə tanıma (mərifətullah) və Ona qovuşa bilmək arzusu mövcuddur. Bu təcəllilər heç şübhəsiz ki, tarix boyunca daim islamı yaşama neməti ilə təzahür edərək gəlmişdir.

25. Heysəmi, VIII, 191.
26. Suyuti, *əl-Camiu-s-Sağir*, I, 60.
27. Suyuti, *əl-Camiu-s-Sağir*, I, 65.
28. Əhməd, V, 229.

2. İnsanın Ən Böyük Ehtiyacı: Əmin-amanlıq və Səadət

İnsanın dünyəvi ehtiyaclarının başında əmin-amanlıq və səadət gəlir. İnsanın hər cür zülmdən mühafizə edilməsi, haqlarına sahib çıxaraq onlarla səadət tapması və bu səadət daxilində dünyəvi, üxrəvi istiqbalını təmin etməsi lazımdır. Yaşadığı yerdə amanda olmayan bir insan heç vaxt rahat və xoşbəxt olmaz. Bu əmin-amanlığı təmin edəcək ən təsirli güc də AllahTəalanın qoyduğu ilahi qanunlardır, yəni islamdır.

Allah-Təala bu həqiqətə belə işarə edir:

"(Ya Peyğəmbər! Qüreyşlilərə de ki) **Qüreyşin ülfəti** (dostluğu və ya Allahın onlar üçün səfəri asanlaşdırması) **xatirinə, Onlara qış və yay səfərini müyəssər edilməsi** (qışda Yəməndə, yayda Şamda istirahət və ticarət edə bilmələri) **xatirinə. Bu evin Rəbbinə** (Kəbənin sahibi Allaha) **ibadət etsinlər! O Allah ki, onları aclıqdan qurtarıb yemək verdi və onlara qorxudan** (fil sahiblərinin təhlükəsindən) **sonra əmin-amanlıq bəxş etdi.**" (Qüreyş, 1-4)

Bəşəri sistemlər və qanunlar bu əmin-amanlığı təmin etməkdən uzaqdır. Çünki onların mənəvi cəhəti yoxdur. Belə ki, islam gəlmədən öncə dünya qatı bir cəhalət qaranlığına bürünmüşdü. Haqq güclüyə məxsus idi. Gücsüzün heç bir haqqı yox idi və onun haqqı əzilmək idi. İnsanlar tərifi mümkün olmayan bir zülm altında inləyərək əzilirdi.

Allah-Təala belə bir şəraitdə Qüreyş qəbiləsinə ilahi lütfündən xüsusi bir əmin-amanlıq ehsan etdi. Onlar

da bu əmin-amanlıq şəraitində siyasi, ticari və mədəni fəaliyyətlərini rahat şəkildə edərək maddi-mənəvi zənginliyə və səadətə qovuşdular. Zamanı gəldiyində Uca Rəbbimiz bu qəbildən son Peyğəmbərini göndərdi. Onun vasitəsilə bəşəriyyətə hüzur, səadət və əmin-amanlığın ən sağlam əsaslarını öyrətdi.

3. İslam Dünyada Xoşbəxtlik və Əmin-amanlıq Mənbəyidir

"İslam" kəlməsi, salamat, qurtuluş, sülh, əmin-amanlıq, təslim olub rahatlığa çıxmaq kimi mənalara gəlir. Bu da islam dininin hər cəhəti ilə bütün aləmə tam bir salamatlıq, qurtuluş və səadət bəxş etdiyini göstərir. Yəni islam yalnız insanlara deyil, heyvanlara, bitkilərə və hətta cansız varlıqlara belə rahatlıq və səadət bəxş edər. Belə ki, Peyğəmbərin ﷺ 23 illik peyğəmbərlik həyatı terrorun hər növü ilə mübarizə apararaq keçmiş və nəhayətində bu aləmə əbədi bir səadət və əmin-amanlıq mənbəyi olan bir haqq din lütf etmişdir.

a. İnsanlar Səadətə Qovuşar

İslam, insanı hər cür zülm, haqsızlıq və izdirabdan salamata çıxardar. İslam alimləri, dinin qayəsinin "zərurəti-diniyyə" deyilən bu beş başlıca əsası yerləşdirmək və mühafizə etmək olduğunu ifadə edirlər:

a) Dinin mühafizəsi

b) Canın mühafizəsi

c) Əqlin mühafizəsi

d) Namus və heysiyətin, bu mənada nəslin mühafizəsi

e) Var-dövlətin mühafizəsi.

Bu beş əsas, mühafizə edildiyində insan tam xoşbəxtlik və əmin-amanlığa qovuşar.

İslam bu əsasların hər birini mühafizə etmək üçün çox sağlam qaydalar qoymuş, haramlar və halallar təyin etmişdir. İslamın etiqad qismi daha çox bunlarla bağlı ehkamları araşdırır.

İslam dini gəlmədən öncə bəşəriyyət etiqad, ibadət, davranış və gündəlik yaşayış etibarilə acınacaqlı bir halda idi. Can, mal və namus əminliyi olmadığı kimi insanı ucaldacaq bir inanc, ibadət və əxlaq da yox idi. İnsanlar halvadan düzəltdikləri bütlərə sitayiş edər, acıyanda isə onları yeyərdilər. Kölələrinə ağacdan və daşdan bütlər düzəltdirir, sonra da onlardan himmət gözləyirdilər. Səfərdə olanlar bir yerdə qonaqladıqlarında dörd ədəd daş götürüb üçünü qazanın altına ocaq düzəldir, birinə də tanrı deyə sitayiş edirdilər.

Əbu Rəca əl-Utaridi bu xüsusda belə deyir:

"Biz bir daşa ibadət edərdik. Ondan daha gözəlini tapdığımızda əlimizdəkini atıb digərini götürərdik. Daş tapmadığımız zaman, bir qədər torpaq yığar, bir qoyun gətirib üstünə süd sağar və onu təvaf edərdik." (Buxari, Məğazi,70)

İslam, insani heysiyəti ayaqlar altına atan bu və bənzəri batil inancları aradan qaldırdı. İnsanın şərəf və heysiyətini ucaldan ülvi inanc, ibadət və əxlaqi hisslər gətirdi. Bəşəri həyatın hər sahəsini ən gözəl

şəkildə nizamladı. İslamın bəxş etdiyi ülvi hissləri dadan müsəlmanlar, digər insanların da bu böyük nemətdən istifadə etməsi üçün çox böyük fədakarlıqlar etdilər. Buna dair gözəl bir misal bu şəkildədir:

Daha əvvəl müsəlman olan Ümmü Süleym ﵂, onunla evlənməyi çox istəyən Əbu Talhaya bütləri tərk edərək islamı qəbul etməsini şərt qoydu. Ona:

"-Sitayiş etdiyin bu daşları bir düşün! Sənə nə fayda verə bilər, nə də zərər! Bir ağacdan düzəltdiyiniz bütləri düşün! Bir dülgər gəlib sizin üçün ağacı kəsib yonaraq forma verir, siz də tanrı deyə sitayiş edirsiniz. Atəşə atsanız yanıb kül olar. Torpaqdan cücərən və Həbəşli bir kölənin yonduğu odunlara sitayiş etməyə utanmırsınızmı? Əgər şəhadət gətirib Həzrət Peyğəmbərimizə tabe olsan, heç bir şey istəmədən sənlə evlənərəm!"- dedi.

Dəfələrlə eşitdiyi bu sözlər, nəhayət Əbu Talhaya təsir etdi və imanla şərəflənməsinə vəsilə oldu. Buna çox sevinən Ümmü Süleym ﵂ istədiyi qədər maddi dünyalıq ala bilmək imkanı varkən, Kəlimeyi-Şəhadəti mehr olaraq qəbul etdi və heç bir şey tələb etmədən Əbu Talha ﵁ ilə ailə qurdu. Yəni, onun mehri "İslam" oldu.[29]

Rəsulullah ﷺ bütün bəşəriyyətin əmin-amanlıq və səadətini təmin edəcək əsası, olduqca aşkar şəkildə belə bəyan etmişdir:

29. Bax. Nəsəi, Nikah, 63/3340-1; İbn Sad, Tabaqat, VIII, 426-427; İbn əl-Əsir, Usdu-l-Ğabə, VII, 333.

"Sizdən biriniz, özü üçün arzu edib istədiyi şeyi, din qardaşı üçün də istəmədikcə həqiqi mənada iman etmiş olmaz." (Buxari, İman 7; Müslim, İman 71-72)

Həqiqətən insanlar bu hədisi-şərifdə buyurulan canıyananlığı tətbiq etdiklərində cəmiyyətdə problemlər ən aşağı səviyyəyə enəcək və haqsızlıqlar sona çatacaqdır.

İslam Haqq və Ədalət Dinidir

Allah-Təalanın bu ilahi əmri, insanlar arasındakı problemlərin ən başlıca mənbəyinə şəfa bəxş edir:

"**Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini** (onun sizə haram olduğunu) **bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu** (malınızı) **hakimlərə** (rüşvət) **verməyin!**" (əl-Bəqərə, 188)

Allah Rəsulu ﷺ bir gün əshabına:

"-***Müflis kimdir, bilirsinizmi?***"-deyə soruşdu. Onlar:

"-Bizə görə müflis, pulu və malı olmayan insandır."-şəklində cavab verdilər. Rəsulullah ﷺ belə buyurdu:

"-Şübhəsiz ki, ümmətimin müflisi bu insandır: Qiyamət günü namaz, oruc, zəkat kimi ibadətlərdən hasil olan savablarla gələr. Lakin buna pis söz dediyi, buna zina iftirası atdığı, bunun malını yediyi, bunun qanını tökdüyü və bunu döydüyü üçün yaxşılıqlarının savabı buna verilər. Üzərindəki qul haqları bitmədən savabları bitərsə, haqq sahiblərinin günahları ona yüklənilər və nəticədə cəhənnəmə atılar." (Müslim, Birr 59; Tirmizi, Qiyamət 2; Əhməd, II, 303, 324, 372)

İslama könüldən təslim olan bir insan, bu qəbildən ayeyi-kərimələri və hədisi-şərifləri düşünərək əlbəttə heç kimə ən xırda bir zərər verməyi düşünməz.

İslamın gətirdiyi "**ədalət**" anlayışı da hər cür təsəvvürün üzərindədir. Buna dair bir misal bu şəkildədir:

Bədrdə savaş başlamadan öncə Rəsulullah ﷺ əlindəki ox ilə mücahidləri; "*Bəri gəl, geri get!*" kimi təlimatlarla cərgəyə düzdü və saydırdı. Həmin anda cərgədən irəli çıxan Səvad bin Caziyyənin qarnına toxunub:

"*-Ey Səvad! Cərgədə dur!*"-buyurdu. Səvad رضي الله عنه isə:

"-Ya Rəsulallah, canımı ağrıtdın! Allah səni haqq ilə göndərdi. Qisas istəyirəm!"-dedi. Həzrət Peyğəmbərimiz köynəyini qaldırdı və:

"*-Buyur, qisasını al!*"-buyurdu. Ənsar tələşlanaraq:

"-Ey Səvad! O Allahın Rəsuludur!"-deyə onu özünə gətirməyə çalışdılar. Səvad رضي الله عنه:

"***-Ədalətdə heç bir bəşərin digərinə qarşı üstünlüyü yoxdur!***"-dedi. Allah Rəsulu ﷺ təkrar:

"-Buyur qisasını al!"-buyurdu. Səvad, Həzrət Peyğəmbərimizin mübarək bədənini öpdü. Rəsulullah ﷺ:

"*-Ey Səvad! Nəyə görə belə etdin?*"-deyə soruşdu. Səvad رضي الله عنه:

"-Görürsünüz ki, müharibəyə hazırlaşırıq. İstədim ki, mənim ən son xatirəm, sənə toxunduğum anım olsun!"-dedi.

Rəsulullah ﷺ ona xeyir-dua verdi.[30]

Həyatı boyunca bütün məxluqatın haqqına olduqca etina ilə yanaşan Peyğəmbər ﷺ, vəfat anında belə qul haqqını dilə gətirmiş və xəstə halda minbərə çıxaraq:

"Əshabım, kimin malını bilmədən almışamsa, budur malım, gəlsin alsın!.. Kimin belinə səhvən (bilməyərək) vurdumsa, budur kürəyim, gəlsin vursun!"-buyurmuşdur.[31]

İslam İncəlik və Nəzakət Dinidir

İslam, müsəlmanlara hesab gününü düşünərək yaşamağı və heç kimin haqqına təcavüz etməməyi öyrədir. Rəsulullah ﷺ kamil bir mömini bu gözəl ifadələrlə tərif etmişdir:

"Müsəlman, dilindən və əlindən müsəlmanların zərər görmədiyi insandır..." (Buxari, İman, 4-5)

Həqiqətən bir müsəlman, islami tərbiyə və ibadətləri boyunca davamlı olaraq "**zərərsizlik**" təlimi görür. Nəticədə elə bir hala gəlir ki, heç kim ondan bir zərər gələcəyini düşünməz. Belə bir mömin ətrafına daim xoşbəxtlik və güvən təlqin edər.

Allah Rəsulu ﷺ belə buyurmuşdur:

"Mömin bal arısına bənzəyər. Arı; daima təmiz olan şeyləri yeyər, təmiz olan şeylər meydana gətirər, təmiz yerlərə qonar və nəzakətli davrandığına görə qonduğu yerə zərər

30. İbn Hişam, II, 266-267; *Vakidi*, I, 57; İbn Sad, III, 516; Müq. Et, Əbu Davud, *Ədəb*, 148-149/5224; Diyat, 14/4536.
31. Bax. İbn Sad, II, 255; Təbəri, Tarix, III, 190; Əhməd, III, 400.

verməz, həmin yeri sındırıb dağıtmaz (zəhərləməz). Yıxıldığında isə peşman olmaz, dəyişməz."[32]

Bal arısı son dərəcə mahir, ağıllı, faydalı və təvazökar bir canlıdır. Gecələr belə işləyir. Həmişə təmiz və gözəl şeylər yeyir. Qidasını çiçəklərdən toplayır. Başçıları böyük anaya itaət edirlər. Əziyyəti və zəhməti olduqca azdır. Pis şeylərdən uzaq durur və başqasının qazancını yeməz.

Məhz mömin də eynilə bal arısı kimi halal qazancla dolanar, halal yeməklər yeyər və ruhani məkanlarda yaşayar. Getdiyi hər yerdə könlündən rəhmət saçar. Heç kimi incitməz və heç kimdən inciməz. Bir xəta etdiyində dərhal doğrunu görüb özünü düzəldər, şəxsiyyətini və vüqarını qoruyar. Təvazökar olub hər kəsin yaxşılığı üçün çalışar. Zülmdən, qafillikdən, fitnədən, haramlardan, nəfsin arzu və istəklərindən uzaq durar.

Fərdləri bal arısı kimi olan bir cəmiyyət, əlbəttə ki, xoşbəxtlik və əmin-amanlığın zirvəsinə çatacaqdır. Rəsulullah ﷺ bunu hələ islamın ilk illərində müjdələmişdir.

Habbab bin Ərət رضي الله عنه belə deyir:

Bir gün Rəsulullahın ﷺ yanına getdik. Kəbənin kölgəsində xirqəsini başının altına yastıq kimi qoyub dincəlirdi. Müşriklərin bizə verdikləri işgəncələrdən şikayət edərək:

"-Bizim üçün kömək istəməyəcəksinizmi? Allaha bizim üçün dua etməyəcəksinizmi?"-dedik.

32. Bax. Əhməd, II, 199; Hakim, I, 147; Beyhəqi, Şuab, V, 58; Suyuti, *əl-Cami*, 8147.

Rəsulullah ﷺ biraz üzüldü və çöhrəsi qızarmış bir vəziyyətdə yerindən doğrulub əyləşdi və belə buyurdu:

"-Əvvəlki ümmətlər arasında bir mömin tutularaq qazılan bir quyuya salınırdı. Sonra da mişarla başından ayağına qədər iki yerə bölünür və əti-sümüyü dəmir dırmıqlarla didilirdi. Lakin bütün bu edilənlər onu dinindən döndürə bilmirdi. And içirəm ki, Allah bu dini hakim edəcəkdir. Belə ki, tək başına bir atlı Allahdan və sürüsünə qurd basqın etməsindən başqa heç bir şeydən təlaş etmədən Sənadan Hadramövtə arxayınlıqla gedəcəkdir. Ancaq siz tələsirsiniz!" (Burxari, Mənaqib 25, İstizan 35, Mənaqibu-l-Ənsar 29; Əbu Davud, Cihad 97/2649)

Yenə Allah Rəsulu ﷺ müsəlman olmaqda tərəddüd edən Adiy bin Xatimə:

"-Mən sənin islamı qəbul etməyinə mane olan səbəbi bilirəm. Sən: "Onu zəiflər, ərəblərin dəyər vermədiyi imkansız insanlar qəbul edir."-deyə düşünürsən. Sən Hirəni tanıyırsanmı?"-buyurdu. O da:

"-Görmədim, ancaq eşitdim."-dedi. Allah Rəsulu ﷺ:

"-Ruhumu qüdrəti əlində tutan Allaha and içirəm ki, Allah bu mübarizəni bitirəcək! Belə ki, tək başına bir qadın Hirədən çıxaraq gəlib təkbaşına Allahın evini təvaf edəcək. Sonra Kisra bin Hürmüzün xəzinələri fəth ediləcək!"-buyurdu. Adiy bin Xətim:

"-Kisra bin Hürmüzünmü?"-deyə soruşdu. Peyğəmbərimiz ﷺ:

"-Bəli Kisra bin Hürmüzün!"-buyurdu. Sonra da:

"-Çox keçməz, var-dövlət o qədər bollaşacaq ki, heç kim kasıblaşmayacaq, var-dövlətin zəkatını alacaq adam tapılmayacaq!"-buyurdu.

Daha sonralar bu hadisəni danışan Adiy ﷺ belə demişdir:

"Allaha and olsun ki, bir qadının Hirədən dəvəsinin belində heç bir şeydən qorxmadan yola çıxıb bu Beytullahı həcc etdiyini gördüm! Allaha and olsun ki, Kisranın xəzinələrini fəth edənlər arasında mən də iştirak etdim. Ruhumu əlində tutan Allaha and içirəm ki, üçüncüsü də əlbəttə baş verəcəkdir. Çünki onu Rəsulullah ﷺ dedi."[33]

Bəli, islamın hədəfi insanların Allahdan başqa heç kimsədən qorxmadığı mühüm xoşbəxtlik şəraitində yaşamalarını təmin etməkdir. Bunun nəticəsində maddi rifah da gəlir. Belə ki, Ömər bin Əbdüləziz dövründə müsəlmanlar zəkat verəcək kasıb tapa bilmədikləri üçün xəlifəyə müraciət edərək zəkatlarını nə edəcəklərini soruşmuşlar.[34]

İslam Tolerantlıq Dinidir

Həzrət Peyğəmbərimiz bir çox insana yazılı aman vermişdir. Prof. Dr. Məhəmməd Həmidullah, Həzrət Peyğəmbərin Diplomatik Məktubları adlı əsərində müxtəlif ölkələrdə Peyğəmbərimizə aid bir çox "əmannamə-(düşmənin amanda olduğuna dair sənəd)" nüs-

33. Bax. Buxari, Mənaqib, 25; Əhməd, IV, 257, 377-379; İbn Hişam, IV, 246; İbn Kəsir, əl-Bidayə, V, 62.
34. Bax. Beyhəqi, *Dəlailulu-n-Nübüvvə*, VI, 493; M. S. Ramazan əl-Buti, Fiqhu-s-Sirə, səh. 434.

xəsi gördüyünü ifadə edir. Bunlardan birinə aid olan bu xatirə nə möhtəşəmdir:

İstanbul fəth edildiyində ətrafdakı hökmdarlardan təbrik üçün heyətlər gəlirdi. Bunlar arasında Qüds Rum katoliki Atnasyos da var idi. Fatehin hüzuruna çıxan katolik, Həzrət Peyğəmbərimizin barmaq basaraq imzaladığı əmannaməni və Həzrət Ömər zamanından qalma kufi xətlə yazılmış sənədləri göstərir. Qüdsdəki ibadət məkanlarının qədimdən olduğu kimi qalmasını xahiş edir. Peyğəmbərimizin verdiyi haqları eynilə təsdiq edən Fateh, bir fərman yazır və "Hər kim bu müqəddəs yazını ləğv edərsə, Allahın lənətinə uğrasın!"-qeydini əlavə edir. Bu fərman hal-hazırda Başnazirlik Osmanlı Arxivi, Kilsə Dəftəri, No:8-dədir.[35]

İslami əsaslar sayəsində müsəlman cəmiyyət elə hala gəlmişdi ki, idarələri altında yaşayan insanlar istər xristian olsun, istər yəhudi rifah içində yaşayırdı və həyatlarından məmnun idi. Hətta öz dindaşlarının idarəsini istəmir, müsəlmanları ölkələrinə dəvət edirdilər.

Bernard Lewis belə deyir:

"Osmanlı insanları xristianları valeh edirdi. Osmanlıların xoşrəftar olmaları və dövlətlərindəki imkanlar, xoşbəxt yaşamaq istəyən bir çox insanı bu ölkəyə gəlməyə sövq edirdi. Çətin vəziyyətdə yaşayan kəndlilər, ağalarının düşmənlərindən mədət umurdular. Lut-

35. Ziya Dəmirəl- Avni Arslan, *Osmanlıda Peyğəmbər Sevgisi*, Ankara 2009, səh. 63; http:/www.turkislamtarihi.nl|məqalələr/Qüds.php.

her belə 1541-ci ildə nəşr etdiyi bir əsərində xristianları elə xəbərdar etmişdir: "Sizin kimi acgöz prinslərin, feodalların və burjuaların idarəsi altında yaşamaqdansa, Türklərin idarəsi altında yaşamaq kasıblara daha xeyirli ola bilər."[36]

İslam Mərhəmət Dinidir

İslam mərhəmət dinidir. Mərhəmət islam dininin ən mühüm əsaslarındandır. Belə ki, Kitabullahın sərlövhəsi olan "Bəsmələ"də Allah-Təala sözünün yanında geniş mərhəmətini ifadə edən Rəhman və Rəhim adlarını zikr etmişdir. Arxasınca ilk surə olan Fatihə surəsinin ikinci ayəsində də eyni adları təkrar etmişdir. Daha sonra başqa bir surənin ilk kəlməsi olaraq Rəhman sifətini vəhy etmiş və bu ilahi sifət həmin surəyə ad olmuşdur. Beləliklə orada:

"Rəhman, Quranı öyrətdi!"-buyurularaq Qurani-Kərimin bəşəriyyətə bir ilahi mərhəmətin tələbi olaraq təqdim edildiyinə işarə edilmişdir. Belə ki, Qurani-Kərimin bir rəhmət və şəfa olduğu İsra surəsində aşkar şəkildə bəyan edilir. (əl-İsra, 82)

Qurani-Kərimin digər surələrində də şəfqət və mərhəmət, yüz dəfələrlə xatırladılır və tövsiyə edilir.

Digər yandan Allah-Təalanın peyğəmbərlərinə verdiyi ən uca xislətlərdən biri də mərhəmət olmuşdur. Xüsusilə:

36. Bernard Lewisı, "The War and the Polities," İn The Legacy of İslam, ikinci nəşr, Oxford, 1974, səh. 156-209.

"Ya Rəsulum! Biz səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik!"[37] bəyanına görə Rəsulullahda ﷺ bu vəsf heç kimsənin çata bilməyəcəyi bir zirvədir. Onun misilsiz mərhəmətinə aid bir misala nəzər yetirək:

Bədr savaşında ordular qarşı-qarşıya gəlir və Rəsulullah ﷺ müşriklərə sülh üçün elçilər göndərir. Həmin anda düşmən ordusunda su qıtlığı baş verir. Hakim bin Hizamın da iştirak etdiyi bir qism müşriklər, müsəlmanların hovuzundan su içməyə gəldilər. Müsəlmanlar onlara mane olmaq istəyərkən Allah Rəsulu ﷺ:

"-Toxunmayın içsinlər!"-buyurdu. Onlara da gəlib içdilər. (İbn Hişam, II, 261)

Deyə bilərik ki, islamda imanın ilk meyvəsi, mərhəmətdən ibarətdir. Bu istiqamət üzrə yaşayan Haqq dostları, qulluğu konkret olaraq bu iki xüsusla ifadə etmişdirlər:

Təzim li-əmrillah, yəni Allahın əmrlərini hörmət və ehtiramla yerinə yetirmək.

Şəfqət alə xəlqillah, yəni yaradılanlara Yaradandan ötəri şəfqət və mərhəmət göstərmək.

İslam rəhmət dinidir. Nə qədər günah və qəflət çüxurlarında yuvarlanan bəşəriyyət, etdiklərinin qarşılığı olaraq həlak və pərişan olmağa layiq ikən Allah-Təala daima rəhmət və əfv qanadlarını açaraq onları səadət iqliminə çəkmək istəyir. Onun:

37. əl-Ənbiya, 107.

"**Rəhmətim, qəzəbimi keçmişdir** (üstələmişdir)**!**"[38] bəyanı da bunun bir nişanəsidir.

Bir sözlə bunu deyə bilərik ki, islamı layiqincə yaşayan bir cəmiyyət, səadət cəmiyyəti halına gələr. İnsanlar orada həm dünyalarından əmin olaraq yaşayar, həm də axirətlərinə ümidlə baxarlar. Belə ki, Allah Rəsulu ﷺ belə buyurmuşdur:

"*Müsəlman olan, ona kifayət qədər ruzi verilən və Allahın lütf etdiyi nemətlərə qənaət edən kimsə fəlaha çatmışdır.*" (Müslim, Zəkat, 125; həmçinin bax. Tirmizi, Zöhd, 35/2348)

b. Heyvanlar Rahatlığa Qovuşdu

Həzrət Peyğəmbərimiz göndərilməzdən öncə, zəif insanlara və qadınlara belə dəyər verilmirdi. Belə bir cəmiyyətdə heyvanların heç nəzərə alınmayacağı aşkardır. Zavallı heyvanlar həm insanlara xidmət edir, həm də min bir əzab-əziyyət içində yaşayırdılar. Rəsulullah ﷺ gəldikdən sonra onlar da zülmdən qurtulub rahatlığa qovuşdular.

Əbu Vaqid ؓ belə rəvayət edir:

Rəsulullah ﷺ Mədinəyə gəldiyi zaman, mədinəlilər, diri dəvənin hörgücünü kəsir, qoyunların da budlarından qoparıb yeyirdilər. Bu hadisəni görən Rəsulullah ﷺ:

"*-Heyvan diri ikən ondan kəsilən bir şey meyid (leş) hökmündədir, yeyilməz.*"-buyurdu. (Tirmizi, Sayd 12/1480)

Beləliklə bu heyvanları belə acı işgəncələrdən qurtarmış oldu.

38. Buxari, Tövhid, 15, 22; Müslim, Tövbə, 14-16.

Allah Rəsulu ﷺ canlı bir heyvanı bağlayıb qarşıdan silah (ox) ataraq işgəncə verməyi və onları nişangah etməyi qəti şəkildə qadağan etdi. (Buxari, Zəbaih 25)

Eyni şəkildə heyvanların faydasız və səbəbsiz yerə, əylənərək ölüdürülməsini də qadağan etdi. Bir hədisi-şərifində belə buyurmuşdur:

"Kim bir sərçəni boş yerə sırf əyləncə olsun deyə öldürərsə, qiyamət günü həmin sərçə fəryad edərək Allaha belə nida edər:

"-Ey Rəbbim! Filankəs məni lüzumsuz yerə öldürdü, hər hansı bir fayda üçün öldürmədi." (Nəsəi, Dahaya, 42)

İslam heyvanlara mərhəmətlə davranmağı, onlara əziyyət verici davranışlardan uzaq durmağı əmr edir.

Bir nəfər:

"-Ya Rəsulallah, mən qoyun kəsərkən ona acıyır, mərhəmət edirəm."-deyir. Allah Rəsulu ﷺ iki dəfə:

"-Qoyun olsa belə bir canlıya mərhəmət edərsənsə, Allah da sənə mərhəmət edər."-buyurdu. (Əhməd, III, 436; Hakim, IV, 257)

Yenə Rəsulullah ﷺ belə buyurmuşdur:

"Bir quşu (yemək ehtiyacı səbəbiylə) kəsərkən olsa belə, kim mərhəmət edərsə, Allah da qiyamət günü ona mərhəmət edər." (Təbərani, Kəbir, VIII, 234/7915; Beyhəqi, Şuab, VII, 482)

Bir gün Allah Rəsulu ﷺ Ənsardan bir nəfərin bağına gedir və orada bir dəvə görür. Dəvə Həzrət Peyğəmbərimizi görüncə inildəyir və gözlərindən yaşlar axdı. Rəsulullah ﷺ dəvənin yanına gedib qulaqlarının

arxasını şəfqətlə oxşayır. Dəvə sakitləşir. Bundan sonra Peyğəmbərimiz ﷺ:

"-Bu dəvə kimindir?"-deyə soruşdu. Mədinəli bir gənc yaxınlaşdı və :

"-Bu dəvə mənimdir ey Allahın Rəsulu!"-dedi. Əziz Peyğəmbərimiz:

"-Sənə lütf etdiyi bu heyvan haqqında Allahdan qorxmursanmı? O sənin, onu ac saxladığını və çox yorduğunu mənə şikayət edir."-buyurdu. (Əbu Davud, Cihad, 44/2549)

Səvadə bin Rəbi ﷺ bu möhtəşəm nəzakət və mərhəmət nümunəsini rəvayət edir:

"Həzrət Peyğəmbərimizin hüzuruna gedib ondan bir dilək istədim. Mənə bir neçə baş (3 ilə 10 arasında) dəvə verilməsini əmr etdi. Sonra da bu tövsiyəni etdi:

"-Evinə qayıtdığın zaman ev əhlinə denən heyvanlara yaxşı baxsınlar, yemlərini gözəl şəkildə versinlər! Yenə onlara dırnaqlarını tutmalarını əmr et ki, heyvanları sağarkən döşlərini incidib yaralamasınlar!" (Əhməd, III, 484; Heysəmi, V, 168, 259, VIII, 196)

Yenə Rəsulllah ﷺ qoyun sağan bir nəfərə rast gəlir. Ona:

"-Ey filankəs! Heyvanı sağarkən balası üçün də süd saxla!"-buyurur. (Heysəmi, VIII, 196)

Səhabədən Əbu-d-Dərda ﷺ bir gün dəvələrinə həddindən çox yükləyən insanlara rast gəlir. Dəvə yükün ağırlığından ayağa qalxa bilmirdi. Əbu-d-Dərda ﷺ cəld dəvənin üzərindəki artıq yükü yerə atıb heyvanı ayağa qaldırdıqdan sonra sahiblərinə belə dedi:

"-Əgər Allah-Təala heyvanlara etdiyiniz əziyyətləri əfv edərsə, sizə böyük bir əfv etmiş olar. Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitdim:

"Allah-Təala bu dilsiz heyvanlara yaxşı davranmağınızı əmr edir! Münbit bir ərazidən keçirsinizsə, heyvanların biraz otlamasına imkan verin! Quraqlıq bir ərazidən keçirsinizsə, oradan cəld keçin. Belə yerlərdə çox oyalanaraq heyvanlara sıxıntı və əziyyət verməyin!" (İbn Həcər, əl-Mətalibu-l-Aliyə, IX, 346/1978)"

Peyğəmbərimizin bu təlimatları nətiicəsində, islamdan öncə insanların belə görmədiyi nəzakət və incəliyi müsəlmanlar heyvanlara göstərirdilər. Bir dəfə Rəsulullah ﷺ Məkkəyə getmək üçün ehramlı halda Mədinədən çıxmışdı. Üsayə səmtinə gəlib çatdı. Bura Ruveysə və Arc arasında bir yer idi. Burada kölgədə bükülüb yatan bir ceyran gördü. Allahın Rəsulu əshabından bir nəfərə, hər kəs keçənə qədər ceyranın yanında gözləyib heç kimsəyə heyvanı narahat etməməsini əmr etdi. (Muvatta, Hacc, 79; Nəsəi, Hacc, 78)

Yenə Peyğəmbərimiz və əshabı fəth etmək üçün Məkkəyə tərəf irəliləyərkən heyvanlara münasibət məsələsində möhtəşəm bir nümunə göstərmişdir. Bu davranış, Xaliqin nəzəri ilə məxluqata baxış tərzinin də ifadəsi idi. Aləmlərin fəxri Peyğəmbərimiz on min nəfərlik möhtəşəm ordusu ilə Arc səmtindən hərəkət edib Taluba tərəf gedərkən yolda balalarının altına almış və onları əmizdirən bir it gördü. Dərhal əshabından Cuayl bin Surakanı yanına çağıraraq onu bu itə və balalarının başına növbətçi qoydu. Ana itin və

balalarının islam ordusu tərəfindən ürküdülməməsi xüsusunda xəbərdar etdi. (Vakidi, II, 804)

Belə başa düşülür ki, Allah-Təala balaca bir qarışqanın belə narahat edilməsini istəmir. Belə ki, Qurani-Kərimdə Süleymanın عليه السلام möhtəşəm ordusunun, fərqinə varmadan qarışqaları tapdalamaq qorxusu ilə son dərəcə həssas davrandığına işarə edilir. (ən-Nəml,18)

Bu həssaslığın gözəl bir misalını da Bəyazid Bistami həzrətləri vemişdir. Bir dəfə o, Məkkədən qayıdarkən Həmədana gedir. Oradan çörəkotu satın alır. Vətəni Bistama çatdığında aldığı çörəkotunun içində bir neçə qarışqa görür.

"-Bu qarışqaları vətənindən didərgin salmışam!"- deyərək qalxır və onları təkrar Həmədana aparıb götürdüyü yerə buraxır. (Fəriduddin Attar, Təzkiratu-l-Övliya, I, 176)

Müsəlmanlar heyvanlar üçün belə, vəqflər təsis etmişdirlər. Beləliklə ac heyvanları doyurmuş, xəstələri müalicə etdirmiş, köç edə bilməyən quşlara yuva düzəltmişlər. Bu şəfqətin bir təzahürüdür ki, Osmanlı dövlətində səyahətə çıxan əcnəbilər, xatirələrində müsəlman məhəllələrdə qalan pişik və itlərin insanların ətrafında gəzdiyini, digər məhəllələrdə isə insan gördüyündə sürətlə qaçdığını deyirlər.

Bir sözlə islam heyvanlar üçün də bir hüquq gətirmişdir. Cahiliyə dövründə insanlar, heyvanların da bir haqqı olduğunu və onlara insaflı davranmağın zəruri olduğunu unutmuşdular. Hələ heyvanlara mər-

həmət edincə savab qazanacaqlarını heç təxmin edə bilmirdilər. Bir gün Rəsulullah ﷺ belə buyurdu:

"Vaxtilə bir nəfər yolda gedərkən çox susadı. Bir quyu tapdı, içinə endi su içdi və bayıra çıxdı. Bir də nə görsə; bir it dili bir qarış bayırda ləhləyir və susuzluqdan nəm torpağı yalayırdı. Həmin adam öz-özünə:

"-Bu it də eynilə mənim kimi çox susamışdır!"-deyə qəlbində bir vicdan mühasibəsi etdi. Dərhal quyuya endi və ayaqqabısını su ilə doldurdu, ağzına alaraq yuxarı çıxdı və itə su verdi. Onun bu hərəkətindən Allah-Təala razı qaldı və günahlarını bağışladı.

Səhabələr təəccüblə:

"-Ey Allahın Rəsulu! Bizim üçün heyvanlara görə də savab vardırmı?"-deyə soruşdular.

Həzrət Peyğəmbərimiz:

"***-Hər canlıya görə savab vardır.***"-buyurdu. (Buxari, Şurb, 9; Müslim, Salam, 153)

c. Nəbatat Salamatlığa Qovuşdu

Toxumların çatlayıb cücərtilərin çıxması və möhtəşəm ağaclar halına gəlməsi, qara torpaqdan sadalamaqla bitməyəcək qədər sayda və növdə bitki, meyvə və çiçəyin əmələ gəlməsi, üzərində dayanıb düşünülməsi zəruri olan ehtişamlı bir hadisədir. Bunları dərk edən ağıl, nəticədə hər şeyi ən gözəl şəkildə yaradan Allah-Təalaya çatacaq, Onun əzəmət, qüdrət, mərhəmət və camal kimi gözəl sifətlərini tamaşa etməyə dalacaqdır.

Məhz müsəlmanlar Allah-Təalanın bənzərsiz sənətinin təcəllisi olan bütün canlılara və bitkilərə, ilahi əmanət gözü ilə baxarlar. Onları lüzumsuz yerə qoparmaz, israf etməzlər.

İslam, həcc üçün ehrama girmiş olan və ya Məkkənin hərəm bölgəsində olan möminlərə ağac kəsmək, ot qoparmaq, ov etmək, hətta ovçuya ovu göstərmək kimi davranışları qadağan etmiş və bu qadağaları tapdalayanlar barəsində müxtəlif cəzalar təyin etmişdir. Beləliklə möminlərin müəyyən vaxtlarda müəyyən kiçik günahları belə etməmək, heç bir bitki və canlıya zərər verməmək kimi tam mənası ilə "zərərsizlik" ifadə edən bir hal və xarakterə sahib olmalarını istəmişdir.

Rəsulullah ﷺ Məkkə ilə yanaşı Mədinə və Taif bölgələrini də hərəm elan edərək oralarda da ağac kəsməyi, yaşıllığı məhv etməyi, ov etməyi qadağan etmiş[39] və belə buyurmuşdur.

"Allah Rəsulunun qoruğu içində mövcud olan ağaclara zopa ilə vurulmaz və onlar kəsilməz. Lakin zərurət halında heyvanların yeməsi üçün yüngül və astadan qırılmadan sallanaraq yarpaqları silkələnə bilər." (Əbu Davud, Hacc, 95-96/2039)

Yenə Harisə oğulları qəbiləsinin otlaq yerləri üçün:

"Kim buradan bir ağac kəsərsə, mütləq onun yerinə bir ağac əksin!"-buyurmuşdur[40].

39. Əbu Davud, Mənasiq, 96; M.Həmidullah, *İslam Peyğəmbəri*, I, 500; eyni müəllif, əl-Vəsaiq, Beyrut, 1969, səh. 236-238, 240.
40. Bəlazuri, *Futuhul-buldan*, səh. 17; İbrahim Canan, *İslam və ətraf mühitin* sağlamlığı, İstanbul 1987, səh. 59-60.

Əbu Duşum əl-Cühəninin babası belə rəvayət edir:

"Rəsulullah ﷺ heyvanlarına yedizdirmək üçün əlindəki dəyənəklə bir ağacın budaqlarına vuraraq yarpaqlarını tökməyə çalışan bir bədəvini görür. Yanındakı insanlara:

"-O bədəvini mənim yanıma gətirin, lakin mülayim davranın, onu qorxutmayın!"-buyurdu. Bədəvi yanına gəldiyində:

"-Ey bədəvi! Astadan və ehmalca silkələyərək yarpaqaları tök, vurub sındıraraq deyil!"-buyurdu."

Bədəvinin başı üstündəki yarpaqları hələ də gözümün qabağındadır." (İbn əl-Əsir, Usdu-l-Ğabə, VI, 351)

Rəsulullah ﷺ bir yandan mövcud bitkiləri mühafizə edərkən, bir yandan da ətrafı yaşıllaşdırmağa təşviq edirdi. Bir dəfə belə buyurmuşdur:

"Qiyamət qopmuş olsa və birinizin əlində bir fidan olsa, qiyamət qopmadan onu əkə bilirsə, bunu dərhal etsin!" (Əhməd, III, 191, 183)

Həzrət Peyğəmbərimizin bu hədisi-şərifi də ağac əkənlər üçün nə gözəl bir müjdədir:

"Bir müsəlman hər hansı bir ağac və ya bitki əkərsə, ondan yeyilən məhsul onun üçün sədəqədir, ondan oğurlanan məhsul onun üçün sədəqədir, yad heyvanların yediyi məhsullar sədəqədir, quşların yediyi sədəqədir, bir adamın ondan qopararaq azaltdığı şey də onun üçün sədəqədir."(Müslim, Musaqat,7)

Əshabi-Kiramın məşhurlarından Əbu Dərda رضي الله عنه Şamda ağac əkirdi. Bir nəfər ona yaxınlaşdı və təəccüblə:

"-Sən Həzrət Peyğəmbərimizin yaxın dostu olduğun halda ağac əkirsən?"-dedi. Əbu Dərda həzrətləri bu cavabı verdi:

"-Dayan görüm, haqqımda belə hökm vermə!" Mən Rəsulullahı ﷺ belə buyurarkən eşitdim:

"Bir adam ağac əkərsə və həmin ağacın meyvəsindən başqa bir insan və ya Allahın məxluqatından hər hansı bir canlı yeyərsə, o ağacı əkən insan üçün sədəqə olar."

Müsəlmanlar böyük orduları ilə yürüş edərkən belə bitkilərə və ağaclara zərər verməməyə çalışırdılar. Məsələn, Xəlifə Həzrət Əbu Bəkr ﷺ səfərə çıxmağa hazırlaşan ordusuna bu əmri vermişdi:

"Xainlik etməyin, qənimət malına xəyanət etməyin, zülm etməyin, müslə etməyin (qulaq, burun, göz kimi orqanları kəsərək işgəncə verməyin); uşaqları, yaşlıları və qadınları öldürməyin! Xurma ağaclarını kökündən kəsməyin və yandırmayın, bar verən ağacları kəsməyin; qoyun, inək və dəvələri yeyəcəyinizin xaricində kəsməyin! Kilsələrə (məbədlərə) qapanıb özlərini ibadətə həsr edən insanlarla qarşılaşsanız, onları ibadətləri ilə baş-başa buraxın..."[41]

Kainatda mövcud olan hər şey Allah-Təalanı zikr halındadır. Bu xüsusda ən qafil davrananlar , insanlar və cinlərdir. Bu mənada bir müsəlman ətrafındakı əşyaya bu şüurla yanaşır, müsəlman tələbələr və uşaqlar bu şüurla tərbiyə edilir:

41. Beyhəqi, *əs-Sünənu-l-Kübra*, IX, 85; Ali əl-Müttəqi, Kənz, 30268; İbn əl-Əsir, əl-Kamil, II, 196.

Bir gün Osmanlı dövrünün böyük ustadlarından Üftadə Həzrətləri, müridləri ilə birlikdə bir çəmənlik söhbətinə çıxmışdı. Onun arzusu ilə bütün dərvişlər çəmənliyin ən gözəl yerlərini gəzərək ustadlarına bir dəstə çiçək gətirdilər. Lakin Qazı Mahmud Əfəndinin əlində sapı yalnız qırılmış solğun bir gül var idi. Digərlərinin sevinclə əlindəkiləri müəllimlərinə təqdim etməsindən sonra Qazı Mahmud, boynunu bükərək bu sınıq və solmuş çiçəyi Üftadə Həzrətlərinə təqdim etdi.

Üftadə Həzrətləri digər müridlərin təəccüblü baxışları qarşısında soruşdu:

"-Övladım Mahmud! Hər kəs dəstə-dəstə gətirdiyi halda, sən nəyə görə saplağı sınıq solğun bir çiçək gətirdin?..."

Qazı Mahmud ədəblə başını aşağı əyərək belə cavab verdi:

"-Ustadım! Sizə nə təqdim etsəm azdır! Lakin hansı çiçəyi qoparmaq üçün əlimi uzatdımsa, onun "Allah Allah" deyərək Rəbbini təsbih etdiyini gördüm. Könlüm onların bu zikrlərinə mane olmağa razı olmadı. Çarəsiz qalıb mən də əlimdəki bu təsbihinə davam edə bilməyən çiçəyi gətirmək məcburiyyətində qaldım!.."

Bu gözəl və mənalı cavabdan son dərəcə məmnun qalan Üftadə Həzrətlərinin dilindən həmin anda:

"-Hüdayi, Hüdayi... Övladım! Bundan sonra adın Hüdayi[42] olsun!.. Ey Hüdayi! Bu gəzintidən yalnız sən nəsiblənmisən.."-ifadələri töküldü.

42. Hüdayi- kəlməsi hidayətə çatmış, doğru yolu tapmış mənalarına gəlir.

Beləliklə Qazı Mahmud, Hüdayi oldu. Çünki o, artıq kainatdakı ilahi əsrara və qüdrət axışlarına aşina olmuşdu. Sanki kainat ona sirlərini açan canlı bir kitab halına gəlmişdi. Həyatını bu minvalla Allah-Təalaya itaətlə davam etdirən Əziz Mahmud Hüdayi Həzrətləri dünyanı idarə padşahlara rəhbər olmuşdur. Bu gün də insanlar axın-axın Üsküdardakı türbəsini ziyarət edərək orada mənəvi hüzur tapırlar.

d. Cansız Varlıqlar Rahatlığa Qovuşdu

İnsanlar islami tərbiyə gördükdən sonra hərəkət etməyən cansız varlıqlara belə gözəl davranmağı öyrəndilər. Çünki onlar da Allah-Təalanı –bizim idrakımızın xaricində- zikr edir və min-bir hikmət daşıyırlar. Allah-Təala belə buyurur:

"**Yeddi göy, yer və onlarda olanlar** (bütün məxluqat) **Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların** (dillərini bilmədiyiniz üçün) **təqdisini anlamazsınız.** (Allah) **həqiqətən, həlimdir, bağışlayandır!**" (əl-İsra, 44)

İnsan; təkəbbürlü, mənfəətpərəst və məsuliyyətsiz davrandığında canlılar kimi, cansız varlıqlar da narahat olur. Bir gün Peyğəmbərimizin yanından bir cənazə keçir. Peyğəmbərimiz ﷺ:

"*Rahatlığa qovuşmuş, ya da ondan qurtulmuş!*"-buyurdu.

Səhabələr:

"-Ey Allahın Rəsulu, "Rahatlığa qovuşmuş, ya da ondan qurtulunmuş!" ifadəsindən məqsədiniz nədir?"-deyə soruşdu. Rəsulullah ﷺ:

"-Mömin bir bəndə vəfat etdiyində dünyanın yorğunluğundan və sıxıntılarından rahatlaşıb Allahın rəhmətinə qovuşur. Günahkar bir adam öldüyündə isə insanlar, torpaqlar, ağaclar və heyvanlar ondan qurtulub rahatlığa qovuşarlar."-buyurdu. (Buxari, Riqaq, 42; Nəsəi, Cənaiz, 48; Əhməd, V, 296, 302, 304)

Demək ki, üzərində yaşadığımız yer, bəzi insanlara görə narahat olduğu halda, saleh əməllərə davam edən mömin bəndələrlə rahatlığa qovuşur. Çünki müsəlmanlar Allahın istədiyi şəkildə bir həyat yaşadıqlarında yer üzü ilə ahəngli bir bərabərliyi saxlamış olarlar.

Abdullah ibn Məsud ﷺ belə rəvayət edir:

"Bir dağ digərinə adı ilə nida edərək:

"-Ey filankəs, bu gün sənə Allah-Təalanı zikr edən bir insan gəldimi?"-deyə soruşar. Əgər:

"-Bəli gəldi."-deyərsə, buna çox sevinər.

Bu hadsəni İbn Məsuddan rəvayət edən Avn bin Abdullah bu sözləri əlavə edir:

"-Dağlar, yalan, səhv sözləri eşidər, xeyirli sözləri eşitməzlərmi? Onlar xeyirli və gözəl sözləri daha böyük bir həvəslə eşidərlər. Ayeyi-kərimədə dağların pis sözləri eşitdikləri belə xəbər verilir:

"(Müşriklər:) **"Rəhman özünə övlad götürmüşdür!" – dedilər. Siz, doğrudan da, olduqca pis bir şey etdiniz**

(çox böyük-böyük danışdınız)! **Buna görə az qaldı ki, göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun!-** (Müşriklərin) **Rəhmana övlad isnad etdiklərinə görə! Halbuki Rəhmana özünə övlad götürmək yaraşmaz. Çünki göylərdə və yerdə olan bütün məxluqatdan bir eləsi yoxdur ki,** (qiyamət günü) **Rəhmanın hüzuruna bir qul kimi gəlməsin.**" (Məryəm, 88-93) (Beyhəqi, Şuab, I, 453; Təbərani, Kəbir, IX, 103)

Demək ki, insanların etdiyi günahlar, zamanı və məkanı narahat edir. Bunun əksinə möminlərin etdiyi saleh əməllər, ibadətlər və zikrlər də zamanı və məkanı sevindirir, məsud edir.

Allah Rəsulu ﷺ bu aləmə məhəbbəti gətirmişdir. İnsanlara; dağları, daşları, cansız varlıqları belə sevməyi öyrətmişdir. Belə ki, bir gün:

"*Uhud bizi sevir, biz də Uhudu sevirik.*"-buyurmuşdur. (Buxari, Cihad, 71)

Sanki Peyğəmbərimiz ﷺ Uhud dağını canlı qəbul edir və ona məhəbbətlə yanaşırdı. Bunun müqabilində təbii daşlar da Onu sevirdi. Belə ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

"Mən Məkkədə mövcud olan bir daş tanıyıram. Peyğəmbər olmadan öncə mənə salam verirdi. Mən həmin daşı indi də tanıyıram." (Müslim, Fədail, 2)

Bu daş hicri X əsrdə Ziqaqu-l-Həcər və ya Ziqaqul-Mirfaq deyə tanınan küçədəki yüksək daşdır.[43]

Həzrət Əli رضي الله عنه da belə rəvayət edir:

43. İbn Həcər əl-Heytəmi, *əl-Cövhəru-l-munazzam fi ziyarəti-l-qabri-l-mükərrəm*, Beyrut 1427, səh. 155; Hələbi, Sirət, I, 486.

"Rəsulullah ﷺ ilə birlikdə Məkkədə idim. Bir yerdə Məkkənin bəzi yerlərinə getdik. Dağların və ağacların arasından keçirdik. Həzrət Peyğəmbərimizin qarşılaşdığı bütün dağlar və ağaclar:

"-əs-Sələmu aleykə ya Rəsulallah!"-deyirdi." (Tirmizi, Mənaqib, 6/3626)

Eyni şəkildə Məscidi-Nəbəvidəki üstünə əyləşib xütbə oxuduğu xurma kötüyü xoşbəxt idi. Həzrət Peyğəmbərimizin yanında olmasından və başı üstündə Allahı zikr etməsindən böyük bir həzz alırdı. Minbər düzəldilib Peyğəmbərimiz ﷺ xütbələrini onun üzərində oxumağa başlayınca, xurma kötüyü bu həsrətə dözə bilmədi. Halbuki Rəsulullah ﷺ çox uzaqlaşmamışdı, səsini yenə eşidir, onu yenə görürdü. Lakin xurma kötüyü Ona lap yaxın olmaq istəyirdi. Bu səbəbdən hər kəsin eşidə biləcəyi şəkildə inildəməyə başladı. Rəsulullah ﷺ minbərdən enib kötüyü sığallayınca kötüyün iniltisi kəsildi. Həzrət Peyğəmbərimiz:

"*O, yanında edilən zikrullahdan uzaq qaldığına görə ağladı!*"-buyurdu.[44]

Rəsulullah ﷺ canlı cansız heç bir varlığa pis söz deyilməsini, lənət və həqarət edilməsini istəməzdi. Allahdan onların xeyirini istəməyi, şərlərindən də yenə Allaha sığınmağı tövsiyə edərdi. Bütün varlıqları xeyir yolunda istifadə etməyi, onları şər işlərə alət etməkdən

44. Bax. Buxari, Mənaqib, 25, Cümə, 26; Tirmizi, Cümə 10, Mənaqin 6; Nəsəi, Cümə, 17: İbn Macə, İqamə, 199; Darimi, Müqəddimə 6, Salat 202; Əhməd, I, 249, 267, 300, 315, 363.

şiddətlə uzaq durmağı əmr edirdi. Belə ki, hədisi-şərif-lərində belə buyurmuşdur:

"Gecəyə, gündüzə, Günəşə, Aya, küləyə pis söz deməyin! Onlar bir qisim insanlar üçün rəhmət, digər bir qisim üçün də əzab (vəsiləsi)dir." (Heysəmi, VIII, 71)

"Dünyaya pis söz deməyin! O, mömin üçün nə gözəl bir minikdir. Ona minərək xeyirə çatar, yenə onunla şərlərdən qurtular." (Suyuti, Camiu-l-əhadis, 16459)

"Küləyə pis söz deməyin! Xoşlanmadığınız bir şeylə qarşılaşdığınızda belə dua edin: "Allahım! Səndən bu küləyin, gətirəcəyi şeylərin və ona əmr edilən xeyirini istəyirik. Bu küləyin, gətirəcəyi şeylərin və əmr edildiyi işin şərrindən də sənə sığınırıq." (Tirmizi, Fitən, 65/2252)

Əbu Dərda ﷺ belə buyurmuşdur:

"Bir adam dünyaya lənət edərsə, dünya da ona:

"-Hansımız Allah-Təalaya daha çox üsyan edirsə, Allah-Təala ona lənət etsin!"-deyər." (Beyhəqi, Şuab, IV, 302/5187; Hakim, IV, 348/7870)

Cabir bin Süleym ﷺ belə rəvayət edir:

"Fikirlərinə insanların müraciət etdiyi bir şəxs gördüm; onun hər dediyini qəbul edib yerinə yetirirdilər.

"-Bu şəxs kimdir?"-deyə soruşdum.

"-Allahın Rəsuludur."-dedilər. İki dəfə:

"-عَلَيْكَ السَّلَامُ يَا رَسُولَ اللّٰه: Sənə salam olsun ey Allahın Rəsulu"-dedim. Həzrət Peyğəmbərimiz:

"-Aleykə-s-Salam, demə; bu ölülərə verilən salamdır. اَلسَّلَامُ عَلَيْكَ Salam sənə olsun, denən!"-buyurdu. Mən:

"-Sən Allahın Rəsulusanmı?"-deyə soruşdum. Həzrət Peyğəmbərimiz ﷺ:

"-Mən, bir sıxıntı və darlıq gəldiyində dua edincə səndən həmin sıxıntını aparan, bir qıtlıq baş verdiyində dua edincə sənin üçün məhsul bitirən, səhrada dəvən itdiyi zaman dua edincə dəvəni sənə gətirən O Allahın bütün insanlara göndərdiyi Rəsuluyam! "-buyurdu. Bundan sonra mən:

"-Mənə nəsihət edin!"-dedim. Rəsulullah ﷺ:

"-Heç kimə pis söz demə!"-buyurdu."

Mən də ondan sonra nə azad, nə kölə heç kimsəyə, nə dəvə, nə də qoyun heç bir heyvana pis söz demədim.

Sonra nəsihətlərinə belə davam etdi:

"-Heç bir yaxşılığı kiçik görmə, qardaşına təbəssüm edərək danış, çünki bu da bir yaxşılıqdır... *Paltarını yerdə sürünəcək qədər uzatma, çünki bu təkəbbürdən və özündən razı olmaqdan irəli gəlir; Allah təkəbbürlənib özünü bəyənənləri sevməz.* ***Əgər bir adam sənə pis söz deyərsə və ya gördüyü bir şeyə görə səni ayıblayarsa, sən həmin insanı, haqqında bildiyin şeylərə görə ayıblama! Onun bu davranışının vəbalı özünə aiddir.***"

Allah-Təala belə buyurur:

"**Rəhmanın** (əsl) **bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə** (təvazökarlıqla) **gəzər, cahillər onlara söz atdıqları** (xoşlarına gəlməyən bir söz dedikləri)

zaman (onları incitməmək üçün) **salam deyərlər.**" (əl-Furqan, 63)

"(Dalda) **qeybət edib** (üzdə) **tənə vuran hər kəsin vay halına!**" (əl-Huməzə, 1)

Loğman Həkim qarabəniz bir insan idi. Bir nəfər onu ayıblayaraq:

"-Nə çirkin üzün var ey Loğman!"-dedi.

Loğman Həkim ona bu hikmətli cavabı verdi:

"-Bu sözünlə nəqşi ayıblayırsan, yoxsa Nəqqaşı?" (İsmail Haqqı Bursəvi, Ruhu-l-Bəyan, (Loğman, 12)

Yəni, hər şeyi Allah yaratmışdılr və hamısının ayrı-ayrı bir çox hikmətləri vardır. Bu mənada heç bir şeyə xor baxılmamalıdır.

İslam məhz bu şəkildə kainatdakı hər şeyə səadət bəxş edər. Ona bərk yapışan insanlar həm özləri səadətə çatar, həm də ətraflarına səadət bəxş edərlər. Vəfat etdiklərində insanlarla birlikdə səmalar və yer də arxalarınca ağlayar. Dünyadakılar bu gözəl insanları itirdikləri üçün üzülərkən qəbir əhli və mələklər onları böyük bir sevinclə qarşılayarlar. Dünyası bu şəkildə gözəl olan insanın əbədi həyatı da əlbəttə daha gözəl olar.

İslama tabe olmayan, nəfsinin istədiyi şəkildə özü üçün bir həyat sürən insanlar isə dünyanı və ailəsini narahat etdiyi kimi, öldükdən sonra qonşu olduqları qəbirləri də narahat edərlər. Onlar öldüyündə istər-istəməz insanların yadına şairin bu sözləri düşür:

Nə özü etdi rahat, nə aləmə verdi hüzur

Yıxıldı getdi cahandan, dayansın əhli-qubur!

Ya Rəbb! Bizə islamı ən gözəl şəkildə dərk edib həyatımıza tətbiq edərək iki dünyada da salamata çatmağı nəsib və müyəssər eylə! Əlimizdən və dilimizdən heç bir varlıq zərər görməsin! Heç kimsəni incitmədən və kimsədən incimədən xoşbəxt bir həyat yaşamağı ehsan eylə! Bizə lütf etdiyin bütün əzaları və nemətləri həmişə xeyir yolunda istifadə etməyi nəsib eylə!

Amin!..

4. İslam Əbədi Həyatda Salamata Çatdırar

İnsanın keçmişinə baxdığımızda təbiət ünsürü olaraq torpaq qatının altında idi. Zamanı gəlincə torpaqdan çıxan bitkilərə və oradan da bəzi məxluqata keçdi. Bundan sonra atasının sülbünə nütfə olaraq keçdi, oradan da anasının bətninə keçdi. İnsan ana bətnində fərqli bir həyat qazandı. Orada bir su torbasının içində yaşayır, anasından aldığı qan ilə qidalanırdı. Bir müddət sonra yaşadığı həyatı tərk etmək məcburiyyətində qaldı və başqa bir aləmə, yəni dünyaya gözlərini açdı. Bu yeni həyatı, əvvəlkindən çox fərqli şərtlərə sahib idi. Artıq əvvəlcədən olduğu kimi su içində yaşaması və ya qanla qidalanması qeyri-mümkün idi.

Eynilə bunun kimi insan öldükdən sonra yenə başqa bir aləmə keçəcəkdir. Oranın şərtləri də bu anda yaşadığımız həyatın şərtlərindən fərqli olacaqdır. Həmin həyatın necə olacağını və ora üçün nələr hazırlamağın zəruri olduğunu Allah-Təala bəndələrinə peyğəmbərləri vasitəsilə xəbər vermişdir. Bu bəyanlar,

insanların dünyada əldə etdikləri şeylərlə dərk edə biləcəkləri səviyyədədir. Bu mənada insan bir çox şeyi həmin aləmə keçdikdən sonra dərk edəcəkdir. Bu hadisə, eynilə ana bətnindəki uşağın dünyaya aid məlumatının olduqca məhdud olmasına bənzəyir.

Bunu qəti şəkildə unutmamaq lazımdır ki; fani həyat bazarının ən son geyimi olan kəfən, bir gün mütləq hər kəsə bürünəcək və ölüm hadisəsi, bütün fani ticarətlərə, zövqlərə, cazibələrə, aldadıcı bər-bəzəklərə xitam möhürünü vuracaqdır!..

Qurani-Kərimdə və hədisi-şəriflərdə xəbər verildiyinə görə insanın dünyadakı həyat tərzinə görə bir qəbir həyatı təcəlli edəcəkdir. Qəbir Allahın rizasına uyğun bir həyat tərzi sürənlərə cənnət bağçalarından bir bağça, həyatını Allaha itaətsizliklə keçirənlər üçün isə cəhənnəm çüxurlarından bir çüxur olacaqdır. (Tirmizi, Qiyamət, 26)

İnsan üçün qəbir həyatından sonra hesabla birlikdə üçüncü bir həyat da başlayacaqdır ki, onun sonu yoxdur. Bu əbədi axirət həyatı da yenə insanın dünya həyatına görə formalaşacaqdır.

Həmin gün Allah-Təala, insanın dünyada etdiyi əməllərin qeyd edildiyi bir kitab çıxarıb:

"**Kitabını oxu! Bu gün sən haqq-hesab çəkməyə özün-özünə** (özün öz əməllərinin şahidi olmağa) **kifayətsən!" buyuracaqdır.** (əl-İsra, 14)

Həmin gün insanın əleyhinə başqa şahidlər də gətiriləcəkdir. Ayeyi-kərimələrdə belə buyurulur:

"**Allahın düşmənləri Cəhənnəmə toplanacaqları gün onlar** (əvvəlincisindən axırıncısınadək tutulub bir yerdə) **saxlanacaqlar. Nəhayət, onlar Cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" – deyəcəklər.** (Dəriləri də) **belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!**" (Fussilət, 19-21, Bax. ən-Nur, 24; Yasin,65)

"**Məhz o gün (yer) öz hekayətini söyləyəcəkdir. Çünki** (bunu) **ona sənin Rəbbin vəhy etmişdir** (buyurmuşdur)**!**" (əz-Zilzal, 4-5)

O gün bütün insanlar peşman olarlar. Müsəlman olaraq yaşayıb müsəlman olaraq ölən insanlar, nəyə görə daha çox saleh əməllər etmədiklərinə üzülürlər. Günahkar və imansız olaraq yaşayanlar da nəyə görə iman edib günahları tərk etmədiklərinə üzülür və çox böyük peşmanlıq çəkərlər.[45] Cəhənnəmə düşənlər dəhşət verici bir fəryad ilə belə edərlər:

"-Ya Rəbb, bizi bu əzabdan qurtarıb dünyaya təkrar göndər ki, indiyə qədər etdiyimiz səhv hərəkətlərimizi tərk edib yalnız sənin istədiyin saleh əməllər edək!"

Lakin Allah-Təala onlara bu cavabı verər:

"**Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi** (düşünəcək kimsənin düşünəcəyi) **qədər ömür verməmişdikmi?! Hələ sizə** (siz kafirləri Allahın əzabı ilə) **qorxudan**

45. Tirmizi, Zöhd, 59/2403.

peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! **Zalımların imdadına çatan olmaz!**" (Fatir, 37)

Məhz bu çətin gündə insanın ən böyük köməkçisi islamdır. Yəni Həzrət Peyğəmbərimizin tərif etdiyi şəkildəki iman və əməli-salehlərdir. İmtahan dünyasının bitdiyi; insanların hesaba çəkilməyə, mükafat və cəza görməyə başladığı həmin çətin gündə islam, ona təslim olanları salamata çatdıracaqdır.

Yəni, dünya həyatında olduğu kimi əbədi həyatda da insanı salamata çatdıracaq olan yeganə din yenə islamdır. Allah-Təala belə buyurur:

"**Allah yanında** (haqq olan) **din, əlbəttə, islamdır.**" (Ali-İmran, 19)

"**Kim islamdan başqa bir din ardınca gedərsə,** (o din) **heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!**" (Ali-İmran, 85)

Bir gün yəhudilər, Həzrət Ömərə:

"-Ey Möminlərin Əmiri! Sizin Kitabınızda oxuduğunuz bir ayeyi-kərimə var ki, əgər həmin ayə biz yəhudilərə enmiş olsaydı, o günü bayram elan edərdik!"-dedilər. Həzrət Ömər ﷺ:

"-Hansı ayə?"-deyə soruşdu.

"**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi** (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) **tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim.**" (əl-Maidə, 3) ayəsi dedilər.

Həzrət Ömər ﷺ onlara bu cavabı verdi:

"-Biz o ayeyi-kərimənin Həzrət Peyğəmbərə ﷺ nazil olduğu anı və məkanı bilirik. Ayə nazil olduğunda Rəsulullah ﷺ Arafatda ayaq üstə dayanmışdı; günlərdən də Cümə günü idi." (Buxari, İman, 33; Məğazi, 77; Təfsir, 5/2; Müslim, Təfsir, 3-5)

Müsəlmanlar üçün həm Ərəfə, həm də Cümə günü bayramdır.

Bu ayələrə görə Rəsulullah ﷺ peyğəmbər olaraq göndərildiyi gündən etibarən Allah-Təalanın insanlardan qəbul etdiyi yeganə din islamdır. Ondan başqa bir din və inanc əsla qəbul edilməyəcəkdir. Çünki əvvəlki peyğəmbərlərin dövrü birmiş, Rəsulullahın ﷺ dövrü başlamışdır. Allah Rəsulu ﷺ bu xüsusu belə ifadə etmişdir:

"*Muhəmmədin canını qüdrət əli ilə tutan O Uca Varlığa and içirəm ki, bu ümmətdən hər kim – yəhudi olsun, xristian olsun- məni eşidər, sonra da mənə göndərilənlərə inanmadan ölərsə, mütləq cəhənnəm əhlindən olacaqdır.*" (Müslim, İman, 240)

"*Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və mən Onun Rəsuluyam. Bu iki xüsusda şübhəyə düşmədən Allaha qovuşan kimsə cənnətə girəcəkdir.*" (Müslim, İman, 44)

Qəlblər Allahın Zikri İlə Aram Tapar

İnsanın maddi quruluşu (cəhəti) ilə yanaşı, ruhi cəhəti də vardır. Təəssüf ki, bu gün insanların çoxu yalnız maddi ehtiyaclarını təmin etməyə çalışırlar. Halbuki insanın bədəni (cismi) fani, ruhu isə baqidir. İnsanlar əbədi yaşayacaq olan ruhlarının ehtiyaclarını ehmal

etdikləri zaman psixoloji depressiyaya və böhranlara məruz qalar. İnsan ruhunu bu sıxıntılardan qurtarıb əbədi səadətə qovuşduracaq yeganə bir yol vardır, bu da islami etiqad və ibadətlərə sarılmaqdır. Ayeyi-kərimədə belə buyurulur:

"**Bilin ki, qəlblər** (möminlərin ürəkləri) **yalnız Allahı zikr etməklə aram tapar!**" (ər-Rəd, 28)

Günümüzdəki xəstəliklərin əksəriyyəti ruhi sıxıntılar və stresslərdir. Belə ki, bu narahatlıqlar cismani xəstəlikləri qat-qat keçmiş vəziyyətdədir. Halbuki Həzrət Peyğəmbərimizin dövrünə baxdığımızda, ruhi xəstəliyə tutulan bir müsəlmana rast gəlmək mümkün deyildir. Çünki onlar Qurani-Kərim və Sünnənin ruhaniyət, eşq və vəcdi içində yaşayırdılar. Bu da onların ruhlarını və mənəvi aləmlərini təmin edirdi. Belə ki, Allah-Təala Qurani-Kərimi "**Şəfa və rəhmət**" olaraq nazil etdiyini bəyan edir. (əl-İsra, 82)

Eyni şəkildə Allah-Təala, "**İlahi rəhmətini**" də Qurani-Kərimə və Həzrət Rəsulullaha tabe olanlara lütf edəcəyini bəyan edir:

"**Bizə bu dünyada da yaxşılıq yaz.** (Dünyada yaxşı əməllər, axirətdə Cənnət qismət elə**). Biz** (tövbə edib bağışlanmağımızı diləyərək)**. Sənə tərəf (hüzuruna) döndük!"** (Allah) **buyurdu: "İstədiyimi əzabıma düçar edərəm. Mərhəmətim hər şeyi ehtiva etmişdi. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam! O kəslər ki, əllərindəki Tövratda və İncildə** (adını, vəsfini və əlamətlərini) **yazılmış gördükləri rəsula-ümmi** (heç

kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) **peyğəmbərə tabe olurlar.** (O Peyğəmbər) **onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz** (pak) **nemətləri halal, murdar** (napak) **şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar** (şəriətin çətin hökmlərini götürər). **Ona** (o Peyğəmbərə) **iman gətirən, yardım göstərən və onunla** (Quranın) **ardınca gedənlər məhz onlar nicat tapanlardır!**" (əl-Əraf, 156-157)

Həzrət Peyğəmbərimizin ﷺ bəşəriyyətə gətirdiyi ilahi əxlaq və Onun zahiri tərbiyəsi ilə batini təsiri elə bir iksirdir ki, daha öncə yarı vəhşi, çoxu insanlıqdan xəbərsiz cahiliyyə toplumu, çox qısa bir zamanda bəşər tarixinin hələ də qibtə etdiyi "səhabə" şəxsiyyəti ilə təsəvvür edilməz fəzilətlər mədəniyyəti meydana gətirdi. Cahil və cani insanlar, qabiliyyətli; vəhşi insanlar, mədəni; günahkar insanlar, müttəqi, yəni Allah sevgisi və qorxusu ilə yaşayan xəyaledilməz saleh və incə qəlbli insanlar halına gəldilər.

Bir insan təsəvvür edin ki, qız övladını anasının bağrından min bir iztirabla qopararaq diri-diri torpağa basdıracaq qədər qəlbi qatılaşmış və vəhşi təbiətli... Sahib olduğu köləni, hər hansı bir maddi əşya kimi bəsit bir mal olaraq qəbul edib ona insanlığa yaraşmayacaq davranışları rəva görə biləcək qədər zalım!..

Məhz belə kobud və cahil insanlar, islamı qəbul edib hidayətə çatdıqdan sonra, elmdə, əxlaqda, ədəbdə və vicdanda dərinləşərək bəşəriyyətdə fəzilətlər mədəniyyəti meydana gətirdilər. Cahiliyyə dövründə ikən bəşəriyyət və mədəniyyət səviyyəsi baxımından ən

aşağı səviyyəyə enmiş bu insanlar, islam ehkamı və əxlaqı ilə yaşamağa başlayınca, sanki Everest dağının zirvəsi kimi uca bir səviyyəyə çatdılar.

Bütün bunlardan başa düşüldüyü kimi, Qurani-Kərimin şəfa və rəhmətindən istifadə edən fərd və cəmiyyətlər, bu dünyada səadətə nail olduqları kimi əbədi səadəti də əldə edəcəklər. İman və islam ilə tanış olmayan ruhlar isə, həm bu həyatda bədbəxt olacaq, həm də ölümdən sonranın əzab və iztirabı ilə qarşılaşacaqlar.

II Hissə

İman Əsasları

Allah-Təala insan fitrətini yalnız iman ilə səadətə çatacaq bir tərzdə yaratmışdır. Bu səbəbdən inancsızlıq bataqlığına basdırılaraq və ya batil bir inanca meyl edərək fitrətinə zülm edən heç bir insan, mənən narahat olmaqdan qurtulmaz. Qəlbində daima dərin bir narahatlıq hissi daşıyar. Bu haldan qurtuluşun yeganə çarəsi, Allah-Təalanın ehsan etdiyi ən böyük nemət olan Həzrət Rəsulullahın izi ilə getməkdir. Yəni Muhəmmədi bir baharın səadət iqlimində həyat yaşaya bilməkdir. Ona ümmət olmaq şərəf və heysiyətini qoruya bilmək, insanlığımızın şanındandır.

KƏLİMEYİ-TÖVHİD

Kəlimeyi-Tövhid və ya başqa bir ifadə ilə Kəlimeyi-Şəhadət, bir adamın, Allahdan başqa heç bir ilah olmadığını və Muhəmmədin ﷺ Onun qulu və Rəsulu olduğunu qəbul və elan etdiyi sözə verilən addır. Belə tələffüz edilir:

أَشْهَدُ أَنْ لَآ إِلٰهَ إِلَّا اللّٰهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

"Şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur və yenə şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və Rəsuludur."

Təbiunun böyük alimlərindən Şəbi belə deyir:

Adiy bin Xətim ﷺ Kufəyə gəldiyində Kufənin fəqihlərindən bir dəstə ilə ziyarətinə getdik. Ona:

"-Həzrət Peyğəmbərimizdən eşitdiyin şeylərdən bizə bəhs edə bilərsənmi? -dedik. Adiy ﷺ bunları dedi:

Həzrət Peyğəmbərimizin ﷺ yanına getdim. Mənə:

"-Ey Adiy bin Xətim, müsəlman ol salamata çat!"-buyurdu. Mən:

"-İslam nədir?"-deyə soruşdum. Allah Rəsulu ﷺ belə buyurdu:

"Allahdan başqa ilah olmadığına, mənim də Onun Rəsulu olduğuma şəhadət etməyin və xeyiriylə, şərriylə, şirini ilə, acısı ilə qədərin hamısına iman etməyindir." (İbn Macə, Müqəddimə, 10) "

Rəsulullah ﷺ digər bir hədisi-şərifində iman əsaslarını belə dilə gətirmişdir:

"İman; Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, xeyri və şəri ilə birlikdə qədərə iman etməkdir." (Buxari, İman, 37; Müslim, İman, 1, 5; Tirmizi, İman, 4; Əbu Davud, Sünnət, 16; Əhməd, I, 97)

Kəlimeyi-Tövhid, Allahdan uzaqlaşdıran hər şeydən uzaqlaşmağı və qəlbdə Allah-Təalanın xaricindəki məxluqata qarşı həddindən çox sevginin olmamasını ifadə edir. Kəlimeyi-Tövhid eqoistliyin və ehtirasların qəlbdə büt halına gəlməsinə mane olur. Beləliklə qəlbin zahiri və batini bütün bütlərdən uzaqda qalmasını təmin edər.

Allah-Təala, qəlbini batini bütlərdən təmizləməyən bəndələrini hədələyərək belə buyurur:

"(Ya Rəsulum!) **Nəfsini özünə tanrı edəni gördünmü? Onun vəkili** (zamini) **sənmi olacaqsan?**" (əl-Furqan, 43)

Konkret bir misal vermiş olsaq, lupanı günəş işığının altına tutduğumuzda sıxılan günəş şüaları, altındakı bütün maddələri yandırıb kül halına gətirər. Məhz hər insan Kəlimeyi-Tövhidi qəlbində sıxlaşdıraraq qəlbində belə təmizlik aparmalıdır. Ayeyi-kərimədə ifadə edildiyi kimi qəlblər, Allah-Təala ilə bərabər olmaqla və Onu zikr etməklə aram tapar. Belə ki, hər hərəkətimizin Allah rizası üçün Onunla bərabər və Onun rizasına

uyğun olmasının zəruriliyinə işarə ilə ilk nazil olan ayeyi-kərimədə belə buyurulmuşdur:

"**Yaradan Rəbbinin adı ilə oxu!**" (əl-Ələq, 1)

Belə olarsa qəlb cəmali təcəllilərdən nəsib almağa başlayar. Hər zamanda və məkanda Rəbbini axtarar və Ona qovuşar. Çünki qəlbi mərhələlər qət edən mömin, hər şeydə ilahi gözəllikləri seyr edər və ilahi əzəmətlərlə, ilahi naxışlar qarşısında eşq və vəcd içində yaşayar.

Kamil bir qəlbdə təcəlli edəcək cəmali sifətlərdən bir neçə misal bu şəkildədir:

Rəhman və Rəhim təcəllisi: Bir qəlbdə Allah-Təalanın Rəhman və Rəhim adları təcəlli etdiyində, həmin möminin çata bildiyi hər yerə rəhmət saçar. Məhrumlar üçün müşfiq bir sığınacaq və dayaq yeri olar. Başda insan olmaqla heç bir məxluqun səsli və ya səssiz fəryadına biganə qala bilməz. Çünki mərhəmət, imanın ən gözəl meyvəsi və ilk nübarıdır.

Afuv təcəllisi: Allah-Təala çox bağışlayandır. Kamil möminlər də; "***Əfv etməyi bacarmayan, əfv edilməz.***" Düsturu ilə ilahi əfvə layiq ola bilmək üçün Allahın bəndələrinə qarşı çox bağışlayıcı olurlar. Çünki şəxsinə edilən haqsızlıqları sanki "yox" fərz edərək könlündə ən xırda bir küskünlük hiss etmədən bağışlamağı alışqanlıq halına gətirə bilmək; qəlbi kamilliyin şah əsəridir; ən böyük mənəvi qəhrəmanlıqdır.

Kərim təcəllisi: Kərəm sahibi olan bir bəndə, başda comərdlik olmaqla hər cür gözəl əxlaq ilə zinətlənmiş hala gələr. Kamil bir mömin olar.

Mömin təcəllisi: Allah-Təalanın "əl-Mömin" adının təcəllisinə nail olan bir qəlb, özünü daim ilahi müşahidənin altında hiss edib hər halı ilə dinin gözəl bir təmsilçisi olar. İmanını gücləndirər, əmin və sadiq bir bəndə halına gələr. Ətrafındakı qəlblərə iman aşılamağa səy göstərər. Özünü və ətrafını hər cür pisliklərdən mühafizə edib etimad və əmin-amanlıq təlqin edər.

Sabur təcəllisi: Bu təcəlliyə sahib olan bir qəlb, səbir abidəsi halına gələrək bir çox sıxıntıdan salamata çatar. Dünyada acısına qatlandığı səbirin axirətdəki şirin meyvələri ilə əbədi olaraq sevinər.

a. Kəlimeyi-Tövhidin Əhəmiyyəti

Kəlimeyi-Tövhid, bir fərdin islama daxil olarkən atdığı ilk addım, etdiyi ilk müşahidə və sonrakı həyatında da şəxsiyyətini göstərən vəsiqəsidir. Bu sözü deyən şəxs, Allaha səhih bir şəkildə iman etmiş və son ilahi din olan islamı qəbul etmiş olur. Bu mənada Kəlimeyi-Tövhid, dinin əsası və istinadgahıdır.

Kəlimeyi-Tövhid elə uca bir sözdür ki, bütün bəşəriyyətin qurtuluş və səadəti onun sonsuz məna və sirr iqlimində gizlidir.

Bu söz, özək mahiyətindədir. İslamın digər təməlləri və onların təfsilatı bütünlükdə bu özəyə bağlıdır. Bu mənada kəlimeyi-şəhadət ilə iman, bütün ibadətlərdən əfzəldir. Çünki ibadətlər onunla əbədidir. İbadətlər müəyyən bir zaman içindədir. Yerinə yetirilməsi yalnız həmin vaxtlardadır. Əməllərin ən fəzilətlisi olan namaz belə, gündə beş vaxt fərzdir. İman isə daima fərzdir.

Qəlbi, qafilliyə aparan hər cür əməldən, yəni Allahdan uzaqlaşdıracaq hər şeydən daimi şəkildə qorumaq və imanı bütün hallarda canlı saxlamaq zərurəti vardır. O iman ki, heç bir üzrlə sakitləşməz. Hər an mühafizəsi şərtdir və gecikdirilməsinə rüxsət yoxdur.

Bu sözün ifadə etdiyi mənanı qəlbən təsdiq edən insan iman dairəsinə daxil olar. Dili ilə iqrar etdiyində isə onun müsəlman olduğu, digər müsəlmanlar tərəfindən də bilinir və dünyada müsəlman münasibəti görər. Qəlb tam şəkildə kəlimeyi-şəhadətə inanmazsa, edilən yaxşılıq və gözəl davranışların axirətdə heç bir faydası olmaz. Lakin ədalət və mərhəmətin sahibi olan Uca Rəbbimiz, etdiyi yaxşılıqlar qarşılığında ona dünyada bəzi nemətlər və asanlıqlar lütf edər. (Müslim, Münafiqin, 57, 57)

Allah-Təala belə buyurur:

"**Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz** (lə ilahə illallah, Muhəmmədun rəsulullah) **kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac** (xurma ağacı) **kimidir. O** (ağac) **Rəbbinin izni ilə bəhrəsini hər vaxt** (ilin bütün fəsillərində) **verər. Allah insanlar üçün belə misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar!** (Ağacın kökü yerdə, budaqları göydə olduğu kimi, möminin də imanı qəlbində sabit qalır, əməlləri isə göyə - Allah dərgahına yüksəlib ona daim savab qazandırır). **Pis söz isə yerdən qopardılmış, kökü olmayan pis bir ağaca bənzəyir.**" (İbrahim, 24-26)

İbn Abbas ﷺ bu ayeyi-kərimələrin izahında bunları deyir:

"-Burada kəlimeyi-şəhadətə işarə vardır. Kökü, mömin bəndənin sözündə və qəlbində, budaqları isə göylərdədir. Bu səbəbdən möminlərin əməlləri səmalara ucalır. Kəlimeyi-xəbisə (çirkin söz) isə, şirk, küfr və imansızlıq bildirən sözdür. Onunla hç bir əməl qəbul edilməz."

İnsanın həyata başlayarkən, yaşayarkən və dünyaya vida edərkən həmişə tövhid üzrə olması lazımdır. Belə ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

"İlk söz olaraq övladlarınıza gözəl bir şəkildə لَآ إِلٰهَ إِلَّا اللّٰهُ : Lə iləhə illəllah" deməyi öyrədin! (Beyhəqi, Şuabul-İman, VI, 398)

Özü də, Əbdülmüttəlib oğullarından bir uşaq danışmağa başladığında ona:

"**Özünə heç bir övlad götürməyən, mülkündə** (səltənətində) **heç bir şəriki olmayan, zəif** (aciz) **olmadığı üçün** (Ona kömək edəcək) heç bir dosta (hamiyə də) **ehtiyacı olmayan Allaha həmd olsun!" Və Allahı** (layiqincə) **uca tut!** (Allahı bütün eyib və nöqsanlardan uzaq bilib təqdis et, şəninə tərifl ər de!) "[46] ayeyi-kəriməsini yeddi dəfə oxudaraq öyrədirdi. (Əbdülrəzzaq, IV, 334; İbn Əbi Şeybə, I, 348)

Əsahabi-Kiram da, uşaqları danışmağa başladığı zaman, ilk dedikləri söz tövhid olsun deyə yeddi dəfə لَآ إِلٰهَ إِلَّا اللّٰه : Allahdan başqa ilah yoxdur" kəlimeyi-tayyibəsini təkrarlamağı gözəl görürdülər. (Əbdürrəzzaq, IV, 334)

46. əl-İsra, 111

İnsan həyatda bu prinsipə uyğun yaşamalı, ölərkən də kəlimeyi-şəhadəti təkrar edərək canını təslim etməlidir.

Həzrət Ömər ﷺ bir gün Həzrət Talhanın üzgün olduğunu görür. Səbəbini soruşduğunda, Talha ﷺ

"-Allah Rəsulu ﷺ bir gün belə buyurmuşdu:

"Mən bir söz bilirəm, hər kim ölərkən onu deyərsə, mütləq əməl dəftəri üçün bir nur olar və cəsədi ilə ruhu da həmin kəlməyə görə ölüm anında ilahi rizaya, rəhmətə və hüzura nail olar."

Mən bu sözün nə olduğunu soruşmadan Rəsulullah ﷺ vəfat etdi. Məhz bu səbəbdən üzgünəm."-dedi. Bundan sonra Həzrət Ömər ﷺ:

"-Mən həmin sözü bilirəm. O, Həzrət Peyğəmbərimizin əmisi (Əbu Talibin) deməsini arzu etdiyi "لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah) "cümləsidir." Rəsulullah ﷺ əgər əmisi üçün bundan daha qurtarıcı (təsirli) bir söz bilsəydi, mütləq onu deməsini istəyirdi."-dedi. (İbn Macə, Ədəb, 54; həmçinin bax. Əhməd, I, 6)

Rəsulullah ﷺ belə buyurmuşdur:

"Ölüm ayağında olanlarınıza " لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)" deməyi təlqin edin!" (Müslim, Cənaiz, 1,2)

"Kimin son sözü "لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)" olarsa, həmin şəxs cənnətə girər." (Əbu Davud, Cənaiz 20/3116; Əhməd, V, 247; Hakim, I, 503)

"Necə yaşayarsınızsa, elə ölərsiniz, necə ölərsinizsə, elə dirilərsiniz!.." (Münavi, Feyzu-l-Qadir, V, 663)

Tövhid ilə yaşamaq, tövhid ilə ölə bilmək, tövhidin səadət və səltənətinə vasil ola bilmək nə gözəldir...

b. Kəlimeyi-Tövhidin Fəziləti

Allah-Təala islama giriş cümləsi olan kəlimeyi-tövhidi eyni zamanda ibadət olaraq qəbul etmişdir ki, bəndələri daim onunla məşğul olsunlar və bol mükafat qazansınlar. Belə ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

"Zikrin ən fəzilətlisi "لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)"dır" (Tirmizi, Dəavat 9/3383; İbn Macə, Ədəb, 55)

"Duanın xeyirlisi tövbə, ibadətin xeyirlisi də Kəlimeyi-Tövhiddir."(Ali əl-Müttəqi, I, 483/2112)

Bir gün Allah Rəsulu ﷺ:

"-İmanınızı təzələyin!"-buyurmuşdu.

Əshabi-kiram həzrətləri:

"-Ey Allahın Rəsulu, imanımızı necə təzələyək?"-deyə soruşdular. Rəsulullah ﷺ:

"لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)" sözünü çox təkrar edin!-cavabını verdi. (Əhməd, II, 359; Hakim, IV, 285/7657)

Əbu Talibin qızı Ümmü Hani ؓ Allah Rəsuluna ﷺ müraciət edərək:

"-Ya Rəsulallah! Mən yaşlaşmışam və zəifləmişəm. Mənə oturduğum yerdə edə biləcəyim bir ibadət tövsiyə edə bilərsənmi?"-deyə soruşdu. Rəsulullah ﷺ də:

"-Yüz dəfə سُبْحَانَ اللّٰهِ Sübhanallah[47]", yüz dəfə "اَلْحَمْدُ لله (Əlhəmdulilləh)"[48], yüz dəfə "لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)" de! -buyurdu. (İbn Macə, Ədəb, 56; Əhməd, VI, 344)

Zikrlər içində xüsusilə Kəlimeyi-Tövhidin toplu olaraq deyilməsinin xüsusi bir yeri vardır. Belə ki, səhabədən "Şəddad bin Evsin ﷺ rəvayət etdiyi bu rəvayətdə belə bir xüsusa işarə edilmişdir:

Allah Rəsulu ﷺ yanında olduğumuz bir məqamda bizə:

"Aranızda yad birisi varmı?"-deyə soruşdu. Burada "yad" sözü ilə Əhli-Kitabı nəzərdə tutmuşdu. Biz də:

"-Xeyr, yoxdur ya Rəsulallah!"-dedik.

Bu sözdən sonra Allah Rəsulu ﷺ qapıların bağlanmasını əmr edərək belə buyurdu:

"-Əllərinizi qaldırın və "لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)" deyin!"

Əllərimizi bir müddət qaldırıb "لَآ إِلٰهَ إِلَّا اللّٰهُ (lə iləhə illəllah)" deyərək zikr etdik. Sonra Allah Rəsulu ﷺ əllərini qaldırıb belə dua etdi:

"-Allahım sənə həmd olsun! Rəbbim, məni "bu cümlə" ilə göndərdin. Onu (deməyi və gərəyini yerinə yetirməyi) mənə əmr etdin. Bunun qarşılığında mənə cənnəti vəd etdin. Sən vədindən əsla dönməzsən!"

47. Sübhanallah: Allah-Təalanı bütün nöqsan sifətlərdən uzaq tuturam.
48. əl-Həmdulilləh: Bütün həmdlər, mədhlər və öygülər Allah-Təalaya məxsusdur.

Daha sonra Allah Rəsulu ﷺ əshabına belə buyurdu:

"Müjdələr olsun sizə! Şübhəsiz ki, Allah-Təala sizi bağışladı." (Əhməd, IV, 124)

Digər bir hədisi-şərifində belə buyurmuşdur:

"لَآ إِلٰهَ إِلَّا اللّٰهُ *lə iləhə illəllah", Allah nəzdindəki yeri və dəyəri çox böyük olan bir kəlmədir. Kim tam bir ixlas və sədaqətlə onu deyərsə, Allah onu cənnətə qoyar. Kim də onu inanmadığı halda yalnız dili ilə deyərsə, canı və malı qorunar; lakin sabah Allaha qovuşunca, Allah onun hesabını soruşar.*" (Heysəmi, I, 26)

İman, dil ilə iqrar, qəlb ilə təsdiqdir. Dil ilə iqrar olduğu halda qəlb ilə təsdiq olmazsa, yalnız zehinlə təsdiq səviyyəsində qalıb davranışlara əks etməzsə heç bir qiyməti qalmaz. Allah-Təala, mənəvi məlumatları yalnız zehnində daşıyan insanları, kitab yüklü uzunqulaqlara bənzədir.[49]

Allah-Təala dil ilə iqrar, qəlb ilə təsdiq edənlərin qəlbi həyatlarının təqva ilə bəzəndiyini göstərir. Fatir surəsində belə buyurulur:

"Allahdan bəndələri arasında yalnız elm sahibi olanlar (layiqincə) **qorxarlar."** (Fatir, 28)

Bir sözlə Kəlimeyi-Tövhid, qəlbə əks etdiyi nisbətdə fayda verir. Belə ki, axirətdə Həzrət Peyğəmbərimizin şəfaəti sayəsində ən çox məsud olacaq insanlar böyük bir ixlasla qəlblərindən "lə iləhə illəllah" deyənlərdir. (Buxari, Elm, 33; Riqaq, 51)

49. əl-Cümə,5.

Lakin yalnız Kəlimeyi-Tövhid ilə kifayətlənmək, tam bir qurtuluş üçün kifayət deyildir. İslamı qəbul etdikdən sonra yerinə yetirilməsi zəruri olan bəzi mükəlləfiyyətlər də vardır. Bunlar da yalnız Allahın əmrlərinə tabe olmaq və qadağalarından uzaq durmaqdır. Rəsulullah ﷺ bunların bir qisminə belə işarə etmişdir:

"İman yetmiş və ya altmış hissədən ibarətdir. Bunların ən üstünü "lə iləhə illəllah" demək, ən aşağısı isə insana zərər verən şeyləri yoldan götürməkdir. Həya, yəni utanma hissinə sahib olmaq da imandan bir hissədir." (Müslim, İman 58; həmçinin bax. Buxari, İman, 3; Əbu Davud, Sünnə, 14)

Belə ki, əshabi-kiram sözlə kifayətlənməyib, məhəbbətlə tövhid istiqamətində saleh əməllərini ortaya qoymuşdurlar.

Təbiundan Vəhb bin Münəbbih həzrətlərinə:

"لَآ اِلٰهَ اِلَّا اللّٰهُ (lə iləhə illəllah)", cənnətin açarı deyildirmi?-deyə soruşulduqda:

"-Bəli, elədir, lakin hər açarın mütləq dişləri vardır. Dişləri olan açarı gətirərsənsə, qapı sənin üzünə açılar, dişləri yoxsa açılmaz."-cavabını vermişdir. (Buxari, Cənaiz, 1, müq.et. Tirmizi, İman, 17/2638)

Bəyazid Bistami həzrətlərinə:

"لَآ اِلٰهَ اِلَّا اللّٰهُ (lə iləhə illəllah)" sözü cənnətin açarıdır."-deyilmişdir. Həzrət belə buyurdu:

"-Doğrudur. Lakin bu bir həqiqətdir ki, dişləri olmayan açar qapını açа bilməz. Kəlimeyi-Tövhid açarının dişləri isə bunlardır:

Yalan, qeybət kimi pis sözlərdən arınmış bir dil.

Hiylə və xəyanətdən arınmış bir qəlb.

Haram və şübhəli şeylərdən təmizlənmiş bir mədə.

(Təkəbbür, lovğalıq kimi) nəfsani arzulardan və bidətlərdən arındırılmış saleh əməllər."[50]

2. Allaha İman

İnsan ağlı; göyləri, yeri və ikisinin arasındakıları yoxdan var edən Allah-Təalanı kamil mənada idrak edə bilməz. Çünki bəşəri elmin yolu, beş duyğu orqanı, ağıl və qəlbdir. Bütün bu idrak qabiliyyətlərinin qüdrəti isə məhduddur. Qüdrət və səlahiyyəti məhdud olan vasitələrlə Baqi, Mütləq, Əzəli və Əbədi olan bir varlıq dərk edilə bilməz. Məhdud vasitələrlə edilən idrak, yalnız məhdud şəkildə həyata keçə bilər. Çünki məhdud olanın, məhdud olmayanı idrak etməsi qeyri-mümkündür. Okeandan yalnız qabımız tutduğu qədər su götürə bilirik.

Xızır عليه السلام Musa عليه السلام ilə görüşdüklərində ona əcaib və qeyri-adi hadisələr göstərdi. Musa عليه السلام heyrətlər içində qaldı. Həmin anda göyərtəyə bir quş qondu. Dimdiyi ilə bir damcı su götürdü. Xızır عليه السلام:

"Bax Musa! Quşun dimdiyindəki su sənin elmin, mənim elmim və bütün məxluqatın elmi, bu sonsuz dərya isə Allah-Təalanın elmidir."-buyurdu.[51]

50. Əbdülməcid əl-Hani, *əl-Hadaiqu-l-verdiyyə*, Dəməşq 1996, səh. 320.

51. Bax. Buxari, Təfsir, 18/4.

Bu mənada Allah-Təalanı zati etibarilə düşünüb təfəkkür etməyə çalışmaq, bir sıra xəyallar və eyhamlardan o yana bir şey qazandırmaz və səlim inancı zədələyər. Çünki gözün müəyyən görmə məsafəsi vardır. Bədəndəki hər əzanın məhdud bir gücü və taqəti vardır. Eyni şəkildə ağlın da bir sərhəddi vardır və ondan o yana başqa aləmlər mövcuddur. Ağlın məsafəsi keçilərsə, beyin çatlayar və dəlilik halı meydana gələr. Bu səbəbdən Allah Rəsulu ﷺ belə buyurmuşdur:

"Allah-Təalanın yaratdıqları və nemətləri üzərində təfəkkür edin, lakin Zatı üzərində düşünməyin! Çünki siz, Onun qədrini (layiq olduğu şəkildə) əsla təqdir edə bilməzsiniz." (Bax. Deyləmi, II, 56; Heysəmi, I, 81; Beyhəqi, Şuab, I, 136)

İbn Ərəbi həzrətləri (vəfatı 638/1240) də belə buyurmuşdur:

كُلُّ مَا خَطَرَ بِبَالِكَ وَاللّٰهُ وَرَاءَ ذٰلِكَ

"Allah-Təala ilə əlaqədar olaraq ağlına hansı düşüncə gəlirsə gəlsin, bilməlisən ki, Allah-Təala ondan çox uzaqdadır."

Çünki Allah-Təalanın bir sifəti də "Muxləfətun lil-həvadis: Sonradan yaradılan varlıqlara bənzəməmək"dir.

Lakin sifətdən vəsf edilənə, əsərdən müəssirə, sənətdən sənətkara və səbəbdən müsəbbibə keçərək Allah-Təalanın əzəmət, qüdrət və rəhmətini idrak etməyə çalışmaq hər zaman təşviq edilmişdir. Mikrodan makroya

kainatdakı hər şey, ilahi əzəmətin aynası və ya sərgisi mahiyətindədir. Əgər idrak, səlim bir iradə və təmiz bir təfəkkürlə Allah-Təalanın sifətləri və əsərlərinə nəzər edəcək olsa, onun münkir olması əsla düşünülməz. Çünki inkar, əqli və fikri fəaliyyətlə qəlbi nizamın pozulduğu yerdə başlayar. Əqli-səlim sahibi bir insan, küfr aləmində gözünü açmış olsa belə, küfrdən qurtulma ehtimalı çox böyükdür. Qurani-Kərim, buna misal olaraq Həzrət İbrahimi göstərir. O, müşrik bir mühitdə doğulub böyüməsinə baxmayaraq sırf əqli saflıqla və qəlbi istedadları ilə Allah-Təalanın varlıq və birliyini idrak etmişdir.

Bu mənda əqli-səlimin müləq münkir (inkar edici) olması mümkün deyildir. Çünki bir şeyə yox deməklə işin içindən çıxılmaz. Qaneedici, doğru dəlil və isbatlar lazımdır. Həyat, kainat və ölümdən sonrası müəmmasını həll edə bilməyincə, sadəcə "yox" deməklə qurtulmağa çalışanlar, cismani sağlamlığı pozulduğu halda fərqində olmayan insanlara bənzəyərlər. Onların ac olduqları halda ac deyiləm demələri, yalnız xəstəliklərinin bir isbatıdır. Narkoz verilən xəstə, orqanlarını parça kimi kəsib biçən bıçağı hiss etməz. Eynilə bunun kimi ruhunu uca həqiqətlərə qarşı xəstə edib fərqində olmayan çox insanlar vardır. Allah-Təala onlar haqqında:

"Korlar, karlar..." ifadəsini istifadə edir

Çünki Allah-Təala, hər insanın fitrətinə, inanma ehtiyacı və həqiqəti tanıma qabiliyyəti lütf etmişdir. Buna baxmayaraq iman və həqiqətdən uzaqlıq, yalnız ruhi bir korluq və karlığa görədir. Əks halda inanma-

yan insanın ruhu da Allahı idrak etməyə hazırdır, lakin bu xüsusiyyətini mənəvi korluğu və karlığına görə şüur üstünə çıxara bilmir. Eynilə görülüb sonra xatırlanmayan yuxular kimi... Və ya qəfəsdə doğulub böyüyən və qanadları kirəc bağlayaraq uçmaq qabiliyyətini itirən bir quş kimi...

Diqqət edilərsə bəşəri və səmavi dinlərin hamısında "Allah inancı" vardır. Lakin bu inanc, zaman içində tövhid əqidəsinin kənarına çıxaraq müxtəlif yanlışlara meyl etmişdir. Bu səbəbdən islam əqidəsinə görə məqbul sayılmaz. Çünki onların inancı, kainatın yeganə yaradıcısının nöqsan sifətlərdən uzaq, kamal sifətlərə malik, yəni idrak edilməz mükəmməlliyi ilə uyğun gələ bilməz.

Allah Rəsulunun ﷺ Rəbbindən nəql etdiyi bu qüdsi hədisdə, həmin yanlışlıqların bir qismi belə zikr edilir:

"*Allah-Təala belə buyurdu: Adəmoğlu məni yalanladı. Halbuki məni yalanlamağa haqqı yox idi. Adəmoğlu mənə həqarət etdi, halbuki buna haqqı yox idi. Məni yalanlamasına gəlincə; öldükdən sonra onu təkrar dirildə bilməyəcəyimi iddia etməsidir. Həqarət etməsinə gəlincə, bu da mənə uşağı olduğunu istinad etməsidir. Halbuki mən qadın və uşaq sahibi olmaqdan münəzzəhəm.*" (Buxari, Təfsir, 2/8)

Axır zamanda Allah-Təala haqqındakı yeganə səhih etiqad, yalnız islamdan öyrənilə biləndir. İslam, Allahın və Peyğəmbərlərinin bəyanına bağlı olaraq bir sıra sifətlər ortaya qoyar və bu sifətlərdən hər hansı birinin nöqsanlığını və ya bunlara uyğun olmayan baş-

qa bir əlavəni qəbul etməz. Bu sifətlər ümumi və məşhur təsnifə görə iki qismə ayrılır:

a. Zati sifətlər
b. Sübuti sifətlər

Zati Sifətlər / Sifəti Səlbiyyə

Vücud: Allah vardır və varlığı heç bir şeyə möhtac deyildir. Bu mənada Ona vacibu-l-vücud deyilir. Yəni Onun var olmamaq ehtimalı yoxdur. Allah-Təalanın xaricində bütün varlıqlar isə, Onun yaratdığı məxluqatdır və mumkinu-l-vücuddur. Yəni olsalar da olar, olmasalar da.

Qidəm: Varlıqların səbəb-nəticə münasibətlərinə bağlı olaraq bir ilk səbəbdən başlaması məntiqi bir zərurətdir. Elə bir səbəb ki, var edilməyə möhtac olmaqdan münəzzəh və birbaşa var etməyə gücü çatmalıdır. Məhz bu səbəb Allah-Təaladır. Bu mənada Onun uca varlığının başlanğıcı yoxdur. Hər şeyin başlanğıcı Odur. O, qədim və əzəlidir.

Bəqa: Varlığının sonu yoxdur, əbədidir.

Vəhdaniyət: Allah-Təala təkdir. Onun; zatında, sifətlərində və etdiklərində şəriki (ortağı) naziri (bənzəri) yoxdur.

Kainatın yaradıldığı andan etibarən axıb gedən ahəngli seyri, heç büdrəməyən nizamı və iç-içə sonsuz hikmət və əsrarı, hər şeyin yalnız bir tək qüdrətin əsəri olduğunu göstərir. Əgər bu qüdrət, tək deyil birdən çox olsaydı, iradələr arasındakı müxtəlifliyə görə kainatdakı sonsuz ahəng, misilsiz nizam və hikmətlər bir-birinə

qarışar və həyat imkansız hala gələrdi. Ayeyi-kərimədə belə buyurulur:

"**Allah** (Özünə) **heç bir övlad götürməmişdir.** (Nə İsa Onun oğlu, nə də mələklər Onun qızlarıdır. Əksinə, onların hamısı Allahın qüdrətindən yaranmış məxluqatlardır)**. Onunla yanaşı (ibadət ediləcək) heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda heç bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər,** (öz məxluqatını ayırıb aparar) **və onların bir qismi** (dünyadakı padşahlar kimi) **digərinə üstün olmağa çalışardı. Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə kənardır!** " (əl-Muminun, 91)

"**Əgər** (yerdə və göydə) **Allahdan başqa tanrılar olsa idi, onların ikisi də** (müvazinətdən çıxıb) **fəsada uğrayardı. Ərşin sahibi olan Allah** (müşriklərin Ona) **aid etdikləri sifətlərdən tamamilə uzaqdır!**" (əl-Ənbiya, 22)

Qurani-Kərimə başdan sona diqqətlə nəzər yetirildiyində görmək olar ki, Allahın bəndələrini mükəlləf etdiyi xüsusiyyətlərin ən mühümü, zatı haqqındakı inancdır. Bu inancın ən həssas nöqtəsi də vəhdaniyyətdir. Çünki tövhid əqidəsinin nəyəsə ortaq olması qeyri-mümkündür. Bu səbəbdən Allaha şirk qoşmaq, ilahi qəzəbi dəvət etmək baxımından islama görə birinci sırada gəlir. Qurani-Kərim, bu düşüncəni səfalətə sürüklənməkdən qorunmağı təmin edəcək hədə, xəbərdarlıq və irşadları xüsusilə vurğulamışdır:

"**Allaha şərik qoşana Allah, şübhəsiz ki, Cənnəti haram edər. Onun düşəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!**" (əl-Maidə, 72)

"(Ya Rəsulum!) **Sənə və səndən əvvəlkilərə** (keçmiş peyğəmbərlərə) **belə vəhy olunmuşdur: "Əgər** (Allaha) **şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan!**" (əz-Zümər, 65)

"**Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur.**" (ən-Nisa, 48)

Vəhdaniyyət xüsusundakı ən xırda bir nöqsan, fəzilət ifadə edən saysız-hesabsız əməl ilə yeri doldurula bilməz. Belə ki, bir adama çoxlu maddi yaxşılıqlar edilsə, bununla yanaşı şərəf və heysiyətini zədələyəcək bir qəbahət etsə, edilən yaxşılıqların heç bir əhəmiyyəti qalmaz. Bu prizmadan yanaşıldıqda Allahı inkar etmək, Onun ilahi izzətinə qarşı bağışlanılmaz bir qəbahət işləməkdir. Bağışlanılmamasının səbəbi də daşıdığı bu mənəvi ağırlıqdır. Yəni bir adam küfr və şirk üzrə ölərsə bağışlanması qeyri-mümkündür. Ölmədən öncə şirk və küfrdən uzaqlaşıb tövbə edərsə, bu təbii ki, Allah-Təalanın lütfü ilə əfv edilər. Bu mənada bəndələrdən Allah-Təalanın istədiyi ilk xüsus iman, sonra saleh əməllərdir.

Müxaləfətun lil-həvadis: Allah-Təalanın tayı və bənzəri yoxdur. O, yaradılmış olan, sonradan meydana gələn heç bir şeyə bənzəməz. Bu mənada O, hər cür bəşəri sifətlərlə vəsf edilməkdən münəzzəhdir (uzaqdır).

Qiyam bi-Nəfsihi: Allah-Təala, öz zatı ilə mövcuddur. Əzəldən əbədiyyətə öz zatı ilə qalıcı və daimidir.

Varlığında heç kimsəyə və heç bir şeyə möhtac deyildir. Əksinə var olmaq xüsusunda hər şey Ona möhtacdır.

Sübuti Sifətlər

Həyat: Allah-Təala diridir, davamlı və mütləq bir həyat sahibidir. Bu xüsusiyyəti öz zatı ilə qaimdir (qalıcıdır). Digər bütün varlıqlar isə, Onun bu uca sifətinin təcəllisi olaraq vardır və izafidir.

Həyat, Allah-Təalanın elm və qüdrət kimi kamal sifətləri ilə vəsflənmiş olmasının səhihliyini zəruri edən bir əzəli sifətdir. Çünki elm, yalnız həyat sahibi (yaşayan) şəxsdə ola bilər. Həyat sifəti ilə vəsf edilməyən bir varlıq, elm və bənzəri kamil sifətlərin heç birisi ilə vəsf edilə bilməz.

Allah-Təalanın heç bir sifəti bəndələrin heç bir sifətinə bənzəmədiyinə görə, Onun həyat sifəti də məxluqatın həyatı kimi deyildir. Allah-Təalanın Hayy sifəti, zat-ı barisindən (hər şeyi nizam içində yaratmaq) əsla ayrılmayan bir kamal sifətidir. Çünki Allaha aid olan həyat, ziddi olan bir həyat deyil, əksinə yalnız ona məxsus əzəli və əbədi bir həyatdır. Məxluqatın həyatı isə, bir bədən ilə ruhun bərabərliyindən doğan müvəqqəti bir həyatdır, həqiqi həyat deyildir. Ona görə günü gəldiyində hər fanidən geri alınar.

Elm: Allah-Təala əzəli elm sahibidir və Onun elmi hər şeyi əhatə etmişdir. Onun elminin xaricində qalan heç bir şey yoxdur. O, olmuş və olacaq hər şeyi haqqı ilə bilir. Onun elmi üçün gizli və ya sirr də yoxdur. Hər

şey Ona agah və aşkardır. İnsana verilən bütün elmlər isə bu sifətdən bir zərrədir.

İlahi elm, düşüncə və fikir məhsulu olmaqdan münəzzəhdir. Bu kainatda görülən, heç bir ağıl və iradənin çata bilməyəcəyi dərəcədə incə və həssas olan bu nizam, ahəng və əlaqə, Allah-Təalanın nə qədər sonsuz bir elm sahibi olduğunun ən sadiq dəlilidir. Zərrələrdən kürələrə qədər hər şey, tamamilə və kamil halda Allah-Təalanın elmi daxilində olmasaydı, aləmdə davamlı tamaşa edib durduğumuz bu ümumi əlaqə və ahəng yaşaya bilməzdi. Çünki kiçik bir şeyi belə nizamlı bir surətdə yaratmaq, əlbəttə onu nə surətdə, nə kimi səbəb və şərtlərlə meydana gətirəcəyini bilməyə bağlıdır.

İnsan kiçik bir icada belə əsrlər boyunca apardığı bir çox təcrübə nəticəsində çata bilir. Halbuki bu kəşf, icad və hələ çözülməyən sonsuz sirlər; Allah-Təalanın kainatın nizamına bir anda ilahi elmi ilə yerləşdirdiyi xüsusiyyətlərdir. Bu həqiqəti xatırlatmaqla Allah-Təala belə buyurur:

"**Məgər yaradan** (sizin gizli saxladığınız hər şeyi) **bilməzmi?! O,** (hər şeyi) **incəliyinə qədər biləndir,** (hər şeydən) **xəbərdardır!**" (əl-Mülk, 14)

Digər bir ayeyi-kərimədə belə buyurulur:

"**Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq** (mürəkkəb) **olsaydı, yenə də Allahın sözləri** (yazmaqla) **tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət, hikmət sahibidir**" (Loğman, 27)

Səmi: Allah hər şeyi eşidəndir. Onun eşitməsi, bizim eşitməyimizə bənzəməz. Ona gizli qalan heç bir səs yoxdur. Hətta məşhur tərifi ilə bir qaya üzərində səssizcə gəzən bir qarışqanın ayaq səslərini belə eşidir. Eşitmə duyğusu olan bütün varlıqlar Allah-Təalanın bu sifətinin təcəllisi ilə eşidirlər. Bunlar, bu təcəlli onlardan alındığı zaman heç bir şey eşidə bilməzlər.

Bəsər: Allah-Təalanın görməsi də digər sifətləri kimi ilahi zatının tələbi ilədir. O hər şeyi haqqı ilə görür. Onun nəzərinə gizli qalan heç bir şey yoxdur. Yenə məşhur bir ifadə ilə O, qaranlıq bir gecədə qara bir daşın üzərində dayanan qapqara qarışqanın ayaq izlərini belə görür.

Allah-Təala, məxluqatının ən gizli düşüncələrini belə bilir, bütün sözlərini eşidir və etdikləri hər şeyi nöqsansız olaraq görür. Allah-Təala bu sifətlərini Qurani-Kərimdə sıx-sıx xatırladır ki, bəndələri əmr və qadağalarına diqqət edərək dürüst insanlar, sadiq möminlər olsunlar.

İradə: Allah-Təala əmrlərində, hökmlərində və etdiklərində sərbəstdir. İstədiyini tələb edər və istədiyi qədər edər. Bir şeyin olmasını istədiyində Onun əmri yalnız "كُنْ Ol!" deməkdən ibarətdir; həmin şey dərhal olar. (əl-Bəqərə, 117)

Allah-Təala yeganə faili-muxtardır. Hər olan iş onun iradəsinə bağlıdır. Konkret olaraq:

"Allahın istədiyi olur, istəmədiyi olmaz!"

Bu mənada Allah-Təalanın razı olduğu işlər Onun muradı ilə baş verdiyi kimi, razı olmadığı işlər də imtahanın tələbi olaraq yenə Onun ilahi-izni ilə reallaşar.

Qurani-Kərimə diqqət yetirildiyində Allah-Təalanın mütləq iradəsinin məhdudlaşdırılmasına heç vaxt icazə vermədiyini görmək olar. Allah-Təala sıx-sıx iradəsinin mütləq hür olduğunu, hər istədiyini edə biləcəyini bildirir. Hətta "Quranın başdan sona bütün ifadələri, bu əsas üzərində bina edilmişdir."-deyə bilərik. Belə ki, Allah-Təala; inkar, şirk və qul haqqı xaric bəndələrinin günah və xətaları xüsusunda əzab təqdirini belə məchul buraxmış və istədiyi şəkildə davranacağını bildirmişdir. Yəni istədiyi bəndəsini bağışlayacaq, istədiyini əfv etməyəcəkdir. Bu halın gizli tərəfi bəşər idrakının üstündədir. Bu həqiqət ayeyi-kərimədə belə bəyan edilir:

"**Göylərdə və yerdə olanlar Allaha məxsusdur. O, istədiyini bağışlar, istədiyinə isə əzab verər. Əlbəttə, Allah bağışlayandır, rəhm edəndir!** " (Ali-İmran, 129)

Qüdrət: O, sonsuz qüdrət sahibidir, hər şeyə qadirdir. Onun üçün heç bir çətinlik yoxdur. İstədiyini əskiyi və artığı olmadan hikmət çərçivəsində edər.

Bu müşahidə etdiyimiz aləmin dəhşət verici bir intizamla yaradılmış olması, Allah-Təalanın qüdrətinə aşkar bir dəlildir.

İlahi-qüdrəti öz acizliyimizlə dərk edərək bu xüsusda xətaya düşməməliyik. Çünki bizdəki güc və qüdrət həm məhduddur, həm də onların ziddi olan acizliyə məhkumdur. Lakin Allah-Təalanın sonsuz qüdrəti həm

məhdud deyil, həm də acizlik kimi hər cür mənfi vəsfdən münəzzəhdir. Bu mənada Onun sonsuz qüdrəti qarşısında aciz qalmayan heç bir varlıq yoxdur. Bizim qüdrətimiz də yalnız Onun verdiyi qədərdir.

Həmin qüdrətə qarşı çıxan neçə-neçə qafillərin kədərli aqibətləri bəşər tarixinin fəlakət dolu pərişanlıq səhifələrini təşkil edir. Nəmrud, Firon, Qarun, Əbu Cəhl və daha neçə-neçələri bir heç olaraq bu dünyadan köçüb getmişdir. Allah-Təalanın əzab üçün əbədi aləmə apararkən təqdir etdiyi ölüm də, sanki bir istehza mahiyyəti daşıyır. Xüsusilə tanrılıq iddiası güdən nəhəng Nəmrudun cılız bir milçəyə məğlub olması, ilahi-qüdrət xüsusunda diqqət çəkən bir ismarıcdır. Yenə ordusundakı fil sürülərinə arxalanaraq Kəbəyə hücum etməyə cürət edən Əbrəhə və əsgərlərinin, balaca əbabil quşları tərəfindən həlak edilməsi də başqa bir ibrətdir.

Kəlam: O, kəlam sahibidir. Bunun üçün səsə, hərflərə, kəlmə və cümlələri tərtib etməyə möhtac deyildir. Yəni Onun danışması, hərfdən də, səsdən də münəzzəhdir; insanların söz və danışığına əsla bənzəməz. Çünki insanların danşığı, Onun kəlamından nəsib alaraq reallaşır.

"Kəlam" sifətinin tələbi ilə Qurani-Kərim və digər müqəddəs kitablar meydana gəlmişdir.

Alla-Təalanın kəlamı olduğuna görə hər kəsin Qurani-Kərimin mübarək sözlərinə ehtiram göstərilməsi lazımdır. Ona dəstəmazsız toxunmaq haramdır, böyük günahdır. Çünki Allah-Təala belə buyurur:

"(Sizə oxunan) **bu** (kəlam) **çox qiymətli Qurandır. (O, Allah dərgahında) qorunub saxlanılan bir Kitabdadır** (lövhi-məhfuzdadır, yaxud lülələnib bükülmüş kağızlardadır)**. Ona yalnız pak olanlar toxuna bilər! (O) Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.**" (əl-Vaqiə, 77-80)

Hədisi-şərifdə isə belə buyurulur:

"Qurana yalnız təmiz olan toxunsun!" (Muvatta, Quran, 1)

"Qurana təmiz olanın xaricində heç kim toxunmasın!" (Hakim, Müstədrək, I, 553/1447)

Təkvin: Allah-Təalanın yaratma sifətidir. Bu yoxdan var etmək deməkdir; yalnız Ona məxsusdur. Saysız-hesabsız aləmlər onun əsəridir.

Təkvin, əl və ya alətlə bir şey düzəltməyi ifadə etmir. Təkvin, iradə ilə, qüdrətin gücü və kainatın əmrə baş əyməsi ilə həyata keçən bir yaratmadır.

Allah-Təalanın bütün ülvi sifətləri kimi təkvin sifəti də qədim və əzəli olmaqla yanaşı onun təsir və gücü ilə meydana gələn kainatın hər hissəsi sonradan yaradılmışdır.

Allah-Təalanın bəndələri tərəfindən bilinməsi, başlıca bu sifətlərlə mümkündür. Bəhs etdiyimiz bu sifətlər və digər sonsuz ilahi-sifət, ayrı-ayrı zaman şərtlərinə görə deyil, hər an Allah-Təalanın varlığında mövcuddur.

Onun uca zatına aid bütün sifətlərin ehtivaları tərifə sığmayacaq qədər genişlik və sonsuzluq ərz edir. Onların hamısı əzəli və əbədidir. Hamısı Onda müt-

ləqdir və sonsuz xüsusiyyətlərə sahibdir. Yəni heç bir sifətinin sərhəddi və hüdudu yoxdur. Bu baxımdan Onun elmi, kəlamı, qüdrəti, təkvini və digər bütün vəsfləri bu mahiyətləri ilə hər cür təşbih və izahdan da münəzzəhdir. Bizim və dünyamızın xüsusiyyətləri isə həm məhdud, həm də fanidir. Bu halı ilə hələ özünü kamil mənada tanıya bilməyən insanın, əlbəttə ki, Allah-Təalaya aid xüsusi mahiyətdəki sifətləri layiqincə idrakı qeyri-mümkündür. Yəni necə ki, Allah-Təalanın zatının həqiqət və mahiyətini idrak edə bilmiriksə, sifətlərinin də həqiqət və mahiyətini kamil mənada idrak edə bilmərik. Lakin dünyamızda təcəlli edənlər yalnız bir qırıntı mahiyətindədir.

a. Allahın Varlıq və Birliyinin Dəlilləri

Bu ucsuz-bucaqsız kainatda ağılları heyrətə salan və aciz buraxan bir nizam və ahəng olduğu aşkardır. Bu nizam və ahəng, son dərəcə mükəmməl, incə və həssas hesabların əbədi nizamı içərisində heç çaşmadan kainat yaradıldığından bəri davam edib ekoloji bir nizam içində seyr edir.

Meyvə bağının sahibi, bir səhər qalxdığında fidanların bəzilərinin yerə yıxıldığını görsə, bunu bir fırtınanın və ya təbii bir fəlakətin nəticəsi olaraq qəbul edə bilər. Lakin ağacların yıxılmasında bir hesab və nizam olsa, məsələn, hər üç və ya beş ağacdan biri sıra ilə yıxılmış olsa, bunun təbii bir fəlakətlə meydana gəldiyini qəbul edə bilməz. Başa düşər ki, bu ziyanlığa, hesablama iqtidarında olan bir varlıq səbəb olmuşdur. O halda düşünməlidir ki, beş-on ağacın yıxılmasından

ibarət bir hadisənin, şüuru olmayan səbəblərə əsaslanmasını qəbul edə bilməyən idraklar, kainatdakı bu qədər incə hesablara baxmayaraq onun təsadüfən və ya öz-özünə var olduğunu iddia etməsi nə qədər əbəs bir qafillikdir![52]

Fitrəti pozulmayan hər səlim ağıl, kainatdakı səbəblər zəncirini şüurlu bir şəkildə hiss edər və hamısının da bir müsəbbibul-əsbaba, yəni Allah-Təalaya getdiyini idrakla iman edər. Lakin bu xüsusda şeytan, bəşər təfəkküründü yanıltmaq üçün hər yerdə insana min bir hiylə və tələ qurmuşdur. Belə ki, sağlam bir beyinlə düşünüb insafla hərəkət edərək şeytanın hiylələrindən qurtulmaq lazımdır.

Qurani-Kərimdə:

"**Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar.** (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar)." (Fatir, 28)

Bu səbəbdən Allahın əzəmət və qüdrətini layiqincə qavramaq, hər şeydən öncə elmi bir məsələdir. Bu səbəbdəndir ki, makro və mikro aləmlərin incəlikləri üzərində çalışan alimlər, müşahidə etdikləri dəhşət verici nizam və qanunlara görə Yaradanın varlığını və qüdrətini hər kəsdən daha mükəmməl bir şəkildə idrak edərlər.

Bunun bir misalını hind alimlərindən doktor İnayətullah əl-Məşriqi belə ifadə edir:

52. Bax. İsmail Fənni Ərtoğrul, İman Həqiqətləri Ətrafında Suallara Cavablar, İstanbul, 1978, səh. 21-22.

1909-cu ildə yağmurlu bir bazar günü Kembric Universiteti professorlarından məşhur astronomiya alimi Sir Ceyms Conu gördüm. İncil kitabı və çətiri qoltuğunda kilsəyə gedirdi. Ona yaxınlaşaraq salam verdim, cavab vermədi. Təkrar salam verincə:

"-Məndən nə istəyirsən?"-dedi.

"-İki şey istəyirəm cənab! Birincisi, yağmurun belə şiddətlə yağmasına baxmayaraq çətirinizi nəyə görə qoltuğunuzun altında saxlayırsınız?"-dedim.

Gülümsəyərək dərhal çətirini açdı. Davam edərək dedim ki:

"-İkincisi də, sizin kimi dünyada söz sahibi olan bir alimi kilsəyə getməyə sövq edən şey nə ola bilər?"

Sir Ceyms bu sualım qarşısında bir müddət durduqdan sonra:

"-Bu gün bizə gəl axşam çayını birlikdə içək!"-dedi.

Axşam evinə getdiyimdə, mənə səmavi cismlərin yaradılışından, onlardakı müdhiş sistemlərdən, aralarındakı qorxunc uzaqlıq və fərqlərdən, bu cismlərin macəralarından, cazibələrindən, ağılları durduracaq işıq tufanlarından və s. bəhs edən bir seminar verdi ki, həmin anda qəlbimin Allahın əzəmət və heybətindən titrədiyini hiss edirdim. Sir Ceymsin isə Allah qorxusu ilə saçları biz-biz olmuş, gözlərindən yaşlar axır və əlləri titrəyirdi. Bir müddət dayandı və sözlərinə belə davam etdi:

"-Dostum İnayətullah! Allahın yaratmış olduğu bütün bu gözəlliklərə və ehtişama nəzər yetirdi-

yimdə, Allahın cəlalından bədənim titrəməyə başlayır. Allah-Təalanın hüzurunda əyilərək Ona: "Allahım sən böyüksən!"-dediyimdə, bədənimdəki hər bir hüceyrənin bu sözümü təsdiq etdiyini hiss edirəm. Məhz həmin anda mən, böyük bir rahatlıq və səadət hiss edirəm və bu səadətimin digər insanların səadətindən min dəfə daha üstün olduğunu bilirəm."

Bu sözdən sonra mən də ona həmin anda yadıma düşən bir ayeyi-kəriməni oxudum:

"**Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar.** (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar)**.**" (Fatir, 28)

Sir Ceyms ayeyi-kəriməni eşidincə birdən-birə hayqırdı:

"-Nə danışırsan, "Bəndələri arasında yalnız alimlər, Allahdan (layiqincə) qorxarlar" eləmi? Bu çox müdhiş və eyni zamanda çox əcaib bir şeydir! Mənim əlli illik uzun tədqiqat və təcrübələrim nəticəsində kəşf etdiyim bir şey, bəyəm Həzrət Muhəmmədin əvvəlcədən xəbər verdiyi şeylər arasındadır? Bu ayə həqiqətən Quranda vardırmı? Əgər elədirsə, Qurani-Kərimin Allah tərəfindən vəhy edilmiş bir kitab olduğuna şahidlik etdiyimi bir tərəfə yaz!.. Həzrət Muhəmməd ümmi idi, oxumaq-yazmaq bilmirdi. Bu səbəbdən Onun bu sirri öz-özünə kəşf etməsi qeyri-mümkündür. O halda bu sirri Ona bildirən Allah-Təaladır." (Vahiduddin Xan, İslam Meydan Oxuyur, səh. 251-253)

Belə müsbət elmlərlə məşğul olan neçə-neçə qeyri-müsəlman elm xadimi müsəlman olmuş və neçə-neçələri də iman etməsə belə özlərini haqqa təslim məcburiyyətində qalmışlar. Bu hal Qurani-Kərimin bir möcüzəsidir. Allah-Təala buyurur:

"**Rəbbindən sənə nazil edilənin** (Quranın) **haqq olduğunu və onun** (möminlərə) **yenilməz qüvvət sahibi,** (hər cür) **şükrə** (tərifə) **layiq olan Allahın yolunu göstərdiyini görürlər.**" (əs-Səbə, 6)

"**Onun** (Quranın) **haqq olduğu onlara** (müşriklərə) **bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə** (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), **həm də onların öz daxilində mütləq göstərəcəyik.** (Ya Peyğəmbər!) **Məgər Rəbbinin hər şeyə şahid olması** (sənin dediklərinin doğruluğuna) **kifayət deyilmi?!**" (Fissilət, 53)

Kainata ibrət nəzəri ilə baxan hər göz, onda bu ayələrin sayız-hesabsız təzahür səhnələrini seyr edər.

İlahi Qüdrət Misalları

Dünyada yalnız insanlar və heyvanlar mövcud olsaydı, təbiətdəki bütün oksigeni istifadə edib karbondioksidə çevrilər və bir müddətdən sonra oksigenin azalması müqabilində getdikcə artan karbondioksidlə zəhərlənib yox olardılar. Lakin bu aləmi var edən qüdrət bir də bitkiləri yaratmış və onlara da karbondioksidi istifadə edib oksigenə çevirməklə aləmdə bir tarazlıq və davam edib gedən bir axış meydana gətirmişdir.

Digər yandan Allah-Təala, dünyanın dörddə üçünü su ilə əhatə etmişdir. Dörddə birinin böyük hissəsini də bitki yetişdirmək qabiliyyəti olmayan qayalıqlar və ya səhralar olaraq yaratmışdır. Geridə qalan çox az bir qismi torpaqdır. Lakin o necə uca bir qüdrətdir ki, bu torpağı əbədi bir dəyişikliklə və haldan hala salaraq bütün canlıları doyuracaq qidaların mənbəyi etmişdir. Belə ki:

Bir heyvan növünü müqayisə edək. Bu növdən nə qədər canlı gəlmiş və gələcəksə hamısı dünyaya eyni anda göndərilmiş olsaydı, dünya məkan olaraq yalnız həmin növə kifayət etməməklə yanaşı qidalar da onlara kifayət etməzdi. Lakin Allah-Təala, onları zaman sirri ilə məkandakından daha geniş şəkildə silsilə qanunu ilə yaratmışdır. Bütün canlılar üçün eyni təmsil məqbuldur. Bu mənada dünya zaman və məkan sirri ilə normal tutumunun trilyonlarca qat artığına səhnə ola bilməkdədir. Yəni canlıların aləmimizdə yer alması da tarazlığın qounmasına görədir.

Məsələn bir çinar ağacı hər il milyonlarla toxum əmələ gətirir. Bunların ətrafa dağılması üçün tükdən sanki bir paraşüt olur. Külək vasitəsilə bu toxumlar çox uzaq məkanlara gedib çatırlar. Əgər tək bir çinar ağacına aid bütün toxumlar yeni bir çinar olsaydı, qısa bir zamanda dünyanın hər tərəfi çinarların istilasına uğrayardı. Yəni nəhəng dünya tək bir ağaca dar gələrdi. Digər bütün canlılara da bu misalı şamil etmək mümkündür. Bu da kainatda hələ-hələ təsəvvür edilməyəcək bir ahəng və nizamın olduğunu göstərir.

Belə mükəmməl, içiçə və çox incə bir hesab mexanizminin varlığı, yaradanının varlıq və birliyinə, qüdrət və əzəmətinə ülvi bir nişanədir. Ayeyi-kərimədə belə buyurulur:

"**Göyü O ucaltdı, tərəzini** (ədalət tərəzisini) **O qoydu!** " (ər-Rəhman, 7)

"**Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur.** (Ey insan!) **Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb** (səmaya) **bax, heç orada bir yarıq** (çatdaq, nöqsan) **görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada** (axtardığını tapmayıb) **zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!**" (əl-Mülk, 3-4)

Həmçinin Allah-Təala, bütün bu canlılara elə xüsusiyyətlər vermişdir ki, bənzəri qidalarla qidalananlar belə müxtəlif məhsullar meydana gətirir və bunlar da həyatı bütünlükdə mümkün edəcək şəkildə birbirlərini tamamlayır. Məsələn, yaşıl bir tut ağacını inək və ya qoyun yesə, ondan ət, süd və yun hasil etdiyi halda, balaca bir qurd olan barama qurdu eyni yarpaqdan ipək istehsal edir. Eyni şeyi bir ceyran yesə, ondan müşk əmələ gətirər. Arının çiçək tozlarından bal hasil etməsi, kainatda ən mükəmməl bir varlıq olan insanın iqtidarı xaricindədir. Çiçəklərin torpaqdan qidalanaraq açdığı rənglər, qoxular və həyat qüdrətini özündə göstərən, heç bir kimyagərin qadir ola bilməyəcəyi qeyri-adi xüsusiyyətlərdir. Heyvan otu ət və südə çevirərkən, insan bir kimya labaratoriyasında tonlarla otdan bir qram ət və ya süd emal etmək iqtidarında deyildir.

Əqli-səlim sahibi bir insan bu kainatda hara yönəlirsə yönəlsin, Allahın varlıq və əzəmətini müşahidə

edər. Peyğəmbər göndərmək, onların dili ilə, elmiylə, əxlaqı ilə bəşəriyyəti kamilləşdirmək, aralarından alimlər yetişdirmək kimi təcəllilər hamısı ilahi lütfün əsəridir. Digər yandan insana min-bir istifadələr təqdim edərək xidmət edən bütün elmlərin nəticəsi də, nəhayət Allahın varlıq və əzəmətini göstərib bəşər övladına acizliyini tanıtdırmaq və etdiyi bəndəlik vəzifəsini idrak etməyə kömək etməkdir. İnsan özünə və kainata insafla baxınca dərhal başa düşər ki, görünən qüdrət və səltənət qarşısında iman etməmək nə qədər gülünc və rişxənd doğurucudur!

Səmada ağ və qara dəliklər mövcuddur. Allah-Təala müsbət (faydalı) elmin kəşf etdiyi bu boşluqlara belə and içir:

"**Ulduzların** (bürclərdəki) **mənzillərinə** (yaxud doğub-batdığı yerlərə) **and olsun ki, Kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz.**" (əl-Vaqiə, 75-76)

Bu günkü elmin hələ müəyyən edə bildiyi bu həqiqət nə qədər dəhşətverici bir ehtişamla üz-üzə olduğumuzu göstərir. Ulduzların doğulduğu (çıxdığı) yerə ağ dəlik, batdığı yerə də qara dəlik adı verilir. Ağ dəliklərdən kiçik bir cism çıxır və ani bir genişlənmə ilə gövdəsinin trilyonlarca qatı böyüyərək nəhəng bir ulduz kütləsini meydana gətirir. Digər yandan dünyamızdan qat-qat böyük neçə-neçə ulduzlar da vaxtı gəlincə qara dəliklərin içinə girib ölür. Bu mənada bizim səmamıza işıq saçan Günəş də bir gün:

"**Günəş** (əmmamə kimi) **sarınıb büküləcəyi** (sönəcəyi) **zaman...**"[53]

53. ət-Təkvir, 1.

O gün onun da ömrü sona çatacaqdır. O gün əlbəttə qiyamət günü olacaqdır. Oradan o yana!...

İnsan üçün dərhal səcdəyə qapanıb Allaha sığınmaqdan başqa bir çarə yoxdur!

Bir sözlə görən gözlər idrak edər ki, ilahi səltənət qarşısında bu dünya, fəzada üzən milyardlarla, trilyonlarla tozdan yalnız biridir. Dağlar, ovalar, okeanlar və insan da bu tozun içərisindədir. Məhz bu acizliyi ilə insan, bəndəliyi xaricində yalnız bir heçdən ibarətdir!

Okeanlardan bir damla qəbilindən verdiyimiz bu misallar; Hakim, Qadir, Qayyum, Rəzzaq... bir varlığın mövcudluğunu qəbul etməyin məntiqi bir zərurət olduğunu ifadə edir. Lakin bu həqiqəti görmək üçün bəsərdən çox bəsirətin, yəni könül gözlərinin açıq olması lazımdır. Ayeyi-kərimədə belə buyurulur:

"**Məgər onlar** (peyğəmbərləri yalançı hesab edən kafirlər) **yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri** (bəsirət gözləri), **eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər** (qəlb gözü) **kor olar.** (Kafirlər keçmiş ümmətlərin başına gələn müsibətləri zahiri gözləri ilə görsələr də, qəlb gözü ilə görüb onlardan heç bir ibrət almazlar)." (əl-Həcc,46)

Hər Şey Hərəkət və Dəyişkənlik Halında

Düşünəcək olsaq, bu gördüyümüz aləmdə hər şey dəyişir. Bir formadan başqa bir formaya keçir. Məsələn, nütfə alaqaya, alaqa müdğəyə (qan damlasına), müdğə ət və sümüyə çevrilir. Bu cür dəyişkənlik ulduzlarda,

kometlərdə, mədənlərdə, bitkilərdə, yəni hər şeydə olur.

Atomun içində müəzzəm bir hərəkət vardır. Elektronlar çox incə bir hesabla və ağıla gəlməyəcək bir sürətlə dönürlər. Atomun içində olan proton və neytronlar isə, daha kiçik bir həcmə sıxıldıqlarına görə sürətləri də elektronlara nisbətlə təsəvvür edilməyəcək qədər yüksəkdir. Belə ki, saniyədə təxminən 60 000 kilometri keçən bir sürətlə dönürlər.

Bir millimetr yer qəbul etdiyimiz bir toplu iynənin başında təxminən 100 trilyon atom olduğunu xatırlasaq, kainatdakı hərəkətləri idarə edən Uca Varlığın qüdrətini dərk etməyin imkansız olduğunu daha yaxşı dərk edərik.

Məhz bütün bu hərəkət və dəyişkənliyin meydana gəlməsi üçün həqiqi bir müəssirə ehtiyac vardır. O da Xəllaqi-Mütəal olan Allah-Təaladır. Çünki ağlı heyrətə salan bu xariqüladə halların hər hansı bir müəssir olmadan meydana gəlməsi və ya şüursuz bir faildən zühur etməsi, qəti şəkildə qeyri-mümkündür.

Bunları təfəkkür etdiyimizdə, əsərdən müəssirə keçə bilmək üçün bir zərrənin belə kifayət etdiyini görürük. Şair bunu nə gözəl ifadə edir:

Varlığın bilmə nə hacət küreyi aləm ilə,
Yetər isbatına xəlq etdiyi bir zərrə belə. (Şinasi)

Eyni Maddədən Müxtəlif Əsərlər Meydana Gəlir

Ətrafımızda gördüyümüz müxtəlif varlıqların əsli həmişə eynidir. Hamısı da maddədən meydana gəl-

mişdir. Fərqli ünsürlər hamısı eyni mahiyətin hissələridir. Məsələn, göy cismləri də həmişə eyni maddədən meydana gəlirlər. Lakin hər birinin özünə məxsus bir xüsusiyyəti, vəziyyəti, miqdarı və ömrü vardır. Bir qismi soyuq, bir qismi də son dərəcə qızmardır...

Azot, karbon, oksigen, hidrogen kimi elementlərdən bitkilər və heyvanlar meydana gəlirlər. Halbuki bu maddələrlə həyat arasında və hələ elm, iradə, qüdrət, eşitmə, görmə kimi sifətlər arasında əsla bir münasibət yoxdur.

Məhz bütün bunlar ilahi sənət xarüqələridir. Kainatda gördüyümüz bu qədər fərqli və mükəmməl varlıq, uca qüdrət sahibi bir sənətkarın əsəridir. Bu qədər sənət xarüqəsini meydana gətirən bir varlığın sonradan olanlara bənzəməsi mümkün deyildir. O, Vacibu-l-Vücud olan, yəni varlığı zəruri, özündən və əzəli olan Allah-Təaladır.

Hər Şey Bir Qayə ilə Yaradılmışdır

Bu aləmdə hər şeyin bir hikmət və fayda üçün yaradıldığı aşkar şəkildə görünür.

-Günəş və Ayın işığında dünyadakı məxluqat nurlanıb nəşvü-nüma tapır. Yer və Ayın Günəş ətrafında fırlanması ilə vaxtlar meydana gəlir. Yerin fırlanması ilə mövsümlər, illər, gün və gecələr; Ayın fırlanması ilə aylar meydana gəlir.

-Davamlı tənəffüs etdiyimiz hava, ağ ciyərə gedərək qanı təmizləyir. Yenə küləklər, bitkiləri və ağacları aşılayır, istiliyi tənzimləyir, havanı təmizləyir...

-Eyni şəkildə dənizlərin faydaları da saymaqla bitməz...

Bütün bunların və burada saymaqla bitirə bilməyəcəyimiz daha neçə-neçə xüsusların, insan həyatındakı əhəmiyyəti məlumdur. Bu baxımdan bunları ibrət nəzətiylə seyr edib təfəkkür edən bir insan bu nəticəyə gəlir ki, bütün əşyanın yaradılışında böyük bir hikmət və qayə vardır. Bunu təsadüf kimi qəbul etmək isə ağıl, düşüncə və insafın yox olması deməkdir. Bunlar elm, hikmət, qüdrət və əzəmət sahibi bir Varlığın əsəridir. O da Allah-Təaladır.

Bir sözlə əqli-səlim sahibi olub təfəkkür edən bir insanın Rəbbini tanıması, Ona və bu ilahi ehtişam və əzəmətə heyran olması olduqca asandır. Bu sağlam əqlin və şəffaf bir vicdanın ən təbii nəticəsidir. Bir insan kainatda və orada baş verənləri layiqincə təfəkkür etsə, kafir olsa iman edər, mömin isə imanının səviyyəsi artar; mərifət və məhəbbət pillələrində irəliləməyə başlayar.

b. Allaha İmanın Faydaları

Allah-Təala insanın fitrətinə, yəni yaradılışına iman etmək ehtiyacını qoymuşdur. Bu səbəblə, səhih bir imana sahib olmayan insan mənən narahat olur. Qəlbində daşıdığı dərin bir narahatlıq hissi ilə yaşayar. Bunun yeganə çarəsi, Allah-Təalanın göstərdiyi şəkildə iman etməkdir.

Digər yandan özünü daima görən, eşidən və bilən Allaha iman edən şəxs, gözəl əxlaq sahibi olub, haqqa

hüquqa riayət edər. Bu səbəbdən də xoşbəxt bir həyat yaşayar. Heç kimə zərər vermədiyi kimi heç kimsədən də zərər görməz. Axirətdəki əbədi həyatı isə dünyasından daha gözəl olar.

Allaha belə inanan şəxs, heç kimsənin görmədiyi yerdə olsa belə əxlaqsızlıq etməz. Çünki Allah-Təalanın qiyamət günü onu hesaba çəkərək əməllərinin qarşılığını yaxşı və ya pis mütləq verəcəyini bilir və ona görə hərəkət edər.

Allaha iman edən insan, təkəbbür və lovğalıqdan uzaq durar, təvazökar davranar. Təkəbbür və lovğalıq, insanlarda olan ən pis qəlbi xəstəlikdir. Bütün mübahisə, savaş və mübarizələrin kökündə həmişə təkəbbür hissi dayanır. Bu mənada təkəbbürlü insan bir müddət bütün dostlarını itirərək yalnızlığa düşməyə məhkumdur. Belə ki, Həzrət Əli ﷺ:

"**Ən böyük yalnızlıq özünü bəyənməkdir.**"-buyurmuşdur.

Təvazökarlıq isə insanı bəzəyən ən gözəl xislətlərdən biridir. Allaha iman edən şəxs özündə olan hər şeyin Allah tərəfindən lütf edildiyini bilir. Bu səbəbdən də daima təvazö və şükür halında olar. Bu da onun insanlarla gözəl davranmasını və hər kəs tərəfindən sevilməsinə zəmin yaradar.

Bununla yanaşı iman, başa gələn sıxıntı və bəlalara qarşı böyük bir təsəlli mənbəyidir. İmansız insan sıxıntılar qarşısında özündən çıxar və hələ-hələ təsəlli tapa bilməz. Mömin isə əlindən gələni etdikdən sonra Allaha təvəkkül edər və təslim olar. Gözəl bir nəticə ilə qar-

şılaşarsa şükr edər, Allahın rizasını qazanar. İstəmədiyi bir şeylə qarşılaşarsa səbr edər, yenə Allahın rizasını qazanar. Yəni hər halı onun üçün xeyirdir. (Müslim, Zöhd, 64)

Allaha iman edən və bunun gərəyini edən insan, ölümdən çox qorxmaz. İmansız insan isə ölüm qorxusu ilə həyatını özünə zəhər edər. Bu dünyada xoşbəxt ola bilmədiyi kimi axirətdə də rahatlıq üzü görməz. Ölümdən sonrasını nəzərə almadığından, dünyada əlinə fürsət düşdüyündə hər cür zərər və xəyanəti edər. Xırda bir mənfəəti üçün bütün dünyanı atəşə verməyi belə düşünə bilər.

Allaha iman və ibadət, səhhət baxımından da faydalıdır. İnternational journalof Psychiatry in Medicinenin 2002-ci ilin fevral ayında aprdığı tədqiqata görə möminlərin birlikdə etdiyi ibadətlərə sıx-sıx davam edənlərin xərçəng xaric həzm xəstəliklərinə tutulma ehtimalları yarıbayarı daha azdır. Damar tutulmalarından (infarkt və insult daxil) ölüm səviyyələri yüzdə 21 faiz, nəfəs çatışmamazlığı xəstəliklərindən ölüm səviyyələri isə yüzdə 66 faiz azdır.

Bu tədqiqat belə bir xüsusa diqqət cəlb edir: Dinin psixoloji faydaları gedərək daha çox başa düşülür. İnsanın imanı və mənəviyyatı qüvvətləndikcə əndişə və təlaşdan uzaqlaşır. Daha yaxşı qabiliyyətlərə, güclü mənimsəmə hissinə və ümumiyyətlə daha şəffaf, aydınlıq bir həyata qovuşar.

3. Mələklərə İman

Mələklər nurdan yaradılmış lətif varlıqlardır. Ona görə biz onları öz surət və şəkillərində görə bilmərik. Lakin Allah-Təala onları istədiyi insanlara göstərə bilər.[54] Böyük peyğəmbərlərdən bəzilərinə öz surətlərində göründükləri də olmuşdur. İnsanlar kimi yeyib içmək və sair xüsusiyyətləri yoxdur. Sırf Allah-Təalaya ibadət və Onun uca əmrlərinə riayət üçün yaradıldıqlarından onlara nəfs verilməmişdir. Bu mənada heç vaxt mələklər xəta, üsyan və günah etməzlər. Son dərəcə güclü və qüvvətlidirlər.[55]

Sayılmayacaq qədər çoxdurlar. Rəvayətlərə əsasən yer üzünə enən hər bir yağmur və qar dənəsini bir mələk endirir və bir dəfə enən mələyə qiyamətə qədər bir daha növbə çatmır. Yağmur və qar dənələrinin havada bir-biri ilə heç toqquşmadan yer üzünə enməsinin hikməti də budur. Diqqət edilərsə, fırtınalarda belə bir-biri ilə toqquşmadan enərlər. Bir sözlə zərrədən kürəyə hər şey ilahi əzəmətin bir səhnəsi mahiyətini daşıyır.

Mələklər bir mənada bizə verilən ruh kimidirlər. Bu mənada necə görmədiyimiz halda ruhumuzu inkar edə bilmiriksə, onları da inkar edə bilmərik.

54. Hud, 77-82; əl-Hicr, 59-69; Məryəm, 17-21; ən-Nəcm, 67, 13-17; ət-Təkvir, 23.
55. Mələklərin vəsfləri üçün baxın, əl-Bəqərə, 30-34; əl-Əraf, 11, 27; Hud, 69-70; əl-Hicr, 28, 51-52; əl-İsra, 61, 92; əl-Kəhf, 50; Taha, 116; Sad, 71, 73; ən-Nəcm, 5; ət-Təhrim, 6; ət-Təkvir, 20.

Mələklər fəzilət baxımından dərəcə dərəcədir. Dörd böyük mələk vardır: Cəbrail عليه السلام, Mikail عليه السلام, Əzrail عليه السلام və İsrafil عليه السلام.

Cəbrail عليه السلام peyğəmbərlərə vəhy gətirmək vəzifəsi ilə mükəlləf qılınmış bir mələkdir. Mikail عليه السلام təbiət hadisələrini izləməklə mükəlləfdir. Əzrail (Ölüm mələyi) عليه السلام ruhları alır. İsrafil عليه السلام isə qiyamət qopacağı zaman Sura üfürməklə mükəlləfdir.

Göründüyü kimi mələklərin Allaha ibadətləri ilə yanaşı başqa vəzifələri də vardır. Bəzisi Allahın əmri ilə insanlara yardım edirlər. Xüsusilə əhli-imanın çətin anlarında mələklərin bir şəkildə kömək və yardımları islam tarixində çox hallarda müşahidə edilmiş həqiqətlərdir.

Bunlardan başqa insanı qoruyan mühafizə mələkləri, əməl dəftərlərimizi yazan kiramən katibin, qəbirdə sual soruşan Münkər və Nəkir mələkləri, günahkarların bağışlanması üçün tövbə edən və insanın sirəti-müstəqimdə addımlaması üçün dua edən mələklər vardır.

Təhlükələrlə dolu olan bu dünya həyatında bir insanın həyatda qala bilməsi belə mələklərin mühafizəsinə bağlıdır. Allah-Təalanın vəzifələndirdiyi mələklər, əcəli gələnə qədər insanı zərərli şeylərdən mühafizə edərlər. Vaxtı gəldiyində isə aradan çəkilərək onu əcəli ilə baş-başa qoyarlar. Ayeyi-kərimədə belə buyurulur:

"(İnsan üçün) **onu öndən və arxadan təqib edənlər** (mələklər) **vardır. Onu** (insanı) **Allahın əmri ilə qoruyurlar...**" (ər-Rəd,11)

Bunu da unutmamaq lazımdır ki, mələklərdəki gücü ehsan edən də Allah-Təaladır.

Bir adam mələklərdən birini qulaqardı etsə və ya ayıblasa kafir olar. Bu səbəbdən; "Sənin üzün mənə Əzrailin üzü kimidir.", "Mən Cəbrail və Mikailin şəhadətlərini belə qəbul etmirəm."-kimi söz və zarafatlardan uzaq durmaq lazımdır.

4. Kitablara İman

Allah-Təala ilk insan və ilk peyğəmbər Adəmdən عليه السلام etibarən bəşəriyyətə əmr və qadağalarını öncə suhuflar (səhifələr) halnda, sonra nəsillər çoxalıb ictimai məsələlər artdıqca da kitablar halında göndərmişdir. Suhuf və kitabların hamısı öz dövrünün haqq kitablarıdır. Bu mənada kitablara iman, onların Allahdan endirildiyi orjinal formasınadır.

Rəvayətlərə görə suhufların onu Adəmə عليه السلام, əllisi Şitə عليه السلام, otuzu İdrisə عليه السلام, son onu da İbrahimə عليه السلام göndərilmişdir.[56] Böyük kitablardan Tövrat Musa əleyhissalama, Zəbur Davud əleyhissalama, İncil İsa əleyhissalama və son olaraq da Qurani-Kərim Aləmlərin fəxri Həzrət Muhəmmədə ﷺ nazil olmuşdur.

İlahi kitablar, Allah-Təalanın bəndələrinə göndərdiyi bir məktub kimidir. Bəşərin həyatını nizamlayan və əbədi səadətinin əlacını təqdim edən bu kitablar Allah-Təalanın kəlam sifətinin bəşər kəlamı və idrakı-

56. İbn Kəsir, *Təfsir*, (ən-Nisa, 163); İbn Nədim, *Fihrist,* Tehran 1966, səh.24.

na inikasıdır. Bu baxımdan hər biri verdiyi ismarıcla yanaşı başqa bir kəlam möcüzəsidir.

Hər gələn suhuf və kitabda başlıca prinsip, yəni etiqadi məsələlər eynidir. İbadət və etiqada dair hökmlərdə cəmiyyətin quruluşuna görə bəzi müxtəlifliklər olmuşdur.

Kitab göndərmək, Allah-Təalanın üzərinə vacib deyildir. Tamamilə Onun bəndələrinə olan ilahi lütf və yardımıdır.

a. Qurani-Kərim

İlahi kitabların sonuncusu olan Qurani-Kərim, digər bütün kitabları nəsx etmiş, yəni hökmünü ortadan qaldırmışdır. Əsasən zamanla həm dəyişən və inkişaf edən bəşəri ehtiyaclar, həm də qafillik və nəfsani istəkləri olanların həmin kitablara müdaxiləsi və təhrifləri də bunu zəruri etmişdir.

Səmavi kitabların ən böyük xüsusiyyəti heç şübhəsiz ilahi vəhyə istinad etmələridir. Lakin bu xüsusiyyət yalnız Qurani-Kərimə məxsus bir xüsusiyyət olaraq qalmışdır. Çünki digər ilahi kitablar peyğəmbərlərindən sonra böyük bəşəri təhriflərlə üzbəüz qalmış və nəhayət insanların qələmə aldığı kitablar halına gəlmişdir. Onsuz da Qurani-Kərimin göndərilməsinin bir səbəbi də bu hadisə olmuşdur. Bununla yanaşı "xitamuhu misk"[57] qəbilindən olaraq göndərilən Qurani-

57. Xitamuhu-misk: Sona çatması, nəhayəti müşk qoxusu kimi gözəl olan, ən gözəl qismi ən sonunda olan şeylər üçün istifadə edilən bir ifadədir. Mütəffifin surəsinin 26-cı ayəsində zikr edilir.

Kərim, ilahi kitabların hamısına şamil olunur və hamısının ən mükəmməlidir. Son olmaq baxımından da məhz ilahi mühafizə altındadır.

1) Xüsusiyyətləri

Qurani-Kərim, Həzrət Peyğəmbərimiz Muhəmməd Mustafaya ﷺ nazil edilmişdir. Bir çox cəhəti ilə möcüzədir. Hissə-hissə nazil olduqca dərhal yazılmış və əzbərlənmişdir.

İlk enən ayələr, "qələm"in və "yazdığı sətirlər"in mədhinə həsr edilmiş və nüzulu boyunca "yazılmış olan məlumatlar" mənasına gələn "Kitab" kəlməsi üzərində israrla durulmuşdur.[58] Bu səbəbdən Allah Rəsulu ﷺ, Qurani-Kərimi mühafizə etmək üçün əzbərlənməsi ilə yanaşı yazılmasına da böyük əhəmiyyət vermişdir.[59]

Qurani-Kərimi müsəlmanların mütəmadi qıldığı namazlarda oxunması şərt qoyulmuş, namaz xaricində oxunub dinlənilməsi də ibadət qəbul edilmiş və hər hərfinə on savab veriləcəyi müjdələnmişdir.[60] Bunlara əlavə olaraq Qurani-Kərim, bütün müsəlmanların

58. əl-Ələq, 1-5; əl-Qələm, 1; əl-Bəqərə, 2; əz-Züxruf, 2; əd-Duxan, 2.
59. Müsəlmanların, Qurani-Kərimi mühafizə edib bu günə qədər nəql edərkən istifadə etdiyi üsul və metodların nə qədər sağlam olduğunu görmək üçün bu əsərdə müraciət edilə bilər. Prof. Dr. M. əl-Azami, The History of the Quranic Text from Revelation to Compilation: A Comparative Study with Old and New Testaments Leicester: UK İslamic Academy, 2003 (Kuran tarihi: Eski ve Yeni Ahit ilə Karşılaştırmalı bir Araştırma, İstanbul 2006); Prof. Dr. M. Həmidullah, Qurani-Kərim Tarixi, İstanbul 2000 (Le Saint Coranın giriş hissəsi).
60. Tirmizi, Fəzailu-l-Quran, 16.

toplandığı Cümə xütbələrində, söhbət məclislərində və fərdi görüşlərdə də davamlı oxunmuşdur.[61] Bu hal onun ən gözəl şəkildə mühafizə edilərək bizə təvatürlə (doğru yolla) nəql edilməsini təmin etmişdir.

Qurani-Kərimin tilavəti ilə ibadət edilən olması, onun müsəlmanların həyatı ilə iç-içə olmasını və gündəlik həyatın hər mərhələsində yer almasını təmin etmişdir. Beləliklə möminlər, Allahın kəlamı ilə daim birlikdə olmaq şərəfinə nail olmuşdurlar. Yəni Qurani-Kərim, müsəlmanların həyatında daim başlıca bir yerə sahib olmuşdur.

Qurani-Kərimin mühafizəsi üçün yazı və əzbərə əlavə olaraq üçüncü bir üsul da tətbiq edilərək:

"Yaxşı yetişmiş və icazət almış bir ustad hüzurunda təlim görmək" şərt qoyulmuşdur.[62]

---

61. Bax. Müslim, Cümə 49-52, Müsafirin 142; Əbu Davud, Büyü 36/3416; İbn Macə, Salat 178; Əhməd, III, 432, IV, 9; İbn Həcər, İsabə, 2546 (Rəfi bin Malik maddəsi); İbn İshaq, Sirət, səh. 128...

62. Qurani-Kərim əzbərlənərək mühafizə edilməsi ilə yanaşı yazılı olaraq da bizə qədər gəldiyini göstərən bir çox dəlildən ikisi bu şəkildədir: 1. Türkiyənin keçmiş Diyanət İşləri Başqanı Dr. Təyyar Altıqulac 10 illik tədqiqat nəticəsində orjinal 4 mushaf ilə günümüzdəki Qurani-Kərimi kəlmə-kəlmə və hərf-hərf yoxlayaraq, aralarında hər hansı bir fərqin olmadığını isbat etmişdir. Orjinalı Topqapı Sarayında olan və Həzrət Peyğəmbərimizin əshabından Xəlifə Həzrət Osmana aid edilən Mushafi-Şərifin İRCİCA tərəfindən hazırlanan xüsusi faksmil nüsxəsi ilə bu gün dünyanın hər yerində oxunmaqda olan Qurani-Kərimi kəlmə-kəlmə, hərf-hərf, hətta diş diş yoxladığını və arada hər hansı bir fərqin olmadığını deyən əl-Məşhədul-Hüseyni mushafı üzərində də apardığını qeyd etdi. Daşkənd, Türk və islam əsərləri muzeyində olan mushaflar üzərində də eyni tədqiqatı apardığını ifadə edən

Belə ki Allah-Təala belə vəd etmişdir:

"**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!**" (əl-Hicr, 9)

Qurani-Kərim müxtəlif hadisələr və ehtiyaclara görə hissə-hissə nazil olmuşdur. Həzrət Peyğəmbərimizə bir vəhy gəldiyində, onu Qurani-Kərimin harasına qoyacağı da bildirilirdi. Peyğəmbərimizin vəfatı yaxınlaşıb vəhy sona çatdığında Qurani-Kərim də, möhtəşəm bir bütünlük və nizam ərz edən bir kitab halında tamamlanmış oldu.

Qurani-Kərimin tərtibi və mövzulara toxunması, insanların qələmə aldığı əsərlərin heç birinə bənzəməz. Onun tamamilə özünəməxsus bir quruluşu vardır. Qurani-Kərim surələrə, surələr də ayələrə ayrılaraq oxunub başa düşülməsi və əzbərlənməsi asanlaşdırıl-

---

Altıqulac belə dedi:
"-Bunlar hamısı ayrı-ayrı coğrafiyalarda hələ hicrətin birinci əsri içində yazılmış mushaflar. Mushaflar bir-biri ilə tam bir bənzərlik içində olduqları kimi, dünyanın hər yerində oxunan Qurani-Kərimlərlə də eyni bənzərliyi göstərirlər. Xırda, sadə və əsası ilə əlaqəsi olmayan bəzi imla fərqlilikləri var, ancaq köklü bir dəyişiklik yoxdur. Nə çox, nə az! Bunu müsəlmanlar üçün çox mühüm bir nəticə kimi dəyərləndirirəm." (www. habervaktim.com/ haber 136521/kurani_kerim_degismedigi_ispatlandi 14.08. 2010)
2. İstanbul Türk və İslam Əsərləri muzeyində 5 sentyabr 2010-cu ildə "1400-cü ilində Qurani-Kərim sərgisi" adı ilə bir sərgi açıldı. Burada Qurani-Kərimin ceyran dərisi üzərinə yazılmış ilk nüsxələri nümayiş etdirildi. (www. habervaktim.com/ haber/136864/ iste_ kuranin_ilk-nushalari. Html, 16.08.2010)

mışdır. Bu asanlıqda Quranın möcüzəvi bəlağət, fəsahət və nizamının da təsiri vardır.

Qurani-Kərimin ehtiva etdiyi mövzular, başından sonuna qədər yayılmışdır. Bu tərtib şəkli, təkrarların da köməyi ilə Quranı oxuyan və ya eşidənlərin eyni anda birdən çox mövzunu gözdən keçirmələri, bir çox irşad və xəbərdarlığa müxatəb olmaları və müxtəliflik ərz edən öz həyatları ilə Qurani-Kərimin bu təsiri arasında paralellik aparmaları kimi müxtəlif cəhətlərdən daha təsirli, tərbiyələndirici və faydalıdır.

Qurani-Kərimdə müxtəlif uzunluqlarda 114 surə vardır. Hər surədəki ayələrin sayı müxtəlifdir.

2) Ehtivası

Qurani-Kərim bütün əsrlərə meydan oxuyaraq bir bəyan möcüzəsi halında davam edir. Onda bizə qurtuluş əlacı mahiyətində təqdim edilən başlıca xüsusiyyətlər bunlardır:

Aməntu (iman əsasları), tövhid, Allahın adları və sifətləri, Allahı layiq olduğu şəkli ilə tanımaq, axirət həyatı (əhvalı)...

Saleh əməllər; ibadətlər, etiqad, əxlaq, insanların hərəkətləri ilə bağlı hökmlər, yəni onların nəyi etməsi və nələrdən uzaq durmasının zəruri olduğu xüsuslar.

İnsanın cismani quruluşu ilə əlaqədar olaraq yaradılış mərhələləri; dünya həyatı, nəhayətində vəfatı və s. Sirət quruluşu ilə əlaqədar olaraq da nəfsə aid xam vəsflərlə ruha aid kamil xislətlər və insanın xam vəsf-

dən kamil vəsfə yüksələ bilməsi üçün nəfs təzkiyəsi ilə qəlb təsfiyəsini necə gerçəkləşdirəcəyi...

Kainat mənzuməsi; yeddi qat səma, Günəş, Ay, ulduzlar, bunların yaradılışları və aqibətləri, təbiət hadisələri, kölgənin uzanıb qısalması, yağış, gecə-gündüzün dövr etməsi, yer ilə göy arasında yaşayan məxluqlar və xüsusiyyətləri...

Tarixi məlumatlar; millətlərin müsbət və mənfi hallarının dünya və axirətdəki halları, ilahi intiqam təcəlliləri, peyğəmbərlər və qövmlərinin qissələrindəki saysız-hesabsız hissələr, keçmişdən ibrətlər, hadisələrin meydana gəliş səbəbləri və nəticələri...

Bir yandan əzəl, digər yandan əbədiyyət iqliminə uzanan geniş bir təfəkkür və təzəkkür dəryası... Təfəkkürdən təxəssüsə keçid...

Qurani-Kərim qəlbdə dərin hisslərin meydana gəlməsinə vəsilə olur. Qəlb aləmi inkişaf etmiş mömin ayeyi-kərimələrə baxarkən, dibi görünməyən quyuya baxar kimi elə dərinlərə dalar ki, orada neçə-neçə nəhəng mənalar çıxarır.

İmam Suyuti kimi bəzi ailmlər, insan zehninin çatdığı və çatacağı hər cür məlumatın ən azından tam olaraq və ya işarə yolu ilə Qurani-Kərimdə yer aldığını ifadə edirlər. Çünki Allah-Təala belə buyurmuşdur:

"Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik)." (əl-Ənam,38)

"Biz Quranı sənə hər şeyi (dini hökmləri, halal-haramı, günahı və savabı) izah etmək üçün, müsəlmanlara

(və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara) da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!" (ən-Nəhl, 89)

Bu səbəbdən Qurani-Kərim qiyamətə qədər bəşəriyyətin bütün ehtiyaclarına cavab verə biləcək bir zənginlikdədir. Prof. Dr. M. Həmidullah bu xüsusda belə deyir:

"Qurani-Kərim zülmə uğramış zəif insanlardan təşəkkül edən ilk islam cəmiyyətinin ehtiyaclarına cavab verə bildiyi kimi Atlantik okeanından Sakit okeana qədər hakimiyyət qurduğu və yerüzünün tək və möhtəşəm bir dövləti halına gəldiyi dörvdə də islam cəmiyyətinin bütün əxlaqi və hüquqi ehtiyaclarını qarşılamışdır. Məhz bu cəmiyyət inanc və etiqadları, ibadətləri, ictimai həyatı, sosial qanunları və digər ehtiyacları ilə əlaqədar bütün məlumatları hər dövr üçün bu kitabda tapa bilmişdir."[63]

3) Möcüzə Olması

Allah-Təala Qurani-Kərimi həm özünün, həm də Həzrət Peyğəmbərimizin doğruluğunu isbat edən bir möcüzə qılmışdır. Bu səbəbdən onun möcüzəvi cəhətləri saymaqla bitməz.[64] O qiyamətə qədər zamanı gəldikcə əsrarını aşkara çıxarmağa davam edəcəkdir. Bu günə qədər idrak edilə bilən möcüzəvi cəhətlərinin bir qismi bu şəkildədir:

63. M. Həmidullah, Qurani-Kərim Tarixi (Le Saint Coranin giriş hissəsi), səh.23.

64. Təfsilat üçün bax. Osman Nuri Topbaş, *Rəhmət Əsintiləri*, İstanbul 2010, səh. 221-372.

Qurani-Kərimin bənzərini meydana gətirmələri xüsusunda bütün insanlara meydan oxuması.

Qurani-Kərimə qarşı çıxıb onunla yarışmaları üçün bir çox səbəb olmasına və buna şiddətlə ehtiyac duymalarına baxmayaraq ərəblərin Qurana nəzirə yaza bilməmələri.

Bilinən ədəbi şəkillərdən (formalardan) fərqlənməsi.[65]

Heç bir bəşərin çata bilməyəcəyi dərəcədə bəlağətin zirvəsində olan bir nəzm, tərtib və təlif gözəlliyinə sahib olması.

Keçmişə və gələcəyə aid qeyb xəbərlərini ehtiva etməsi və bunların doğru çıxması.[66]

Qurani-Kərimin qəlblərdə meydana gətirdiyi dəruni və mənəvi təsir. Qurandan başqa heç bir mənzum ya da mənsur söz qulağa gəldiyində, qorxu və dəhşət halında olsa belə, qəlbə həzz və zövq verməz. Qurani-Kərim dinlənildikdə isə könüllər aram tapar və qəlblər açılar.[67] İnsan onun həzzini aldığında dərindən

65. Rummani, *ən-Nükət fi icazi-l-Quran* (Sələsu rəsail fi icazi-l-Quran içində, nəşr. Məhəmməd Xələfullah-Məhəmməd Zağlul Səllam), Qahirə, ts. səh. 101.
66. Qazı İyaz, *əş-Şifa bi-tərifi huquqi-l-Mustafa*, Misir 1995, I, 227-247.
67. Prof.Dr. Seyyid Qütb Qurani-Kərimin qəlblərə təsiri ilə əlaqədar belə bir xatirəsini rəvayət edir: "Təqribən on beş il öncə idi. (1948-ci illər) Biz altı müsəlman idik. Bir Misir gəmisi ilə Atlantik okeanının nəhəng sularında üzərək Nyu Yorka gedirdik. Kişi-qadın yüz iyirmi əcnəbinin arasında bizdən başqa müsəlman yox idi. Okeanda üzərkən Cümə namazının vaxtı gəldi. Gəminin ingilis kapitanı Cümə namazını qılmağımıza icazə verdi. Gəminin "vəzifə" başında olmayan müsəlman işçilərinə, aşpazlarına və xidmətçilərinə də

sarsılır, batinini xüşu əhatə edər, tükləri biz-biz olar

bizimlə namaz qılmalarına icazə verdi. Müsəlman işçilər buna çox sevindilər. Çünki gəmidə ilk dəfə Cümə namazı qılınırdı. Cümə xütbəsini mən oxudum və namazı mən qıldırdım. Əcnəbi qonaqların çoxu ətrafımıza yığışıb namaz qılmağımızı seyr edirdilər. Namazdan sonra əcnəbi yolçuların çoxu "Duanız qəbul olsun" deyərək bizi təbrik etməyə gəldilər. Çünki onların namazımızdan başa düşdükləri ən mühüm şey dua idi! Yalnız bu qələbəliyin arasından yuqoslaviyalı xristian bir qadın, hadisədən ciddi şəkildə təsirlənmiş və ibadətimizin təsirində qalmışdı. Hisslərinə hakim ola bilmir, göz yaşlarını saxlaya bilmirdi. Yanımıza gələrək səmimi qəlbdən bizi təbrik etdi. Düzgün olmayan bir ingilis dilində danışır, bizim namazımızın dərin təsiri ilə namazdakı xüşu, intizam və mənəvi hava ilə özündən getdiyini ifadə edirdi! Lakin bu hadisənin bizim üçün mühüm olan cəhəti burası deyildi. Əsas mühüm olan bu xanımın aşağıdakı sözləri idi: "Keşişiniz hansı dildə danışırdı?" Qadın namazı din xadiminin xaricində bir adamın qıldıra biləcəyini düşünə bilmirdi! Çünki inandığı kilsə xristianlığında tətbiq edilən metod bu şəkildə idi! Biz onun səhv düşüncəsini düzəldib məsələnin doğrusunu izah etdik. Bundan sonra qadın dedi ki: "-İbadəti idarə edən vəzifəli şəxsin danışdığı dilin təəccüb verici bir musiqi tonu var idi. Heç bir şeyi başa düşməsəm də səsi mənə çox xoş gəlirdi." Sonra gözlənilməyən başqa bir hadisə baş verdi. Qadın belə deyirdi: "Lakin mənim əsas soruşmaq istədiyim məsələ bu deyildi. Əslində məni kövrəldən şey, imamın sözləri arasında istifadə etdiyi cazibədar bir musiqi tonu ilə ifadə etdiyi sözlər idi. Bu sözlər, bu adamın digər danışdığı sözlərdən çox fərqli gəlirdi mənə! Arada istifadə edilən bu sözlərin musiqi cəhəti daha samballı idi və daha dərin təsirləri var idi. Bu xüsusi qismlər daxilimdə bir titrəyiş və tüklərimi biz-biz edəcək bir ürpəniş var idi. Bunlar bambaşqa bir şey idi! Sanki imam bunları deyərkən Müqəddəs Ruh ilə dolurdu!" Bununla nəyi nəzərdə tutduğunu bir müddət düşündük. Sonra başa düşdük ki, bu xanım Cümə xütbəsində və namazda keçən Qurani-Kərim ayələrini nəzərdə tuturdu! Xanımın bu halı bizi şoka salmışdı. Çünki o ərəbcə bilmir, oxunan ayeyi-kərimələrin mənasını başa düşmürdü! Bu

və qəlbi çırpınmağa başlayar. Quran, onun nəfsi ilə daxilində gizlədiyi köklü inancları arasına girər. Allah Rəsulunun neçə-neçə düşməni vardır ki, onu öldürmək niyyəti ilə gəlmiş, Quranı eşidincə heç vaxt itirmədən ilk düşüncəsindən daşınaraq islamı qəbul etmiş və düşmənliyi dostluğa, küfrü imana çevrilmişdir.[68]

Ümmi bir kimsə vasitəsilə təbliğ edilməsi,[69]

Mənalarının doğruluğu

Kəlmələrindəki qanunauyğunluğun bir-birini izləməsi[70]

Quranın özünəxas musiqisi

Tarixi (nüzulu, cəmi və s...)

Lüzumsuz söz və kəlmə olmaması

Elmi həqiqətləri ehtiva etməsi...[71] Elmi həqiqətlərdən bəhs etmək xüsusunda Qurani-Kərim həmişə öndə gedir, elm onu arxadan izləyir. Astronomiya, Embriologiya və Tibb kimi elm sahələri ilə əlaqədar xüsuslarda bunun bir çox misalı mövcuddur.

---

hadisə göstərir ki, Quranın başqa bir sirri də vardır. Bəzi qəlblər onun bu sirrini, sırf oxunması ilə tuta bilir. Məsələn, ölkəmizdə on minlərlə Quran eşidən insan, onun mənasını başa düşmür. Lakin onların qəlbləri bundan xeyli mütəəssir olur. Bunlar Quranın dilini başa düşməkdə yuqoslaviyalı xanımdan çox irəlidə sayılmazlar!" (Seyyid Qütb, Fi Zilali-l-Quran, (Yunus, 38))

68. Xəttabi, *Bəyənu icazi-l-Quran,* səh. 24, 64, Suyuti, əl-İtqan, IV, 14-16.

69. Baqillani, İcazu-l-Quran, Beyrut 1988, səh 50-68.

70. Suyuti, əl-İtqan, IV, 9.

71. Rəfii, İcazu-l-Quran, səh. 131 və b.

İmam Suyutiyə görə Quranın möcüzəvi cəhətləri çoxdur və məhdudlaşdırıla bilməz. Özü bu xüsusda qələmə aldığı üç cildlik əsərində otuz beş maddə zikr etmişdir.[72]

Qurani-Kərimin möcüzəvi cəhətlərini başa düşmək üçün geniş bir elm, mədəniyyət və bəlağət qabiliyyətinə ehtiyac yoxdur. Onu təfəkkür edərək oxuyan hər insan, mədəniyyəti və təhsili nə olursa olsun, möcüzəvi quruluşunu asanlıqla fərq edə bilir.[73] Onun sonsuz qüdrət sahibi bir Yaradıcının kəlamı olduğunu, bir bəşər tərəfindən deyilə bilməyəcəyini dərhal başa düşər.

a) Qanunauyğunluğu və Bəlağəti

Qurani-Kərimin nazil olduğu cəmiyyət, ədəbiyyatın zirvəsində idi. Bazarlarda hamının hüzurunda bəlağət və qanunauyğunluq müsabiqələri keçirilirdi. Cəmiyyət yeddidən yetmişə gözəl söz və şeirlə məşğul olurdu. Buna baxmayaraq bütün ədəbiyyat ustadları, Qurani-Kərimin bəlağət, qanunauyğunluq və qeyri-adi nəzmi qarşısında çarəsiz qalmış və sükutun dərinliklərinə gömülmək məcburiyyətində qalmışdır.

Qurani-Kərim onlara qarşı dəfələrlə meydan oxudu, bütün köməkçilərini çağırıb Quran ayələrinə bənzəyən bir söz gətirmələrini istədi. Belə aşkar meydan oxumağa baxmayaraq həmin təkəbbürlü, şan-şöhrəti uğrunda canını, malını və bütün ailəsini fəda edən ərəblər cavab verə bilmədilər.

72. Suyuti, Mutərəku-l-aqran fi icazi-l-Quran, 1, 3.
73. Buti, Ravai, səh. 160.

Bir gün gün Məkkə müşriklərindən Vəlid bin Muğirə Həzrət Peyğəmbərimizin yanına gəlmişdi. Allah Rəsulu ﷺ ona Quranu-Kərimdən bəzi yerləri oxudu. Vəlidin qəlbi islama qarşı bir qədər yumşalmışdı. Onun bu halından xəbər tutan Əbu Cəhl yanına gələrək:

"-Əmi qövmün sənə vermək üçün mal-dövlət toplayır. Çünki sən Muhəmmədin yanına gedib ondan mal-dövlət istəmisən!"-dedi. Vəlid:

"-Qüreyş məni yaxşı tanıyır və bilir ki, var-dövləti ən çox olanlardan biri də mənəm."-dedi. Əbu Cəhl:

"-O halda Muhəmməd haqqında elə bir şey denən ki, sənin onu inkar etdiyini və ondan xoşlanmadığını bilsin!"-dedi. Vəlid:

"***-Nə deyim? Vallah aranızda şeiri məndən yaxşı bilən insan yoxdur, rəcəzi[74], qəsidəni məndən daha yaxşı bilən yoxdur. Allaha and olsun ki, onun dedikləri bunlardan heç birinə bənzəmir. Allaha and olsun ki, onun dediklərində bir həlimlik var, onun bambaşqa bir ləzzəti var, bütün sözləri yıxıb keçir və hamısından üstün olur. Heç bir söz ondan üstün ola bilmir!***"-dedi. Əbu Cəhl israr etdi:

"-Sən onun əleyhinə bir şey demədikcə qövmün razı olmayacaq!"-dedi. O da:

"-Qoy mən biraz düşünüm!"-dedi. Sonra da: "Bu nəql edilən bir sehrdir"-deyə bildi. (Vahidi, Əsbabu nüzul, səh. 468)

74. Rəcəz: ərəb şeirindəki əruz bəhrlərindən biridir.

Onun bu halı, Qurani-Kərimdə bütün canlılığı ilə belə təsvir edilir:

"**O** (Quran barəsində) **fikirləşdi və** (orada deyilənləri öz ürəyində) **ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi?!** (Peyğəmbərə sehrbaz dedi). **Yenə də ölüm olsun ona! Necə ölçdü-biçdi?! Sonra** (qövmünün üzünə) **baxdı. Sonra üz-gözünü turşutdu, qaşqabağını tökdü. Sonra da** (imandan) **üz çevirdi, (Peyğəmbərə tabe olmağa) təkəbbür göstərdi. Və dedi: "Bu** (sehrbazlardan) **öyrənilən sehrdən başqa bir şey deyildir! Bu yalnız bəşər sözüdür!**" (əl-Muddəsir, 18-25)

Müsəlmanların sayının sürətlə artması və Həzrət Həmzə, Həzrət Ömər kimi cəngavərlərin islamı qəbul etməsindən sonra müşriklər əməlli başlı təlaşa düşdülər. Bir məclis çağıraraq islamın yüksəlişinə mane olmaq üçün çarələr düşündülər:

Bu iş üçün Utbə bin Rəbiəni seçərək Allah Rəsulunun ﷺ yanına göndərdilər. Utbə, müşriklərin daha öncə etmiş olduğu var-dövlət, vəzifə, qadın kimi təklifləri artıqlaması ilə təkrar edərək uzun-uzadı danışdı. Allah Rəsulu ﷺ sözləri bitənə qədər onu səssizcə dinlədi. Sonra da təxəllüsü ilə xitab edərək:

"-Ebu-l-Vəlid! Dediklərin qurtardımı?"-deyə soruşdu. Utbə:

"-Bəli!"-deyincə Rəsulullah ﷺ:

"-İndi də sən məni eşit!"-buyurdu.

Bismillah deyərək Fussilət surəsini oxumağa başladı. Səcdə ayəsi olan 37-ci ayəni də oxuyub səcdə etdikdən sonra:

"-Ey Əbu-l-Vəlid! Oxuduqlarımı eşitdin. Artıq sən özün qərar ver!"-buyurdu.

Utbə qalxıb yoldaşlarının yanına qayıdarkən , onu görən müşriklər:

"-Vallah Əbul-Vəlid, getdiyindən çox fərqli bir üzlə qayıdır. Halı çox dəyişmişdir!"-dedilər. Yanlarına çatanda həyəcanla:

"-Nə oldu, danış görək?"-dedilər. Utbə:

"-Allaha and olsun ki, elə bir söz eşitdim ki, indiyə qədər onun bənzərini heç eşitməmişdim. O nə şeir, nə sehr, nə də kəhanətdir! Muhəmməd:

فَإِنْ أَعْرَضُوا فَقُلْ أَنْذَرْتُكُمْ صَاعِقَةً مِثْلَ صَاعِقَةِ عَادٍ وَثَمُودَ

"(Ya Peyğəmbər!) **Əgər** (Məkkə müşrikləri sənin bu sözlərindən sonra haqdan, imandan) **üz döndərsələr, de: "Mən sizi Ad və Səmud ildırımı kimi bir ildırımla** (bu tayfaları məhv etmiş tükürpədici bir səslə, müdhiş bir əzabla) **qorxuduram!**"[75]dediyi zaman, daha artıq oxumasın deyə əlimlə ağzını tutdum. Oxumaması üçün qohumluq haqqımızı dilə gətirərək and içdim. Çünki Muhəmmədin dediyi hər şeyin eynilə baş verdiyini bildiyim üçün üzərimizə əzab enəcəyindən qorxdum.

75. Fussilət, 13.

Ey Qüreyş camaatı, gəlin məni eşidin! Onu öz işi ilə baş-başa buraxın, aradan çəkilin! Əgər Onu ərəblər öldürərsə, başqası vasitəsilə Ondan qurtulmuş olarsınız. Əgər O, ərəblərə hakim olarsa, Onun hakimiyyəti sizin hakimiyyətiniz, Onun qüdrət və şərəfi sizin qüdrət və şərəfiniz deməkdir. Beləliklə Muhəmməd sayəsində insanların ən məsudu olarsınız!"-dedi.

Qüreyşlilər:

"-Əbu-l-Vəlid! O səni də dili ilə sehrləmişdir!"-deyincə Utbə:

"-Mənim fikrim budur. Siz necə istəyirsinizsə elə edin!"-deyə qarşılıq verdi. (İbn Hişam, I, 313-314; İbn Kəsir, əl-Bidayə, III, 111-112)

Hicrətin doqquzuncu ilində Mədinəyə hər tərəfdən heyətlər gəlməyə başlamışdı. Bu əsnada Bəni Uqeyl qəbiləsindən Əbu Hərb bin Xuleyid də, Həzərət Peyğəmbərimizin yanına gəldi. Rəsulullah ona Qurani-Kərim oxudu və islamı anlatdı. Qurani-Kərim və islam dininə heyran qalan Əbu Hərb:

"Allaha and olsun ki, sən ya Allaha, ya da Allaha qovuşana qovuşmusan! Sən elə sözlər deyirsən ki, doğrusu biz onun kimi gözəl bir söz heç eşitmədik..."-dedi.[76]

Qurani-Kərim nazil olmadan öncə, ədəbiyyat günlərində çox ciddi bir bəlağət və ahəng qanunauyğunluğu yarışları keçirilirdi. Buna baxmayaraq heç kim "Bir bənzərini hazırlayıb Quranla yarışaq."-deyə

76. İbn Sad, I, 302-303; İbn Əsir, Kamil, II,286: İbn Haldun, Tarix, II, 2, 51.

bilmədi. Bu məşhur ədəbiyyatçılar, enən ayeyi-kərimələrin Haqdan gədiyini vicdanla qəbul etdikləri halda sırf nəfsani hisslərinə görə rədd edirdilər. Quranın Allahın kitabı olduğunu qəbul edirlər, lakin –haşa- Allahın iradəsinə və təqdirinə səhvən olmuş deyirdilər. Onların nəfsani hisslərinə məhkum ağıllarına görə Quran, zəngin olmayan, yetim bir adama deyil; ya Məkkənin zənginlərindən Vəlid bin Muğirəyə, ya da Taifin zənginlərindən Amr bin Umrəyə endirilməli idi. Belə ki, Vəlid bin Muğirə belə demişdi:

"-Qüreyşin böyüyü və ağası olan mən, yaxud Sakifin ulusu Amr bin Umeyr durarkən məgər Quran Muhəmmədə enəcək?!.." (İbn Hişam, I, 385, müq.et. əz-Zuxruf, 31)

Halbuki bəndələrin Allah dərgahındakı dəyəri, nə kasıblıqda, nə də əsil-nəcabətdədir; lakin təqvadadır. Qaldı ki, Həzrət Muhəmməd Mustafa ﷺ əsil-nəcabət baxımından da onların ən şərəflisi idi.

Məşhur ərəb şairlərindən və ədiblərindən Əbu-l-Əla əl-Məarri, Qurani-Kərimin möcüzəviliyi xüsusunda belə deyir:

"Doğru yoldan azanlar, hidayətə qovuşanlar, mötədillikdən ayrılanlar və doğru yolu tapanlar, bütün bunların hamısı Muhəmmədin ﷺ gətirdiyi möcüzəvi Kitabın hər şeyi məğlub etdiyində ittifaq etmişdirlər... **Allah-Təalanın göndərdiyi bir ayeyi-kərimə və ya onun bir qismi, hər nə zaman ən aşkar bir sözün arasına qoyulacaq olsa, bu ayə qaranlığın ortasında parıldayan bir ulduz kimi özünü göstərər...**"

Quranın təsirindən heç bir şey itirmədən günümüzə qədər gələn möcüzəvi bir kitab olduğuna dəlil axtarıldığında, təcrübə və müşahidədən daha aşkar və daha təsirli bir dəlil tapmaq mümkün deyildir. Çünki ilk nazil olmağa başladığı gündən bu günə qədər Qurana söz çatdıra bilən insan çıxmamışdır. Belə bir şeyi təcrübə etmək istəyənlər də bütün bəşəriyyətin hüzurunda rəzil olaraq qiyamətə qədər onlardan ayrılmayacaq bir ar yüklənmişdirlər.[77]

b) Qeybdən Xəbər Verməsi

Qurani-Kərim, qeybə dair bir çox xəbərlər və işarələr ehtiva edir. Onda keçmişə, bu günə və gələcəyə dair işarələr və məlumatlar mövcuddur.[78]

İnsanın ilk yaradılış səhnəsini burada cərəyan edən hadisələri (Embriologiya), əvvəlki qövmləri, onların hekayələrini, onlara göndərilən peyğəmbərlərlə münasibətlərini anlatması, keçmişə aid qeyb xəbərləridir.

Allah-Təalanın zati-uluhiyəti, sifətləri, etdikləri, mələklər, cinlər və qəbir aləmi, cənnət cəhənnəmlə bağlı xəbərlər, xüsusilə əhli-kitab, münafiq və müşriklərin qəlblərindən keçirdikləri hiylə və tələlərlə psixoloji quruluşlalarını izah edən ayələr də nüzul zamanı ilə əlaqədar qeybi xəbərlərdir.

77. Bax. Buti, Ravai, səh. 126, 129, 130; Karaçam, İsmail, Sonsuz *Möcüzə Quran*, səh. 159-175; Hacımüftüoğlu, Nəsrullah, Quranın Bəlağəti və Ecazı üzərinə, səh. 58-62, 90.

78. Sabah Abdulfəttah Xalidi, *əl-Bəyan fi ecazi-l-Quran*, Əmman 1991, səh.234; Yavuz, Ecazu-l-Quran, DİA, XXI, 405.

Qeybə dair xəbərlərin ən mühümləri isə, gələcəkdə cərəyan edəcək hadisələrin bildirilməsidir. Bu xəbərlərin eynilə bildirildiyi kimi həyata keçdiyini tarix də təsdiq edincə, Qurani-Kərimin "Alləmu-l-Ğuyub" yəni qeybləri tam olaraq və ən gözəl şəkildə bilən Allah-Təala tərəfindən endirildiyinə şübhə qalmamışdır. Gələcəyə dair qeyb xəbərlərinin bir qismi bu şəkildədir:

Fironun Cəsədi

Firon ordusu ilə Həzrət Musanı arxasınca gedərkən dəniz yarılmış, Musa عليه السلام və yanındakılar salamatlıqla qarşı tərəfə keçmiş, Firon isə ordusu ilə boğulub həlak olmuşdu. Firon Qırmızı dənizin girdablarında boğularkən məcburiyyət qarşısında iman gətirmək istədi. Allah-Təala ona belə buyurdu:

"**İndimi?** (Bütün var-dövlətin, hakimiyyətin əlindən çıxdıqdan sonramı iman gətirirsən?) **Halbuki əvvəlcə** (Allaha) **qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun! Səndən sonrakılara bir ibrət olsun deyə, bu gün səni xilas edəcəyik** (sənin cansız bədənini sahilə atacağıq)**. Həqiqətən, insanların çoxusu ayələrimizdən qafildir!**"(Yunus, 91-92)

Yaxın zamanlarda aparılan araşdırmalarda Fironun cəsədi tapıldı. Hal-hazırda bu cəsəd, səcdə vəziyyətində Londondakı Britsh muzeyində 94-cü salonda nümayiş etdirilir. Üzərindən minlərlə il keçməsinə baxmayaraq çürüməmiş, insanlara ibrət olması üçün Allah-Təala tərəfindən mühafizə edilmişdir.

Rumluların Qalibiyyəti

Xristian rumlularla məcusi sasanilər arasında bir müharibə baş vermiş və məcusilər qalib gəlmişdi. Bundan istifadə etmək istəyən müşriklər, müsəlmanlara:

"-İlahi kitab sayəsində üstün gələcəyinizi zənn edirdiniz. Məhz məcusilər, əhli-kitab olan rumluları məğlub etdilər."-deyərək onların iman və əzmlərini qırmağa çalışdılar. Bundan sonra Allah-Təala müşriklərə kədər, möminlərə sevinc bəxş edəcək bu ayələri nazil etdi:

"**Əlif, Lam, Mim! Rumlular** (bizanslılar sasanilərə) **məğlub oldular.** (Ərəbistana) **ən yaxın bir yerdə** (Şamda və ya Urdunda)**. Lakin onlar** (bu) **məğlubiyyətlərindən sonra qalib gələcəklər. Bir neçə ilin içində** (üç illə doqquz, yaxud on il arasında)**. Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər; Allahın köməyi ilə.** (Allah) **istədiyinə kömək edər. O, yenilməz qüvvət sahibi, mərhəmət sahibidir!**" (ər-Rum, 1-5)

Həmin vaxt rumlular o qədər zəifləmişdilər ki, heç kim bellərini qıran bu məğlubiyyətin arxasınca təkrar qalib gələ biləcəklərini ehtimal etmirdi. Lakin Qurani-Kərim güclü bir təkidlə belə buyururdu:

"(Bu zəfəri Kitab əhlinə) **Allah vəd etdi. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların çoxu** (müşriklər bunu) **bilməzlər!**" (ər-Rum, 6)

Nəhayət Allah-Təala vədini gerçəkləşdirdi. Tarixçilərin ittifaqına görə doqquz ildən az bir müddət ərzində Rumlular sasanilərə qalib gəldilər. Eyni gün müsəlmanlar da Bədr savaşında müşriklərə qalib gəlib sevin-

dilər.[79] Bu da 4-cü və 5-ci ayələrdə xəbər verilən ikinci bir möcüzə idi.

Yenə Qurani-Kərim, Bədr savaşında düşmən ordusunun məğlub ediləcəyini[80],bir müddət sonra müsəlmanların qələbə çalıb Məkkəni fəth edəcəyini[81] xəbər verdi. Bunlar da eynilə baş verdi. Buna bənzər bir çox daha misal mövcuddur.[82]

Həzrət Peyğəmbərimizin özü qeyb sahəsinə girən bu cür xəbərləri vəhyə istinad etmədən, əvvəlcədən xəbər verməsi imkansızdır. O halda Qurani-Kərim Allahın kəlamıdır və bütün ifadələri ən doğrudur.

c) Elmi Kəşflərə İstiqamət Verməsi

Əsas məqsədi insanı hidayətə çatdırmaq olan Qurani-Kərimin çox saydakı ayəsində, xüsusilə tövhid əqidəsinə diqqət çəkməklə təbiət elmlərinin sahəsinə girən mövzularda verdiyi köklü məlumatların, daha sonra modern elm tərəfindən də kəşf edilməsi, onun başqa bir möcüzəvi cəhətini təşkil edir. Yəni Qurani-Kərim daim öndə gedir, islam isə onu arxadan izləyir.

Ayeyi-kərimədə elmi araşdırmalar aparan, Allahın təbiətə və ictimai həyata qoymuş olduğu dəyişməz

79. Bax. Tirmizi, Təfsir, 30/3191-3194; Əhməd, I, 276; Qurtubi, əl-Cami, XIV, 3.
80. əl-Qəmər, 45.
81. əl-Fəth,16, 27; Bəzi misallar üçün bax. Yusuf əl-Hac Əhməd, *Mövsuatu-l-icazi-l-ilmi fi-l-Qurani Kərim və sünnətu-l-mütəəxxəra*, Dəməşq, 2003, səh 20-24
82. Təfsilat üçün bax. Osman Nuri Topbaş, Rəhmət əsintiləri, səh. 279-293.

qanunları kəşf etməyə çalışan alimlərin nəticədə Quranın vəhy məhsulu bir kitab olduğunu görəcəkləri ifadə edilir.[83] Digər bir ayəyə görə[84] Qurani-Kərim, gələcəkdə meydana çıxacaq bəzi məlumatlara işarə edir. İnkar edənlər isə Qurani-Kərimin üslubunu araşdırmadan və gələcəyə dair verdiyi xəbərlərin baş verməsini gözləmədən dərhal kor-koranə onu yalanlamağa cəhd edirlər.[85]

Elmi kəşflərə istiqamət verməsi, Qurani-Kərimin qiyamətə qədər bütün zaman və məkanlarda davam edəcək ayrı bir möcüzəsidir. Qurani-Kərimin ehtişamını, hər dəfəsində isbat etməkdədir. Belə ki, davamlı artaraq davam edən elmi tərəqqilər, bu məlumatları mütəmadi olaraq təsdiq edir. Misal olaraq bunları qeyd edə bilərik:

Barmaq İzi

Barmaq izlərini araşdıran elm sahəsi (Daktiloskopiya), barmaq uclarının ömür boyunca heç dəyişmədən eyni qaldığını; heç bir insanın barmaq ucunun başqasınınkına bənzəmədiyini isbat etmişdir. Bu səbəbdən təhlükəsizlik və hüquq müdafiəsində ən etibarlı şəxsiyyətin müəyyən edilməsi, barmaq izi ilə edilir. Bu həqiqət XIX əsrin sonlarında kəşf edilib ondan istifadə edilməyə başlanmışdır. Halbuki Qurani-Kərim barmaq uclarının bu xüsusiyyətinə əsrlər öncəsi belə diqqət çəkmişdir:

83. Səbə, 6.
84. Yunus, 39.
85. Alusi, Ruhu-l-məani, XI, 119-120, (Yunus, 39)

"**Məgər insan elə güman edir ki,** (qiyamət günü) **onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaqlarını da** (barmaq sümüklərini də, barmaqlarının uclarını da) **düzəltməyə qadirik!**" (əl-Qiyamə, 3-4)

Ağrını Dəri Hiss Edər

Tailand, Can-Mayn Univesiteti Tibb Fakultəsinin dekanı Prof. Dr. Tajaket Tajason, işgəncə ilə əlaqədar bir araşdırma aparmış və bu nəticələrə gəlmişdir:

Əzabın uzun müddət davam edə bilməsi üçün, dərilər atəşdə yanıp hissiyat yox olduğunda, onlara yenidən eyni qabiliyyəti qazandırmaq lazımdır. Çünki əzab dərilər üzərində baş verdiyinə görə dərilər yanayana içindəki sinirlər yığılaraq hissiyatsız hala gəlir ki, bu da əzabın artıq hiss edilməməsi deməkdir. Çünki beyin, idarə etdiyi hiss etmə qabiliyyətini dəri vasitəsilə edir.

Bu elmi nəticələri əldə edən Tajasona bir gün bu ayeyi-kərimə göstərildi:

"**Ayələrimizi inkar edənləri oda** (Cəhənnəmə) **atacağıq. Onların dəriləri bişdikcə, əzabı** (həmişə) **dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik. Əlbəttə, Allah yenilməz qüvvət, hikmət sahibidir!**" (ən-Nisa, 56)

Ayeyi-kərimə, Tajasonu şok etdi. Qurani-Kərimin bir bəşər olmayacağını etiraf etdi. Vətəninə qayıtdığında verdiyi konfransında tələbələrindən beş nəfər iman etdi. Nəhayət özü də ər-Riyadda verilən səkkizinci tibb konqresində kəlimeyi-şəhadət gətirdikdən sonra

sevinclə; "Mən də müsəlman oldum!"-deyə hayqırdı və bundan sonrakı ömrünü Qurana həsr etdi.

Atomun Parçalanması

Qurani-Kərimdə 14 əsr əvvəl belə buyurulmuşdur:

"**Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda** (lövhi-məhfuzda) **olmasın!**" (Yunus, 61)

Ayeyi-kərimədə atomdan daha kiçik varlıqlardan bəhs edilir. Halbuki atomun parçalana biləcəyi hələ yaxın zamanlarda kəşf edilmişdir. Daha öncə atomun, maddənin parçalanmayan ən kiçik hissəsi olduğu zənn edilirdi.

Böyük islam mütəfəkkiri Mövlana Həzrətləri də (1207-1273) əsrlər öncəsi bu həqiqəti belə xəbər vermişdir:

"Bir zərrəni (atomu) kəsərsənsə, daxilində bir günəş və günəş ətrafında fırlanan planetlər taparsan!"

Mövlana Həzrətlərinin Məcalisi-Səba, Fihi ma fih və Məsnəvi adlı əsərlərini fransız dilinə tərcümə edən Eva De Vitary Meyerovict, Mövlananın mesajlarındakı şifrələri çözməyi bacarmış məşhur şəxsiyyətlərdən biridir. O belə deyir:

"Fəxr edirəm ki, Mövlananın son tərcümə etdiyim əsəri mənim 10 ilimi aldı. Xariqüladə gözəl və böyük bir əsərdir bu."

Təsəvvür edin, Mövlana, "Atomu kəsərsinizsə, günəş sistemini taparsınız."-deyir. İçində və ətrafında

fırlanan planetlər olduğunu deyir. Ancaq buna diqqət etməyin zəruri olduğunu da ifadə edir. Çünki bu atomlar ağızlarını açdıqlarında, bütün dünyanı yox edə biləcək bir atəşin çıxacağını əlavə edir. Göründüyü kimi, 13-cü əsrdə atom bombasının təhlükələrindən danışılır. Doqquz planetin olduğunu deyir. Halbuki elm bunu yalnız 1930-cu ildə isbat edə bildi. Daha öncələr yeddi planetin olduğu zənn edilirdi. Qərbdə günəşin dünya ətrafında fırlandığı deyilərkən, Mövlana dünyanın digər planetlər kimi, kiçik bir planet olduğunu deyir. Hətta həqiqətən xariqüladə başqa şeylər də deyir. Dünyada yaşayan bütün canlılar ulduzların təsirindədir. Günəş; bitkilərə və heyvanlara təsir edir, ay, dənizə təsir edər kimi və dahası bilinməyən bir çox şey də deyir..."[86]

Mövlana Həzrətləri bütün elmini, irfanını və feyzini Qurani-Kərimdən və Həzrət Peyğəmbərimizin hədisi-şəriflərindən almışdı.

Cüt Yaradılış

Ayeyi-kərimədə Allah-Təala belə buyurur:

"**Biz hər şeydən** (erkək və dişi, bir-birinin əksi olmaqla) **cüt-cüt yaratdıq. Bəlkə, bir düşünüb ibrət alasınız!**" (əz-Zariyat, 49)

"**Yerin yetişdirdiklərindən, onların** (insanların) **özlərindən və bilmədiklərindən** (erkək və dişi olmaq-

86. www.medyapazari.com/Türkiyə/atombombasının təhlükələrindən xəbərdar.html

la) **cütlər yaradan Allah pakdır, müqəddəsdir!** (Eyibsiz və nöqsansızdır!)" (Yasin, 36; Həmçinin bax. ər-Rəd, 3)

Elm xadimləri son dövrlərdə kəşf etmişdirlər ki, insanlar və heyvanlar necə cütdürsə, bitkilər və digər varlıqlar da hamısı cüt-cüt yaradılmışdır. Atomlar belə cütdür. Onların bir qismi müsbət, bir qismi də mənfi yüklüdür. Məsələn müsbət elektrik mənfi elektrikə axar, lampa yanar; müsbət bulud mənfi buludla toqquşar yağmur yağar. Bu ilahi qanun bütün məxluqata şamildir.

Kainatın Genişlənməsi

Yaxın zamanlarda kainatın genişləndiyi, qalaktikaların bir-birindən müəzzəm bir sürətlə uzaqlaşdığı kəşf edildi. Bu qanuna görə nəhəng qalaktikalar, aralarındakı uzaqlıqla doğru ölçülü bir şəkildə bir-birindən uzaqlaşır. Məsələn, bizdən 10 milyon işıq ili uzaqlığındakı bir qalaktika, saniyədə 250 kilometr sürətlə bizdən uzaqlaşarkən, 10 milyard işıq ili uzaqlıqdakı bir qalaktikanın uzaqlaşma sürəti saniyədə 250 000 kilometrdir.[87]

Bu məsələyə Qurani-Kərimdə belə işarə edilir:

"**Biz göyü qüdrətimizlə** (qüdrət əlimizlə) **yaratdıq və Biz** (istədiyimiz hər şeyi yaratmağa) **qadirik.** (və ya: Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik)." (əz-Zariyat, 47)

87. Prof.Dr. Osman Çaxmaq, *Bir Toxumdakı Kainat*, İstanbul 2005, səh.28.

Qorunmuş Tavan

Ömrünü bitirib partlayan ulduzların hissələri olan göy daşları (meteoritlər) səmanın hər tərəfinə dağılır. Allah-Təala, dünyanı bunlardan mühafizə edir. Yupiter və nəhəng cazibə qüvvəsi ilə Saturun, dünya üçün təhlükəli olan bir çox cismi tutarlar. Zaman zaman bu iki planeti keçərək Yer kürəsinə yaxınlaşan bu meteorit daşlarını da Ay özünə çəkər. Atmosferi olmadığına görə Aya düşən hər meteorit daşı səthə çırpılar. Bu toqquşmaların ayda meydana gətirdiyi kraterləri kiçik bir durbinlə belə görmək mümkündür.

Ayı da keçən meteoritlər, əgər çox böyük deyillərsə atmosferə daxil olunca sürtünmə səbəbilə yanmağa başlayarlar. "Ulduz sürüşməsi (axması)" dediyimiz bu hadisə nəticəsində meteoritlər yerin səthinə çatmadan Mezosfer təbəqəsində ən xırda toz zərrələri halında dağılırlar. Sonra bu toz zərrəciklərinin hər biri bir yağmur dənəciyinə toxum olur.[88]

Həmçinin dünyanın hərəkətindən meydana gələrək onu əhatə edən maqnit sahəsi və atmosferin müxtəlif təbəqələri də dünyanı kosmosdan gələn zərərli şüalardan və günəş partlayışlarından mühafizə edirlər.

Atmosfer bizi kosmosdakı mənfi 270 dərəcəyə çatan xəyala gəlməz soyuqdan mühafizə edir. Məsələn, atmosferi olmayan ayda hava gecə mənfi 150 dərəcə, gündüz isə müsbət 100 dərəcəyə yaxın yaxın olur. Çünki "qorunmuş tavan"ı olmadığına görə günəşdən

88. Çaxmaq, *e.a.ə*, səh. 94, 127.

gələn bütün istilik və işıq olduğu kimi Ayın üzərinə düşər.

Qurani-Kərimdə bu həqiqətlərə belə işarə edilir:

"**Göyü** (yerdən ötrü və onun üstünə düşməsin deyə) **qorunub saxlanılan bir tavan etdik. Halbuki** (kafirlər) **ayələrimizdən** (vəhdaniyyətimizi, qüdrətimizi sübut edən bu dəlillərdən) **üz döndərdilər.**" (əl-Ənbiya, 32)

Bir-birinə Qarışmayan Dənizlər

Rəhman surəsinin 19 və 20-ci ayələrində:

"(Suları şirin və acı olan) **iki dənizi O qovuşdurdu** (bir-birinə qovuşmaq üçün açıb buraxdı)**. Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar** (özləri üçün müəyyən edilmiş həddi aşmazlar)**.**" buyurulmuşdur. Nəml surəsinin 61-ci ayəsində də eyni xüsusa işarə edilir.

Bu ayələrdə bildirilən həqiqət, əsrimizdə dərk edilən bir Quran möcüzəsidir. Son kəşflərdə Ağ dəniz ilə Atlantik okeanının birləşdiyi Cəbəllü-t-Tariq boğazında suların bir-birinə qarışmasına mane olan sudan bir pərdənin olduğu müəyyən edilmişdir. Beləliklə iki dənizin suyu bir-birinə qarışmır, hər iki tərəf də başlıca xarakterini mühafizə edir. Eyni qəbildən olan bu maneə 1960-cı illərdə Ədən körfəzi ilə Qırmızı dənizin birləşdiyi Məndəb boğazında da kəşf edildi. Elmi araşdırmalara görə duzla zənginləşmə tərkib səviyyəsi fərqli iki su kütləsi , **"səthi gərilmə"** deyilən bir xüsusiyyət sayəsində bir-birinə qarışmır.

Bu yaradılış möcüzəsinin ən böyük faydası, müxtəlif sularda müxtəlif canlıların yaşamasına şəraitin təmin edilməsidir.

Çaylar və Dənizlər

Yuxarıda bəhs edilən bu maneəni, şirin sulu çayların dənizə töküldüyü yerdə və deltalarda görmək mümkündür. Həm üst, həm də dib axını ilə bir-birinə qarışması son dərəcə asan görünən çaylar, dənizlərə töküldüyü yerlərdə əsla duzlu su ilə qarışmazlar. Allah-Təala bu iki su arasına bir-birinə qarışmamaq qanunu qoymasaydı, yerüzündəki şirin sulu çaylar duzlu dəniz suyu ilə qarışar, içlərindəki və ətraflarındakı canlılarla birlikdə yox olub gedərdilər.

Ayeyi-kərimədə buna belə diqqət çəkilir:

"**Birinin suyu çox şirin, digərininki isə olduqca şor** (acı) **olan iki dənizi qovuşduran, aralarında** (birbirinə qarışmamaq üçün) **maneə və keçilməz sədd qoyan Odur!**" (əl-Furqan, 53)

Üst-üstə Dalğalar, Üst-üstə Qaranlıqlar

Okeanların dibinə enmək, hardasa kosmosa çıxmaq qədər çətin bir məsələdir. İnsanlar, bu iş üçün düzəldilmiş xüsusi vasitələr olmadan yalnız 70 metrə qədər dərinliyə dala bilirlər. Bundan artığı qeyri-mümkündür. Bu səbəbdən dənizlərin 200 metrə qədər dərinliyi hardasa qaranlıq, 1000 metrdən sonrası isə tamamilə zil qaranlıqdır.

Allah-Təala bizə dəniz diblərinin, öz əlimizi belə görə bilməyəcəyimiz qədər qaranlıq olduğunu 1400 il əvvəl belə xəbər vermişdir:

"**Yaxud** (onların əməlləri) **zəngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud** (dalğa) **– zülmət üstündən zülmət örtər. O, əlini çıxartdıqda, hardasa onu görməz. Allah bir kəsə nur bəxş etməsə, onun nuru olmaz.**" (ən-Nur, 40)

Ayeyi-kərimənin başındakı "**Yaxud** (onların əməlləri) **zəngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, onun da üstündən bir bulud** (dalğa) **– zülmət üstündən zülmət örtər.**" ifadəsi bambaşqa və yenə yaxın zamanda kəşf edilən elmi bir həqiqəti xəbər verir: İç dalğalar...

Okean suları dərinliyə endikcə bir-birindən fərqli sıxlıqda təbəqələrdən əmələ gəlmişdir. Bu təbəqələr arasında eynilə oken səthindəki kimi dalğalar meydana gəlməkdədir. Bunlara "dib dalğalar" və ya "iç dalğalar" adı verilmişdir. Bu dalğaları gözlə müşahidə etmək mümkün deyildir. Yalnız, su təbəqələri arasındakı istilik və duzluluq səviyyəsinin fərqlərini ölçərək başa düşmək mümkündür.

Bütün bu yeni kəşflərin hamısı Qurani-Kərimi təsdiq edir...

Rəsulullah ﷺ dənizçi olmamaqla yanaşı, dənizdə səyahət də etməmişdir. Lakin Qurani-Kərimdə dənizlərlə əlaqədar bu və bənzəri ayələr mövcuddur. Bunlar üzərində təfəkkür etdiyimizdə Qurani-Kərimin vəhy-

dən başqa bir yolla Həzrət Peyğəmbərimizə gəlməyəcəyi qənaətinə varırıq. Çünki bir mənzərəni təsvir edən insan, yalnız yaşadığı və ya gəzib gördüyü yerlərdəki ünsürlərdən istifadə edə bilir. Qurani-Kərim səhralarla əhatələnmiş bir bölgəyə nazil olduğu halda, hələ onda nəhəng çaylardan, yamyaşıl mənzərələrdən, torpağa can verən yağış yüklü buludlardan, bağlardan, bağçalardan, dağlardan və dənizlərdən bəhs edilir.

Atmosfer Təzyiqi

Qurani-Kərim, kafirin halını, səmaya doğru yüksələrkən qəlbi sıxılıb daralan bir insanın halına bənzədir.[89]

Bu gün elmi kəşflər, yüksəkliyə qalxdıqca havada sıxlığın azaldığını, təzyiqin aşağı düşdüyünü və oksigenin azaldığını göstərmişdir. Bu səbəbdən insan yüksəkliyə qalxdıqca, nəfəs almaqda çətinlik çəkir, ürəyi sıxılır.

Ayeyi-kərimədə bu mənanı ifadə edən kəlmənin tələffüzü və musiqisi də eyni mənanı sanki tətbiqi surətdə insana yaşadır.

Həzrət Peyğəmbərimizin dövründə yüksəkliyə qalxacaq bir vasitə olmamaqla yanaşı, yaşadığı coğrafiyada yüksək dağlar belə yox idi. O halda belə bir təşbih və ifadə yalnız hər şeyi bilən Allah-Təalaya aid ola bilər.

Peyvənd Edici (tozlandırıcı) Küləklər

Qurani-Kərimdə on dörd əsr öncə belə buyurulmuşdur:

89. əl-Ənam, 125.

"**Biz** (buludla) **yüklənmiş** (bitkilərə, ağaclara həyat verən, onları tozlandıran) **külək göndərdik, göydən yağmur endirib sizə su verdik** (içirtdik)." (əl-Hicr, 22)

Bu ayənin nazil olmasından əsrlər sonra, küləklərin bitkiləri və buludları peyvənd etdiyi (tozlandırdığı) kəşf edilmişdir.

Küləklərə, **"yoğunlaşma nüvəsi"** adı verilən toz zərrəciklərini daşımaq kimi mühüm bir vəzifə verilmişdir. Dəryaların üzərindən qalxan duz zərrəcikləri, səhralardan sovrulan tozlar, yanar dağların pükürtdüyü küllər külək vasitəsilə atmosferin üst təbəqələrinə qədər daşınır. Bunlarla havadakı su buxarı aşılanaraq su zərrələri halına gəlir. Bunlar olmasa, su buxarı sıxılmaz və bu mənada insanlar da yağmurdan məhrum qalar.

Yenə yer üzündəki saysız-hesabsız bitki növünə aid çiçək tozları və toxumlar, küləklər vasitəsilə birindən digərinə keçir. Beləliklə bitkilərin döllənərək çoxalması, nəslini davam etdirməsi və çiçək, meyvə, çərəz kimi məhsullarını verməsi təmin edilir.

Allah-Təala buludların ağır olduğunu ifadə edir.[90] Alimlər buludlardan yağan yağmuru hesablamışlar, məsələn 50 kvadrat kilometrlik bir ərazini bir santimetr qalınlığında örtəcək yağmurun ağırlığı yarım milyon tona bərabərdir. Tək bir yağmur buludunun da 300 000 ton ağırlığında ola biləcəyini ifadə etmişdirlər.

Nur surəsinin 43-cü ayəsində də dolu ilə şimşəyə və ikisi arasındakı münasibətə işarə edilir.

90. əl-Əraf, 57

Qurani-Kərim, bunlar kimi hələ bir çox elmi həqiqətə işarə etmişdir ki, bunların bir qismi kəşf edilmiş, bir qismi isə hələ də kəşf edilməyi gözləyir.[91]

Peyğəmbərlərə İman

Peğəmbərlər, hidayət rəhbərləridir.

İnsan özbaşına sirəti-müstəqimdə addımlamaq xüsusunda zəiflik göstərib bir çox xətalar etməyə müqtədir olduğundan Allah-Təala, onu öz fəzlindən peyğəmbərlərlə qarşısını almışdır. Beləliklə Allah-Təala insana kitablar və peyğəmbərləri ilə məsuliyyət hüdudlarını bildirdikdən sonra onu mükəlləf etmişdir. Heç bir cəmiyyəti də belə bir lütfdən məhrum qoymamışdır. Ayeyi-Kərimədə belə buyurulur:

"**Doğrudan da, Biz səni haqla** (Quranla) **müjdə verən və qorxudan bir peyğəmbər olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, onun içindən** (kafirləri Allahın əzabı ilə) **qorxudan** (xəbərdar edən) **bir peyğəmbər** (yaxud alim) **gəlib-getməsin!**" (Fatir, 24)

91. Quran və elm mövzusunda təfsilat üçün bax. Osman Nuri Topbaş, *Rəhmət Əsintiləri* (Genişlədilmiş yeni nəşr), İstanbul 2010, səh. 293-372 (www. islamiyayinlar.net/content/view/106/8/); Dr. Maurice Bucaille, La Bible le Coran et la science; les ecritures saintes examines a la lumiere des connaissances moderns, Paris : Seghers 1980 (The Bible, the Quran and science, trc. Alastair D. Pannel, Karaçı, t.y.); Afzalurrahman, Quranic Sciences, London 1981; Prof. Dr. Ömer Çelik, Tek Kaynak iki ırmak: Kurandan Teknolojik Yansımalar, İstanbul 2009; İmaduddin Xəlil, "The Quran and Modern Science: Observations on Methodology", The American journal of islamic Social Sciences, 1991, Vol. 8, 1, səh. 1-13; Prof. Dr. Vahiduddin Xan, İslam Meydan Oxuyur, İstanbul 1996; M. Sinan Adalı, Quran Möcüzələri, İstanbul 2010.

Dinin məqsədi insandakı nəfsani hissləri sanki yox edərcəsinə heçə endirmək, nurani vəsfləri də zirvəyə çatdırmaqdır. Lakin bu məqsədin həyata keçə bilməsi üçün insanın konkret bir misala ehtiyacı vardır. Peyğəmbərlərin göndərilməsindəki hikmətlərdən biri də, onların insanlar üçün tabe olacaq mükəmməl bir nümunə olmalarıdır.

Allah-Təala belə buyurur:

"**Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər** (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!**" (əl-Əhzab, 21)

Peyğəmbərlər, Qurani-Kərimdə zikr edilənlərdən ibarət deyildir.[92] Rəvayətlərə görə 124 min və ya 224 min peyğəmbər göndərilmişdir. Bunlardan bəzilərinə müstəqil bir şəriət verilmiş, bəziləri də əvvəlki peyğəmbərin şəriətini davam etdirmişdir.

Peyğəmbərlər layiq olmaqla deyil, ilahi təyinlə vəzifələndirilmişdirlər. Bu mənada onlar Allah tərəfindən verilmiş fərqli xüsusiyyətlərə sahibdirlər. Peyğəmbərlərə iman, bu xüsusiyyətləri qəbul etməklə tamamlanmış sayılır:

Sidq: Peyğəmbərlər söz və davranışlarında daim doğru olurlar. Söz və davranışları bir-birinin aynası hökmündədir. Onların yalan danışmaları təsəvvür edilə bilməz. Onların doğruluqları, onlara iman etməyənlər tərəfindən belə təsdiq edilmiş bir ucalıqdır.

92. ən-Nisa,164

Əmanət: Peyğəmbərlər bəşəriyyətin ən əmin insanlarıdır. İman əhli olmayanlar belə onlara sonsuz bir güvənlikləri vardır. Belə ki, Rəsulullah ﷺ haqqında deyilən Muhəmmədul-Əmin ifadəsi müşriklərin də dillərindən düşmür və onlar əmanətlərini öz yaxınlarına deyil Rəsulullaha ﷺ təslim edərdilər. Hətta Həzrət Peyğəmbər ﷺ hicrət edəcəyi zaman belə üzərində müşriklərin bir sıra əmanətləri var idi. Və ölüm təhlükəsinə baxmayaraq Həzrət Əlini Məkkədə qoyub onları sahiblərinə təslim etdirmişdi.

Fətanət: Peyğəmbərlər, insanlar arasında hər baxımdan xüsusilə ağıllı və dünyagörüşlü olmaq baxımından ən üst dərəcədədirlər. Onlar, güclü bir hafizə, yüksək bir məntiq və inandırmaq qabiliyyətinə sahibdirlər. Məsələn, Həzrət Peyğəmbərimizin bütün həyatı belə misallarla doludur.

Təbliğ: İlahi əmrləri tam doğru şəkildə əmr edildikləri kimi insanlara bildirirlər. Onların təbliğində özlərindən nə əlavə, nə də əskiklik vardır.

İsmət: Gizli və aşkar hər cür üsyan və günah etməkdən uzaqdırlar. Lakin onların da; acizliyi hiss etmələri və bəşər olduqları unudulub onlara müqəddəslik izafə edilməməsi üçün bəzən "zəllə" dediyimiz qeyri-iradi bəşəri təzahürləri olmuşdur. Çünki onlar, nümunə götürülməsi mümkün olacaq davranışlar göstərmək halındadır. Əks halda insanlar, "Peyğəmbərlərin əmr etdikləri bizim taqətimiz xaricindədir."-deyərək ilahi əmr və qadağaları yerinə yetirməyə bəhanə tapardılar.

Peyğəmbərlərin bu beş sifəti xaricində yalnız Rəsulullaha ﷺ aid bu sifətlər də mövcuddur.

1. Rəsulullah ﷺ Həbibullahdır, bütün peyğəmbərlərdən əfzəldir və O, bəşəriyyətin ən şərəflisidir.[93]

2. Rəsuli-Əkrəm ﷺ bütün insanlara və cinlərə göndərilmişdir. Yəni Rəsulu-s-Səqaleyndir. Gətirdiyi din qiyamətə qədər əbədi qalacaq. Digər peyğəmbərlər isə müvəqqəti bir zaman üçün, bəziləri isə məhdud bir qövmə göndərilmişdir. Bu baxımdan hər peyğəmbərin möcüzəsi öz dövrü ilə məhdudlaşarkən, Həzrət Peyğəmbərin möcüzələri bütün zamanlara şamil olunur. Xüsusilə Qurani-Kərim, Ona verilən ən böyük möcüzə olaraq qiyamətə qədər təhrifə uğramadan qorunaraq əbədi qalcaqdır. (Bax. Buxari, Təyəmmüm, 1)

3. Xatəmu-l-Ənbiya, yəni peyğəmbərlərin sonuncusu və möhürüdür. (Müslim, Məsacid, 5, 6).

4. Həzrət Peyğəmbərə ﷺ qiyamət günü üçün Məqami-Mahmud və şəfaəti uzma bəxş edilmişdir. Bu səbəbdən o mərhəmət peyğəmbəri, məhşərdə ümmətinin günahkarlarına şəfaət edəcək və bu şəfaətini də Allah-Təala qəbul edəcəkdir. (Buxari, Tövhid, 36; Buxari, Təyəmmüm, 1)

5. Bir aylıq öncədən düşmənin qəlbinə qorxu salmaqla yardım olunmuşdur.

6. O və ümməti üçün yer üzü məscid və təmiz edilmişdir. Buna əlavə olaraq ümmətindən hər hansı

93. Bax. Tirmizi, *Mənaqib*, 1/3616; Darimi, *Müqəddimə*, 8; Əhməd, VI, 241; Heysəmi, IX, 29.

bir mömin, namaz vaxtı gəlincə, dərhal olduğu yerdə namazını qıla bilər.

7. Daha öncə heç bir peyğəmbərə halal qılınmayan qənimət, Ona halal buyurulmuşdur.

8. Cəvamiu-l-kəlim (az sözlə bir çox mənalar ifadə edə bilmə) xüsusiyyəti bəxş edilmişdir.

9. Yer üzü xəzinələrinin açarları gətirilib qarşısına qoyulmuşdur. (Müslim, Məsacid, 5, 6)

Bir sözlə peyğəmbərlərin hamısı da vəhdaniyət əsası üzrə insanlığa rəhbərlik etmiş mübarək bir şəxsiyyətdirlər. Onlardan Quranla sabit olmuş hər hansı birinin peyğəmbərliyini inkar, insanı iman dairəsindən çıxarır. Məsələn, bir insan Həzrət İsanın nübüvvətini inkar, insanı iman dairəsindən çıxarır. Məsələn, bir adam Həzrət İsanın vübüvvətini inkar etsə mömin olmaz. Çünki bütün peyğəmbərlər həmişə eyni əsasları təbliğ etmişlər və bu səbəbdən onların təbliğatında ifadəsini tapan din islam olmuşdur.

"**Peyğəmbərlərə salam olsun! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!**" (əs-Saffat, 181-182)

a. Son Peyğəmbər Həzrət Muhəmməd Mustafa ﷺ

Allah-Təala əhli kitab haqqında belə buyurur:

"**Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki,** (Allah) **sizə Öz mərhəmətindən iki pay versin, sizə** (qıl körpüsü üstündə) **getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!**" (əl-Hədid, 28).

İbn Abbas ﷺ bu ayəni belə təfsir edir:

"Burada zikr edilən ikiqat nəsibdən biri İsaya ﷺ, İncilə və Tövrata olan imanlarına görədir. Digəri də Həzrət Muhəmmədə ﷺ olan imanları və Onu təsdiq etdiklərinə görədir.

Ayeyi-kərimədəki nurdan məqsəd isə, Quran və Həzrət Peyğəmbərə ﷺ tabe olmalarıdır..." (Nəsəi, Qada, 12)

Rəsulullah ﷺ də Allah-Təalanın əhli-kitabdan öz peyğəmbərinə və Muhəmmədə ﷺ iman edən insanlara ikiqat mükafat lütf edəcəyini bəyan etmişdir. (Buxari, Elm, 13)

Bu gün iman əhlindən ola bilmək üçün Allah-Təalaya imanla yanaşı Həzrət Muhəmməd Mustafaya ﷺ da iman etmək zəruridir. İman, bu iki cəhətin qəlbdə bir bütün halında yerləşməsi nəticəsində baş verər. Bu mənada nə yalnız Allah-Təalaya iman kifayətdir, nə də Rəsuluna.

Ayeyi-kərimədə belə buyurulur:

"**Allaha itaət edin, Rəsula itaət edin!**" (əl-Maidə, 92; ən-Nur, 54, 56; Muhəmməd, 33; ət-Təğabun, 12)

"**Kim Rəsula itaət edərsə, Allaha itaət etmiş olar.**" (ən-Nisa, 80)

"**Kim Allaha və Rəsuluna itaət edərsə, böyük bir qurtuluşa çatmış olar.**" (əl-Əhzab, 71)

Ona görədir ki, kəlimeyi-şəhadət, yəni Allahın birliyini və Həzrət Peyğəmbərin ﷺ Onun qulu və rəsulu olduğunu ifadə etmək, İslamın ilk şərtidir.

Həzrət Peyğəmbərimizə iman etmək; Onu qəbul etməyi, Ona itaət edərək tabe olmağı, Onu sevməyi zəruri edər.

Böyük islam alimi Əhməd bin Hənbəl həzrətləri belə buyurmuşdur:

"Müshəfi-şərifə baxdım və otuz üç yerdə Rəsulullaha ﷺ itaətin əmr edildiyini gördüm."

Sonra bu ayeyi-kəriməni oxudu:

فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ اَمْرِهٖٓ اَنْ تُصِيبَهُمْ فِتْنَةٌ اَوْ يُصِيبَهُمْ عَذَابٌ اَلِيمٌ

"**Peyğəmbərin əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!**" (ən-Nur, 63)

Sonra bu ayeyi-kəriməni təkrar-təkrar oxuyur və belə buyururdu:

"Ayədə hədəfə çatacağı bildirilən fitnə nədir? Şirkdir, küfrdür. Hər halda həmin fitnə insanın başına belə gəlir: Bir adam Peyğəmbərimizin ﷺ sözünü rədd etdiyində qəlbinə bir əyrilik gəlir, qəlbi mənfiyə meyl edər. Nəhayət həmin adamın qəlbi hidayətdən tamamilə uzaqlaşar və sahibini həlak edər."

Bunları deyən Əhməd bin Hənbəl, bu ayeyi-kəriməni oxumağa başladı:

"**Amma, xeyr!** (Ya Rəsulum!) **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** (münsif) **təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaət-

lə boyun əyməyincə, (həqiqi surətdə) **iman gətirmiş olmazlar.**" (ən-Nisa, 65)[94]

Həzrət Muhəmməd ﷺ miladi 571-ci ilin 20 aprelinə təsadüf edən 12 Rəbiüləvvəl bazar ertəsi, Günəş doğulmadan bir qədər öncə Məkkeyi-Mükərrəmədə yerüzünü şərəfləndirdi. Onun mübarək soyu Həzrət İsmailin oğlu Kayzar sülaləsinin ən şərəflisi olan Adnana qədər gedib çıxır.[95] Rəsulullah ﷺ Qüreyş qəbiləsi arasında həm ata tərəfindən, həm də ana tərəfindən ən təmiz və ən şərəfli bir ailəyə mənsubdur.

Dünyaya gəlməsindən iki ay əvvəl atası, altı yaşında ikən də anası vəfat etdi. Onun yetim uşaqlığı və gəncliyi, əmisinin yanında böyük bir iffət və ülviyət içində keçirdi. Bir müddət çobanlıq etdi.[96] Daha sonra ticarətlə

94. İbn Batta əl-Uqbəri, *əl-İbanətu-l-kübra*, 99; İbn Teymiyə, *əs-Sarimu-l-məslul*, Beyrut, 1417, I, 59.

95. Buxari, *Mənaqibu-l-Ənsar*, 28; İbn Hişam, I, 1-3; ibn Sad, I, 55-56

96. Bütün peyğəmbərlər çobanlıq etmişdir. (Buxari, İcarə, 2, Ənbiya, 29) Beləliklə Allah-Təala onlara təbliğ vəzifəsini verməzdən öncə idarəçilikdə lazım olan bir sıra qabiliyyətlər qazandırmışdır. Çobanlıq edən insanlarda təfəkkür üfüqü, vüqar və mərhəmət hissi inkişaf edər. Qoyunları otarmaq və idarə edib yırtıcı heyvanlardan qorumağa çalışaraq səbir və sahib çıxamaq hisslərini gücləndirirlər. Belə ki, yaradılmış hər varlığa mərhəmət etmək, onların kobud və düşüncəsiz hallarına səbr etmək, peyğəmbərlərdə olması zəruri olan ən mühüm xüsusiyyətlərdəndir. Çoban sürüsünü canavarlardan mühafizə edər, öndən və arxadan gedənləri izləyər, geri qalan xəstə və zəif qoyunları qucağına alaraq sürüyə çatdırar. Çoban heyvanlarını münbit ərazilərdə otarar, onları quraqlıq yerlərdə həlak etməz. Peyğəmbərimiz ﷺ "Hamınız çobansınız və hamınız otardığınız sürüdən məsulsunuz..."-buyurur. (Buxari, Vəsayə,9) Demək ki, bütün müsəlmanların belə bir məsuliyyət

məşğul oldu.[97] Dürüslüyü və ticarətdəki ədaləti ilə hər kəs tərəfindən tanındı, hörmət və etibar qazanaraq **"əl-Əmin: Ən etibarlı insan"** sifətini qazandı. Etibarlılıq sanki onun ikinci bir adı olmuşdu. 25 yaşlarına gəldiyində Məkkədə yalnız **əl-Əmin** adı ilə çağırılırdı[98]. Kəbə təmir edilərkən Həcəri-Əsvədi yerinə qoymaq xüsusunda ixtilafa düşdükləri zaman, hamısı da Həzrət Peyğəmbərimizin hakimliyinə etrazsız təslim olmuş, o da dahiyanə bir çözümlə böyük bir savaşın qarşısını almışdı.[99]

Allah Rəsulu ﷺ mürvət etibarı ilə qövmünün ən üstünü, soy etibarilə ən şərəflisi, əxlaq baxımından ən gözəli idi. Qonşuluq haqqına ən çox riayət edən, helm və sədaqətdə ən üstün olan, insanlara pislik və əziyyət verməkdən ən çox uzaq duran O idi. Heç kimsəni qınayıb ayıbladığı, heç kimsə ilə münaqişə etdiyi görünməmişdir.[100] Gözəl əxlaqı ilə bütün insanlar arasında nümunə idi. Hamı Onu yaxşılıq və gözəl davranışları ilə tanıyır və ehtiram göstərirdi.

Peyğəmbərlik Vəzifəsi

Qırx yaşına gəldiyində ona peyğəmbərlik verildi. Heç belə bir şey gözləmirdi, lakin Allah-Təala hər zaman olduğu kimi yenə istədiyi şeyi reallaşdırmışdı.

şüuru ilə yaşaması zəruridir.
97. Buxari, İcarə, 2; Əbu Davud, *Ədəb*, 17, 82; Hakim, III, 200.
98. İbn Sad, I, 121, 156
99. İbn Hişam, I, 209-214; Əbdürrəzzaq, V, 319.
100. İbn Hişam, I, 191; İbn Sad, I, 121.

Rəsulullah ﷺ çətin şərtlər altında peyğəmbərlik vəzifəsinə başladı. İnsanlara doğru yolu göstərmək üçün bir çox sıxıntılara sinə gərdi. Yerüzünə imanı, ədaləti, mərhəməti, məhəbbəti yerləşdirmək üçün çalışdı. İnsanların həm dünyalarını, həm də əbədi olan axirət həyatlarını qurtarmaq üçün özünü həlak edərcəsinə böyük bir əmək sərf etdi. Onlara:

"**Bu etdiyim müqabilində sizdən hər hansı bir zəhmət haqqı tələb etmirəm.**[101]"-deyərək sırf Allah rizası üçün təbliğ edirdi. İnadkar kafirlər isə inadlarında israr edirdilər.

Rəsulullah ﷺ ümmi bir insan idi. O vaxtkı bir çox insan kimi oxumaq-yazmaq bilməzdi. Allah-Təala belə buyurur:

"(Ya Rəsulum!) **Sən bundan** (bu Qurandan) **əvvəl nə bir kitab oxumusan, nə də onu əlinlə yazmısan. Əgər belə olsaydı, onda batilə uyanlar** (onun barəsində) **şəkk-şübhəyə düşərdilər** (Onu hardansa oxuyub öyrənmişdir, deyərdilər)**.**" (əl-Ənkəbut, 48)

Bu səbəbdən Peyğəmbərimizin dediyi şeyləri hər hansı bir kitabdan, ya da insandan rəvayət etməsi qeyri-mümkün idi. Ümmi bir insanın qırx yaşından sonra birdənbirə ən yüksək səviyyədəki bəlağət və səlisliklə çox mühüm məlumatlar verməyə başlaması yalnız ilahi vəhylə mümkün ola bilərdi. Bunu o vaxtki bütün düşmənlər bilir və qəbul edirdilər.

Müşriklər Rəsulullahı ﷺ mübarizəsindən çəkindirmək üçün çox çalışdılar. Çox sevdiyi əmisini vasitəçi

101. Sad, 86.

etdilər. Peyğəmbərimizin yanına gələrək Onu kral (başçı) seçmək, aralarında pul yığıb ən zəngin etmək, ən gözəl qızlarla evləndirmək kimi cazibədar təkliflər etdilər və "Nə istəyirsənsə etməyə hazırıq."-dedilər. Allah Rəsulu ﷺ olduqca aşkar və qəti bir tərzdə bu cavabı verdi:

"**-Mən sizdən heç bir şey istəmirəm. Nə mal, nə mülk, nə səltənət, nə də şahlıq! Mənim yeganə istədiyim budur: Bütlərə sitayiş etməkdən uzaq durun, yalnız bir olan Allaha ibadət edin!**" (İbn Kəsir, əl-Bidayə, III, 99-100)

Həzrət Peyğəmbərimizdən hər hansı bir müsbət cavab ala bilməyən müşriklər, bezdirmək davranışlarına başlayırlar. Müsəlmanlara qarşı əziyyət və işgəncələrini günbəgün artırdılar. Müsəlmanların bir qismi həmin dövrdə ədalətin hakim olduğu Həbəşistana hicrət etdi.

Müşriklər, müsəlmanlar və onları qoruyan Həşim oğulları ilə hər cür ticarəti, qız alıb vermək kimi mədəni münasibətləri və bütün bəşəri münasibətləri kəsdilər. Bunu bir əqdnamə yazaraq Kəbənin divarına asdılar. Bu boykot və embarqo üç il bütün şiddəti ilə davam etdi. Müsəlmanlar çox böyük aclıq və sıxıntılar çəkdilər. Aclıqdan ağacların qabıqlarını və yarpaqlarını yedilər. Uşaqların ağlamaq səsləri çox uzaqlardan eşidilirdi.

İlahi! Qövmümü Bağışla; Çünki Bilmirlər

Üç il sonra boykot sona çatdı, lakin məhz həmin günlərdə Həzrət Peyğəmbərimizin əmisi Əbu Talib və xanımı Həzrət Xədicə vəfat etdi. Bundan sonra düş-

mənlik dözülməz həddə çatdı. Allah Rəsulu ﷺ Zeyd bin Harisəni yanına götürərək Məkkədən 160 km. aralıda yerləşən Taif şəhərinə getdi. Qohumlarının da olduğu bu şəhərdə on gün qaldı. Onlar da əvvəlcə ələ saldılar, sonra da həqarət etdilər. Sonra da kölələrini Allah Rəsulunun keçdiyi yolların iki kənarına düzüb onu həqarət edərək daş-qalaq etdilər. Hər tərəfi al qan içində qalan o rəhmət peyğəmbəri, başına gətirilən bu acınacaqlı işgəncə qarşısında belə bəddua etmək bir yana, vəzifəsində hər hansı bir nöqsan olmasından qorxaraq belə dua etdi:

"Allahım! Taqətimin sona çatdığını, çarəsizliyimi, xalqın nəzərində xor və həqir görülməyimi sənə ərz edirəm. Ey mərhəmətlilərin ən mərhəmətlisi! Əgər mənə qarşı qəzəblənməmisənsə, çəkdiyim əziyyət və bəlalara əhəmiyyət vermərəm! İlahi! Sən qövmümə hidayət ver; onlar bilmirlər. İlahi! Sən razı olana qədər bağışlamağını istəyirəm..." (İbn Hişam, II, 29-30; Heysəmi, VI, 35)

Bu duasından da başa düşüldüyü kimi Rəsulullah ın ﷺ yeganə məqsədi Allah-Təalanı razı edə bilmək və Onun verdiyi vəzifəni ən gözəl şəkildə yerinə yetirə bilmək idi. Bu uğurda qarşılaşdığı ən ağır işgəncə və əzablar belə gözünə görünmürdü. Çünki O bir "**Rəhmət Peyğəmbəri**" idi.

Allah Rəsulu ﷺ Taifdən qayıdışını belə dilə gətirir:

"...Mən geri qayıtmış, dərin kədər içində yürüyərək gedirdim. Qarnu-s-Səalib səmtinə çatana qədər özümə gələ bilmədim. Orada başımı qaldırıb baxdığımda, bir buludun

məni kölgələdiyini gördüm. Diqqətlə baxdıqda buludun içində Cəbraili عليه السلام gördüm. Mənə:

"-Allah-Təala qövmünün sənə nə etdiyini və səni himayə etməyi necə rədd etdiyini eşidir. Onlara istədiyini etməsi üçün sənə Dağlar Mələyini göndərdi."-deyə səsləndi. Budan sonra Dağlar Mələyi mənə səslənərək salam verdi. Sonra da:

"-Ey Muhammməd! Qövmünün sənə nə dediyini Allah-Təala eşidir. Mən Dağlar Mələyiyəm. Nə əmr etsən etməyim üçün Allah-Təala məni sənin yanına göndərdi. Nə etməyimi istəyirsən? Əgər istəyirsənsə, bu iki dağı onların başın uçurum!"-dedi. Həmin anda:

"**-Xeyr, mən Allah-Təalanın onların nəsillərindən yalnız Allaha ibadət edəcək və Ona heç bir şeyi ortaq qoşmayacaq insanlar çıxarmasını istəyirəm!**"-dedim."
(Buxari, Bədu-l-Xalq, 7; Müslim, Cihad, 111)

Taifdən qayıdarkən Allah Rəsulu ﷺ gecəni keçirdiyi bir yerdə Quran oxuyarkən bir dəstə cin Onu eşitdi. Hamısı da həqiqəti başa düşüb Rəsulullaha ﷺ iman etdilər. Bir müddət söhbət etdikdən sonra qövmlərinin yanına təbliğ vəzifəsi ilə qayıtdılar.[102]

Bu sıxıntılardan sonra Allah-Təala Həzrət Peyğəmbərimizə meracı lütf etdi. Bir gecə Onu Məscidi-Hərəmdən aldı, ona bəzi ayələrini (dəlillərini) göstərmək üçün ətrafını mübarək etdiyi Məscidi-Aqsaya apardı. Oradan da səmalara ucaltdı. Mahiyətini bilmədiyimiz xüsusi bir söhbət baş verdi.[103]

---

102. Bax. əl-Əhqaf, 29-32; əl-Cin, 1-10; Buxari, Təfsir 72, Əzan 105; Müslim, Salat 149; Tirmizi, Təfsir 72/3324; İbn Sad, I, 212.
103. Bax. əl-İsra, 1; ən-Nəcm, 1-18; Buxari, Bədül-xalq 6, Ənbiya 22,

Hicrəti Nəbəvi (Peyğəmbərin hicrəti)

Həmin vaxt Mədinədən gələn bir dəstə insan müsəlman oldu. Onlar Mədinədə islamı başa salmağa çalışdılar. Həzrət Peyğəmbərimizdən də müəllim (dəvətçi) istədilər. Musab bin Umeyrlə Abdullah bin Ümm-i-Məqtumu vəzifələndirdi. Onların səyi nəticəsində qısa bir zamanda islamın daxil olmadığı bir ev qalmadı. Nəticədə müsəlmanlar, Həzrət Rəsulullahı ﷺ Mədinəyə dəvət edərək onu mühafizə edəcəklərinə söz verdilər.

Bəra bin Azib belə rəvayət edir:

"Peyğəmbərin ﷺ əshabından bizə (Mədinəyə) ilk hicrət edənlər Musab bin Umeyrlə İbnu-l-Məqtum رضي الله عنهما idi. Bunlar gəldilər və bizə Quran oxutmağa başladılar. Sonra Ammar bin Yasir, Bilal və Sad bin Əbi Vaqqas رضي الله عنهم gəldilər. Daha sonra iyirmi nəfərlə birlikdə Ömər bin Xəttab رضي الله عنه gəldi. Bunlardan sonra Peyğəmər ﷺ gəldi. Mədinə əhalisinin Həzrət Peyğəmbərimizin gəlişinə sevindikləri qədər heç bir şeyə sevindiklərini görmədim. Hətta gənc qızları və uşaqları gördüm:

"-Bax bu Rəsulullahdır, bizim şəhərimizə gəldi!"- deyə sevinirdilər.

Rəsulullah ﷺ gəldiyində mən "سَبِّحِ اسْمَ رَبِّكَ الْاَعْلٰى" surəsini və onun kimi bir neçə surəni də əzbərləmişdim." (Buxari, Təfsir, 87/1)

43, Mənaqibu-l-Ənsar, 42, Təfsir 17/3, Əşribə 1, 12; Müslim, İman 264, 272, Əşribə 92; Tirmizi, Təfsir 94, Dəavat 58; Nəsəi, Salat 1, Əşribə 41; Əhməd, V, 418; İbn Sad, I, 214.

Beləliklə on üç illik Məkkə mübarizəsi bitmiş, on il davam edəcək olan Mədinə həyatı başlamış oldu.

Mədineyi-Münəvvərədə qonşu yəhudi qəbilələri ilə saziş imzalandı. "Mədinə Vəsiqəsi" deyilən bu saziş, dünya tarixində ilk dəfə yazılmış konstitusiya idi.[104]

Daha sonra Mədinəyə hücum edən düşmənlərə qarşı müdafiə istehkamları düzəldildi. Səkkiz il sonra Məkkə savaş olmadan fəth edildi. Onuncu ildə isə bütün Ərəbistan yarımadası Həzrət Peyğəmbərimizə təslim oldu.

Aləmlərə rəhmət olaraq göndərilən Rəsulullah ﷺ hərbi yürüşlərdə elə bir mərhəmət siyasəti yürütdü ki, qısa bir zamanda bütün Ərəbistan yarımadasını rəhbərliyi altına aldığı halda, hər iki tərəfdən də çox qan tökülməsinə imkan vermədi. Bütün problemləri başlıca olaraq sülh yolu ilə həll etməyi üstün tutdu.

Həzrət Peyğəmbərimiz ﷺ şəxsən 29 savaşda iştirak etdi. Bunların on altısında əməli olaraq heç bir döyüş olmadı, belə ki qarşı tərəflə razılıq əldə edildi. On üç savaşda isə döyüşmək məcburiyyətində qaldı və bunların cəmisi müsəlmanlardan təxminən 140 nəfər şəhid oldu və düşmənlərdən də təxminən 335 nəfər öldü.[105]

İslamda savaşın başlıca hədəfi; insanları öldürmək, qənimət əldə etmək, torpaq zəbt etmək, torpağı qanla

104. Prof. Dr. M. Həmidullah, *The First Written Constitution in the World*, Lahore 1975.
105. Bax. Prof. M. Həmidullah, *Həzrət Peyğəmbərin Savaşları*, İstanbul 1991; Dr. Elşad Mahmudov, Səbəbləri və nəticələri baxımından Həzrət Peyğəmbərin Savaşları, İstanbul 2010.

sulamaq, yerüzünü xarabazar etmək, şəxsi mənfəətini təmin etmək, maddi mənfəət ələdə etmək və ya intiqam almaq deyildir. Bunların əksinə zülmü ortadan qaldırmaq, inanc hürriyətini təmin etmək, insanları hidayətə qovuşdurmaq və hər cür haqsızlığa qarşı çıxmaqdır.

Allaha Qovuşmaq Arzusu

Rəsulullahın ﷺ azad etdiyi Əbu Müveyhibə رضي الله عنه belə rəvayət edir:

Rəsulullah ﷺ bir gün mənə:

"-Baqi əhli üçün tövbə etməklə əmr olundum. Haydı, mənimlə gəl!"-buyurdu. Mən də gecəyarısı onunla bərabər getdim. Qəbiristanlıqda yatanların başı üzərində dayandı və belə buyurdu:

"-əs-Sələmu aleykum ey qəbir əhli! İnsanların içində olduğu durumdansa, öz içində olduğunuz durum sizi daha çox sevindirsin! Qaranlıq gecə parçaları kimi fitnələr gəlir. Bunlar bir-birlərini izləyir. Sonrakı fitnələr, ilk fitnələrdən daha ağır və sərt olacaqdır."

Rəsulullah ﷺ daha sonra mənə yönəlib belə buyurdu:

"-Əbu Müveyhibə! Şühəsiz mənə dünya xəzinələrinin açarları ilə dünyada əbədi qalma, sonra da cənnətə girmə imkanı verildi. Mən, bunlarla Rəbbimə qovuşmaq arasında sərbəst buraxıldım."

Həmin anda mən:

"-Atam-anam sənə fəda olsun! Dünya xəzinələrinin açarları ilə orada əbədi qalmağı, sonra da cənnətə girməyi üstün tut!"-dedim.

"**-Xeyr, Ey Müveyhibə Allaha and olsun ki, Rəbbimə qovuşmağı üstün tutdum.**"

Sonra Baqidəki möminlər üçün tövbə edib geri qayıtdı. Bundan sonra Rəsulullahın ﷺ vəfatına səbəb olan xəstəliyi və ağrıları başladı." (Darimi, Müqəddimə, 14; Əhməd, III, Hakim, III, 57/4383)

Rəsulullah ﷺ 632-ci ildə Mədineyi-Münəvvərədə hicrətinin 10-cu ilində Allah-Təalaya qovuşdu.

1) Gözəl Əxlaqı

Rəsulullah ﷺ gəlmiş və gələcək insanların ən gözəl əxlaqlısıdır. Çünki Allah-Təala belə buyurmuşdur:

"**Və həqiqətən, səni minnətsiz** (tükənmək bilməyən) **mükafat gözləyir! Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!**" (əl-Qələm, 3-4)

O, ən gözəl əxlaqı yerüzünə gətirən və bəşəriyyətə öyrədən ən seçilmiş peyğəmbərdir.

Ğifar qəbiləsinə mənsub mənsub olan Əbu Zər ﷺ Həzrət Peyğəmbərimizin Məkkədə peyğəmbərlik vəzifəsinə başladığını xəbər alır. Ağıllı və ustad bir şair olan qardaşı Üneysə:

"-Miniyinə min, Məkkə vadisinə get və O şəxsin sözlərini eşit!"-dedi.

Üneys, Məkkədən qayıtdığında belə dedi:

"-Mən o şəxsin hər kəsə gözəl əxlaqı yəni ən üstün əxlaqı gözəllikləri öyrətdiyini gördüm!" (Buxari, Ədəb, 39)

Həzrət Rəsulullah ﷺ də:

"Mən başqa bir məqsədlə deyil, gözəl əxlaqı tamamlamaq üçün göndərildim."[106] buyurmaqla vəzifəsinin başlıca hikmətini ifadə etmiş və gözəl əxlaqın əhəmiyyətini vurğulamışdır.

Onun uca əxlaqından bəzi misallara nəzər salaq:

Doğruluğu

Rəsulullah ﷺ haqq və həqiqəti gətirmişdi, insanları islah etmək, onlara doğruluğu öyrətmək üçün gəlmişdi. Bu səbəbdən Onun yalan danışması bir yana, boş və lüzumsuz bir söz və ya davranışı belə olmazdı.

Abdullah bin Amr رضي الله عنه belə rəvayət edir:

"Mən, mühafizə etmək düşüncəsi ilə Rəsulullahdan ﷺ eşitdiyim hər şeyi yazırdım. Qüreyş qəbiləsindən bəzi müsəlmanlar məni bunu etməkdən qadağan etdi:

"-Rəsulullah ﷺ də bir bəşərdir, qəzəblənərkən də, danışarkən də, razı olarkən də! Belə olan halda sən Ondan eşitdiyin hər şeyi yazırsanmı?"-dedi.

Mən də yazmaqdan əl çəkdim və bu hadisəni Rəsulullaha ﷺ ərz etdim. Barmağı ilə mübarək ağzına işarə edərək;

"-Yaz! Varlığım qüdrət əlində olan Allaha and içirəm ki, bundan haqdan başqa bir söz çıxmaz!"-buyurdu." (Əbu Davud, Elm, 3/3646; Darimi, Müqəddimə, 43/490; Əhməd, II, 162; Hakim, I, 187)

106. Muvatta, *Hüsnü-l-Xulq*, 8; Əhməd, II, 381; Beyhəqi, əs Sünənu-l-Kübra, X, 192.

Həzrət Peyğəmbərimizin hər sözü dini hökmlər üçün bir dəlildir. Qəzəbli və sevincli anları onun hər an Haqqa bağlı və ilahi vəhyi alan mübarək qəlbinə təsir edə bilməz, mübarək dilindən axan hikmət çeşmələrini bulandıra bilməz.

Onun doğruluğunu dost-düşmən hamı qəbul etmişdir. Bunu göstərən saysız misallardan ikisini nəql edək:

Müşriklər belə Həzrət Peyğəmbərimizin əxlaqını təqdir edir və onun qəti şəkildə yalan demədiyinə qəlbdən inanırdılar. Lakin haqsız yerə əldə etdikləri bəzi dünyəvi mənfəətləri və nəfsani həzzlərini tərk etmək istəmirdilər. Belə ki, Allah Rəsulu ﷺ bir gün, qatı düşmənləri olan Əbu Cəhl və dostlarının yanına getmişdi. Onlar:

"-Ey Muhəmməd! Vallah biz sənin yalan danışmadığını bilirik, Sən bizim yanımızda son dərəcə sadiq (doğru sözlü, etibarlı) bir insansan. Lakin biz, sənin gətirmiş olduğun ayələri yalanlayırıq..."-dedilər.

Bu xüsusda Allah-Təala bu ayeyi-kəriməni nazil etdi:

"**Həqiqətdə isə onlar səni yalançı hesab etmirlər** (ürəklərində sənin həqiqi peyğəmbər olduğunu yaxşı bilirlər)**. Ancaq o zalımlar** (müşriklər) **Allahın ayələrini inadla inkar edirlər.**" (əl-Ənam, 33; Tirmizi, Təfsir, 6/3064; Vahidi, Əsbab, səh. 219)

"Yəni onlar Həzərt Rəsulullahın peyğəmbərliyini vicdanən qəbul edirdilər. Lakin nəfsani arzularının əsiri olduqlarına görə etiraz edirdilər.

Bu xüsusdakı başqa bir rəvayət də bu şəkildədir:

"Mədinəli olan Sad bin Muaz ﷺ ümrə etmək üçün Məkkeyi-Mükərrəməyə getmişdi. Oraya çatanda müşrik olan Ümeyyə bin Xələfin evində qonaq olur. Ümeyyə də ticarət üçün Şama gedərkən yolunu Mədinəyə salır və Sad bin Muazın qonağı olur. (Aralarında bir dostluq əlaqəsi yaranır). Ümeyyə, Sada:

"Biraz gözlə! Günortanın qızmar istisi keçib insanlar seyrəldikdən sonra gedib Kəbəni təvaf edərsən!"-dedi.

Sad ﷺ təvaf edərkən Əbu Cəhl ilə rastlaşdı və:

"-Kəbəni təvaf edən bu adam kimdir?"-deyə soruşdu. Sad ﷺ:

"-Mən Sad bin Muazam!"-dedi. Əbu Cəhl:

"-Kəbəni belə rahatlıqla (əminliklə) təvaf edirsən, ancaq Muhəmməd ilə əshabını himayə edirsiniz?"-deyir. Sad ﷺ:

"-Bəli, elədir."-dedi və aralarında mübahisə yarandı. Bunu görən Ümeyyə, Sada:

"-Əbu-l-Hakəmə qarşı səsini qaldırma! O bu vadi xalqının öndərlərindəndir."-dedi. Sad ﷺ Əbu Cəhlə:

"-Əgər Kəbəni təvaf etməyə qoymasan, Allaha and olsun ki, mən də sənin Şam ticarət yolunu kəsərəm!"-dedi. Ümeyyə, Sada ﷺ təkrar:

"-Səsini qaldırma!"-deməyə və onu tutmağa çalışdı. Bundan qəzəblənən Sad ﷺ:

"-Bizimlə işin olmasın! Mən Muhəmməddən ﷺ eşitdim, səni öldürəcəyini deyirdi!"-dedi.

(Çünki Ümeyyə, Həzrət Peyğəmbərimizə verdiyi işgəncələr kifayət etmirmiş kimi bir də Onu ölümlə hədələmişdi. Rəsulullah ﷺ də bunun müqabilində özünün onu öldürəcəyini demişdi.)

Ümeyyə:

"-Mənimi?"-deyə soruşdu. Sad رضي الله عنه:

"-Bəli səni!"-dedi. Bundan sonra Ümeyyə bin Xələf:

"-**Allaha and olsun ki, Muhəmməd əsla yalan danışmaz!**"-dedi və qorxu içində xanımının yanına gedərək:

"-Yəsribli qardaşım mənə nə dedi, bilirsənmi?"-dedi. Xanımı:

"-Nə dedi?"-deyə soruşdu. Ümeyyə:

"-Muhəmmədin məni öldürəcəyini deyərkən eşitmişdir!"-dedi.

Xanımı:

"-Allaha and içirəm ki, Muhəmməd əsla yalan danışmaz!"-deyə Sadın xəbərini təsdiq etdi.

Bir müddət sonra müşriklər Bədrə gedərkən bir nəfər Ümeyyəni çağırdı. Xanımı Ümeyyəyə:

"-Yəsribli qardaşının sənə nə dediyini unutdunmu?"-dedi. Ümeyyə Bədrə getmək istəmədi. Lakin Əbu Cəhl gəlib:

"-Sən bu vadinin tanınmışlarındansan, getməsən olmaz. Heç olmasa bir iki gün hamı ilə birlikdə yola

davam et, sonra qayıdarsan!"-deyib onu aldatdı. Ümeyyə də iki gün onlarla yol getdi, lakin geri qayıtmadı. Nəticədə Allah-Təala onu öldürdü. (Buxari, Mənaqib, 25, IV, 184-185).

Təvazökarlığı

Rəsulullah ﷺ insanların ən alisi olmasına baxmayaraq eyni zamanda ən təvazökarı idi. Məkkəni qan tökülmədən fəth etdiyi gün insanlar gözündə ən güclü göründüyü an idi. İllərlə edilən zülmün qisasını ala bilmək anı idi. Lakin O "Əfv və Rəhmət Peyğəmbəri" idi. Həmin gün Məkkeyi-Mükərrəməyə dəvəsinin belində səcdə edərək daxil oldu. Hüzuruna gələn və danışarkən titrəməyə başlayan adama, imkanlarının ən zəif olduğu dövrə aid bir misalı zikr edərək bu şəkildə sakitləşməyi təlqin etdi:

"-Sakit ol qardaşım! Mən nə kral, nə də hökmdaram. Qüreyşdən Günəş altında qurudulmuş ət yeyən bir qadının oğluyam!.." (İbn Macə, Ətimə, 30; Hakim, III, 50/4366)

Allah Rəsulu ﷺ insanların onun haqqında mübaliğə etməsinə imkan verməyərək:

"Mənə "Allahın qulu və Rəsulu"-deyin!"-buyururdu. (Buxari, Ənbiya, 48)

Çünki insanı ucaldan və həqiqətə ən çox yaxınlaşdıran amil təvazökarlıqdır.

Rəsulullah ﷺ peyğəmbərliyini təsdiq cümləsinin başına "abduhu: Allahın qulu" ifadəsini əlavə edərək,

ümmətini keçmiş cəmiyyətlərdə olduğu kimi insanları ilahlaşdırma təhlükəsindən qorumuşdur.

Yenə bu qəbildən bir cümlədə:

"Siz məni hakim olan dərəcədən yüksəyə qaldırmayın! Çünki Allah-Təala məni rəsul etmədən öncə qul etmişdi."- buyurmuşdur. (Heysəmi, IX, 21)

Allah Rəsulu ﷺ xəstələri ziyarət edər, cənazələrdə iştirak edir, kölələrin dəvətini qəbul edir, uzunqulağa minərdi. Miniyinin tərkinə insanları mindirir, yeməyini yerə qoyub yeyərdi. Daranmamış yundan paltar geyinər, oturub qoyunun südünü sağar, qonaqlarını qarşılayar, onlara xidmət və ikram edərdi. Bir dul qadının, bir yoxsulun, bir biçarənin işini görmək üçün onunla birlikdə ehtiyacı qarşılanana qədər addımlamaqdan çəkinməz və təkəbbürlənməzdi.[107]

Rəsulullah ﷺ əshabının arasında əyləşirdi. Bu səbəbdən yad bir adam gəldiyində, hansının Peyğəmbərimiz olduğunu soruşmadan bilməzdi. (Nəsəi, İman, 6)

Sadəliyi

Allah Rəsulu ﷺ son dərəcə sadə və təvazökar bir həyat yaşayırdı. Həzrət Aişə ؓ belə rəvayət edir:

"Rəsulullaha ﷺ bir bardaq gətirildi. İçində süd və bal var idi. Allah Rəsulu ﷺ belə buyurdu:

"-Bir içki içində iki nemət, bir bardaq içində iki qarışıq! Mənim buna ehtiyacım yoxdur. Lakin bunun haram olduğu-

107. Bax. Tirmizi, *Cənaiz*, 32/1017; İbn Macə, *Zöhd*, 16; Nəsəi, Cümə, 31; Hakim, I, 129/205; II, 506/3734; IV, 132/7128; Heysəmi, IX, 20.

nu düşünmürəm. Yalnız qiyamət günü Allah-Təalanın dünyadakı artıq olan şeylərdən hesaba çəkməsindən qorxuram. Allah rizası üçün təvazökar davranıram. Kim Allah rizası üçün təvazökar davranarsa Allah onu ucaldar, kim də təkəbbürlənərsə Allah onu alçaldar. Kim qənaətcil davranarsa, Allah onu zəngin edər, kim ölümü çox xatırlayarsa, Allah onu sevər." (Heysəmi, X, 325)

"Rəsulullah ﷺ heç vaxt sabah qəlyanaltısından qalan yeməkləri axşam üçün, axşam yeməyindən qalanları da səhər üçün saxlamazdı. Eyni paltardan ikisini almazdı. Nə iki köynəyi, nə iki ridası, nə də iki cüt ayaqqabısı oldu. Evdə ikən heç boş durduğu görülməmişdir. Ya bir yoxsulun ayaqqabısını təmir edər, ya da imkansız bir adamın paltarını tikərdi." (İbnu-l-Cövzi, Sifatu-s-Safvə, I, 200)

Şəfqət və Mərhəməti

Allah Rəsulu ﷺ bütün bəşəriyyətə qarşı sonsuz bir şəfqət və mərhəmətlə dolu idi. Allah-Təala belə buyurur:

"(Ey ümmətim!) **Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə** (məşəqqətə) **düşməyiniz ona ağır gəlir, o sizdən** (sizin iman gətirməyinizdən) **ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!**" (ət-Tövbə,128)

Qurani-Kərim eyni zamanda Onun ümmətinin də bütün insanlara, hətta düşmənlərinə belə mərhəmət etdiklərini bəyan edir. (Ali-İmran, 119)

Abdullah bin Ubeyd rəvayət edir:

Rəsulullahın ﷺ Uhudda mübarək dişi qırılmış, alnı yaralanmış və üzündən qan axırdı. Bəziləri:

"-Ya Rəsulallah! O kafirlər üçün niyə bəddua etmirsiniz?"-dedilər. Rəsulullah ﷺ belə buyurdu:

"Allah-Təala məni insanların çoxlu eyiblərini söyləyən və onlara lənət edən birisi olaraq göndərmədi! Allah-Təala məni hər kəs üçün çox-çox dua etmək və insanlara rəhmət olmaq üçün göndərdi. Allahım! Qövmümü bağışla, çünki onlar bilmirlər!" (Beyhəqi, Şuab, II, 164/1447)

Allah Rəsulu ﷺ yalnız insanlara deyil, heyvanlara və bitkilərə belə sonsuz mərhəmət sahibi idi. Bir gün zəiflikdən qarnı belinə yapışmış bir dəvənin yanından keçərkən:

"-Bu dilsiz heyvanlar haqqında Allahdan qorxun! Yemlədikdən sonra minin və yemlədikdən sonra kəsib yeyin!"-buyurmuşdur. (Əbu Davud, Cihad, 44/2548)

Comərdliyi

Allah Rəsulu ﷺ insanların ən comərdi idi. Qüreyş müşriklərinin tanınmışlarından Səfvan bin Ümeyyə, müsəlman olmadığı halda Huneyn və Taif savaşlarında Həzrət Peyğəmbərimizin yanında olmuşdu. Ciranədə toplanan qənimət mallarını yoxlayarkən Səfvanın qələbəlik heyvan sürülərinə böyük bir heyranlıqla baxdığını görən Rəsulullah ﷺ:

"-Çoxmu bəyəndin?"-deyə soruşdu. "Bəli" cavabını alınca:

"-Al hamısı sənin olsun!"-buyurdu. Səfvan özünü saxlaya bilməyərək:

"Peyğəmbər qəlbindən başqa heç bir qəlb bu dərəcədə comərd ola bilməz!"-deyərək şəhadət gətirdi və müsəlman oldu. Qəbiləsinin yanına qayıtdıqdan sonra da:

"-Ey qövmüm! (Tələsin) müsəlman olun! Çünki Muhəmməd, yoxsulluq və ehtiyac qorxusu duymadan çox böyük ikram və ehsanlar edir."-dedi. (Bax. Müslim, Fəzail, 57-58; Əhməd, III, 107-108; Vaqidi, II, 854-855)

Süfyan bin Üyeynə belə demişdir:

"Onun yanında (verməyə bir şeyi) olmadığı zaman, (əlinə düşdüyündə verəcəyinə dair) söz verirdi." (Darimi, Müqəddimə, 12)

Hətta daha dəqiqi...

Bir gün, ehtiyac sahibi bir nəfər Həzrət Peyğəmbərimizin yanına gələrək bir şey istədi. Allah Rəsulu ﷺ

"Yanımda sənə verə biləcəyim bir şeyim yoxdur, get mənim adımdan satın al, mal gəldiyində ödəyərəm."-buyurdu. Peyğəmbərimizin sıxıntıya girməsinə könlü razı olmayan Həzrət Ömər رضي الله عنه:

"-Ya Rəsulallah! Yanında varsa verərsən, yoxdursa Allah səni gücünün çatmadığı şeylə mükəlləf etməmişdir."-dedi.

Allah Rəsulu ﷺ-in bu sözdən xoşnud olmadığı mübarək çöhrəsindən bəlli oldu. Bunu görən Ənsardan bir nəfər:

"**-Anam, atam Sənə fəda olsun ya Rəsulallah! Ver! Ərşin sahibi azaldar deyə qorxma!**"-dedi.

Bu səhabənin sözləri Peyğəmbərimizin çox xoşuna getdi və təbəssüm edərək:

"-Mən də bununla əmr olundum."-buyurdu. (Heysəmi, X, 242)

Həzrət Cabirin rəvayət etdiyinə görə:

"Həzrət Peyğəmbərimizdən bir şey istənildikdə, "xeyr" dediyinə rast gəlinməmişdir." (Müslim, Fəzail, 56)

Onun comərdliyi, sarsılması mümkün olmayan çox sağlam bir özülə əsaslanırdı. İslamın öyrətdiyinə görə, insanın həqiqi sərvəti; Allahın rizasını qazanmaq məqsədilə Onun göstərdiyi şəkildə xərclədiyi maddi və mənəvi imkanlardır.[108] Yoxsa dünyada istifadə edib bitirdikləri deyildir...

Əfv Etmək Bacarığı

Rəsulullah ﷺ daima əfv etməyi üstün tutar, məcbur qalmadıqca heç kimi cəzalandırmaq istəməzdi. Belə ki, cəza verməyə gücü çatdığı halda ona bir çox pisliklər edən insanları həmişə əfv etmiş, hətta hər hansı bir söz və ya hərəkət ilə olsa belə xətalarının xatırladılmasını əshabına qadağan etmişdir. Çünki Allah Rəsulu ﷺ müsəlman və ya kafir heç kimsənin pisliyini istəməz, hər kəsə böyük bir ədəb və əxlaq ilə yanaşardı. Məkkəni müharibəyə imkan vermədən fəth etdiyi zaman, iyirmi

108. Bax. Tirmizi, *Qiyamət*, 33/2470.

bir il ərzində hər cür pisliyi edən insanlar, hüzurunda toplaşıb hökmünü gözləyirdilər. Onlara:

"-Ey Qüreyş camaatı! İndi mənim, sizin haqqınızda nə edəcəyimi düşünürsünüz?"-deyə soruşdu. Qüreyşlilər:

Biz sənin xeyirxahlıq və yaxşılıq edəcəyini umaraq; "Xeyirxah davranarsan!"-deyirik.Sən kərəm sahibi bir qardaşsan, kərəm və yaxşılıq sahibi bir qardaş oğlusan!"-dedi. Bunu eşidən Rəsulullah ﷺ:

"**Mən Həzrət Yusufun qardaşlarına dediyi kimi: "**(Yusif) **dedi: "Bu gün sizə** (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edələrin ən rəhmlisidir!**"[109]-deyirəm. Buyurun, gedin artıq sərbəstsiniz!"-buyurdu. (İbn Hişam, IV, 32; Vaqidi, II, 835; İbn Sad, II, 142-143)

Və həmin günü "Yaumu-l-mərhəmə: Mərhəmət günü"[110] kimi adlandırırlar...

O gün, Uhud savaşında əmisi Həzrət Həmzəni şəhid edən Vəhşini və ciyərini qəzəblə dişləyən Hindi də əfv etdi.[111] Qızı Həzrət Zeynəbi dəvədən yıxmaqla vəfatına səbəb olan Həbbar bin Əsvəd belə bu böyük əfvdən istifadə etmişdir. Rəsulullah ﷺ elə bir nəzakət göstərdi ki, Həbbarı bağışlamaqla kifayətlənməyib, eyni zamanda ona həqarət edilməsini və əvvəllər etdiyi hərəkətlərə görə şəxsinə irad tutulmasını da qadağan etdi. (Vaqidi, II, 857-858)

109. Yusuf, 92.
110. Vaqidi, III, 352; Ali əl-Müttəqi, *Kənz*, 30173.
111. Buxari, *Məğazi*, 23; Müslim, Əqdiyə, 9.

Məkkə fəth edildiyində Əbu Cəhlin oğlu İkrimə qaçmışdı. Rəsulullah ﷺ əvvəllər etdiyi bütün pisliklərini bir kənara qoyaraq ona aman verdi və yanına çağırdı. Xanımı arxasınca uzun yollar qət edərək Peyğəmbərimizin dəvətini ona çatdırdı və onu Məkkəyə qayıtmağa razı saldı. Məkkəyə yaxınlaşdıqlarında Rəsulullah ﷺ böyük bir möcüzə və möhtəşəm bir nəzakət göstərərək əshabına belə buyurdu:

"-İkrimə bin Əbu Cəhl mömin və mühacir olaraq yanınıza gəlir. Artıq onun atasına həqarət etməyin! Çünki çox pis bir insan olsa belə ölüyə həqarət etmək yalnız həyatda olan yaxınlarını üzər, ölüyə çatmaz." (Hakim, III, 269/5055; Vaqidi, II, 851)

Rəsulullah ﷺ İkrimənin gəldiyini görüncə sevincindən sıçrayıb üç dəfə:

"-Mərhaba mühacir süvari, xoş gəldin!"-buyurdu. İkrimə ﷺ da:

"-Vallah ya Rəsulallah, islam düşmənliyi yolunda keçirdiyim ömrün ən az bir mislini də Allah-Təalanın yolunda keçirim!"-dedi. (Hakim, III, 271/5059; Vaqidi, II, 851-853; Tirmizi, İstizan, 34/2735)

Rəsulullah ﷺ hələ onun kimi neçələrini əfv etdi... Çünki O yıxmaq üçün deyil, islah etmək və könülləri fəth etmək üçün gəlmişdi. Bütün aləmlərə rəhmət olaraq göndərilmişdi.

Təmizlik və Nəzakəti

İslam, təmizliyi imanın yarısı və ibadətlərin başlanğıcı etmişdir. Bu səbəbdən paltarların səliqəli olmasını

əmr edən, geyim-keçimdə səliqəsizliyi xoş görməyən Allah Rəsulu ﷺ saç və saqqalın dağınıqlığını bəyənməzdi. Özü son dərəcə təmiz və gözəl bir insan idi. Əbu Hüreyrə ؓ belə demişdir:

"Rəsulullahdan ﷺ daha gözəl bir insan görmədim, sanki mübarək üzü günəş kimi işıq saçırdı..." (Əhməd, II, 380, 350)

İslam, qəlbin təmizlik və gözəlliyindəm qaynaqlanan nəzakətə də çox əhəmiyyət vermişdir. Belə ki, Rəsulullah ﷺ insanların istifadə etdiyi heç bir pis və nalayiq sözü mübarək ağzına almaz və belə buyurardı:

"Qiyamət günü mömin bəndənin tərəzisində gözəl əxlaqdan daha ağır bir şey tapılmaz. Allah-Təala nalayiq hərəkətlər edən, nalayiq sözlər danışan insana nifrət edər." (Tirmizi, Birr, 62/2002)

Bir adamdan ona xoşlanmadığı bir söz çatdığında:

"Filankəsə nə olur ki, belə-belə deyir!"-deməz, "Bəzi insanlara nə olur ki, belə-belə deyirlər!"-deyə nəzakət göstərirdi. (Əbu Davud, Ədəb, 5/4788)

Allah Rəsulu ﷺ həm təmizliyə, həm də nəzakətə diqqət çəkdiyi bir hədisi-şərifdə belə buyurmuşdur:

"Lənətə məruz qalcağınız üç şeyi etməkdən uzaq durun:

1. Bulaq başına
2. Yolun ortasına
3. İnsanların kölgələndiyi yerlərə abdəst pozmayın!" (Əbu Davud, Təharət, 14/26; İbn Macə, Təharət, 21; Əhməd, I, 299; Hakim, I, 273/594)

Qadınlara Dəyər Verməsi

İslamın gəlişi ilə xanımlara aid bir hüquq təsis edildi. Qadın cəmiyyətdə iffət və fəzilət timsalı oldu. Analıq müəssisəsi şərəf tapdı. Həzrət Peyğəmbərimizin; *"Cənnət (salehə) anaların ayaqları altındadır!"*[112] hədisi-şərifi ilə qadın, layiq olduğu dəyərə qovuşdu. Rəsulullah ﷺ həyatı boyunca heç bir xanımına əl qaldırmadı və heç kimsəyə əli ilə vurmadı.[113] Çünki Allah-Təala;

"Qadınlarla xoş davranın, onlara gözəl münasibət göstərin!"-buyurmuşdur. (ən-Nisa, 19)

Rəsulullah ﷺ belə buyurmuşdur:

"Sizin ən xeyirliləriniz, xanımına qarşı ən xeyirli olan, əxlaqi baxımdan ən gözəl davrananlarınızdır." (Tirmizi, Rada, 11/1162)

"Bir kişi xanımına kin bəsləməsin! Onun bir xasiyyətini bəyənməzsə, başqa bir xasiyyətini bəyənər." (Mülim, Rada, 61)

"Dünya müvəqqəti bir faydadan ibarətdir. Onun fayda verən ən xeyirli varlığı; dindar, salehə bir qadındır." (Müslim, Rada, 64; Nəsəi, Nigah, 15; İbn Macə, Nigah, 5)[114]

112. Nəsəi, Cihad,6; Əhməd, III, 429; Suyuti, I, 125.
113. İbn Macə, Nigah, 51.
114. Bu vəsilə ilə burada xanımlara dair bəzi məsələlərə toxunmaq istəyirik:
1.**Birdən çox evlilik**: Çoxevliliyi islam başlatmamış, bu xüsusda mövcud olan bir nizamı, müəyyən məhdudiyyətlərə tabe tutaraq hüquqiləşdirmişdir. İslamdan öncə evlilikdə say məhdudiyyəti yox idi. İslam bunu ən çox "dörd" ilə məhdudlaşdırmışdır. Digər bir xüsus da, birdən artıq evlilik bütün möminlər üçün bir "əmr" deyil, bəzi zəruri səbəblər qarşısında icazə verilmiş bir izndir. Bu,

Bir sözlə onun əxlaqının gözəllikləri danışmaqla

müharibə, xəstəlik, şikəstlik, uzun müddət ayrı qalmaq, himayə və s. bir çox səbəb nəticəsində ailələrin parçalanmaması, qadınların sahibsiz (tənha) qalmaması üçün tətbiq edilir. Beləliklə bir ailənin yıxılmasından meydana gələ biləcək maddi-mənəvi zərərlər ən aşağı səviyyəyə endirilir. Eyni zamanda zərurət qarşısındakı bəzi insanlar, qeyri-hüquqi vəziyyətə düşməkdən qurtarılmış olar. Birdən çox ailə quran kişilərə də xanımları arasında "ədaləti təmin etmək" vəzifəsi verilmişdir. Ayeyi-kərimədə belə buyurulur: "**Əgər yetim qızlarla (evlənəcəyiniz təqdirdə) ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın! Əgər (onlarla da) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin (yaxud: o halda təkcə bir nəfər azad qadınla evlənin və ya əlinizin altında olan kənizlərlə kifayətlənin). Bu, ədalətli olmağa (ədalətdən kənara çıxmamağa) daha yaxındır.** (ən-Nisa, 3) "**Siz nə qədər çox istəsəniz də, heç vaxt arvadlar arasında ədalətlə rəftar etməyi bacarmazsınız. Barı, (birisinə) tamamilə meyl göstərib, digərini asılı vəziyyətdə (nə ərli kimi ərli, nə də boşanmış kimi boşanmış) qoymayın. Əgər özünüzü islah edib (belə hərəkətlərdən) çəkinsəniz (Allah sizi bağışlar). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!** " (ən-Nisa, 129)

2. Həzrət Peyğəmbərimizin birdən çox evlənməsi: Həzrət Rəsulullahın ﷺ evlilikləri heç vaxt nəfsani səbəblərlə olmamışdır. O, iyirmi beş yaşında ikən, özündən on beş yaş böyük olan Həzrət Xədicənin təklifini qəbul edərək onunla evlənmişdir. Məkkənin bütün tanınmışları Həzrət Xədicəni istəyirdi. O isə əxlaq və şəxsiyyətinə heyran olduğu Həzrət eyğəmbərimizlə evlənmək istəyirdi. Həzrət Peyğəmbərimiz də Xədicə anamızı maddi və nəfsani səbəblərlə deyil, yüksək fəzilətinə görə qəbul etdi. Çoxarvadlığın yayılmış olduğu bir cəmiyyətdə əlli yaşa yaxın tənha bir xanımla evliliyin səadətini təmsil etdi. Lakin, ömünün sonlarına doğru birdən çox evlənməsini zəruri edən bəzi səbəb və hikmətlər meydana çıxdı. **a)** Həzrət Rəsulullah, bəzi evlilikləri müxtəlif qəbilələrlə qohum olub səmimi münasibətlər qurmaq-

bitməz. Əndəluslu alim İbn Həzm belə deyir:

la islamı yaymaq və qüvvətləndirmək üçün etmişdir. Məsələn, Xeybərdəki yəhudi liderinin qızı Səfiyə ﵂ ilə evliliyi, yəhudilərlə mövcud münasibətləri –qohumluq əlaqələri yaratmaqla- düzəltmək üçündür. Yenə bir qəbilə başçısının qızı olan Cüveyriyə ﵂ ilə izdivacı da minlərlə müharibə əsirinin eyni anda azadlığa qovuşmasına və bu vəsilə ilə bütün qəbilənin hidayətə çatmasına səbəb olmuşdur. **b)** Allah Rəsulunun ﷺ çox evliliyinin digər bir səbəbi də, ailə daxilindəki davranış və sünnələrinin insanlara çatdırılmaq və islamı qadınlar qadınlar arasında təbliğ və təlim etmək üçün etmişdir. Peyğəmbərimizin xanımları şəri hökmlərin öyrədilib təbliğ edilməsində uzun müddət çox mühüm vəzifələr icra etmişdir. **c)** Ümmətinin hamisi (himayədarı) olan Allah Rəsulu ﷺ İslamı ilk qəbul edən və bu səbəblə müxtəlif sıxıntılara düçar olan fədakar əshabını təltif və mühafizə etmək üçün də bəzi xanımlarla evlənmişdir. Məsələn, Əbu Süfyanın qızı Ümmü Həbibə ilə evliliyində, bu cəfakeş möminə xanımı təltif etməsindən (dəyər verməsindən) söhbət gedir. Çünki Ümmü Həbibə ﵂ əri Həbəşistanda dinini tərk etdikdən və özü çox ağır şərtlər altında qaldığı halda, dinini müdafiə etmiş və həmin vaxt Məkkənin başçısı olan atası Əbu Süfyana iman həssaslığı və vüqarlı olduğuna görə müraciət etməmişdir. **d)** Cəmiyyətdəki bəzi yanlış inanc, anlayış və təsəvvürlərin köklü şəkildə düzəldilib dəyişdirilməsi lazım idi. Peyğəmbərimizin Zeynəb binti Cahş ilə evliliyi də bu səbəbdən olmuşdur. Bu və bənzəri hikmətlərə görə Allah-Təala, Həzrət Peyğəmbərimizə birdən çox xanımla evlənməsini əmr etmiş və bu xüsusda ona geniş imkanlar vermişdir. (bax. Əl-Əhzab, 37, 50)

3. Qadının Mirasdakı Payı və Şahidliyi: İslam miras hüququnda paylar və mükəlləfiyyətlər arasında ədalətli bir nizam qorunmuşdur. Xərcləri artıq olan kişiyə, qadına nisbətən daha çox pay verilmişdir. Çünki ailə qurarkən mehr verib toy xərclərini üzərinə götürməklə yanaşı evin dolanışığını təmin etməyə qədər bütün maddi məsrəflər xüsusunda da ailədə məsul şəxs kişidir. Yəni islam miras hüququndakı qadın-kişi fərqi, cavabdehlik və məsuliyyət fərqinə bağlıdır. Bu ikisi arasında bir tarazlıq qurulmuşdur. Qadın nəsli qorumaq, buna görə övlad tərbiyə etmək

“Axirət səadətini, dünya hakimliyini, xoşbəxt bir və ailə nizamını təmin etmək kimi ağır məsuliyyətlər daşıdığına görə ailənin dolanışığından məsul tutulmamışdır. Bu səbəbdən də mirasda payı yarıya endirilmişdir. Bu pay da bir sıra qadınların evlənə bilməməsi və ya boşanma halında , yaxud da bir sıra şəxsi ehtiyacları düşünülərək verilmişdir. Xanımlara bir də nəzakət, şəfqət, mərhəmət, həya, fədakarlıq, uşağa qulluq və nəslin mühafizəsi kimi məziyyətlər ehsan edilmişdir. Onların quruluşu zərif, hissləri olduqca güclü və mərhəmət hissləri yüksək olduğundan, həyatın müxtəlif mərhələlərində bir sıra hadisələrlə qarşılaşdıqlarında, bəzən cismani və ruhi zəiflik göstərirlər. Bu səbəbdəndir ki, İslamda qadının şahidliyi yarıdır. Reallıq bundan ibarətdir ki, Allah-Təala, hər varlığı və həmin varlığın hər cüzünü bir məqsəd üçün yaratmış və onlara yaradılış qayələrini həyata keçirmələrinə uyğun bir fiziki (bioloji) və ruhi (psixoloji) xarakter lütf etmişdir. Kişini həyatla mübarizə aparması və evin dolanışığı ilə mükəlləf edən Allah-Təala, onu bu vəzifəni layiqincə yerinə yetirə bilməsi üçün, cismani olaraq daha güclü, ruhən də daha mətin yaratmışdır. Qadın isə nəsli qorumaqla, övlad tərbiyə etməklə, ona ən zəif və aciz vaxtlarında baxaraq himayə etməklə vəzifələndirmişdir. Bu səbəbdən onun vəzifəsi, bədəninin deyil, ruhunun daha dərin hiss və həssaslıqlarla təchiz edilməsini zəruri etmişdir. Bu səbəbdəndir ki, uşağın ilk acizlik dövründə onu dərin bir mərhəmət və məhəbbətlə qucaqlayıb böyütmək üçün qadına ilahi bir hədiyyə olaraq olduqca güclü bir hissiyat verilmişdir. Belə bir mərhəmət hissinə sahib anaya, yaradılış məqsədinin və gücünün xaricində bir vəzifə yüklənərsə, mənfi bir nəticə meydana çıxar. Bu mənada bir qadının günahkarın halına acıyaraq ədalətdən ayrılmaq ehtimalı yüksəkdir. Bu da onun şahidliyinin yarım olması xüsusunda zikr edilən ilahi hökmün hikmətlərindən biri olmuşdur. Digər yandan islam, şahidliyi insanın psixoloji quruluşuna görə tənzim edir. Yerinə görə kişinin şahidliyi qəbul edilir, yerinə görə də qadının şahidliyi tam olaraq qəbul edilir. Məsələn kişilərin başa düşməsi mümkün olmayan yerlərdə yalnız qadınların şahidliyi qəbul edilir. (Bax. Məcəllə, mad. 1685) Bu xüsuslarda islam, haqlar və mükəlləfiyyətlər arasında ədalətli bir

həyatı, bütün əxlaqi gözəllikləri, bütün fəzilətləri qazanmaq istəyən insan, Həzrət Muhəmmədi ﷺ örnək alsın! Çünki Rəsulullah ﷺ xeyirxah əməllərdə həmişə irəlidədir. Allah-Təala onun əxlaqını öymüş, bütün fəzilətləri ən mükəmməl formada onda toplamış və onu hər cür nöqsandan arındırmışdır." (İbn Həzm, əl-Əxlaq və-s-siyər, Qahirə, 1962, səh. 19-20, 50)

2) Bəşəriyyətin Qurtuluşu Üçün Çırpınması

Rəsulullahın ﷺ peyğəmbər olaraq göndərildiyi gündən etibarən qiyamətə qədər gələn bütün insanlar Onun ümmətidir. Bunların bir qismi Onun dəvətini qəbul etmiş, bir qismi də etməmişdir. Qəbul edənlərə Ümməti-İcabə, etməyənlərə də Ümməti Qeyri-icabə deyilir.Allah Rəsulu ﷺ ümmətini çox sevər, onların qurtuluşu üçün bütün əməyini sərf edərdi. Bu halını bir hədisi-şərifində belə təsvir etmişdir:

"Mənimlə sizin vəziyyətiniz buna bənzəyir: Bir adam od yandırar. Atəş ətrafı işıqladınca pərvanələr (gecə kəpənəkləri) və işığı sevən bir sıra heyvanlar bu atəşə özlərini atmağa başlayarlar. Adam onlara mane

bərabərlik saxlayarkən insanın dəyişməyən fitri xüsusiyyətləri ilə yanaşı, cəmiyyətin bütününü nəzə alır. Çağımızda qadınlarla kişilər arasında süni və haqsız bir bərabərlik yarışı başladılmışdır. Qadının yaradılış xüsusiyyətlərinə zidd olan bu yarış, xanımlıq və analıq məziyyətlərini zəiflədir, ailə nizamını zədələyir. Bu səbəbdən dövrümüzdə sıx-sıx yaşanan abort hadisələri, cahiliyyə dövründəki qız uşaqlarını diri-diri basdırmağın modernləşmiş bir forması olub, əsrin cinayətidir. Bu əsrin yorğun və bitkin qadını ilə cahiliyyə dövrünün qadını arasında sırf bir qarderob ayrılığı, yəni geyim-keçim fərqi qalmışdır. Bu isə ruhsuz materialist tərbiyənin meydana gətirdiyi cəmiyyətin fəlakətidir.

olmağa çalışır, ancaq heyvanlar qalib gələrək bir çoxu atəşə düşərlər. Mən atəşə düşməməyiniz üçün sizi belinizdən, kəmərinizdən tuturam, lakin siz atəşə düşməyə cəhd edirsiniz!" (Buxari, Riqaq, 26)

Rəsulullah ﷺ daima ümmətinin axirətini düşünür və onların əbədi səadət və salamatlığı üçün dua edərdi. Belə ki, bir gün:

"**Ey Rəbbim! Onlar** (bütlər), **həqiqətən, çox insanı** (haqq yoldan) **azdırıblar. İndi kim arxamca gəlsə, o, şübhəsiz ki, məndəndir.**" (İbrahim, 36)

"**Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən"** (İstədiyin bəndəyə əzab verməyə, istədiyini bağışlamağa və hər hansı bir məsələni həkimanə həll etməyə qadir olan ancaq Sənsən!)" (əl-Maidə, 118) ayələrini oxudu. Sonra əllərini qaldırıb:

"*Allahım! Ümmətim, ümmətim!*"-deyə yalvarmağa başladı. Bir yandan da ağlayırdı. Bundan sonra Allah-Təala:

"Ey Cəbrail! Hər halda Rəbbin hər şeyi daha yaxşı bilir ancaq (insanlar da bilsin deyə), get Muhəmməddən nəyə görə ağladığını soruş!"-buyurdu.

Cəbrail عليه السلام gəldi. Rəsulullah ﷺ ona ümməti üçün keçirdiyi əndişəyə görə ağladığını bildirdi. Bundan sonra Allah-Təala:

"-Ey Cəbrail! Get Muhəmmədin yanın və Ona; "Ümmətin xüsusunda Səni razı salacağıq və səni

üzməyəcəyik.”-müjdəmizi çatdır.”-buyurdu. (Müslim, İman, 346)

Əbu Zərrin ﷺ bildirdiyinə görə Allah Rəsulu ﷺ, bir gecə namaz qılıb Maidə surəsinin yuxarıda keçən 118-ci ayəsini səhərə qədər oxumuşdu. Rükuda ikən də, səcdədə ikən də bu ayəni oxuyurdu... (Əhməd, V, 149)

Həzrət Aişə ﷺ Həzrət Peyğəmbərimizi nəşəli gördüyü bir gün:

“-Ey Allahın Rəsulu, mənim üçün Allaha dua et!”-demişdi. Rəsulullah ﷺ:

“Allahım, Aişənin keçmiş, gələcək, gizli və aşkar bütün günahlarını bağışla!”-deyə dua etdi.

Həzrət Aişə anamız bu duaya görə o qədər sevindi ki, sevincindən özündən getdi. Allah Rəsulu ﷺ:

“-Dua etməyim səni sevindirdimi?”-deyə soruşdu. O da:

“-Sənin duan məni nəyə görə sevindirməsin ki?”-dedi.

Bunu eşidən Rəsulullah ﷺ:

“-Allaha and olsun ki, bu mənim üçün hər namazda etdiyim duamdır.”-buyurdu. (Heysəmi, IX, 243; İbn Hibban, Səhih, XVI, 47/7111)

Rəsulullah ﷺ bütün müsəlmanları da özü kimi bəşəriyyətin salamatlığı üçün çalışmağa və dua etməyə təşviq edərdi. Belə ki, bir hədisi-şərifində belə buyurmuşdur:

“Allah nəzdində, bəndənin belə deməsindən daha sevimli bir dua yoxdur:

اَللّٰهُمَّ ارْحَمْ أُمَّةَ مُحَمَّدٍ رَحْمَةً عَامَّةً

“Allahım! Ümməti-Muhəmmədə ümumi bir rəhmət ilə mərhəmət et!” (Ali əl-Müttəqi, 3212, 3702).

Bu ülvi mərhəmətinə görə Allah Rəsulu ﷺ ona iman etməyən və hətta düşmən kimi davranan insanlara belə bəddua etməz, onların öldürülməsini istəməzdi. Əksinə onların doğru yolu tapması üçün dua edər, canlarına bir zərər gəlmədən şərlərini dəf etməyə çalışırdı. Çünki bir müddət sonra onların və nəsillərinin yalnız Allaha iman edəcəyini umurdular.

Bir gün müşriklərin şərlərindən əməlli-başlı bezən səhabələrdən bir qismi, Həzrət Peyğəmbərimizdən onlara lənət etməsini istəyir. Bunun müqabilində Allah Rəsulu ﷺ:

“-Mən lənətçi olaraq deyil, aləmlərə rəhmət olaraq göndərildim!”-buyurdu. (Müslim, Birr 87)

Rəsulullah ﷺ yüzlərlə hədisi-şərifində “ümməti, ümməti” deyə xoş ismarıclar verir. Sanki, “ümmətim” deyərkən doyumsuz bir həzz alırdı. Ümmətinə qəlbdən gələn məhəbbətlə bağlanırdı. Allah Rəsulu ﷺ ümmətini o qədər çox sevirdi ki, onlardan heç ayrılmaq istəmirdi. Bir gün ona öləcəyi xəbər verildiyində:

“-Ya Rəbb, o zaman ümmətimin başında kim qalacaq?”-deyə dua etdi. Bundan sonra bu ayeyi-kərimə nazil oldu:

“(Ya Rəsulum!) Səndən əvvəl də (dünyada) heç bir bəşərə əbədiyyət (ölməzlik) verməmişdik. Belə olduğu təqdirdə, sən ölsən, onlar dirimi qalacaqlar?!” (əl-Ənbiya, 34) (İbn Kəsir, Təfsir, əl-Ənbiya 34)

Rəsulullahın ﷺ ümmətinin qurtuluşu üçün əlindən gələni etməsi, həyatı ilə məhdud qalmadı. O vəfatından sonra bərzəx həyatında və qiyamətdən sonra da ümmətini qurtarmaq üçün Allah-Təalaya yalvaracağını və şəfaət edəcəyini xəbər verdi.

Hədisi-şəriflərində belə buyurmuşdur:

"Həyatım sizin üçün xeyirlidir; mənimlə danışırsınız və sizə (ilahi vəhy və hökmlər) bildirilir. Vəfatım da sizin üçün xeyirlidir. Əməlləriniz mənə çatdırılır. Gözəl bir əməl gördüyümdə Allaha həmd edirəm, pis bir şey gördüyümdə də sizin üçün Allaha tövbə edirəm." (Heysəmi, IX, 24)

"Diqqət edin! Mən həyatımda (sağlığımda) sizin üçün amanda olmağa vəsiləyəm. Vəfat etdiyimdə isə, qəbrimdə: "Ya Rəbb, ümməti, ümməti!"-deyə ilk sur üfürülənə qədər nida edəcəyəm..." (Ali əl-Müttəqi, Kənzu-l-ümmal, XIV, 414).

Qiyamət qopduğunda dünyaya gəlmiş nə qədər insan varsa hamısı bir ərazidə toplanacaqdır. Günəş tam yaxınlaşdırılacaq, insanlar qan tər içində qalacaq, böyük bir sıxıntı və məşəqqətə düçar olacaqdır. Allah-Təalanın qəzəbindən qorxan insanlar dəhşət və qorxu içində olacaqdır. Bu qorxunc haldan qurtulmaq istəyən insanlar Həzrət Adəmdən başlayaraq öncəki peyğəmbərlərə müraciət edəcəklər, onlar da şəfaət etməyə ən səlahiyyətli şəxsin Muhəmməd ﷺ olduğunu deyərək insanları Həzrət Peyğəmbərimizin yanına göndərəcəklər. Allah Rəsulu ﷺ də onlara şəfaət

edib bu dəhşətli qorxulardan qurtaracaqdır. Lakin öz ümmətinə daha məxsusi şəfaətləri də olacaqdır.[115]

Bir sözlə rəhmət olaraq göndərilən Rəsulullah ﷺ, ömrü boyunca btün bəşəriyyətin salamatı üçün çox böyük səy göstərməklə yanaşı, bərzəx həyatında və qiyamətdən sonra da onların əbədi qurtuluşu üçün dua və şəfaət edəcəkdir. Yəni O, daima insanların özlərini yaradan Allah-Təalaya bəndə olmaları və Ona yaxınlaşmalarına çalışır. Onun bütün dərdi, bəşəriyyətin səhv yollardan qayıdaraq əslinə dönməsi, Yaradanına itaət edərək ilahi rəhmətə nail olmasıdır.

3) Möcüzələri

Allah-Təala Həzrət Rəsulullaha ﷺ müstəsna bir məqam bəxş etmiş və digər peyğəmbərlərə verilən möcüzələrin hamısını Ona lütf etmişdir.[116] Lakin Allah Rəsulunun ən mühüm möcüzəsi Qurani-Kərimdir. Bu xüsusu daha öncə təfsilatı ilə zikr etmişdik. Daha sonra isə Onun mübarək həyatı və ülvi əxlaqı gəlir.

Allah Rəsulunun misilsiz həyatı və uca əxlaqı, dost-düşmən hər kəsin təqdirini qazanmışdır. Heç kim bu məsələyə ciddi bir etiraz etməməklə yanaşı əksinə bir çox qeyri-müsəlman, Onun əxlaqındakı ülviliyi etiraf etmişdir. Bunlardan biri olan qərbli tədqiqatçıTomas Carlyle belə deyir:

115. Buxari, *Ənbiya* 3, 9, Təfsir, 17/5; Müslim, *İman,* 302, 327, 328; Tirmizi, Qiyamət 10.

116. Peyğəmbərimizin bir sıra möcüzələri üçün bu əsərlərə müraciət edilə bilər: Beyhəqi, Dəalilu-n-Nübüvvə, Beyrut 1985; Əbu Nuaym, Dəlailu-n-Nübüvvə, Hələb 1970-1972; Suyuti, əl-Xasaisu-l-Kübra, İstanbul 2003.

"Başında tac olan heç bir imperator, öz əli ilə yamaq edib xirqə geyinən Muhəmməd ﷺ qədər ehtirama layiq görülməmişdir."

Belə gözəl bir həyat və əxlaqa sahib olmaq şübhəsiz ən böyük möcüzədir. Bu xüsusu da bir qədər öncə təfsilatlı şəkildə zikr etdik.

Həzrət Peyğəmbərimizin bir möcüzəsi də, iyirmi üç il qədər qısa bir zamanda yetişdirdiyi (tərbiyə etdiyi) səhabeyi-kiramdır.[117] Bu həqiqət, bir çox səhabeyi-kiram tərəfindən ifadə edilmişdir. Məsələn, İslam fiqhinin ən mühüm simalarından biri olan Qarafi (vəfatı, 684) belə deyir.

"Həzrət Peyğəmbərimizin heç bir möcüzəsi olmasaydı, əshabi-kiram, Onun nübüvvətinə dəlil olaraq kifayət edərdi."[118]

Ərəb ədəbiyyatının zirvə adlarından Mustafa Sadiq ər-Rafii də, səhabənin Quran möcüzəsinin canlı bir surəti olduğunu ifadə edir.[119]

Lakin biz burada Həzrət Peyğəmbərimizin digər möcüzələrindən bəhs edəcəyik. İndi Onun saysız-hesabsız möcüzələrindən bir neçəsini misal olaraq ərz edək:

Osman bin Hüneyf رضي الله عنه belə rəvayət edir:

"Bir nəfər kor adam Rəsulullahın ﷺ yanına gələrək:

117. Bu xüsusda təfsilat üçün bax. Osman Nuri Topbaş, *Əsri-Səadət Toplumu*, İstanbul 2010; Rəhmət Əsintiləri, səh. 359-370.
118. Karafi, əl-Furuq, Daru-s-Salam, 2001, IV, 305.
119. Rafii, *İcazu-l-Quran*, *Daru-l-Kitabi-l-Arabi*, Beyrut 1990, 158-159.

"-Ya Rəsulallah! Allaha dua edin gözlərimdəki xəstəliyi aparsın! Gözümün kor olması mənim üçün çox çətindir!"-dedi.

Peyğəmbərimiz ﷺ:

"-İstəyirsənsə səbr et, çünki bu sənin üçün daha xeyirlidir."-buyurdu.

Kor adam isə:

Ya Rəsulallah! Məni əlimdən tutb aparacaq heç kimsəm yoxdur. Bu hal mənə çox məşəqqət verir. Xahiş edirəm gözlərimin açılması üçün dua edin! Bundan sonra Həzrət Peyğəmbərimiz:

"-Su qabını gətir və dəstəmaz al! Sonra iki rükət namaz qıl! Sonra da:

اَللّٰهُمَّ إِنِّى أَسْأَلُكَ وَأَتَوَجَّهُ إِلَيْكَ بِنَبِيِّكَ مُحَمَّدٍ نَبِيِّ الرَّحْمَةِ. يَا مُحَمَّدُ إِنِّى تَوَجَّهْتُ بِكَ إِلٰى رَبِّى فِى حَاجَتِى هٰذِهِ لِتُقْضٰى لِيَ. اَللّٰهُمَّ فَشَفِّعْهُ فِيَّ

"Allahım! Rəhmət Peyğəmbəri olan Nəbin Muhəmmədlə (Onun hörmətinə) sənin zatından (dərgahından) istəyir və sənə üz tuturam... Ya Muhəmməd! Ehtiyacımın qarşılanması üçün sənin Rəbbimə üz tuturam (əl açıram)! Allahım! Onu mənə şəfaətçi et!.."-deyə dua et!" buyurdu.

Allaha and olsun ki, biz hələ ayrılmamışdıq və aramızdakı söhbət davam edirdi ki, birdən həmin kor adam Peyğəmbərimizin yanına gəldi. Sanki onda əvvəllər heç bir narahatlıq olmamış kimiydi, tamamilə sağalmışdı.[120]

120. Bax. Tirmizi, *Dəavat*, 118/3578; İbn Macə, İqamə, 189; Nəsəi,

Məkkədə müşriklər Rəsulullahdan ﷺ möcüzə istəmişdilər. Allah Rəsulu ﷺ Rəbbinə dua etmiş və Ay iki yerə bölünmüş, bu möcüzə hər yerdən görünmüşdü. Ay ikiyə ayrıldığında bir parçası Əbu Qubeys dağı tərəfdə, digər hissəsi Quaykian dağı tərəfdə müşahidə edildi. Müşriklər, Məkkə xaricindəki uzaq yerlərdən gələn karvanlara belə bir hadisəni görüb-görmədiklərini soruşdular. Onlar da Ayın yarıldığını gördüklərini ifadə etdilər.[121]

Belə ki, məşhur fransız astronom Lefrançois de Lalande, Ayın keçmiş hərəkətlərini araşdırarkən bu möcüzənin doğru olduğunu təsdiq etmişdir.[122]

Rəsulullahın ﷺ islamı təbliğ etdiyi ilk illərdə bir bədəvi Onun yanına gələrək:

"-Sənin Allah Rəsulu olduğunun dəlili nədir?"-dedi. Rəsuli-Əkrəm:

"-Xurma ağacından bu salxımı çağırım, o mənim Allahın elçisi olduğuma şəhadət edəcəkdir!"-dedi və budağa səsləndi.

Salxım ağacdan qopub Rəsulullahın (yanına) düşdü:

"-Salam sənin üzərinə olsun Ey Allahın Rəsulu!"-dedi.

Kübra, VI, 169; Əhməd, IV, 138; Hakim, I, 707-708; Beyhəqi, *Dəlail*, V, 464; Heysəmi, II, 279.

121. əl-Qəmər, 1-3; Buxari, *Mənakib*, 27, Mənakibu-l-Ənsar 38, Təfsir 54/1; Müslim, Münafiqin, 43, 47, 48; Tirmizi, Təfsir, 54/3286; Əhməd, I, 377, 413.

122. Zəkai Konpara, *Peyğəmbərimiz*, İstanbul 1987, səh.110.

Sonra Peyğəmbərimiz ona:

"-Haydı qayıt yerinə!"-buyurunca, salxım qayıtdı və əvvəlki yerinə bitişdi.

Bu hadisənin şahidi olan bədəvi dərhal müsəlman oldu. (Tirmizi, Mənaqib, 6)

Umeyr bin Vəhbin oğlu Vəhb, Bədrdə müsəlmanlara əsir düşmüşdü. Umeyr qüreyş müşriklərinin uzaqgörənlərindən və qəhrəmanlarından idi. Məkkədə Həzrət Peyğəmbərimizə və əshabına bir çox əziyyətlər vermişdi. Bir gün Umeyr, Kəbənin Hicr səmtində Safvan bin Ümeyyə ilə əyləşib Bədrdə öldürülənlər və başlarına gələn müsibət barədə danışarkən, Safvan:

"-Vallah onlar bu hala gəldikdən sonra həyatda qalmağın bir mənası yoxdur!"-dedi. Ümeyr:

"-Vallah doğru deyirsən! Əgər borcum və məndən sonra aclıqdan ölmələrindən qorxduğum uşaqlarım olmasaydı, tərəddüd etmədən gedib Muhəmmədi öldürərdim. Həm mənim onların qəbul edəcəyi bir bəhanə də var; "Əsir düşən oğluma görə gəldim"-deyərəm. Eşitdiyimə görə o çox vaxt bazarlarda gəzib dolaşır."-dedi. Umeyrin bu sözləri Safvanı sevindirdi:

"-Borcun mənim boynuma. Sənin adından ödəyərəm! Uşaqlarına da öz uşaqlarımla birlikdə sağ olduqları müddət ərzində baxar, dolanışıqlarını ən gözəl şəkildə təmin edərəm!"-dedi. Bundan sonra Umeyr qılıncını tam itilədi və zəhər vurdurdu. Safvan da miniyini və yol tədarükünü hazırladı. Umeyr Mədinəyə gəlib məscidin qapısında dayanaraq dəvəsini bağladı və qılıncını belinə taxdı. Həzrət Ömər ﷺ onu görüncə:

"-Bu Allahın düşməni Umeyrdir. Allaha and olsun ki, yalnız şər əməl üçün gəlmişdir. Aramızı vuran, Bədr günü qüreyşlilərə sayımızı bildirən o deyildimi?"-dedikdən sonra Rəsulullahın ﷺ yanına girdi:

"-Ya Rəsulallah! Bu Allah düşməni Umeyr qılıncını qurşanıb bura gəlmişdir!"-dedi. Peyğəmbərimiz ﷺ:

"*Onu mənim yanıma göndər!*"-buyurdu. Ömər رضي الله عنه geri qayıtdı. Umeyrin boynundakı qılıncın kəmərini bərk-bərk tutdu. Ənsardan yanında olan insanlara da:

"-Həzrət Peyğəmbərimizin yanında gedib əyləşin və onu bu xəbis insandan qoruyun! Çünki o etibarlı bir adam deyildir!"-dedi. Rəsulullah ﷺ:

"*-Ey Ömər, onu sərbəst burax! Sən də ey Umeyr mənə yaxınlaş!*"-buyurdu və Umeyrə nəyə görə gəldiyini soruşdu. O da:

"-Əsir aldığınız oğlum üçün gəldim. Onun haqqında insaflı davranın!"-dedi. Allah Rəsulu ﷺ:

"*-Elə isə bu qılıncın boynunda nə işi vardır?*"-deyə soruşdu. Umeyr:

"-Allah qılıncların bəlasını versin! Onların bizə nə faydası oldu ki?"-dedi. Rəsulullah ﷺ təkrar:

"-Mənə doğru danış, sən buraya nəyə görə gəldin?"-deyə soruşdu. Umeyr:

"-Mən başqa şey üçün deyil, yalnız əlinizdə əsir olan oğlum üçün gəldim."-dedi. Rəsulullah s.ə.s.:

"-Sənin Hicrdə Safvana qoyduğun şərt nə idi?"-deyə soruşduqda, Umeyr qorxdu və:

"Mən onunla nə şərt kəsmişəm ki?"-dedi.

Rəsulullah ﷺ onların söhbətini sözbəsöz xatırladıb:

"-Allah, edəcəyin işlə sənin arana girdi və sənə mane oldu!"-buyurdu. Bunu eşidən Umeyr:

"-Mən şəhadət edirəm ki, sən şübhəsiz Allahın Rəsulusan! Ya Rəsulallah! Biz səmadan gələn xəbər və nazil olan vəhy barəsində səni yalanlayardıq. Bu işdən mən və Safvandan başqa heç kimin xəbəri yox idi. Allaha and olsun ki, bu xəbəri sənə yalnız Allah vermişdir! Məni islama hidayət edən və buraya gətirən Allaha həmd olsun!"-dedikdən sonra şəhadət gətirdi. Bundan sonra Allah Rəsulu ﷺ:

"-Qardaşınıza dinini gözəl şəkildə başa salın! Ona Quran oxuyub öyrədin! Əsirini də sərbəst buraxın!" – buyurdu. Həzrət Peyğəmbərimizin əmri dərhal yerinə yetirildi. Umeyr رضي الله عنه:

"-Ya Rəsulallah! Mən, Allahın nurunu söndürməyə çalışan və müsəlmanlara ağır işgəncələr verən bir insan idim. İcazə verin Məkkəyə gedib müşrikləri Allaha, Rəsuluna və islama dəvət edim! Umulur ki, Allah onlara hidayət nəsib edər."-dedi. Rəsulullah ﷺ ona icazə verdi.

Həmin vaxt Safvan bin Ümeyyə, baş verənlərdən xəbərsiz halda məkkəli müşriklərə:

"-Bir neçə gün ərzində gələcək xəbərə sevinəcəksiniz. O sizə Bədr savaşının acısını unutduracaq!"-deyir, gələn karvanlardan durmadan xəbər alırdı. Nəhayət bir süvari ona Umeyrin رضي الله عنه müsəlman olduğunu bildirdi.

Umeyr bin Vəhb ﷺ Məkkəyə gəlincə insanları islama dəvət etməyə başladı və onların hidayəti üçün əlindən gələni etdi. Onun sayəsində bir çox insan müsəlman oldu. Umeyr ﷺ bir gün Kəbənin yanında Safvan bin Ümeyyə ilə qarşılaşdı və ona:

"-Sən bizim böyüklərimizdənsən! Bizim daşlara sitayiş etdiyimizi və onlar üçün qurbanlar kəsdiyimizi görmürsənmi? Budurmu din? Mən şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur! Muhəmməd də Allahın qulu və Rəsuludur!"-dedi.

Safvan ona bir kəlmə belə deyə bilmədi və yerində susub qaldı.[123]

Məkkənin fəthindən sonra o da müsəlman oldu.[124]

Cabir bin Abdullah ﷺ rəvayət edir:

"-Bir gün Allah Rəsulu ﷺ ilə birlikdə gedirdik. Geniş bir vadiyə endik. Rəsulullah ﷺ ayaqyoluna getdi. Mən də su qabı ilə onun arxasınca getdim. "

Rəsulullah ﷺ ətrafa boylandı, lakin arxasında gizlənə biləcəyi bir şey tapa bilmədi. Vadinin kənarında gözünə iki ağac dəydi. Rəsulullah ﷺ onlardan birinin yanına gedərək budaqlarından birini tutdu və:

"-Allahın izni ilə mənə baş əy!"-buyurdu. Ağac, burnuna gəm vurulmuş dəvə kimi Peyğəmbərimizə ram olub əyildi. Digər ağaca da yaxınlaşıb budaqlarından birini tutaraq:

123. Bax. İbm Hişam, II, 306-309; Vaqidi, I, 125-128; İbn Sad, IV, 199-201; Heysəmi, VIII, 284-286.
124. Əbu Davud, Büyü, 88/3563.

"-Allahın izni ilə mənə ram ol!"-buyurdu. O da digər ağac kimi əyildi. İkisinin ortasında dayandıqda aralarını birləşdirdi və:

"-Allahın izni ilə mənim üstümü örtün!"-dedi. Dərhal Onun üstünü örtdülər. Rəsulullah ﷺ mənim yaxınlığında olduğumu hiss edərsə, daha irəli gedər deyə qorxaraq sürətlə qaçıb oradan uzaqlaşdım. Bir yerdə oturub düşünməyə başladım. Astadan yan tərəfə baxanda birdən Həzrət Peyğəmbərimizin gəldiyini gördüm. Həmin iki ağac da bir-birindən ayrılmış və hər biri gövdəsinin üzərinə doğrulmuşdu. Həzrət Peyğəmbərimizin bir anlıq dayandığını gördüm. Başı ilə sağa və sola işarə etdi. Sonra mənə tərəf addımladı və yanıma gəlincə:

"Ey Cabir! Dayandığım yeri gördünmü?"-deyə soruşdu.

"-Bəli, ya Rəsulallah!"-dedim.

"-Elə isə bu iki ağacın yanına get və hər birindən bir budaq kəsib gətir. Dayandığım yerə gəldiyində, bir budağı sağ tərəfinə, digərini də sol tərəfinə sanc!"-buyurdu. Cəld arzusunu yerinə yetirib yanına getdim və:

"-Dediklərinizi yerinə yetirdim ey Allahın Rəsulu, lakin bunu nəyə görə etdik?"-deyə soruşdum. Rəsulullah ﷺ:

"-Əzab görən iki qəbirin yanından keçdim, bu budaqlar yaş olaraq qaldığı müddət ərzində şəfaətim sayəsində əzablarının yüngülləşdirilməsini arzu etdim."-buyurdu. Sonra karvanın qonaqladığı yerə gəldik. Rəsulullah ﷺ:

"-Cabir, insanlara səslən görək dəstəmaz almağa su varmı?"-buyurdu. Ənsardan bir nəfərin tulumbasının dibində qalmış bir damcıdan başqa su yox idi. O bir damcı suyu boşaltsam, tulumbanın quru tərəfində yox olub gedər və yerə bir damcı düşməzdi. Həzrət Peyğəmbərimiz tulumbanı əlinə aldı və nə olduğunu başa düşmədiyim nəyisə oxudu. Bir yandan da iki əli ilə onu sıxırdı. Sonra tulumbanı mənə verdi və:

"-Ey Cabir! Soruş görək böyük bir çanaq varmı?!"-buyurdu. Rəsulullah ﷺ əlini çanağın içinə salıb barmaqlarını açdı. Sonra əlini çanağın dibinə qoyub:

"-Ey Cabir! Tulumbanı götür əlimin üstünə tök və "Bismillah"-de!" buyurdu. Mən dərhal suyu əlinin üstünə tökdüm və "Bismillah" –dedim. Həzrət Peyğəmbərimizin barmaqları arasından su fışqırırdı. Su çanağın içinə tökülürdü və nəhayət ağzına qədər doldu. Rəsulullah ﷺ:

"-Cabir! Səslən suya ehtiyacı olanlar gəlsin! –buyurdu. İnsanlar gəlib doyunca su içdilər.

"-Suya ehtiyacı olan kimsə qaldımı?"-deyə səsləndim, heç kimdən səs çıxmadı. Bundan sonra Rəsulullah ﷺ əlini qaldırdı, çanaq ağzına qədər dolu idi. Bir müddət sonra insanlar aclıqdan şikayət etdilər. Rəsulullah ﷺ:

"-İnşallah, Allah sizi doyuzduracaq!"-buyurdu. Sonra Sifu-l-Bəhrə (dəniz sahilinə) gəldik. Dəniz dalğalandı və sahilə bir heyvan atdı. Biz bu heyvanın yanında od qaladıq və ətindən kabab bişirərək yedik, lakin yarısını bitirə bildik. (Müslim, Zöhd 74)

Allah-Təala, Həzrət Peyəmbərimizin dualarını dərhal qəbul edər. Bunu müşriklər belə başa düşmüşdülər. Məsələn, Rəsulullah ﷺ bir adama dua etdiyində bunun təsiri onun üzərində ömür boyu müşahidə edilirdi. Həzrət Əbu Hüreyrəyə eşitdiyi heç bir məlumatı unutmaması; Həzrət Ənəs bin Malikə ömrünün, malının və övladlarının bərəkətli olması; Həzrət Bəşir bin Aqrabəyə bərəkətə nail olması; Həzrət Əbu-l-Yəsərə ömrünün uzun olub ümməti-Muhəmmədin ondan istifadə etməsi üçün etdikləri dualar... bunlardan bir neçəsidir. Bu iki hadisəni buna misal verə bilərik:

Cuayd bin Abdurrahman belə rəvayət edir:

"Mən Saib bin Yezidi doxsan dörd yaşında ikən gördüm, olduqca sağlam və gözəl bir cüssəyə sahib idi. Mənə belə dedi:

"-Çox yaxşı bilirəm ki, bu yaşımda qulağımın, gözümün çox sağlam olması, yalnız Rəsulullahın ﷺ duasının bərəkəti ilədir. Uşaqlığımda xalam məni Allah Rəsulunun hüzuruna apardı və:

"-Ya Rəsulallah, bacımın oğlu narahatdır, onun üçün Allaha dua edin!"-dedi.

Bundan sonra Rəsulullah ﷺ başımı sığalladı və hər xüsusda bərəkətli olmağım üçün mənə dua etdi.." (Bax. Buxari, Mənaqib, 21-22)

Abdullah bin Hişam ؓ Həzrət Peyğəmbərimizi (altı yaşında ikən) görmüşdü. Anası Zeynəb binti Hümeyd onu (Məkkə fəth edildiyində) Rəsulullahın ﷺ yanına aparıb:

"-Ya Rəsulallah! Oğlumdan müsəlman olduğuna dair beyət al!"-dedi. Rəsulullah ﷺ :

"-O hələ balacadır!"-buyurdu və başını sığallayaraq Abdullaha dua etdi.

Abdullah bin Hişam ﷺ sonrakı yaşlarında bazara çıxar və ərzaq məhsulları satın alardı. İbn Ömər ilə İbn Zübeyr ﷺ onu bazarda görüncə dərhal yanına gedib:

"-Bizi də bu mala ortaq et! Çünki Həzrət Peyğəmbərimiz sənin üçün bərəkət duası etdi."-deyərdilər. Abdullah da onları ortaq edərdi. Bəzən elə vaxtlar olurdu ki, tam bir dəvə yükü qazanc əldə edər və onu evinə göndərərdi. (Buxari, Şirkət 13)

Əbu Hüreyrə ﷺ belə rəvayət edir:

"Biz Rəsulullah ﷺ ilə birlikdə bir səfərdə idik. Yolda ikən əsgərlərin azuqəsi tükəndi. Miniklərindən bəzilərini kəsmək istədilər. Həzrət Ömər ﷺ

"-Ey Allahın Rəsulu! Mən camaatın geri qalan ərzaqlarını toplasam və siz onların üzərinə bərəkətlənməsi üçün dua etsəniz daha yaxşı olmazmı?"-dedi.

Allah Rəsulu ﷺ də belə etdi. Buğdası olan buğdasını, xurması olan xurmasını, xurma dənəsi olan da dənəsini gətirdi."

Orada olanlar, Əbu Hüreyrə həzrətlərinə böyük bir təəccüblə:

"-Xurma dənəsi ilə nə edirdilər?"-deyə soruşdu. O mübarək səhabə:

"-İnsanlar yemək üçün bir şey tapa bilmədiklərinə görə onu sorur, üzərinə də su içirdilər."-dedi və hadisənin davamını belə nəql etdi:

"Rəsulullah ﷺ dua etdi. Ərzaqlar elə bərəkətləndi ki, hamı qablarını doldurdu. Allah Rəsulu ﷺ bu ilahi ikram qarşısında:

"*Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və mən Onun Rəsuluyam. Bu iki xüsusda şübhəyə düşmədən Allaha qovuşan insan Cənnətə girəcəkdir.*"-buyurdu"[125] (Müslim, İman, 44)

6. Axirətə İman

Allah-Təala, bəşər həyatı üçün beş mərhələ təqdir etmişdir.Bunlardan birincisi aləmi-ərvah (ruhlar aləmi),

125. Həzrət Peyğəmbərimizin həyatı, əxlaqı və möcüzələri xüsusunda təfsilat üçün baxın:
Osman Nuri Topbaş, The Prophet Muhammad Mustafa the Elect I-II, The Exemplar Beyond Compare Muhammad Mustafa, Civilisation of Virtues I-II, (http/islamicpublishing.net)
http:/www.islamiyayinlar.net.
http:/rahmetesintileri.darulerkam.altinoluk.com.
http:/hazretimuhammedmekkedrvri.darulerkam.altinoluk.com
http:/hazretimuhammedmedinedevri.darulerkam.altinoluk.com
http:/hazretimuhammed.darulerkam.altinoluk.com
http:/faziletlermedeniyeti1.darulerkam.altinoluk.com
http:/faziletlermedeniyeti2.darulerkam.altinoluk.com
İbn İshaq (150/767) The life of Muhammed, Karaçi: Oxford University, 1967; Mövlana Şibli ən-Numani, Sirətu-n-Nəbi- The life of the Prophert, Lahor: Kazi Publications, 1979; Afzalurrahman, Encyclopedia of Seerah: Muhammed, London; The Muslim Schools Trust, 1982; Abdulahad Davud, Mohammad in the Bible, Doha: A Publications of Presidency, 1980; A.H. Vidyarthi, Mohammad in vorld scriptures, New Delhi: Deep-Deep Publications, 1988.

ikincisi ana bətni, üçüncüsü dünya həyatı, dördüncüsü bərzəx və qəbir aləmi, beçincisi isə axirət və onun nəticəsi olan cənnət və ya cəhənnəmdəki əbədi həyatdır. Bunlardan dünya həyatı insana bir imtahan üçün verilmiş və əbədi səadət insanın bu dünyadakı hərəkət və davranışlarına bağlı qılınmışdır. Hər bəndənin bu hərəkət və davranışlarının müsbət və ya mənfi qarşılığının olduğunu bilməsi və beləliklə məsuliyyətini dərk etməsi üçün də axirət, imanın altı əsası arasında yer almışdır. Belə ki, axirətə iman, əhəmiyyəti ilə yanaşı bir çox ayeyi-kərimədə Allaha imanla birlikdə zikr edilmişdir. Xüsusilə Quranın son üç cüzündə axirətə iman üzərində israrla durulur.

Allah-Təala belə buyurur:

"...**Allaha, axirət gününə** (sədaqətlə) **inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır.** (Qiyamət günü) **onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər.**" (əl-Bəqərə, 62)

Möminləri mədh edərkən də:

"**...Onlar ki, Allaha və axirət gününə iman edərlər...**"-buyurur. (ət-Tövbə, 45)

Axirət, ölümdən sonra başlayacaq olan yeni, sonsuz və həqiqi bir həyatdır. Ayeyi-kərimədə buyurulur:

"**Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır. Kaş biləydilər!** (Əgər bilsəydilər, axirəti dünyaya dəyişməzdilər)**.**"(əl-Ənkəbut, 64)

Çünki bunu bilənlər, bu fani dünyalarındakı hər nəfəsi dəyərləndirər və Allah-Təaladan bir an belə qafil olmazlar. Ömürləri saleh əməllərlə dolu bir ibadət ömrü olar. Aqibətləri haqqında daim qorxu və ümid içərisində olarlar. Məhşərdəki böyük hesabın dəhşət və şiddətindən gözləri və qəlbləri Allah qorxusu ilə yaş tökər.

Bu qissə, ilahi hesabın şiddətini izah etmək baxımından olduqca ibrətlidir:

Saleh insanlardan bir nəfər bazara gedir. Bir neçə zəruri şeylər alacaqdı. Alacağı şeylərin qiymətini evdə hesablamış və əlindəki pulun buna kifayət edəcəyini düşünmüşdü. Lakin bazara getdiyində həmin pul alacağı mallara kifayət etmədi. Bunu görən o əməlisaleh insan ağlamağa başladı və bu halı xeyli davam etdi. Ətrafdakılar buna təəccübləndilər. Pulu kifayət etmədiyi üçün bu qədər ağlamağının yersiz olduğunu deyərək onu təsəlli etməyə çalışdılar. Bir müddət sonra özünə gələn bu saleh insan, boğazında düyünlənən hıçqırıqlarla təəccüb edən insanlara belə dedi:

"-Göz yaşlarımı bu dünya üçün axıtdığımı zənn etməyin! Düşündüm ki, bu gün evdəki hesab bazara uymur! Bəs görəsən bu dünyada etdiyimiz hesablar sabah axirətə necə uyacaq?!"

Qiyamət və Yenidən Diriliş

Dünya həyatı üçün təyin edilən müddət sona çatdığında, böyük mələklərdən İsrafil عليه السلام, Sura üfürəcək və bu kainat məhv olacaq, qiyamət qopacaqdır.[126]

126. ən-Nəml, 87; *əz-Zümər,* 68; əl-Haqqa, 14-16.

Qiyamətin qopması ilə elə dəhşətli mənzərələr ortaya çıxacaq ki; göy yarılacaq, ərimiş metal halına gələcək, Günəş və Ay qaralacaq, ulduzlar dağılıb tökələcək, dağlar atılmış yun kimi olacaq, dənizlər qaynadılacaq və püskürəcək, cəhənnəm alovlandırılacaq və cənnət yaxınlaşdırılacaqdır. Gözlər dəhşətdən qamaşacaq, insanlar qaçacaq, lakin sığınacaq bir yer tapa bilməyəcəklər. Bu dəhşətli mənzərəyə görə, böyük məbləğdə qiyməti olan on aylıq boğaz dəvələr belə bala salacaq, yəni qiymətli malların heç bir dəyəri olmayacaq, vəhşi heyvanlar bir yerə toplanacaqlar. Heç kim dostunu soruşmayacaq, qulaqları batıracaq bir səs və qorxunc bir sarsıntıya görə döş verən qadınlar qucaqlarındakı uşaqlarını unudacaq, hamilə qadınlar uşaqlarını salacaq, insanlar həmin günün dəhşətindən şərxoş hala gələcəklər. Günahkar bir insan o günkü əzabdan qurtulmaq üçün fidyə olaraq balalarını, xanımını, qardaşını və ona sahib çıxan sülaləsini, hətta dünyada mövcud olan insanların hamısını verib öz canını qurtarmaq istəyəcəkdir.[127]

Allah-Təala belə buyurur:

"(Müşriklər) **Allahı lazımınca qiymətləndirmədilər** (uca tutmadılar)**. Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə bükülәcəkdir** (yerin də, göyün də hökmü ancaq Allahın əlindədir, bütün kainat Alla-

127. Bax. *əl-Hacc*, 1-2; *əl-Məaric*, 8-14; *əl-Qiyamə*, 6-12; *ət-Təkvir*, 1-13; əl-İnfitar, 1-5; Qiyamətin meydana gəlməsindəki əzəmətlə əlaqədar olaraq həmçinin bax. İbrahim, 48; Taha, 105-107; əl-Qəmər, 7-8; əl-Haqqa, 14-16; əl-Müzəmmil, 8-11; Əbəsə, 34-42; əl—İnşiqaq, 1-5; əl-Qariə, 1-5.

hın qüdrətinə tabedir). (Allah müşriklərin Ona) **aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır! Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən** (Cəbrail, Mikail, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərindən) **başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar** (qəbirlərindən) **qalxıb** (Allahın əmrinə) **müntəzir olacaqlar!**" (əz-Zümər, 67-68)

Yenə Allah-Təala belə buyurur:

"**Sur** (ikinci dəfə) **çalınan kimi** (qiyamət günü) **qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar. Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən** (qəbir evindən) **kim qaldırdı?** (Onlara belə deyiləcək:) **"Bu, Rəhmanın məxluqata buyurduğu vəddir** (qiyamət günüdür)**. Peyğəmbərlər doğru deyirlərmiş!**" (Yasin, 51-52)

Bəzi alimlərin bəyanına görə hər nə qədər küfr və üsyan əhli qəbirlərində əzab görsələr də, bu əzab axirətdəkinə nisbətən çox yüngüldür. Bu cəhəti ilə qəbirdəki həyat, yuxuya bənzədilmişdir. Onlar məzarlarından qalxınca elə dəhşətli bir əzaba tutulacaqlar ki;

"Yə veylənə/vay halımıza!"-deyə fəryad qoparacaqlar. (Ömər Nasuhi Bilmən, Təfsir, VI, 2943)

Bundan sonra artıq əbədiyyət günü (يَوْمُ الْخُلُودِ) başlayır.

Həmin gün insanların dirildilməsi, yoxdan var edən Allah-Təala üçün olduqca asan bir məsələdir. Allah-Təala belə buyurur:

"(Qiyaməti inkar edən) **insan: "Mən öldükdən sonra** (qəbirdən) **dirimi çıxardılacağam?" – deyə soruşur. Məgər insan ilk öncə onu heç bir şey deyilkən (yoxdan) yaratdığımızı xatırlamırmı?**" (Məryəm, 66-67)

"**Məgər insan** (As ibn Vail, yaxud Übeyy ibn Xələf) **onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə** (Rəbbinə) **açıq bir düşmən kəsilərək, Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi.** (Ya Peyğəmbər!) **De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu** (yaradılışından əvvəl də, sonra da) **çox gözəl tanıyandır! O yaradan ki, sizin üçün yaşıl ağacdan** (Ərəbistanda bitən mərx və ifar ağaclarından) **od əmələ gətirdi. Budur, siz indi ondan** (o iki ağacı bir-birinə sürtməklə) **od yandırırsınız". Məgər göyləri və yeri yaradan** (bir daha) **onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə** (qadirdir). (Hər şeyi) **yaradan, (hər şeyi) bilən Odur! Bir şeyi** (yaratmaq) **istədiyi zaman** (Allahın) **buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar. Hər şeyin hökmü** (ixtiyarı) **əlində olan** (Allah) **pakdır, müqəddəsdir. Siz də** (qiyamət günü dirilib) **Onun hüzuruna qaytarılacaqsınız!**" (Yasin, 77-83)

"(Allah) **ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də** (qiyamət günü dirildilib qəbirlərinizdən) **belə çıxardılacaqsınız.**" (ər-Rum,19)

Əbu Rəzin ﷺ belə rəvayət edir:

Bir gün:

"-Ey Allahın Rəsulu! Allah-Təala, məxluqatı yenidən necə dirildir? Bunun dünyadakı misalı nədir?"-deyə soruşdum. Peyğəmbərimiz ﷺ:

"-Sən heç qövmünün yaşadığı vadidən quraqlıq mövsümündə keçmədinmi? Sonra bir kərəm də hər tərəfin yamyaşıl olduğu bahar mövsümündə oraya uğramadınmı?"-buyurdu. Mən "Əlbəttə!" deyincə:

"-Məhz bu Allahın yenidən yaratmasına dəlildir. Allah ölüləri də belə dirildəcəkdir!"-buyurdu. (Əhməd, IV, 11)

Yaşadan, öldürən və dirildən Allah-Təalanın bəyan etdiyi bu ayələr və Peyğəmbərimizin hədisi-şərifləri də göstərir ki, diriliş mütləq baş verəcəkdir. O halda mühüm olan:

"Necə yaşayarsanızsa, elə ölərsiniz; necə ölərsinizsə, elə dirildilərsiniz!" bəyanından nəsib alaraq həmin günə çatmaqdır.

Qiyamət Gözlənilmədən Qopacaqdır

"**Onlar: "Əgər doğru söyləyirsinizsə,** (bir xəbər verin görək) **bu vəd** (qiyamət günü) **nə vaxt yerinə yetəcək?" – deyərlər. Onlar** (küçədə, bazarda) **bir-biri ilə çənə-boğaz olarkən özlərini saracaq yalnız bir dəhşətli** (tükürpədici) **səsə** (İsrafilin surunun birinci dəfə çalınmasına) **bənddirlər. Artıq nə bir vəsiyyət etməyə iqtidarları olar, nə də ailələrinin yanına qayıda bilərlər!**" (Yasin, 48-50, 53, Bax. Sad, 15; Qaf, 42)

Böyüklük və dəhşətindən bəhs etdiyiniz bu müdhiş qiyamət hadisəsi, Allahın əzəmət və qüdrəti qarşısın-

da o qədər sadə və kiçik bir şeydir ki, onu yalnız bir üfürmə ilə həyata keçirəcəkdir.

Ən azı bunun qədər digər mühüm bir xüsus da, bu müdhiş hadisənin çox qısa bir zamanda baş verməsidir. Allah-Təala belə buyurur:

"**Qiyamətin qopması** (əmri) **bir göz qırpımında, yaxud daha tez olar. Allah, həqiqətən, hər şeyə qadirdir!**"[128]

Rəsulullah ﷺ də qiyamətin gözlənilmədən meydana gələcəyini müxtəlif misallarla izah etmişdir. Bir dəfə belə buyurmuşdur:

"Günəş Qərbdən doğuncaya qədər qiyamət qopmaz. Günəş Qərbdən doğduğu zaman, insanlar onu görər və hamısı toplu halda iman edərlər. Məhz bu vaxt, bu ayeyi-kərimədə bildirilən vaxtdır:

"**Rəbbinin bəzi qiyamət əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanından bir xeyir qazanmamış şəxsə** (sonrakı) **imanı heç bir fayda verməz. De: "Gözləyin, doğrusu, biz də gözləyirik!**" (əl-Ənam, 158)

Şübhəsiz ki, qiyamət qopacaqdır, belə ki, ticarət üçün satıcı ilə müştəri aralarında bir parçanı açacaqlar nə alış-veriş etməyə, nə də parçanı bükməyə vaxt tapa bilməyəcəklər. Kişi sağmal dəvəsinin südünü sağıb gətirdiyi halda, onu içməyə fürsət tapmadan gözlənilmədən qiyamət qopacaqdır. Yenə insan, hovuzunu suvaq vurub təmir edəcək, ancaq suyunu istifadə etmədən bir anda qiyamət qopacaqdır. Yenə insan loğ-

128. ən-Nəhl, 77.

masını ağzına qaldıracaq, lakin qiyamət gözlənilmədən qopacaq və həmin loğmanı yeyə bilməyəcəkdir." (Buxari, Riqaq, 40; Əhməd, II, 369, bax. Müslim, Fitən 140)

Burada ən mühüm xüsus, qiyamətin nə zaman qopacağı deyil, hər kəsin öz qiyaməti olan ölüm və sonrasına hazır olub olmamasıdır. Dünya aldadıcı bir sərab (səhrada qumları suya bənzətmə səhvi), axirət isə ölümsüz bir həyatdır. Qiyamətimiz olan ölüm gəlmədən öncə oyanaq ki, çarəsiz bir peşmanlığa düçar olmayaq. Çünki hər faninin məchul bir zaman və məkanda Əzrail ilə qarşılaşacağı şübhəsizdir. Ölümdən qaçılacaq elə bir yer yoxdur. O halda insan:

"(Vaxt itirmədən) Allaha sığın..."[129] sirrindən nəsib alaraq ilahi rəhməti yeganə sığınacaq yeri bilməlidir.

Məxsusi bəndələr, gün bu gündür deyib öz qiyaməti qopmadan əvvəl axirət tədarükünü görənlərdir ki, o dəhşətli qiyamət günündə belələri üçün nə bir kədər, nə də bir qorxu vardır.

Hesab

Qiyamət günü insanlar çox çətin və şiddətli bir hesab ilə qarşılaşacaqlar. Allah-Təala belə buyurur:

"**Kim** (dünyada) **zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir** (mükafatını alacaqdır). **Kim də zərrə qədər pis iş görmüşdürsə, onu** (onun zərərini) **görəcəkdir**)." (əz-Zilzal, 7-8)

129. əz-Zariyat, 50.

"**O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam** (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) **bir qəlblə Allahın hüzuruna gələn kimsədən** (möminlərdən) **başqa!**" (əş-Şüəra, 88-89)

Bir sözlə axirət, həm pislər, həm də yaxşılar üçün mütləq olması zəruri olan bir aləmdir. Çünki yaxşıların mükafata nail olacağı, pislərin də cəzalarına düçar olmalarından daha təbii bir şey ola bilməz. Belə ki, bu fani dünya şərtlərində belə yaxşıların başını salacağı yerlər və pislərin də içinə qatılacağı zindanlar olmasaydı, həyat dözülməz hala gələrdi!

Bir misal verilməli olsa: Bir teatr qrupunun birinci səhnəni nümayiş etdirdikdən sonra pərdəni bağlayıb, hadisələri dağınıq və izaha möhtac bir vəziyyətdə qoyaraq oyunu bitirdiyinə heç rast gəlmək olarmı? Belə bir hadisədən söhbət getsə, bütün diqqətini bura yönəltmiş, sinirləri gərilmiş, oyunun və yazarının məqsədini, başlıca fikrini öyrənməyə həvəslənən tamaşaçılar görəsən nə düşünər? Ağıllı bir uşaq belə oyunun bu şəkildə bitirilməsini qəbul etməz. O halda hər şeyi mükəmməl yaradan və hər işdən xəbərdar olan Allahın, bu nəhəng kainat qissəsini, bir uşağın belə etmədiyi şəkildə bitirməsi necə təsəvvür edilə bilər?[130]

İnsan öz bədənini dişləyən bir milçəyə belə hirslənib onu cəzalandırmaq istəyir, digər yandan da bir qəhvənin xətrini qırx il xatırlayar. Bu mənada özünün müsbət və ya mənfi davranışlarının Allah nəzdində

130. Prof. Dr. M.S. Ramazan əl-Buti, *Kübra-l-yaqiniyyati-l-kevniyyə*, səh. 180.

qarşılıqsız qalacağını düşünmək qədər əbəs bir qafillik ola bilməz. Çünki bu dünyada zalımın zülmü, məzlumun ahı kafirin küfrü, möminin də imanı vardır.

Allah-Təala buyurur:

"**Məgər insan elə güman edir ki, o, başlı-başına** (cəzasız) **buraxılacaq?!**" (əl-Qiyamə, 36)

"**Yoxsa sizi əbəs yerə yaratdığımızı və** (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?**" (əl-Muminun,115)

"**Və** (istehza ilə)**: "Qiyamət günü nə vaxt olacaqdır?" – deyə soruşar. Göz** (heyrətdən) **bərələcəyi; Ay tutulacağı; Günəşlə ay birləşəcəyi** (hər ikisinin qərbdən çıxacağı, nurunun gedəcəyi) **zaman - Məhz o gün insan: "Qaçıb can qurtarmağa yer haradadır?"-deyəcəkdir. Xeyr,** (o gün) **heç bir sığınacaq olmayacaqdır! O gün (ey insan!) duracaq** (pənah aparılacaq) **yer ancaq Rəbbinin hüzurudur! O gün insana öncə etdiyi və sonraya qoyduğu nə varsa** (sağlığında dünyada gördüyü işlər və öləndən sonra qoyub getdiyi yaxşı, pis nə varsa, hamısı) **xəbər veriləcəkdir!** "(əl-Qiyamə, 6-13)

Qiyamətin tam olaraq zamanı bildirilməmiş, lakin kiçik və böyük bir çox əlamətləri xəbər verilmişdir. Bunları qısaca olaraq belə xülasə edə bilərik:

Kiçik Əlamətlər:

1) Elm qalxacaq, bunun müqabilində cəhalət artacaq. Belə vəziyyətdə spirtli içkilər içmək və zina aşkar şəkildə edilir hala gələcək.

2) Çox sadə və əbəs yerə adam öldürmələr olacaq.

3) Ədalət və əhliyət ortadan qalxacaq, haram və halala diqqət edilməyəcək.

4) Valideynlərə üsyan və bunun müqabilində fasiq qadınlara itaət artacaq.

5) Ölçü və tərəzidə hiylə yayılacaq, hər kəs bu hiylələrdən şikayət edəcək hala gələcək.

6) İnsanlara hörmət və mərhəmət son dərəcə azalacaq və nəsihətlərə qulaq asılmayacaq.

7) Şəhərlərə köçlər artacaq, binalar yüksəldiləcək, pis və işini bilməyən insanlara etimad göstəriləcək, söz və hökm onlarda olacaq.

8) Qumar, fal və oyun alətləri çox artıb rəvac görəcək, vaxtın necə keçdiyi hiss edilməyəcək.

9) İsraf artacaq, dünya mal və mənfəəti axirət səadətindən üstün tutulacaq hala gələcək.[131]

Böyük Əlamətlər:

1) Qırx gün davam edəcək bir duman zühur edəcək

2) Dəccal ortaya çıxacaq

3) Dabbətu-l-arz deyilən bir varlıq meydana çıxacaq.

4) Günəş Qərbdən doğacaq.

5) Yəcuc və Məcucun dünyaya yayılması başlayacaq.

6) Həzrət İsa yerüzünə enəcək.

131. Kiçik əlamətlər üçün bax. Buxari, *Hüdud* 20, Fitən 25; Müslim, İman 1; Fitən 18, 55; Tirmizi, Fitən 34, 37, 39.

7) Hicazda güclü bir atəş zühur edəcək.

8) Şərq, Qərb və Ərəbistan yarımadasında olmaqla üç ədəd yer batması meydana gələcək.[132]

Axirət inancı, məsuliyyət şüurunu gücləndirir, daşıdığı vəzifəyə görə haqq və hüquqa riayət etməyi təmin edir. Bu şəkildə olduqca sağlam bir əxlaq anlayışına, çox mükəmməl bir intizam düşüncəsinə və çox ülvi hisslərlə haqqa riayətə vəsilə olar.

Allah-Təalanın hüzuruna çıxaraq bütün söz, hal və hərəkətlərinin hesabını verəcəyinə, etdiyi zərrə qədər xeyir və şəri görəcəyinə qüvvətlə iman edən bir insanda uca əxlaq və yüksək hüquq anlayışının olacağı şübhəsizdir.

Həzrət Peyğəmbərimizin:

"Heç bir bəndə, qiyamət günü ömrünü harada keçirdiyindən, elmi ilə nə etdiyindən, malını haradan qazanıb haraya xərclədiyindən, bədənini harada zay etdiyindən hesaba çəkilmədikcə bir addım belə ata bilməz!"[133] hədisi-şəriflərini bilən bir mömin mütləq haqqa, hüquqa və hesabına diqqət edər.

Allah-Təalanın hər zaman onu gördüyünü bilən və axirətə də inanan bir insan, heç kimin görmədiyi

132. Böyük əlamətlər üçün bx. Ali-İmran, 55; ən-Nisa, 157-159; əl-Ənam, 158; əl-Kəhf, 93-99; əl-Ənbiya, 96-97; ən-Nəml, 82; əz-Zuxruf, 61; əd-Duxan, 10-13; Buxari, Büyü 102, Ənbiya 49, Fitən 24, 25, 27; Müslim, İman 247, Fitən 23, 42, 100-103, 118; Tirmizi, Təfsir, 27; İbn Macə, Fitən, 31.

133. Tirmizi, Qiyamət, 1/2417

yerlərdə belə yanlış hərəkətlər etməz. Hər kəsin etibar etdiyi təmiz bir insan halına gələr.

Qəlbindən axirət fikri, Allah qorxusu və Allah məhəbbəti silinən insanlar, şəxsi məqsəd və mənfəətlərinə pərəstiş edəcəklərindən, onların bu dünyanın ən zərərli ünsürü halına gələcəyi şübhəsizdir. Bu cür insanların nəzərində millət və vətən sevgisi, ümumi mənfəət, tarixdən ibrət almaq kimi şeylər olduqca gülünc şeylərdir. Fəzilət və məziyyət isə insan aldatmaqdan ibarətdir. Bu səbəbdən insanlardakı din və axirət düşüncəsini zəiflətmək, cəmiyyətləri şiddətlə həlaka sürükləyəcək son dərəcə təhlükəli bir təşəbbüsdür. Uzaq və yaxın tarixdə bunun misallarına çox təsadüf edilmişdir.

Axirətə iman edən və həyatını ona görə tənzim edən möminlərdə ölüm qorxusu olmaz. Sıxıntılardan qurtulub əbədi hüzura çatmaq, Allahın rizasını əldə etmək idealı insanda yaşamaq sevincinə yol açar, dünyanın iztirablarına qarşı dözüm gücü verir. Müvəqqəti dünya arzuları əslində insan ruhunu doyurmadığından, din ona ən yüksək və ülvi zövqlər, mənəvi həzzlər qazandırar.

Bir sözlə Allaha təkrar geri qaytarılacağı inancı olmadan, bu həyatda həqiqi bir uğur və səadət əldə edilə bilməz.

7. Qədərə İman

Allahın iradəsi, bütün olanlarda mövcuddur. Onun iradə və qüdrətinin olmadığı heç bir şey baş verə bilməz.

Bir toz belə yerindən qalxmaz və balaca bir milçəyin qanadı belə tərpənməz. Bu mənada Allah-Təala, külli elm sahibi olduğundan, olmuş və olacaq hər şeyi bilir. Olacaq bir şeyin Allah-Təala tərəfindən əzəldə yazılması "qədər", onun baş verməsi isə "qəza"dır.

Qəzanın bəşəri ölçülərlə tam şəkildə dərk edilməsi qeyri-mümkündür. Bu səbəbdən də bir çox hallarda suistifadə edilmişdir. Ona görə bu mövzunu daha dərindən öyrənməyə çalışmaq, insana heç bir şey qazandırmaz. Çünki:

"Qeybin açarları Allahın nəzdindədir; **onları** Ondan başqası bilə bilməz..."[134] ilahi bəyanı qədər mövzusunda dərinliyinə getməyə icazə vemir.

Onsuz da görməyən bir insana rəngi tərif etmək mümkünsüz olduğu kimi, bəşəri idrakla da belə xüsusuiyyətlərin sirrinə varmaq olmaz. Lakin Allah-Təalanın lədün elmi verdikləri bir zərrə nəsib ala bilər. Qurani-Kərimdə bəyan edilən bu hadisə bunun ən bariz nümunəsidir.

Allah-Təala, Musanı عليه السلام, lədün elminə sahib olan Xızırın عليه السلام yanına göndərir ki, bu elmi ondan öyrənsin.[135] Bu elm, səbəblərdən və bəhanələrdən o yana, yəni lövhi-məhfuzdan bir parıltı (nur) əks etdirən elmdir. Həzrət Musa ilə Həzrət Xızır səfərə çıxırlar. Səfərdə ilahi təcəllilər baş verir. Belə ki, Xızır qissəsindəki hadisələr təhlil edildiyində;

134. əl-Ənam, 59.
135. əl-Kəhf, 60-82; Buxari, Təfsir, 18/2-4.

Zahirən, gəminin deşilməsi, sahiblərinə qarşı haqsızlıq və zülmdür; həqiqətdə isə kasıbların dolanışıq vasitəsi olan gəminin zalımlar tərəfindən qəsb edilməsinə mane olmaqdır.

Zahirən uşağın öldürülməsi, bir qətl hadisəsidir; həqiqətdə isə həm onun, həm də saleh bəndə olan valideynlərinin axirət həyatlarının qorunmasıdır.

Zahirən yetimləri qovan kəndlilərin divarının pulsuz inşa edilməsi, məntiqə ziddir; həqiqətdə isə, iki məzlum yetimə aid əmanətin mühafizə edilməsidir.

Bu halların sirləri, yalnız lədün (Haqq vergisi) elmi ilə ortaya çıxır. Bu səbəbdən qədərin sirri, ağıl ilə idrak edilə bilməz. Çünki qədəri qavramaq, bəşər idrakının üstündə bir xüsusiyyətdir. Bu səbəbdəndir ki, Allah Rəsulu ﷺ qədərə iman etməklə kifayətlənməyimizi əmr etmiş və bu xüsusda yersiz mübahisələr etməyi qadağan etmişdir. Qədər mövzusunda mübahisə edən bir dəstəyə rast gəldiyində onlara:

"-Sizə bunu etmək əmr olundumu? Yoxsa mən sizə buna görəmi göndərildim? Sizdən əvvəlkilər bu məsələdə mülahizə yürütdüklərinə görə həlak oldular. Qəti şəkildə, nə badə bu məsələ haqqında mübahisə etməyin!"-buyurmuşdur. (Tirmizi, Qədər, 1/2133)

Bu mənada dərinliyinə varmaqdan daha çox əsas məqamı doğru şəkildə qavramaq, bu xüsusda ən mühüm və kifayət edən ölçüdür. Məsələnin mahiyəti bundan ibarətdir:

Allah-Təala insan üçün təqdir etdiyi əməlləri iki qrupda təcəlli etdirmişdir:

1) Əfali İztirariyyə (Zərurətə Bağlı Davranışlar):

Bunlar öz arzu və istəyi xaricində baş verir ki, tamamilə qədər və qəzanın təcəllisindən ibarətdir. Bunun ziddinə hərəkət etmək əsla mümkün deyildir. Doğulmaq, ölmək, dirilmək, yatmaq, acımaq, cismani quruluşumuz, ömrümüz və buna bənzər hallar hamısı qədərin bu qisminə daxildir. Bunlara qədəri-mütləq deyilir ki, insan zərurətdən tabe olduğu bu davranışlardan məsul deyildir.

Qədərin bu hissəsinə daxil olan xüsuslarda qəza vaxtı gəlincə insanların görən gözü görməz, eşidən qulağı eşitməz olar. **Həzrət Mövlana** buyurur:

"Qəza gəlib çatınca, balıqlar özlərini dənizdən bayıra atarlar. Havada uçan quşlar, yerdə özləri üçün hazırlanan tələlərə tərəf uçmağa başlayarlar. Belə bir qədər və qəzadan yalnız yenə qədər və qəzaya qaçanlar qurtula bilər."

Çünki Allah-Təala belə buyurur:

"**...Allahın qayda-qanunu** (sünnəsi) **belədir. Allahın əmri əzəli hökmdür!** (O, mütləq yerinə yetməlidir!)" (əl-Əhzab, 38).

Lakin qəza və qədər deyildikdə yalnız meydana gələn fəlakətlər və s. başa düşülməməlidir. Qədər, bir mənada kainatdakı nizamı və bu nizamın ilahi ölçüsünü ifadə edir. Allah-Təala belə buyurur:

"**Biz hər şeyi bir qədərə/ ölçüyə görə yaratdıq.**"(əl-Qəmər, 49)

Ona görə qədərin hökmünü tənqid etmək cəhalət, başqa bir ifadə ilə desək axmaqlıqdır. Çünki onun

hökmü, daim yerli-yerindədir. Məsələn içində yaşadığımız kainatda bir an və bir millimetr belə çaşmayan tarazlıqla (nizamla) fırlanan və dünyamızı işıqlandıran Günəş haqqında heç kimin əndişəsi yoxdur. Hamı inanır ki, Günəş bir an belə çaşmayan müəyyən bir nizam içində hər gün doğar və batar. Bunun kimi müsbət-mənfi meydana gələn hər hadisənin də hikməti bilindiyi təqdirdə istisnasız deyiləcək yeganə söz daima "Ən doğrusu budur!"-ifadəsindən ibarətdir.

Ən inkar edən kafirlər belə öz nizamları daxilində təqdir olunan ilahi tənasüb, nizam və cihazların hərəkətinə heyran olurlar. İlahi təqdir proqramından Allah-Təalanın icazəsi nisbətində çözülə bilən hər sirr, tənqid bir yana dursun, kafir olsa belə ağlı başında hər bir insanı sanki əbədi bir heyrət və təəccüb vadisinə qərq edir. Bu xüsusda həddini aşanlar, yalnız təqdirin sirrindən xəbərsiz olan şüursuz mərhumlardır. Bunlar, xeyir-şər, doğru-səhv, haqq-batil bilməyən cəhalət qurbanlarıdır.

Digər yandan məlumdur ki, qədər və qəza məchuldur. Bu da həqiqətdə fani bir varlıq olan insan üçün ilahi bir lütfdür. Çünki bir adam başına gələcək mənfi-müsbət hər şeyi bilsə, onun üçün həyat yaşanmaz hala gələr. Yemək, içmək və işləməkdən əl çəkər. Lakin Allah-Təala qədər və qəzanı gizlədiyinə görədir ki, ölümlə üzbəüz ikən belə həyat ümidi olur və həyatdan qopmaz. Bu da dünya həyatında yaşamağı mümkün hala gətirən möhtəşəm və mükəmməl ilahi bir nizamdır.

Bir sözlə qəlbin səfası, qədərə razı olmaqda gizlənmişdir. Bunun əksi olan heç bir hərəkət fayda verməz. Həzrət Mövlana nə gözəl buyurur:

"Sən Allahın verdiklərinə razı olmadıqca rahat olmaq və qurtulmaq ümidi ilə hara qaçırsansa qaç, orada qarşına bir afət çıxar; gələcək olan bəla gələr və yenə səni yaxalayar.

Bilməsən ki, bu fani dünyanın heç bir bucağı ələsiz deyildir. Haqqı könüldə taparaq və Ona sığınaraq, Onun mənəvi hüzurunda yaşamaqdan başqa qurtuluş və rahatlıq yoxdur. Bax; bu fani aləmdə ən təhlükəsiz məkanlarda yaşayanlar da, ən güclü zənn edilənlər də nəhayət ölümün ələsinə düşmürlərmi?"

Sən fani ələlərdən əmin olmağa deyil, Haqqa sığınmağa bax! O istəyərsə sənin üçün zəhəri şəfa edər, istəyərsə də suyu zəhər halına gətirər!"

2) Əfali İxtiyariyyə (Seçimə bağlı davranışlar):

Allah-Təala bəndələrinə cüzi və izafi bir iradə lütf etmişdir. Bəndə bu iradənin istifadə edilməsi ilə meydana gələn davranışlardan məsuldur. Etdiyi şey xeyirdirsə, mükafata nail olar, şərdirsə cəzasını çəkər. Allah-Təala bəndənin öz iradəsini istifadə edərək etmək istədiyi davranışı yaradır. Belə davranışlarda Allah-Təalanın yaratmaq sifətləri ilə yanaşı bir də etmək sifəti vardır. Bu, bəndəyə aiddir. Lakin, Allah-Təala bəndənin hər istədiyi şeyi yaratmaz.

Digər yandan Allahın dərgahında zaman mövcud olmadığından Allah-Təala üçün olacaq bir şeyin bilinməsi ilə olmuş bir şeyin bilinməsi arasında fərq

yoxdur. Biz zaman daxilindəki aləmdə mülahizə yürütdüyümüzdən, Allahın baş verəcək şeyləri bilməsini, Onun tərəfindən təqdir və sanki məcbur etmək kimi mülahizələr yürütməyə meyilliyik. Bu, içində yaşadığımız zaman-məkan aləminə görə heç bir şeyi zamansız təsəvvür edə bilməməyimizdən irəli gələn zəiflik və acizlikdir. Halbuki zaman pərdəsi qalxdığında hər şey eyni anda müşahidə edilir. Belə ki, Allah Rəsulu ﷺ Merac gecəsindəki müşahidələrini söyləyərkən bir yandan əzəl aləminə xəbərdar olaraq:

"(O gecə) səmaya yüksəldildim. Elə bir məqama çıxdım ki, orada (kainatın müqəddəratını yazan) qələmlərin xışıltısını eşidirdim."[136] buyurmuş, digər yandan da əbədiyyət aləmini seyr edərək cənnət və cəhənnəmə ən çox hansı qrup insanların daxil olduğundan bəhs etmişdir. (Buxari, Riqaq 51, Müslim, Zöhd 93)

Zaman məfhumundan çıxarılaraq Həzrət Peyğəmbərə ﷺ Merac gecəsi ikram edilən bu həqiqət, Allah-Təala üçün hər zaman mövcuddur. Çünki O, zaman məfhumundan münəzzəhdir.

Bu mənada zaman xüsusundakı zəiflik və acizlik pərdəmizi araladığımızda görürük ki, Allah-Təala bəndələrinə məsuliyyətləri nisbətində iradə və qüdrət; iradə və qüdrətləri nisbətində məsuliyyət vermişdir. Bu belə olmasaydı, Rəhman və Rəhim olan Allah, bəndələrinə hər hansı bir məsuliyyət yükləməz, onları əmr və qadağalarını edib etməmək xüsusunda hesaba çəkməzdi. Belə ki, ayeyi-kərimədə belə buyurulur:

136. Buxari, Salat, 1.

"**Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər** (bir işə mükəlləf edər)**. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir...**"

Bunun ardınca Allah-Təala bu duanı öyrədir:

"**...Ey Rəbbimiz,** (bəzi tapşırıqlarını) **unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən** (mövlamızsan)**. Kafirlərə qələbə çalmaqda bizə kömək et!**" (əl-Bəqərə, 286)

Allah-Təalanın bəndələr üçün məsuliyyət və hesabı təqdir etməsi, bunu zəruri edəcək bir səviyyədə onlara iradə, ixtiyar (seçim etmək) və qüdrət də lütf etdiyini göstərir. Bu həqiqəti görməyənlərə Mövlana Həzrətləri təfəkkür aləmindən belə səslənir:

"Əyri getsən qələm əyri yazar, doğru getsən səadət meydana gətirər.

Bir oğru polis tərəfindən tutulduqda ona dedi ki: "Məmur bəy, etdiyim iş Allahın hökmü və təqdiridir." Bunu eşidən polis belə cavab verdi: "Vətəndaş, mənim etdiyim də Allahın hökm və təqdiridir. Həm qəbahət et, həm də qədərə həvalə et; bu ağlı başında insanın işi deyildir."

"Sözün xülasəsi budur ki: Şeytan, insana şəri; ruh da xeyiri göstərir. İxtiyar (seçim) qabiliyyəti olmasa, nə deyə uğraşırdılar ki!.."

Ey cəbri! "Bəndə iradəsində azad deyil! belə ki, güya Haqqdan acizliyi uzaq tutmaq istəyirsən, lakin görmürsənmi ki, Onun bəndəni məsul tutmasındakı sirri inkar edərək- haşa- Allaha, biliksiz və nə etdiyini bilməyən bəşərə aid bir sifət həvalə edirsən! O Aləmlərin Xaliqi vermədiyi bir xüsusiyyətin təzahürünü istəyib bəndələrinə zülm edərmi? Sən ağlını başına al və Allah-Təalanın nəyə görə bəndələrinə; "Bunu et və ya etmə!"-deyə əmr etdiyinin hikmətini dərk et! Onun bu əmr və qadağası belə, verdiyi iradənin bir nişanəsidir.

Həm də dön öz aləminə bir bax; Allahdan başqasında da iradə yoxdursa, nəyə görə malını oğurlayan oğruya qəzəblənirsən. Nəyə görə kimlərisə düşmən bilir və onlara gecə-gündüz diş qıcıyırsan? Necə olur ki, iradəsi olmayanların kürəyinə günah və qəbahət möhürünü vurursan? Demək ki, iradə var! Yoxsa həbsxanalara nə lüzum var idi!"

Burada ifadə edilməsi zəruri olan bir xüsus da vardır:

Bəndəyə lütf edilən iradə və ixtiyara, əhəmiyyətindən artıq dəyər vermək və ağılı hər şeyin üzərinə çıxarmaq da doğru deyildir. Belə ki, elmdən daha çox irfan artdıqca, bəşəri iradə və ixtiyarın külli iradə qarşısında nə qədər kiçik olduğu asanlıqla dərk edilir. Nəhayət xırda bir qırıntı hökmündə bir nəsib olan cüzi iradə, "fəna fillah"a çatan bəndələrdə yox deyiləcək qədər azalır. Hələ Allahın bəndələrinin "görən gözü, tutan əli" olması[137] tərzində baş verən fəna fillah yolunda

137. Buxari, Riqaq, 38.

addımlayanlar üçün cüzi iradə, sanki günəş şüası altında cılız bir şam işığının yox olması kimidir.

Xeyir və Şərr Allahdandır

Şərrin də Allahdan olması məsələsinə gəlincə, heç bir şər Onun istəyi ilə deyildir. Lakin Allah-Təala, -razı olmasa da- imtahanın tələbi olaraq, şərin də baş verməsinə icazə vermişdir. İradə və istək bəndədən, yaratmaq Allahdandır. Üstəlik şərrin zühuruna Allah-Təalanın "icazə vermək" kimi- belə demək mümkünsə- bir işarə göstərməsi, Onun bəndələrinə olan geniş mərhəmətinin başqa bir təzahürüdür. Çünki bu işarə, hər şərə icazə vermir və fərqində olsaq da, olmasaq da bizi maddi-mənəvi bir çox fəlakət uçurumlarından mühafizə edir. Yoxsa insan, nəfs və şeytanın vəsvəsəsi ilə etdiyi günah və qafilliklərə kim bilir hələ neçələrini əlavə edəcəkdir. Çünki o, bilərək və ya bilməyərək xeyirə olduğu qədər, şərə də meyl edər. Bu həqiqəti Allah-Təala belə bəyan edir:

"**İnsan** (özünə) **xeyir-dua etdiyi kimi, bəd dua da edər.** (Adamın hirsi tutduqda özünə, yaxud övladına bəd dua edər. Əgər Allah həmin şəxsin duasını qəbul etsə, dərhal onun özünü, yaxud övladını məhv etməlidir. Lakin Allah səbirlidir, bəndələrinə əzab verməkdə tələsməz)." (əl-İsra, 11)

"**Əgər Allah insanlara, xeyri tezliklə istədikləri kimi, şəri də o tezliklə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu...**" (Yunus, 11)

İnsan nə dərəcədə özünü hesaba çəkərsə, bu ayeyi-kərimələrin həqiqətinə o dərəcədə nüfuz etmiş olar. Məsələn, bir yalançı qarşısındakını inandırmaq üçün "iki gözüm kor olsun ki, doğru deyirəm."-deyərkən ümumiyyətlə gözləri kor olmur və ona verilən imtahan möhləti yenə normal şərtlərində davam edir. Yenə bir çox insan; "Belə edərəmsə əllərim qırılsın; bunu etməsəm Allah bəlamı versin; bunu etdiyim təqdirdə ölümümü gör!"-kimi, həmin an üçün səmimi bir niyyətlə, olduqca ciddi sözlər söyləyirlər. Lakin yeri gələr bu dediklərinə qarşı çıxarlar. Belə olmasına baxmayaraq nə əlləri qırılar, nə başlarına bəla gələr, nə də ölərlər. İnsan həyatında buna bənzər bir çox misallar vermək olar. Məhz Allah-Təala, belə hallarda mərhəmətinə görə bu şər istəklərini yerinə yetirmir.

Ancaq bəzən də insanın bu cür səhv istəkləri yerinə yetirilir. Belə hallarda həmin adam, dilinin və ağılsızlığının cəzasını çəkir. Bu mənada belə səhv ifadələri işlətməməyə diqqət etməliyik. Ağzımızdan çıxan hər kəlməyə diqqət etməliyik.

Digər yandan Allah-Təala, edilən xeyirxahlıqlardan razı olduğu halda, şərə razı deyil. Yalnız imtahanın tələbi olaraq icazə verir və yaradır.

Allah-Təala belə buyurur:

"**Həqiqətən, Allah** (heç kəsə) **zərrə qədər zülm etməz.**" (ən-Nisa, 40)

"**Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatın-**

dandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər." (əş-Şura, 30)

Bu mənada arif könüllər, Allah-Təalanın bu rəhmət və mərhəmətini idrak edərək qədərin müsbət-mənfi hər təcəllisi qarşısında:

"Xoşdur mənə Səndən gələn
Ya qönçə gül yaxud tikan,
Ya xələt yaxud kəfən,
Qəhrin də xoş, lütfün də xoş!"

-deyərlər.

Onsuz da Allah-Təala bəndələrinə bu riza halını əmr edir:

"**De: "Allahın bizim üçün** (lövhi-məhfuzda) **yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!**" (ət-Tövbə, 51)

"**Əgər Allah sənə bir zərər toxundursa** (sıxıntı versə), **onu Özündən başqa** (səndən) **heç kəs sovuşdura bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs Onun nemətini** (lütfünü) **geri qaytara bilməz. Allah onu bəndələrindən istədiyinə nəsib edər. O, bağışlayandır, rəhm edəndir.**" (Yunus, 107)

Lakin bu hadisə heç vaxt zəruri tədbirləri almağa mane deyildir. Qədər məchul olduğuna görə insan, hər şeyin ən yaxşısına çata bilmək əlindən gələni etməlidir.

Bu başlıca prinsipləri araşdırdığımızda, qarşımıza izaha möhtac bir çox məsələ çıxar ki, bunlar kəlam elmi münaqişələrinə rəvac verməkdən başqa bir yerə

varmaz. Məsələnin mahiyəti qısaca olaraq bundan ibarətdir:

Bəndə iradə sahibidir. Bu iradə və ya qüdrət, ona Allah-Təala tərəfindən bəxş edilmişdir. Allah-Təalanın hər baş verən hadisədə iradəsi olmaqla yanaşı, rizası yalnız xeyirdədir. Bir müəllimin məqsədi, tələbəsinin oxuyub bilik əldə edərək sinifdən-sinifə keçməsidir. Tələbə oxumazsa müəllimin əlindən bir şey gəlməz. Yenə bir həkimin vəzifəsi də, xəstəsini sağaltmaqdır. Xəstə verilən resepti qəbul etməzsə, artıq meydana gələn mənfi nəticədən yalnız xəstənin özü məsul olar. Həkim hər hansı bir məsuliyyət daşımaz.

Bu mənada iradəmiz daxilində olduğuna görə məsul olduğumuz xüsuslarda qədəri bəhanə edərək özümüzü üzrlü saya bilmərik.

İbadətsiz və ya pis yola düşən bir adamın; "Nə edək, qədərim belə imiş!"-deməsi, yalnız qafillikdir. Namaz qılmaq və digər ibadətlərini etmək istəyən insana Allah-Təala səbəblərini ehsan edər.

Etdiyimiz günahlar xüsusunda özümüzü üzrlü saymağımız isə, "qədərə böhtan" atmaqdır ki, bu da ağılsızlıq və ədəbsizlikdir.

III Hissə

İbadətlər

İman quru məlumatlar və nəzəriyyə ilə deyil, Quran, kainat və insanda sərgilənən ilahi qüdrət və əzəmət naxışlarını təfəkkür edib qəlb dünyasında dərinləşmə, ibadətləri vəcd və huşu içində əda edə bilmə və yüksək əxlaq sayəsində mühafizə edilə bilər. Allaha qulluqdan daha ülvi bir ləzzət və mərtəbə yoxdur. Ibadətlər qəlbi həyatımızın vitaminləri nisbətindədir. Digər tərəfdən süfli və eqoist arzuların əsarəti altında kor-kobud bir ürəyi ilə qafilanə bir həyat yaşanırsa iman zəifliyə uğramış deməkdir.

İBADƏTLƏR

İslamın əsası iman, hədəfi isə saleh əməllər və gözəl əxlaqdır. İslam yalnız vicdanda gizlənməsi zəruri olan bir şey deyildir. Çünki fikir və qəlb sahəsində qalaraq əməli bir şəkildə yaşanmamış olan hər hansı bir həqiqətin, nə qədər yüksək olursa-olsun, bir o qədər qiyməti yoxdur. İnsan, inandığı bir həqiqətə dili ilə tərcümən olmaz və onu əməli olaraq etməzsə, ona olan iman və məhəbbəti yavaş-yavaş zəifləyər. Ona görə islam, yalnız nəzəri və etiqadi əsasları deyil, əməli hökmləri də öyrətmişdir. Yəni, islam tam mənası ilə bir həyat dinidir. Qəlbin ən dərin nöqtəsindən başlayaraq onu tamamilə əhatə edəcək olan iman, dildən abi-həyat kimi axacaq, sonra da bütün bədənə və mühitə sirayət edəcəkdir.

İman, quru məlumatlar və nəzəriyyə ilə deyil, həqiqətlər qarşısında təfəkkürü artırıb qəlb aləmində dərinləşmə və ibadətləri ruhaniyətlə yerinə yetirə bilməsi nəticəsində mühafizə edilir. Əgər zahirdəki ibadət qalası zəifləyərsə, onun daxilindəki iman qalası da təhlükəyə düşər. İmanı bir lampaya bənzətsək, ibadətlər müxtəlif cəhətlərdən əsən küləklər qarşısında onu sönməkdən qoruyan və işığını da artıran bir fənər kimidir.

Elm, yalnız tətbiq və təcrübə ilə formalaşır və kök salaraq adət halına gələr. Tətbiq edilməyən quru biliyin mühafizəsi çox çətin olmaqla yanaşı, faydası da yox deyiləcək qədər azdır. Eyni şəkildə imanın insanda güc-lənməsi də, yalnız ibadətlər sayəsində mümkündür.

İman nəşəsinin həzzi, mübarək və seçilmiş (məxsusi) bəndələrdə bütün fani həzzləri ötüb keçmişdir. Dünyəvi ağrı, iztirab və müsibətlərin yandırıcı, dözülməz və həlak edici şiddətini sanki yox etmişdir:

Musaya عليه السلام qarşı yarışa çıxan sehrbazlar iman edincə, zalım Firon onların qollarını və ayaqlarını kəsərək xurma ağaclarına asdırdı. Bu yeni müsəlmanlar, Fironun böyük zülmü qarşısında bəşəri bir acizlik göstərib iman baxımından zəifləmək əndişəsi ilə əllərini səmaya qaldırdılar:

"**Ya Rəbb! Üzərimizə səbir yağdır; canımızı müsəlman olaraq al!..**" -deyə Allah-Təalaya dua etdilər. Və nəhayət şəhadətin ilahi həzzi içərisində Rəbblərinə qovuşdular.

Səmimi bir müsəlman olan ilk **isəvilər** də, sirklərdə aslanların dişlərində paçalanmaq bahasına da olsa tövhid inancında səbat etdilər. Dadmış olduqları ülvi həzzlər içində şəhadət şərbətini eşq ilə içdilər.

Əvvəllər əlinə bir iynənin batmasından belə qorxan Həzrət Sümeyyə رضي الله عنها, imanın ülvi həzzini daddıqdan sonra, müşriklərin qızmar dəmirlərlə bədənini dağlamalarına baxmayaraq böyük bir dözüm göstərdi. İmanından əsla vaz keçmədi. Amansız işgəncələrə məruz qaldıqdan sonra, bir ayağı bir dəvəyə, digər ayağı da başqa bir dəvəyə bağlanaraq iki yerə parçalandı. Əri

Həzrə Yasir ﷺ də yaşlı və zəif bir insan olmasına baxmayaraq təsəvvür edilməz bir səbir göstərdi. Nəhayət o da şəhadət şərbətini içdi. Beləliklə Yasirin ailəsi İslamın ilk şəhidləri oldular.[138] İmanlarının bədəlini, onu eşqlə yaşayaraq və canları ilə ödədilər.

Həzrət Bilalın dastanlara dönən halı da eyni liqaullah (Allaha qovuşma) nəşəsi sayəsindədir. Bilal ﷺ da, azğın və gözü dönmüş müşriklərin ağır işgəncələri altında qara dərisindən alqırmızı qanlar axarkən bədənində hərəkət olmadığı halda "Əhad, Əhad, Əhad...Allah birdir, Allah birdir, Allah birdir."-deyirdi. Ağrı və iztirabdan daha çox imanın ülvi zövqünü dadmış bir könül ilə liqaullah həzzini yaşayırdı. Çünki onlar, islam nemətinin böyüklüyünü həqiqi mənada idrak edirdilər. Beləliklə hər iki dünyada da ilahi izzətlərin qapılarını eşq və vəcd halları ilə aralamağı bilirdilər. Fani ömürləri:

"**Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda** (müsəlman kimi) **ölün!**"[139] ilahi əmrinin ehtivası içində son verərək həqiqi və əbədi həyata nail oldular.

Onlardan sonra gələn mömin nəsillər də islamı başlarına tac etdikləri hər məqamda əziz oldular.

İbadətlərlə gücləndirilməyən bir iman isə, zamanla zəifləməklə yanaşı, insanın davranışları üzərindəki müsbət təsirini də itirər. İmanın təsiri zəiflədikcə də

138. Bax. İbn Həcər, *əl-İsabə*, III, 648; Zəməxşəri, Kəşşaf, tədqiq. Muhəmməd Mersi Amir, Qahirə, 1988, III, 164.
139. Ali-İmran, 102.

insan məfi hisslərə və mənfi əxlaqa sürüklənərək müxtəlif günah və pisliklər etməyə başlayar.

Allah-Təala, ibadətin hikmətinə toxunaraq belə buyurur:

"**Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, müttəqi olasınız!** (Allahdan qorxub pis əməllərdən çəkinəsiniz!)" (əl-Bəqərə, 21)

Günahlardan qorunub ibadətlərinə davam edən bir bəndə də hər an Allaha yaxınlaşır deməkdir. Rəsulullah ﷺ bunu belə ifadə edir:

Allah-Təala belə buyurdu:

"**Hər kim Mənim dostuma düşmənlik edərsə, Mən də ona hərb** (savaş) **elan edərəm. Bəndəm ona fərz buyurduğum əməllərdən daha sevimli hər hansı bir şeylə Mənə yaxınlıq qazana bilməz. Bəndəm mənə,** (fərzlərə əlavə olaraq etdiyi) **nafilə ibadətlərlə dayanmadan yaxınlaşır, nəhayət Mən onu sevərəm. Bəndəmi sevincə də Mən onun eşidən qulağı, görən gözü, tutan əli və yürüyən ayağı olaram. Məndən hər nə istəyərsə, onu mütləq verərəm; Mənə sığınarsa, onu qoruyaram...**" (Buxari, Riqaq, 38, həmçinin bax. Əhməd, VI, 256; İbn Hibban, Səhih, II, 58/347)

Bəzi rəvayətlərdə bu ifadə vardır:

"**...Düşünən qəlbi və danışan dili olaram.**" (Təbərani, Kəbir, VIII, 221/7880; Heysəmi, II, 248)

İbadətlər ruhi təkamülü inkişaf etdirərək nəhayətdə insanı Cəhənnəmdən qurtarıb Cənnətə sövq edər. Axirətdə insana faydası toxunacaq yeganə sərmayə, imanla

edilən ibadətlər və saleh əməllərdir. Torpağın sinəsinə yalnız saleh əməllərimizlə basdırılacağıq.

Mövlana Həzrətləri nə gözəl buyurur:

"Gedəcəyin yerdə yalnız qalmaq istəmirsənsə, xeyirdən, yaxşılıqdan və ibadətdən bir övladın (yəni köməkçin) olsun!" (Divani-Kəbir, II, 692)

İbadətlərin insanın ruhi inkişafı üzərində bir çox müsbət təsiri vardır. İbadətlərin hər biri ayrı bir xüsusiyyətə malikdir və hər biri ruhlara verilən mənəvi bir qida və vitamin mahiyətindədir. İbadətlərini yerinə yetirən bir mömin, mənəvi cəhətdən qüvvətli olur və könül hüzuru içində yaşayar. Həyatda qarşılaşdığı maneələr, çətinliklər və imkansızlıqlar qarşısında ümidsizliyə və stressə düşməz. İbadətlərinə biganə yanaşan insan isə iki dünyada da xoşbəxt ola bilməz. Hədisi-şərifdə belə buyurulur:

"İnsan, bəndəlik vəzifəsini yerinə yetirərkən nöqsanlı davranarsa, yəni hər ibadətini kifayət qədər etməyib azaldarsa, Allah-Təala onu qəm və kədərə mübtəla edər." (Ali əl-Müttəqi, Kənzü-l-Ümmal, 6788)

Digər yandan ibadətlərin maddi faydaları da vardır. Çünki islam, insani fəaliyyət sahələrinin heç birini ehmal etməz. Bunlar arasında möhtəşəm bir nizam qurar. İslam, həyatı bütün sahələri ilə əhatə edən mükəmməl bir sistemdir.

Məsələn, Rəsulullah ﷺ ibadətlərinə diqqət edən möminlərin ruzisinə bolluq veriləcəyini ifadə etmişdir.[140]

140. Müslim, Münafiqin, 57.

Yenə Allah Rəsulu ﷺ belə buyurmuşdur:

"Rəbbiniz (c.c.) "Əgər bəndələrim Mənə layiqincə itaət etsələr, Mən onlara yağmuru gecə yağdıraram, gündüz də üzərlərinə Günəşi doğuraram. Onlara həmçinin göy gurultusunun səsini də eşitdirmərəm."-buyurur. (Əhməd, II, 359; Hakim, IV, 285/7657)

Göründüyü kimi islam, ibadətlərə çox əhəmiyyət verir. Bu səbəbdəndir ki, saleh əməllər, Qurani-Kərimdə və hədisi-şəriflərdə ümumiyyətlə iman ilə birlikdə zikr edilir. Bu hadisə eyni zamanda ibadətlərin imanı mühafizə etməkdəki mühüm rolunu və dindəki başlıca yerini də göstərir.

Bunu da xatırladaq ki, ibadətlər daha çox insanın özünə fayda verir. Çünki Allah-Təalanın heç kimin ibadət və itaətinə ehtiyacı yoxdur. Bəlkə ibadətlər, bizə lütf etdiyi dünyəvi və üxrəvi saysız-hesabsız nemətlər qarşısında Allah-Təalaya edilən şükrün ifadəsi ola bilər. Onsuz da bu qədər nemət, lütf və ikramlarına baxmayaraq Allah-Təalaya qarşı heç olmasa ibadətlərini yerinə yetirməklə şükr etməyən insan, nə böyük nankorluq içindədir!

Halbuki Allah-Təalanın əzəməti qarşısında kainatda mövcud olan hər şey Ona ibadət halındadır. Qurani-Kərim yerdə və göydə nə varsa hamısının Allah-Təalanı həmd və təsbih etdiyini ifadə edir.[141] Ulduzlar, dağlar, ağaclar, heyvanlar[142] səmada səf-səf uçan quş-

141. əl-İsra, 44.
142. əl-Həcc,18

lar[143] və digər canlılar Allah-Təalanın istədiyi şəkildə, bizim idrak və təsəvvürümüzün xaricində, Ona ibadət edirlər. Buna "**kainatın ibadəti**" deyilir.

Bir sözlə ibadətsiz bir həyat təsəvvür edilə bilməz. Çünki Allah-Təala insanı qulluq və ibadət üçün yaratmışdır. [144]İnsanın fitrətini buna görə nizamlamışdır. Bu səbəbdən insan, daima Uca Rəbbinə və Yaradanına sığınmaq, Ondan kömək istəmək və Ona ibadət etmək ehtiyacı duyar. Bu səbəbdəndir ki, insan həyatı, kainatın Yaradıcısına çatmaq üzrə həqiqət axtarışının təzahürləri ilə doludur.

"İnsan, ibadət üçün yaradılmışdır."-sözünə əsaslanaraq, müsəlmanlarım daim ciddi və həmişə məşəqqətlər içində olduğu zənn edilməməlidir. Rəsulullah ﷺ həmişə təbəssüm edərdi və müsəlmanlara birbirlərinin üzünə təbəssüm etdiklərində sədəqə savabı alacaqlarını xəbər verərdi.

Əshabi-Kiram öz aralarında zarafatlaşır, nəşəli sözlər deyir, Peyğəmbərimiz ﷺ də onlara təbəssüm edərdi.

Yenə Allah Rəsulu ﷺ bayramlarda və toylarda nəşəli olmağı tövsiyə edərdi. Yəni müsəlmanlar da dincəlməyə və istirahət etməyə vaxt ayırırlar. Lakin bunların hamısı, onların həyatında qafillik və nəfsani davranışlardan uzaq şəkildə və mükəmməl bir ahəng içində baş verir.

İslam, ibadətləri müxtəlif şəkillərdə əmr etmiş və müxtəlif vaxtlara yaymışdır. Bu da insanın yorulmadan

143. ən-Nur, 41.
144. əz-Zariyat, 56

və bezmədən, davamlı şəkildə Allah-Təala ilə birlikdə olmasını təmin edər. Daima Allaha yaxın olduğunu və Onunla birlikdə olduğunu hiss etmək isə, insana böyük bir xoşbəxtlik və mənəvi rahatlıq bəxş edər.

Son olaraq bunu da qeyd edək ki, ibadətə layiq olan yeganə varlıq Allah-Təaladır. Çünki ibadət; ehtiram, itaət və təzim mərtəbələrinin ən yüksəyidir. Belə bir şey isə yalnız Allaha edilir və yalnız Onun haqqıdır. Çünki bədəni, həyatı və bunlara aid bütün nemətləri verən yalnız Allah-Təaladır. Bu səbəbdən Allahdan başqasına səcdə etmək, haram qılınmışdır.

1. Dəstəmaz və Təmizlik

İslam həm maddi, həm də mənəvi təmizliyə əhəmiyyət verir. İnsanların hər baxımdan təmiz, düzənli, nəzakətli və həssas olmasını istəyir. İnsanlara məmnun edəcək xoş ətirlər vurmağı ən mühüm sünnələr arasında zikr edir. Bu səbəbdən təmizliyi ibadət qəbul edərək, bütün ibadətlərin başlanğıcına yerləşdirir. İslamı yeni qəbul edən insanın qüsl abdəsti almasını şərt qoşar.[145] Namaz, təvaf, Qurani-Kərim tilavəti kimi ibadətlərin dəstəmaz almadan qəbul edilməyəcəyini bildirir.

Allah Rəsulu ﷺ yeməkdən öncə və sonra əlləri yumağı[146] və yatmadan öncə dəstəmaz almağı tövsiyə edərdi.[147] Hətta möminləri imkan nisbətində daim dəstəmazlı olmağa təşviq edərdi.[148]

145. Əbu Davud, Təharət, 129/355.
146. Tirmizi, Ətimə, 39/1846.
147. Buxari, Vudu, 75; Müslim, Zikr, 56.
148. İbn Macə, Təharət, 4; Muvatta, Təharət, 36; Əhməd, V, 276,

Rəsulullah ﷺ bir səhər müəzzini Bilal Həbəşini رضي الله عنه yanına çağırıb:

"-Bilal! Hansı əməli edərək məndən öncə Cənnətə girdin? Nə vaxt (yuxumda) Cənnətə girsəm, ayaqqabılarının tıqqıltısını qarşımda eşidirəm. Dünən gecə də (yuxumda) Cənnətə getmişdim, ayaqqabılarının tıqqıltısını yenə qarşımda eşitdim..." -buyurdu.

Bilal رضي الله عنه:

"-Ya Rəsulallah, hər əzan oxuduğumda, mütləq iki rükət namaz qılıram. Dəstəmazım pozulduğunda da dərhal dəstəmaz alır və üzərimdə Allahın iki rükət namaz haqqı olduğunu düşünürəm."-dedi.

Bunu eşidən Rəsulullah ﷺ:

"-Məhz bu ikisi sayəsində (o uca mərtəbəyə çatmısan)!"-buyurdu. (Tirmizi, Mənaqib, 17/3689; Əhməd, V, 354)

Allah-Təala dəstəmazı əmr və tərif etdiyi ayeyi-kərimənin sonunda belə buyurur:

"**...Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz!**" (əl-Maidə, 6)

Yenə namaz qılacaq insanın paltarlarının və dayandığı yerin təmiz olması şərt qoyulmuşdur.

İslamın əmr etdiyi dəstəmaz, qüsl və digər təmizlikləri araşdırdığımızda, bunların sağlamlıq baxımından bir çox faydası və hikmətləri olduğunu görürük. Ən azından insanlar böyük bir ibadət nəşəsi içində

282; Darimi, Təhaət, 2.

həm özlərini və ətraflarını, həm də sağlamlıqlarını mühafizə edərlər. Çünki Rəsulullah ﷺ:

"Təmizlik imanın yarısıdır."-buyurmuşdur. (Müslim, Təharət, 1)

Müsəlmanlar həyatda ikən təmizliyə həssas yanaşdıqları kimi, vəfat etdikdən sonra da ilahi yolçuluğa təmiz halda çıxmaq istəyərlər. Bu səbəbdən vəfat edən müsəlmanın cənazəsi gözəl şəkildə yuyulur, qüsl verilir, tərtəmiz və bəyaz bir kəfənə sarılaraq gözəl ətir vurulur və yenə təmiz bir torpağa əmanət edilir. Qiyamət günü oradan tərtəmiz çıxması üçün dua edilir.

2. Namaz

Bəndəni Mövlanın vüsal dəryasına aparan ibadət çeşmələrinin ən böyüyü və ən əhəmiyyətlisi heç şübhəsiz ki, namazdır. Çünki namaz, ehtiva və dərəcə baxımından bütün ibadətlərin zirvəsi və özəyidir.

Kainatdakı bütün varlıqlar; Günəş, ulduzlar, çayır, çəmənlik, ağaclar, heyvanlar hamısı zikr halındadır. Səflər halında uçan quşlar, dağlar, daşlar, keyfiyəti bizə məchul bir təsbihat ilə Allaha qulluq edərlər. Nəbatatın ibadəti qiyam halında, heyvanlarınkı rüku halında, cansız sayılan varlıqlarınkı da yerə sərilmiş vəziyyətdə, yəni səcdə halındadır. Səma əhlinin vəziyyəti də belədir. Mələklərin bir qismi qiyamda, bir qismi rükuda, bir qismi səcdədə, bir qismi də təsbih və təhlil halındadır. Lakin Allah-Təalanın möminlərə bir merac olaraq ikram etdiyi namaz isə, bütün bu ibadətləri özündə cəm etmişdir. Bu mənada namazı gözəl şəkildə

qılanlar, yerdə və göydə mövcud olan bütün varlıqların ibadətlərinin hamısını ehtiva edən bir ibadət etmiş olaraq hesabsız mükafat və dəruni təcəlliləra nail olurlar.

Namaza bənzəyən heç bir ibadət yoxdur. Namaz qılan adam, namazdan başqa heç bir şeylə məşğul ola bilməz. Namaz onu, bütün əlaqələrdən kəsər. Allah-Təala ilə başbaşa tərifsiz bir vüsal yaşadır. Digər ibadətlərdə vəziyyət belə deyildir. Məsələn, oruclu insan, eyni anda işləyə bilir, həcc edən insan yeri gəldiyində alış-veriş edə bilir. Ancaq namaz qılan insanın maddəsi də, mənası da ilahi hüzurdadır. Belə ki, ayeyi-kərimədə:

"**Səcdə et yaxınlaş!**"[149]-buyurulur. (əl-Ələq, 19)

Maddi olaraq namaz; ilahi hüzurda dayanma, təfəkkür etmə, qorxu anında təsəlli vermə, nəşə zamanında ruhaniyəti gücləndirmə, imanı qoruma, Allah-Təala ilə ünsiyətin artması kimi feyz və bərəkətlərlə doludur.

İctimai gözəllikləri baxımından namaz; birlik, bərabərlik, tanışlıq, ünsiyyət, ülfət, iman və qardaşlıq əlaqələrinin güclənməsi kimi saymaqla bitməyən gözəlliklərə vəsilədir. Xüsusilə camaatla qılınan namaz, Cümə və bayram namazları, insanlar arasında irq, rəng, dil, vəzifə və məqam ayrıseçkiliyi etmədən Allaha qulluqda eyni səfdə dayanmaq, bütünləşmək, yardımlaşmaq və ictimai əlaqəni təmin edir.

Ruhani təcəlliləri baxımından namaz; insanın ilahi hüzura çıxaraq ixlas, təqva və sədaqət kimi gözəl vəsflər qazandığı bir ibadətdir. İnsan, namazda qəlb dünyasını mənəvi bir bahar iqliminə çevirir.

149. əl-Ələq, 19.

Namaz gündə ən azı beş dəfə təkrarlandığı üçün davamlı olaraq Allah-Təalanı xatırladır. Qəlb və vicdanı Allaha bağlayar. Allahın sonsuz qüdrətini, mütləq iradəsini, rəhmət və mərhəmətini, kərəm və ehsanını, əzab və cəzanı insanın qəlbinə yerləşdirir. Beləliklə insanı günah, çirkinlik və haqsızlıqlardan çəkindirər. Ayeyi-kərimədə belə buyurulur:

"(Ya Rəsulum!) **Quranda sənə vəhy olunanı oxu və** (vaxtı-vaxtında) **namaz qıl. Həqiqətən, namaz** (insanı) **çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək** (Allahın cəlalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), **şübhəsiz ki,** (savab etibarilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) **bilir!**" (əl-Ənkəbut, 45)

Bir nəfər Həzrət Peyğəmbərimizin yanına gələrək:

"-Filankəs gecə namaz qılır, sabah olunca da oğurluq edir!"-dedi. Rəsulullah ﷺ belə buyurdu:

"*-Həqiqi namaz qılırsa, bu namazı və namazda oxuduğu Quran ayələri, onu etdiyi pis əməldən uzaqlaşdıracaqdır.*" (Əhməd, II, 47)

Doğurdan da müsəlmanlar arasında günah iş görmək səviyyəsi olduqca aşağı səviyyədədir. Bu gün dünyada ən az cinayət törədilən ölkələr müsəlman ölkələrdir. Avropalı tədqiqatçılar, islam ölkələrində cinayət hadisələri nəyə görə aşağı səviyyədədir deyə çox ciddi elmi araşdırmalar aparırlar.[150]

150. Məsələn, bax. Cordova, Ana; "An Examinational Causes of Low Murder Rates in Islamic Societies": American Society of Criminology.

Bunun ən mühüm səbəbi, islamın gətirdiyi inanc əsasları, ibadətlər və əxlaq qaydalarıdır. İslami tərbiyə alan insan, Allahdan qorxar, etdiyi zərrə qədər yaxşılıq və pisliyin belə qarşılığını axirətdə görəcəyinə inanır. Nəticədə şər əməllərə kilid, xeyir əməllərə də açar olar.

Müəyyən vaxtlarda qılınan namaz, gün ərzində insanı müəyyən fasilələrlə iş yorğunluğundan və həyatın monotonluğundan qurtarıb rahatladar. Rəbbinə qarşı itaət, təslimiyyət və şükür hisslərini ifadə etməsini təmin edər. Səcdəyə gedən insan, özü ilə üz-üzə gələrək daxili aləminə qayıtmaq fürsəti əldə edir.

İnsanların getdikcə bir-birindən uzaqlaşdığı, mənfəətpərəstliyin irəli keçdiyi və fərdiyətçiliyin hakim olduğu zəmanəmizin mühüm bir xəstəliyi də yalnızlıq hissidir. İnsanı psixoloji gərginliyə sürükləyən bu xəstəliyin ən gözəl əlacı namazdır. Namaz, istər fərdi olaraq, istərsə də fəzilətini artırmaq üçün camaatla qılınsın, insanın yalnızlıq hissini gündə ən azı beş dəfə aparır. Çünki namaz, insanı Allahın hüzuruna çıxardığına görə, yalnız qılsa belə, ona yalnız olmadığını xatırladır. Camaatla qılındığında isə insanı həm Allahın hüzuruna aparır, həm də digər mömin qardaşları ilə görüşdürür.

Sosiologiya sahəsində mütəxəssis olan Prof. Dr. Ümid Meriç belə demişdir:

"**Namaz qılan bir cəmiyyətin psixologiyaya, zəkat verən bir cəmiyyətin də sosiologiyaya ehtiyacı yoxdur.**"

Allah-Təala, namaz xüsusunda "**Səcdə et və yaxınlaş!**[151]"-buyurur. Fəlaha çatan bəndələrinin namazı xüşu

151. əl-Ələq, 19.

ilə qıldıqlarını xəbər verir.[152]Xüşu ilə qılınan bir namaz sayəsində insanın Allah-Təalaya qarşı təvəkkül və təslimiyyəti artar. Bu təslimiyyət nəticəsində insan, psixoloji gərginliklərdən (narahatlıqlardan) mühafizə edilər. Çünki o, ən uca qüvvəyə, yəni Allah-Təalaya təslim olaraq özünü sanki əbədi səadətin qollarına atmışdır.

Namaz qılan bir mömin, Allah-Təalanın mühafizəsi altında olduğunu hiss edər və böyük bir mənəvi rahatlıq və xoşbəxtlik hissi içində yaşayar. Çünki Rəsulullah ﷺ namaz qılmayanlar üçün belə buyurmuşdur:

"-Kim namazı bilə-bilə tərk edərsə, həmin şəxs Allah-Təalanın himayəsindən və mühafizəsindən uzaq qalar." (İbn Macə, Fitən, 23)

Bu mənada namaz qılan bir cəmiyyət maddi və mənəvi baxımdan sağlam olar. Belə ki, Əsri-Səadətdə Mədinəyə bir həkim gəlir və görəcək bir iş tapa bilmir. Nəticədə Peyğəmbərimiz ﷺ ona ailəsinin yanına qayıtmasını tövsiyə edir.[153] Yenə, bizə gəlib çatan rəvayətlərə diqqət etdiyimizdə, Əsri-Səadətdə psxixoloji bir narahalığa rast gəlmirik.

Allah-Təala, Həzrət Peyğəmbərimizi ﷺ örnək olaraq göndərmişdir. O hər xüsusda örnək olduğu kimi, psixoloji və ruhi müalicə xüsusunda da örnəkdir. Eyni şəkildə cəmiyyətin islahı xüsusunda da örnəkdir. Bunun ən böyük dəlili isə Əsri-Səadət cəmiyyətidir...

152. Bax. əl-Muminun, 1-2.
153. Bax. Hələbi, İnsanu-l-Uyun, III, 299.

Digər yandan namaz, imandan sonra Allahı zikr etmək üçün edilən əməllərin ən fəzilətlisi[154] və ən kamilidir. Kəlimeyi-şəhadətdən sonra islamın ən mühüm rüknüdür. Namaz qılan insanın kiçik günahları bağışlanır.

Bir gün Rəsulullah ﷺ əshabına:

"-Nə deyirsiz? Birinizin qapısının önündə bir çay axsa, həmin insan hər gün bu çayda beş dəfə yuyunsa (bədənindəki) kirdən bir əsər qalarmı?"-deyə soruşur. Əshabi-Kiram:

"-Həmin adamın kirindən bir şey qalmaz."-dedi. Rəsulullah ﷺ:

"-Beş vaxt namaz, məhz bunun kimidir. Allah beş vaxt namazla günahları silib yox edər."-buyurdu. (Müslim, Məsacid, 283. Bax. Buxari, Məvaqit, 6)

Rəsulullah ﷺ gur sulu bir çayın, tam qapımızın önündə olduğunu xəbər verir. Yəni çay bizə çox yaxındır, ondan su götürməyimiz və içinə girib yuyunmağımız çox asandır. Balaca bir zəhmətlə, Allah-Təalanın vəd etdiyi böyük lütf və ehsanlara çata bilərik.

Namaz, **Cənnətin açarı**[155] olduğuna görə, Allah Rəsulu ﷺ Cənnətə girmək və orada ona qonşu olmaq istəyənlərə, çoxlu səcdə etmələrini tövsiyə edir.[156]

Səcdə eyni zamanda **Cəhənnəmdən qurtuluşa** vəsilədir. Bu həqiqət hədisi-şərifədə belə bəyan edilir:

154. Bax. Müslim, İman, 137-140
155. Bax.Əhməd, III, 340.
156. Bax. Müslim, Salat, 225, 226; Əhməd, III, 428, 500.

"-Qiyamət günü Allah-Təala Cəhənnəm əhlindən istədiklərinə rəhm edəcəkdir. Mələklərinə, dünyada ikən Allaha ibadət edənləri oradan çıxarmalarını əmr edəcək, onlar da çıxaracaqlar. Mələklər onları səcdə izlərindən tanıyarlar. Allah, Cəhənnəmə səcdə izlərini yeməyi (yox etməyi) haram qılmışdır. Atəş, insanın hər yerini yandırar, səcdə yerinə toxuna bilməz."
(Buxari, Əzan, 129)

Səcdədən məqsəd, ümumilikdə namazdır. Bəzi ayeyi-kərimə və hədisi-şəriflərdə namaz, ən mühüm rüknü olan səcdə ilə ifadə edilmişdir.

Namazın başqa bir faydası da vardır ki, o hamısından mühümdür. O da Cənnətə girən möminlərə Camalullahı seyr etdirməsidir. Əshabi-kiramdan Cərir ﵁ belə rəvayət edir:

Bir gecə Rəsuli-Əkrəmlə birlikdə əyləşmişdik. Allah Rəsulu ﷺ hilala baxaraq bunları dedi:

"-Bu hilalı bir-birinizi itələmədən necə rahat şəkildə seyr edirsinizsə, (eyni şəkildə) Rəbbinizi də (Cənnətdə) belə rahalıqla görəcəksiniz. Artıq Günəşin doğmasından və batmasından əvvəlki bütün namazları qıla bilmək üçün əlinizdən gələn səyi göstərin!"

Allah Rəsulu ﷺ bu sözlərin ardınca aşağıdakı ayeyi-kəriməni oxudu:

"**Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbinə şükür edib şəninə tərifl ər de** (sübh və əsr namazlarını qıl)**, gecənin bir vədəsində** (axşam və gecə saatlarında) **və günorta radələrində də Rəbbini öyüb təqdis et** (şam, gecə və günorta namazlarını qıl) **ki,** (bunun müqabilində Allahın səni böyük savaba, yük-

sək dərəcələrə, yaxud ümmətin üçün şəfaətə nail etməsindən) **razı** (xoşhal) **olasan!**" (Taha, 130)[157] (Buxari, Məvaqit, 16; 26; Təfsir, 50/1; Tövhid, 24; Müslim, Məsacid,211)

Bir sözlə namaz, insanı yaradılış məqsədinə çatdıran ən mühüm ibadətdir. Onsuz da insanın sklet quruluşunun rahat şəkildə rüku və səcdə edəbiləcək vəziyyətdə xəlq edilməsi də bir baxımdan namazı asanlaşdırmaq və beləliklə insanı məqsədinə daha çox yaxınlaşdırmaq üçündür. Bu səbəbdən insan, bütün həyatını namaz vaxtlarına görə tənzimləməli və namazı həyatın mehvəri etməlidir.

3. Oruc və Mübarək Ramazan Ayı

Oruc Allahın əmrinə tabe olmaq və Onun rizasını qazana bilmək üçün imsaq vaxtından axşam Günəşin batmasına qədər yemək, içmək və cinsi əlaqədən uzaq durmaqla edilən bir ibadətdir.

Başda oruc olmaqla namaz, zəkat, infaq, zikr, Quran tilavəti, yardımlaşma, ikram etmə kimi ibadətlərə üstünlük verilərək dəyərləndirilən Ramazan isə, feyzli bir həyatın yaşandığı mübarək bir mükafat ayıdır. Ayların sultanıdır.[158] Bu ayda Allah-Təala bəndələrinə çox böyük ikram və ehsanlar edər. Əfv qapılarını sonuna qədər açar. Kiçik əməllərlə böyük savablar lütf edər. Belə ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

157. Bu ayeyi-kərimə, beş vaxt namazın vaxtlarını xəbər verir. Bu mövzu ilə əlaqədar olaraq həmçinin bax. Hud, 114; əl-İsra, 78; ər-Rum, 17-18; M. Kamil Yaşaroğlu, "Namaz" maddəsi, Diyanət İslam Ensiklopediyası, XXXII, 351.
158. Bax. Beyhəqi, Şuab, III, 314-315; Heysəmi, III, 140.

"Ramazan ayı girdiyində Cənnət qapıları açılar, Cəhənnəm qapıları bağlanar və şeytanlar zəncirlənər." (Buxari, Bədu-l-Xalq, 11; Müslim, Siyam, 1, 2, 4, 5)

Orucun Hikmətləri

Bu mübarək ayda, fani həzzlərdən əl çəkib əbədi həzzlərə nail olmağın sirrinə, Allah-Təalanın əmr etdiyi oruc ibadəti ilə qovuşmaq mümkündür. Oruc tutan mömin, daim bir ibadət şüuru içində nəfslə mübarizə aparır və onu nəzarət altında saxlayaraq təsirini ən aşağı səviyyəyə endirir.

Oruc, həyat mübarizəsində zəruri olan "əzm, səbr, səbat, iradə, qənaət, halına razılıq, mətanət və nəfsani arzulardan uzaqlaşmaq" kimi halları öyrətməklə əxlaqi vəziyyətimizi kamilliyə çatdırır. Nəfsin yemək, içmək və şəhvətdən irəli gələn tükənməz arzularına qarşı insanın şərəf və heysiyətini qoruyan bir qalxan vəzifəsi daşıyır.

Yenə oruc, məhrumiyət və aclıq vasitəsilə, Allah-Təalanın lütf etdiyi saysız-hesabsız nemətlərin qədrini bilməyi xatırladır. Yoxsulların hallarını düşündürüb onlar üçün bəslədiyimiz mərhəmət və şəfqət hissləri ilə ürəklərimizi həssaslaşdırır. Şükr etmək hisslərini canlandırır. Bu vəsfi ilə oruc, sosial həyatdakı kin, həsəd, qısqanclıq kimi cəmiyyəti narahat edən mənfilikləri aradan qaldırmaqda ən təsirili bir ibadətdir.

Oruc yalnız bu ümmətə deyil, əvvəlki ümmətlərə də fərz qılınmışdır. Allah-Təala belə buyurur:

*"**Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki,** (bunun vasitəsilə) **siz pis əməllərdən çəkinəsiniz!** (Oruc tutmaq) **sayı müəyyən olan** (bir ay) **günlərdir.**"* (əl-Bəqərə, 183-184)

İslamın fərz qıldığı ibadətlər, müxtəlif mənəvi xəstəliklər üçün əlac kimidir. Nəfsani arzular, dünyanın bərbəzəyinə aldanmaq, zövq və əyləncəyə meyl etmək də, mənəvi-ruhani xəstəlikləri əmələ gətirən səbəblərdəndir. Bu cür mənəvi xəstəliyə tutulmamaq üçün pəhriz saxlamaq lazımdır. Oruc isə bu müalicənin ən gözəl yoludur. Çünki orucu, insanı yaradan Allah-Təala əmr edir. Əlbəttə bəndələrinin ehtiyacını ən yaxşı O bilir.

Həqiqətən oruc, bir çox maddi və mənəvi xəstəliyə bir baxımdan dərman hökmündədir. Bu səbəbdəndir ki, "sayı müəyyən günlər"də tutulur. Çünki bir dərman davamlı istifadə edilərsə bədən ona öyrəşər və dərmanın heç bir faydası toxunmaz. Buna görə Rəsulullah ﷺ:

"Mən bundan sonrakı ömrümü həmişə oruclu keçirəcəyəm!"-deyən səhabəsinə:

"-Bütün vaxtını oruc tutaraq keçirənin orucu yoxdur."-buyurmuş və bu sözlərini üç dəfə təkrar etmişdir. (Buxari, Saum 55-57)

Tibb mütəxəssisləri də otuz gündən az tutulan orucun təsirinin olmayacağını, qırx gündən çox tutulan orucun da alışqanlıq halına gələrək müəyyən vaxtlarda yeməyə və içməyə fasilə verməklə fayda verməyəcəyini bildirirlər.

Oruc, insana yemək-içmək dissiplini və iştahına hakim olmaq alışqanlığı qazandırır. Acgözlüyə, artıqtamahlığa və nəticə etibarilə xəstəliklərə mane olur. Oruc tutan insan kökdürsə, artıq çəkilərindən azad olar, bir il fasiləsiz çalışan həzm sistemi oruc sayəsində istirahət etmiş olar.

Kainata baxdığımızda orada da orucun bir çox misalını görə bilirik:

Bioloji tədqiqatlar, vəhşi heyvanların qar yağdığında qarınlarını doyuzdurmaq üçün heç bir şey tapa bilmədiklərini göstərmişdir. Bunun nəticəsi olaraq bu heyvanlar qışda yuxuya gedərək, yəni sanki yaza qədər oruc tutaraq keçirirlər.

Ağaclar da eyni vəziyyətdədir. Qışda yarpaqlarını tökərək yuxuya gedərlər və hətta yaz fəsli gəlib buzlar əriyənə qədər köklərinə su belə çəkməzlər. Oruclu keçən bu bir neçə aydan sonra yaz fəsli gəldiyində daha canlı və daha verimli olurlar. Bu hal, yarpaq və çiçəklərin bolluğundan da hiss edilə bilər.

Mədənlər belə oruca möhtacdır. Motor və texnikalar uzun müddət çalışdıqdan sonra bir müddət fasilə verdirilir. Bu istirahət onların əvvəlki güclərini bərpa etməyə kömək edər.

Son zamanlar tibdə tətbiq edilən yeni bir müalicə metodu ilə, xroniki xəstəliklər, xəstənin vəziyyətinə görə uzun və ya qısa müddətli oruclarla yaxşılaşdırılır.[159]

159. Prof. Dr. M. Həmidullah, *İslama Giriş*, səh. 104.

Digər yandan orucun müəyyən bir ayda tutulması, müsəlmanların birlik və bərabərliyini təmin etməsi baxımından da mühümdür. Bir də ki, digər insanlarla birlikdə edilən işlər insanlara asan gəlir və mübarək Ramazan ayı bir bayram havası içində birlikdə keçirilir. Nəticədə sayı məlum günlərdən ibarət olan oruc, yenə sayı müəyyən günlərdən ibarət olan həyatımıza müstəsna bir incəlik və zəriflik qazandırır.

Bununla yanaşı mübarək Ramazan ayının, ilin bütün mövsümlərini gəzməsi də, başqa bir hikməti ifadə edir. İlin müxtəlif mövsümlərində yaşanan istisoyuq, sərin-mülayim günlərlə uzun, qısa və ya nizamlı bütün günlərə sıra ilə Ramazan ayı təsadüf edir.

Beləliklə oruc, müəyyən zaman fasilələri ilə ilin bütün günlərini bərəkətləndirir. Bu hal, eyni zamanda oruc tutanlar üçün də bir çox müxtəlif çətinlik və asanlıqlarla dolu təcəllilərə vəsilə olar; mömin qəlblərə neçə-neçə mənəvi həzzlər yaşadır. Yenə bu hal, möminlərin bütün hallarda Allah-Təalanın əmrinə itaət etməsinin ən gözəl nümunəsidir.

Allah-Təala, Ramazan və oruc haqqında belə buyurur:

"**İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və** (haqqı batildən) **ayıran** (Quran) **ramazan ayında nazil edilmişdir. Aya** (ramazan ayına) **yetişən şəxslər** (bu ayı) **oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə

görə Ona (“Allahu əkbər” deməklə) **təzim və şükür edəsiniz.**” (əl-Bəqərə, 185)

Bu ayeyi-kəriməyə görə Allah-Təala orucun sanki Quranın endirilməsinə bir şükr olaraq tutulmasını arzu edir. Lakin O, hər xüsusda olduğu kimi, orucu da bəndələrinə asanlaşdırmışdır. Onları heç vaxt çətin vəziyyətdə qoymamışdır. Ayənin son hissəsində isə sanki orucdan əldə edilməsi zəruri olan xüsusu bəyan etmişdir. Buna görə insan, oruc ilə Allahın əzəmətini və etdiyi lütfləri idrak edir və Ona ən gözəl şəkildə şükr edəbilməyi öyrənir.

Bir sözlə orucun əsl məna və mahiyəti, müəyyən cismani arzulara fasilə verməklə yanaşı, şüuru da dünyəvi əlaqələrdən, Allahın xaricindəki şeylərdən boşaldaraq Allah-Təala ilə bərabərlik üçün mənəvi hislərin mümkün olan ən üst səviyyəsinə çatmaqdır.

Orucun Fəziləti

Həzrət Mövlana -qüddisə sirruh- buyurur:

“İnsanın əsl qidası Allahın nurudur. Ona həddindən çox qida vermək layiq deyildir. İnsanın əsl qidası, ilahi eşq və ağıldır.

İnsan, əsl ruhani qidasını unutduğuna və cismani qidaya meyl etdiyinə görə xoşbəxt deyildir. Doymaq bilməz, ehtirasdan üzü saralmış, ayaqları titrəyir və qəlbi təlaşla döyünür. Harada yerüzünün qidası, harada sonsuzluğun qidası?!”

Allah şəhidlər üçün; “Ruziləndirilməkdədirlər.”-deyə buyurdu. O mənəvi qida üçün nə ağız, nə də cəsəd vardır.”

Az yeməkdə, xüsusilə aclıq və orucda on gözəl xislət vardır:

1) Aclıqda qəlb səfası və güclü yaddaş; toxluqda isə axmaqlıq və unutqanlıq vardır.

2) Aclıqda qəlb riqqəti olur; dua və ibadətlərdən həzz və feyz alınır. Toxluqda isə qəlb qatı olur və ibadətdən zövq hasil olmaz.

3) Aclıqda həlimlik və təvazökarlıq; toxluqda isə özündənrazılıq, təkəbbür və lovğalıq olur.

4) Aclıqda kasıb və aclar düşünülür. Toxluqda isə bunlar unudulur, yada salınmaz.

5) Aclıqda şəhvani və nəfsani arzular qırılır. Toxluqda isə nəfsi-əmmarə güclənir.

6) Aclıqda bədən canlı və oyanıq olar. Toxluqda isə yuxu və qafillik ağırlıq edər.

7) Aclıqda ibadət və qulluğa davam etmək asandır. Toxluqda isə tənbəllik və yorğunluq olur.

8) Aclıqda bədən sağlam olur. Toxluqda isə bədən əzgin və xəstə olur.

9) Aclıqda bədəndə yüngüllük və fərəhlik; toxluqda isə ağırlıq və ətalət olur.

10) Aclıqda sədəqə verməyə, ikram və infaq etməyə şövq gəlir. Bu da, bəndəni qiyamət gününün dəhşətli qızmarında sərin bir kölgəliyə nail edər. Toxluqda isə ya xəsislik, ya da israfçılıq ortaya çıxar. Bu da bəndəni mənəvi cəhətdən həlak edər.

Yəni toxluq, nəfsani arzuları təhrik edərkən; aclıq-aşırıya varmadıqca- təfəkkür və hissiyyat- gücünü artırar.

Bir sözlə oruc, insanın hər baxımdan sağlam olmasını təmin edər. Belə ki, Allah Rəsulu ﷺ belə buyurur:

"*Oruc tutun ki, (maddi və mənəvi) sağlam olasınız!*" (Heysəmi, III, 179)

Aclıqla əldə edilən maddi-mənəvi səhhət və xislətlərə işarə edən ən kamil istinad budur: Allah-Təala, peyğəmbərlərini nübüvvətin feyzini almağa orucla hazırlamışdır. Onlar mənəvi kamilliyin zirvəsinə çatdıqdan sonra bir müddət insanlıq aləmindən uzaqlaşmış və onlarda mələk kimi vəsflər təcəlli etmişdir. Beləliklə qəlbləri və damaqları, ilahi vəhyin feyzi ilə dolub daşmışdır. Məsələn; Sina Dağının çox qiymətli peyğəmbəri Həzrət Musa عليه السلام Tövrat nazil olana qədər qırx gün qırx gecə oruc tutmuşdur.

Sair Dağının müqəddəs peyğəmbəri Həzrət İsa عليه السلام da, incildən ilk kəlamı eşidənə qədər, qırx gün qırx gecə oruc tutmuşdur.

Həzrət Muhəmməd ﷺ də, Qurani-Kərim nazil olmağa başlamadan öncə, uzun müddət Məkkə yaxınlığındakı Hira mağarasında təkbaşına qalmış və günlərini müxtəlif ibadətlərlə keçirmişdir. Axırda Cəbrailin səsindən müjdəsini almış və ilahi feyzlərin nuru, könlünə doğmağa başlamışdır.

Yenə Meraca yüksəlib Allah-Təala ilə mahiyəti bizə məchul olan xüsusi bir görüşməyə nail olmadan əvvəl, müşriklərin üç il ərzində davam etdirdikləri embar-

qoya görə şiddətli aclığa və müxtəlif sıxıntılara səbr edərək ruhi kamilliyin zirvəsinə yüksəlmişdir.

Bu həqiqətlər də göstərir ki, orucun əsl qayəsi və faydası mənəvidir. Bu mənada oruc, bir ibadət olduğundan sırf o qayə ilə tutulmalıdır. Onun yalnız zahiri faydaları qayə halına gətirilirsə, oruc ibadət olmaqdan çıxar. Yəni oruclarımızda mədəni doldurmağın qarşısını almaq, arıqlamaq kimi məqsədlər olmamalıdır. Bu cür oruclarda Allah rizası düşünülməz. Allah rizası üçün tutulan oruclarda isə bu kimi faydalar onsuz da öz-özlüyündən meydana çıxar.

Bu səbəbdən oruc tutan müsəlman qəlbi həyatını, nəfsani arzu və düşüncələrdən qorumalıdır. Yalnız yemək-içmək kimi cismani təmayüllərdən uzaq durmaqla kifayətlənməyib könül aləmini də qeybət, yalan, kin və həsəd kimi hər cür mənfi xüsusiyyətlərdən mühafizə etməlidir.

Burada sadalaya bilmədiyimiz daha çox fayda və fəzilətinə görə Allah-Təala, bəndələrini oruc tutmağa təşviq etmişdir. İnsanların oruc tutmağa rəğbət göstərmələri üçün də onun fəzilətini qat-qat artırmışdır. Hər yaxşılığa, on mislindən yeddi yüz mislinə qədər savab verilir. Lakin oruc bunun xaricindədir. Onun qaşılığını Allah-Təala hesabsız olaraq verəcək və oruc tutan bəndələrini istər dünyada, istərsə də axirətdə sevindirib Cənnətində xüsusi olaraq mükafatlandıracaqdır. Rəsulullah ﷺ belə buyurmuşdur:

"Allah-Təala belə buyurdu: "İnsanın oruc xaricindəki hər əməli özü üçündür. Oruc isə Mənim üçündür, onun mükafatını da Mən verəcəyəm."

Oruc qalxandır. Biriniz oruc tutduğu gün pis söz danışmasın və mübahisə etməsin. Əgər bir adam ona həqarət edərsə və ya sataşarsa:

"-Mən orucluyam!"-desin.

Muhəmmədin canı qüdrət əlində olan Allaha and içirəm ki, oruclu insanın ağız qoxusu, Allah dərgahında müşk qoxusundan daha xoşdur. Oruclunun sevinəcəyi iki an vardır:

Biri, iftar etdiyi andır, digəri də Rəbbinə qovuşub orucunun qarşılığını gördüyü andır." (Buxari, Saum, 9; Müslim, Siyam, 163)

Bir sözlə oruc, ruhun ən gözəl qidalarından biridir. Bəndəni cismani və maddi olaraq riyazət halında yaşadır. Halalları belə ən az istifadə etməyə alışdıraraq ruhu inkişaf etdirir. Halalları belə riyazət halında istifadə edən bir mömin isə şübhəli şeylərdən daha çox uzaq durur və haramlara əsla yaxınlaşmaz.

4. Zəkat

Zəkat, müəyyən miqdardan artıq var-dövlətə sahib olan zənginlərin, hicri təqvimə görə ildə bir dəfə mallarından 2.5% nisbətində Allah rizası üçün verməleridir. Zəkat; kasıblara, yoxsullara, zəkat yığan məmurlara, qəlbləri islama isindirəcək olan insanlara, hürriyətini pul verib əldə etməyə çalışan kölələrə, borclulara, Allah yolunda çalışanlara və yolda qalanlara verilir. (ət-Tövbə,60)

Heyvanlar və torpaq məhsulları da zəkata tabedir. Hər birinin hesabı fərqli fərqli aparılır. Torpaq məhsullarının zəkatına "öşür" deyilir.

İslam, zəkat kimi müəyyən ölçüdə məcburi bir infaqla yanaşı yüksək himmət sahiblərinin vəziyyətinə görə infaq və sədəqə etməsini də öz ixtiyarlarına buraxmışdır.

Zəngin ilə Kasıbın Vəzifələri

Fərdlərin və cəmiyyətlərin güclü-gücsüz, sağlam-xəstə, bilikli-biliksiz, varlı-kasıb kimi müxtəlif vəziyyətlərdə olması, ilahi-təqdirin bir çox dərin və incə hikmətlərini ehtiva edir. Hər şeydən öncə həyatda sahib olduğumuz bütün nemətləri Allah-Təala bizə bir imtahan vasitəsi olaraq lütf etmişdir. Hətta sahib olduğumuz nemətlər qədər içinə düşdüyümüz məhrumiyətlər də bir imtahan vəsiləsidir. Allah-Təala belə buyurur:

"**İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: "Rəbbim mənə ehtiram göstərdi!" –deyər. Amma nə zaman** (Rəbbin) **onu imtahana çəkib ruzisini əskiltsə: "Rəbbim məni alçaltdı** (mənə xor baxdı)**!**" -söyləyər." (əl-Fəcr, 15-16)

Buna görə məsələn zənginlik izzət, kasıblıq da zillət deyil, ilahi bölgüdür. Allah-Təala belə buyurur:

"**...Dünyada onların dolanacaqlarını** (keçinəcəklərini) **öz aralarında Biz bölüşdürdük. Bir-birlərinə iş gördürsünlər deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün tutduq. Sənin Rəbbinin mərhəməti onla-**

rın yığdıqlarından (dünya malından) **daha yaxşıdır!**" (əz-Zuxruf, 32)

Allah-Təala bəndələri arasındakı bölgünü fərqli etdiyi kimi, mükəlləfiyyətləri (məsuliyyətləri) də ona görə tənzim edərək bəndələrinə əsla haqsızlıq etməmişdir. Bu ayeyi-kərimədən həmçinin insanlar arasındakı fərqliliyin, cəmiyyətin ahəng və nizamını təmin etməkdə mühüm bir rola sahib olduğunu başa düşürük.

Zəngin, malını haradan qazanıb haraya xərcləyəcəyi xüsusunda, yəni halal və ya haram qazanclarından, zəkat, sədəqə, xeyirxah əməllərindən Allahın hüzurunda hesab verəcəkdir. O, var-dövlətinin müəyyən bir hissəsini kasıblara verməyə əmr edilməklə, sərvətinə görə böyük bir imtahandan keçəcəkdir. Lakin digər əməlləri ilə birlikdə bu imtahanı da keçdiyi təqdirdə İlahi rizaya və Cənnət nemətlərinə nail olacaqdır.

Kasıb da səbir, şikayət, üsyan, kin, həsəd, iffət kimi xüsuslardan hesaba çəkiləcəkdir. Bunların nəticəsi Allahın rizasına uyğun gələrsə, onun dünyadakı əziyyəti, əbədi bir axirət səadətinə çevriləcəkdir.

Kasıb, dünyada zənginin maddi dəstəyinə möhtac olduğu kimi, zəngin də həm dünyada, həm də axirətdə kasıbın duasına möhtacdır.

Şükür əhli comərd zənginlərlə səbirli, heysiyətli kasıblar insanlıq şərəfində və ilahi rizada bərabərdirlər. Lakin islamda təkəbbürlü xəsis zənginlər və bunun müqabilində səbirsiz, istəməyi adət halına gətirən kasıblar məzəmmət edilmişdir. Belə ki, Həzrət Peyğəmbər ﷺ:

"Ya Rəbb! Zənginlik və kasıblığın fitnələrinin şərrindən Sənə sığınıram!"-deyə dua edərdi. (Müslim, Zikr, 49)

O halda qənaət, təvəkkül, təslimiyyət və itaət kimdə qalib gələrsə, həqiqi zəngin odur...

Çalışmaq və halal yoldan var-dövlət sahibi olmaq, əlbəttə üstün bir məziyyətdir. Doğru olanı bunların hərisi olmadan, yəni qəlbdə bütləşdirmədən Haqq yolunda infaq edə bilməkdir. Əks halda sərvət, dünyada haballıq, axirətdə də dözülməz bir əzaba səbəb olar.

İnfaq, sədəqə və Allah yolunda xidmət və zəhmətin əhəmiyyətini bildirən bu qissə olduqca ibrətlidir:

Bəşir bin Həsasiyyə ﷺ belə rəvayət edir:

Həzrət Rəsulullaha ﷺ beyət etmək üçün yanına gəldim. Mənə, Allahdan başqa ilah olmadığına və Həzrət Muhəmmədin də Onun qulu və Rəsulu olduğuna şəhadət etməyimi, namaz qılmağımı, zəkat verməyimi, müsəlman olaraq həccə getməyimi, Ramazan orucunu tutmağımı və Allah yolunda cihad etməyimi şərt qoydu.

Mən belə dedim:

"-Ey Allahın Rəsulu! Vallah bunlardan ikisinə gücüm çatmaz. Onlar da cihad və sədəqədir. Müsəlmanlar cəbhədən qaçan insanın Allahın qəzəbinə düçar olmuş halda qayıdacağını deyirlər.[160] Mən isə savaş meydanına

160. Ayeyi-kərimədə belə buyurulur:
"**(Düşməni aldatmaq məqsədilə yalandan özünüzü qaçan kimi göstərib) təkrar döyüş üçün bir tərəfə çəkilən və ya (kömək məqsədilə müsəlmanlardan ibarət) başqa bir dəstəyə qoşulan istisna edilməklə, kim belə bir gündə düşmənə arxa çevirib qaçarsa, sözsüz ki, Allahın qəzəbinə uğramış olar. Onun məskəni**

vardıqda, nəfsimin qorxuya düşüb ölmək istəməməsindən əndişə edirəm. Sədəqəyə gəlincə, vallah mənim kiçik bir qoyun sürüsü və on dəvədən başqa bir şeyim yoxdur. Onlar da ailəmin dolanışıq mənbəyi və minik heyvanlarıdır."

Rəsulullah ﷺ əlini yumub yellədi və belə buyurdu:

"*-Cihad (Allah yolunda xidmət) yox, sədəqə yox, bəs görəsən nə ilə Cənnətə girəcəksən?!*"

Mən dərhal:

"-Ya Rəsulallah, Sənə beyət edirəm!"-dedim və qoyduğu bütün şərtlərə beyət etdim. (Əhməd, V, 224; Hakim, II, 89/2421; Beyhəqi, Şuab, V, 8; Heysəmi, I, 42)

Zəkat və İnfaqdakı Hikmətlər

Zəkat, sədəqə və infaq, imkanlı insanların var-dövlətlərinə aldanaraq azğınlaşmasına və möhtacların zənginlərə qarşı kin və həsəd kimi mənfi hisslərə qapılmasına mane olur. Beləliklə ictimai həyatı qoruyur, fərdləri bir-birinə qardaşlıq və məhəbbətlə bağlayar. Varlılarla kasıblar arasındakı məsafəni ən aşağı səviyyəyə endirər. Nəticədə kasıbların sayı yox deyiləcək qədər azalaraq, yoxsulluq və çarəsizliyə görə meydana gələn bir çox xoş olmayan hadisənin qarşısı alınmış olur.

Zəkatın cəmiyyətdəki müxtəlif təbəqədən insanları bir-birinə necə qaynaşdırdığını göstərən bu misal, olduqca diqqət cəlbedicidir:

Cəhənnəmdir. Ora nə pis dönüş yeridir. " (əl-Ənfal, 16)

Həzrət Ömər ﷺ bir evin yaxınlığından keçirdi. Qapının qarşısında yaşlı və kor bir yoxsulun diləndiyini gördü. Arxadan yaxınlaşıb qoluna toxundu və:

"-Sən əhli-kitabın hansı təbəqəsindənsən?"-deyə soruşdu. Yaşlı adam yəhudi olduğunu dedi. Həzrət Ömər ﷺ:

"-Səni bu hala gətirən səbəb nədir?"-dedi. Kor yəhudi:

"-Məndən cizyə alınması və bir də ehtiyac sahibi yaşlı olmağım məni bu hala saldı."-dedi.

Ömər ﷺ kor yəhudinin əlindən tutdu və onu öz evinə apardı. Evində əlinə keçən bəzi şeyləri yəhudiyə verdi. Sonra Beytulmal məmurunu çağırdı və bu təlimatı verdi:

"-Bu və bunun kimi olanlara diqqət et! Allaha and içirəm ki, əgər biz gəncliyinin verimli çağında ondan istifadə edib, qocalıb əldən düşdüyündə belə səfil buraxsaq, heç də insaflı davranmış olmarıq..."

Bu hadisdən sonra Həzrət Ömər ﷺ, o və bənzəri insanlardan cizyəni qaldırdı.[161]

Qeyri-müsəlmanlar da insanlıqda bizimlə eynidir. Son nəfəs hamı üçün məchul olduğundan, bütün insanlara gözəl münasibət göstərmək və qeyri-müsəlmanlara ölmədən əvvəl iman edə biləcəkləri ümidi ilə yanaşmaq zəruridir. Bu səbəbdən onlara da zəkatdan olmasa da, sədəqələrdən pay ayrıla bilər. Bu ikram və ehsanlar da nəticədə onların hidayətinə vəsilə ola bilər. Bunun

161. Əbu Yusuf, Kitabu-l-Xərac, *Daru-s-Salah*, ts. səh. 259-260.

ən bariz nümunəsini yenə Rəsulullahın ﷺ həyatında görə bilərik:

Allah Rəsulu ﷺ hicrətin 7-ci ilində Xeybərin fəthindən sonra quraqlıq və qıtlığa düçar olan Məkkə xalqına müxtəlif yardım məhsulları göndərdi. Əbu Süfyan bunların hamısını təslim alıb qüreyş camaatının kasıblarına payladı. Özü həmin vaxt müşrik olduğu halda bu alicənablığa heyran qalaraq:

"-Allah, qardaşımın oğlunu xeyirlə mükafatlandırsın! Çünki O, qohumluq haqqına riayət etdi!"-deyərək öz məmnuniyyətini ifadə etdi.[162]

Bu və buna bənzər yaxşılıqlar məkkəlilərin qəlbini yumşaldaraq Məkkənin fəthi zamanı toplu halda müsəlman olmalarını asanlaşdırdı.

Osmanlı tarixində də bu şəkildə bir çox insanın hidayətinə vəsilə olmuşdur.

Digər yandan, zəkat olaraq alınan mülkiyyət, hissə-hisə, mərhələ-mərhələ cəmiyyətin zərərə uğrayanlarına nəql etdirilir. Beləliklə cəmiyyətdə nizam, ədalət və ictimai ahəng meydana gəlir. Zənginin sərvəti təmizlənərək sahibinə bütünlükdə halal olar.

Dünyada qədimdən bu günə qədər varlı-kasıb savaşı davam etmişdir. Əksər hallarda kasıblar zənginlərə qarşı kin və həsədlə baxmış, zənginlər isə kasıbları xor və həqir görmüşlər. Bunun istisnası isə yalnız zəkatın haqqı ilə verildiyi zamanlarda mümkün olmuşdur. O vaxtlar zəkat və sədəqələr böyük bir gizlilik və nəzakətlə

162. Yaqubi, *Tarxu-l-Yaqubi*, Beyrut 1992, II, 56.

təqdim edilirdi. Çünki ayeyi-kərimədə "**...Sədəqələri Allah alır!..**"-buyurulur. (ət-Tövbə, 104) Bu gün də zəkat ibadəti layiqincə yerinə yetirilsə, cəmiyyətdə kasıb və məzlum insanlar yox sayılacaq dərəcədə azalar. Belə ki, Xəlifə Ömər bin Əbdüləziz dövründə insanlar mallarının zəkatını gətirir, ancaq verməyə adam tapa bilməzdilər.[163] Ömər bin Əbdüləziz bir dəfə zəkat məmurunu Afrika ölkələrinə göndərmişdi. Məmur, malları paylamadan geri qaytardı. Çünki zəkat alacaq adam tapa bilməmişdi. Bundan sonra o da bu pullarla xeyli sayda kölə azad etdi.[164] Bu hal, malın və canın Allah-Təala üçün infaq edilməsinin mükafatıdır.

Məhz islam, bəşəriyyətin maddi-mənəvi yaralarını belə gözəl bir ehtiva içində sarıyıb şəfa bəxş edərkən, digər sistemlər bunu bacara bilməmiş, ya ifrata, ya da təfritə varmışdırlar. Bəziləri başqasından bir şey istəməyi tamamilə qadağan etmiş, bəziləri də dilənməyi adət halına gətirmişdir. İslam isə, zəkat və infaq yolu ilə bu yaraya son dərəcə hakimanə bir əda ilə yanaşmış və ən münasib çarəni təqdim etmişdir.

Doğurdan da zəkat, islamın bəşəriyyətə qazandırdığı çox yüksək qiymətlərdən biridir. Bir zamanların acı həqiqətlərindən biri olan köləlik zəncirini insanın boynundan çıxarmağın yollarından biri də zəkatdır. Çünki zəkat mallarının istifadə edilə biləcəyi səkkiz yerdən biri də kölələrin hürriyətə qovuşdurulmasıdır.

Zəkat və infaqdakı sirlərdən digəri də, fərdi sərmayənin anormal şəkildə böyüməsinə mane olmuşdur.

163. Bax. Beyhəqi, *Dəlailu-n-Nübüvvə*, VI, 493.
164. Bax. M. S. Ramazan əl-Buti, *Fiqhu-s-Sirə*, səh. 493.

Zəkat və infaqlar, sərmayənin xərçəng halına gəlməsinə mane olan ən gözəl bir əlac və çarədir.

Yenə zəkat sayəsində Allah yolunda əmək sərf edən bir çox insana dəstək verilərək xeyirli işlərin edilməsinə öncüllük edilir. Tələbələrin oxumasına yardım edilərək bu vəsilə ilə elmin, Haqqa qulluğa vəsilə olaraq istifadə edilməsi təmin edilir.

Bir sözlə zəkat verən cəmiyyətdə xoşbəxtlik bərqərar olar. İstər müxtəlif islam cəmiyyətlərində, istərsə də Osmanlıda cəmiyyətin ümumi bir xoşbəxtlik içində yaşadığını görürük. Osmanlı cəmiyyəti bu xoşbəxtliklə 620 il hökmranlıq etmişdir.

Zəkat verilməyərək ictimai yardımlaşma olmadıqda, cəmiyyətdə oğurluq, dəbdəbəli yaşamaq marağı və özünü göstərmək kimi yanlışlıqlar artar. Mənəviyatdan uzaqlaşdıqca da nəfsani arzular azğınlaşır və nəticədə bütün cəmiyyət xoşbəxt olmaz. Belə hallarda sosiologiya elminin bildirdiyi qaydalar da yalnız sətirlərdə qalar.

Mülk Allaha Aiddir

Belə düşünəcək olsaq, Rəbbimizin mülkündə yaşayırıq. Onun nemətləri ilə ruzilənirik. Maddi ibadətlərdə biganə davrananlar düşünmürlərmi ki, əcəba kimin malını kimdən əsirgəyirlər?

Həqiqətdə mülk, mütləq olaraq Allaha aiddir. İnsanların malik olduğu isə, mülkü dövr etmək kimidir. Dünya malı, Allahın bəndəsinə verdiyi bir əmanətdir. Fərdlərin onu istədiyi kimi istifadə edilməsi, əsla qəbul

edilməz. O, mülkün həqiqi sahibinin əmr etdiyi istiqamətdə istifadə edilməlidir.

Belə vəziyyətdə infaq edən insan, əslində öz malını deyil, Allahın ehsan etdiyi malı yenə Allahın bir bəndəsinə verir.[165] Bu səbəbdən Allah-Təala zəkatı, imkanı olan insanların möhtac olanlara verməsi zəruri olan bir haqq kimi təyin etmişdir. Ayeyi-kərimədə belə buyurulur:

"O kəslər ki, onların mallarında müəyyən bir haqq (pay) vardır – Dilənən və (hər şeydən) məhrum olan (lakin abrına qısılıb dilənməyən) kimsə üçün;" (əl-Məaric, 24-25; əz-Zariyat, 19)

Buna görə ilahi əxlaqa və lütfə nail olmaq istəyən hər bəndə, istifadə etdiyi dünya mallarından möhtacları və məzlumları da istifadə etdirmək məcburiyyətindədir. Çünki əsl qayə, əlindən və dilindən insanların istifadə etdiyibir mömin halına gəlib Allahın rizasına nail ola bilməkdir.

Zəkat və İnfaqdakı Bərəkət

Cəmiyyətin məzlum insanlarını sevindirən zəkat, əslində alandan daha çox verənə fayda verər. Həqiqətən "təmizlik", "saflıq" və "bərəkət" mənalarını ifadə edən "zəkat" kəlməsi, insanın bəzi qəlbi xəstəlik və pisliklərdən arınması, malın təmizlənib artması kimi son dərəcə mühüm faydaları ehtiva edir.[166] Belə ki, könlün arınması, ruhun saflıq qazanması və nəfsin təzkiyəsindəki bu təmizlik, ənbiyanın göndəriliş hikmətlərindən biridir.

165. Bax. əl-Bəqərə, 3; ər-Rəd, 22; ən-Nur, 33; əl-Hədid, 7.
166. Bax. ət-Tövbə, 103; Səbə, 39; Əbu Davud, Zəkat, 21/1619.

Zəkat, fitrətin tələbi mala düşkün olan insanın mal-dövlət hərisliyini azaltmaqla onun həqiqi məhəbbət və bağlanmağa layiq olan Allah-Təalaya yönəlməsini təmin edər. İnsanın Allah məhəbbətini kölgələyən hər şeyi içindən çıxarıb ataraq tövhidi yaşamasına, xəsislikdən qurtulub Allahın verdiyi malın şükrünü yerinə yetirə bilməsinə kömək edər. Şükür də neməti artırar. Allah-Təala belə buyurur:

"**Əgər** (Mənə) **şükür etsəniz, sizə** (olan nemətimi) **artıracağam.**" (İbrahim,7)

"**Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah** (lütfü ilə) **genişdir.**" (əl-Bəqərə, 261)

Rəsulullah ﷺ sədəqə və infaqın geniş və əhatəli olan mənəvi bərəkətini izah edərək belə buyurur:

"Allah bir tikə çörək, bir ovuc xurma və yoxsulun faydalanacağı buna bənzər bir şey vəsiləsi ilə üç adamı Cənnətinə qoyar:

1) Evin sahibi və onun (sədəqənin) verilməsini istəyən insan.

2) Veriləcək şeyi hazırlayan evin xanımı.

3) Sədəqəni yoxsulun əlinə verən xidmətçi."

Bunları ifadə etdikdən sonra Rəsulullah ﷺ bu şəkildə tamamladı:

"Heç birimizi unutmayan Allah-Təalaya həmd olsun!" (Heysəmi, III, 112)

Digər yandan sədəqə, dünyəvi və üxrəvi bir çox sıxıntını dəf edər. Bunların bir qismini Allah Rəsulu ﷺ belə xəbər verir:

"*Suyun atəşi söndürdüyü kimi sədəqə də günah(ın əzabını) söndürür.*" (Tirmizi, İman, 8/2616, həmçinin bax. İbn Macə, Fitən, 12)

"*Sədəqə, Rəbbin qəzəbini söndürər və insanı pis ölümdən uzaqlaşdırar.*" (Tirmizi, Zəkat, 28/664).

"*Müsəlmanın verdiyi sədəqə, ömrünü uzadar (bərəkətləndirər), pis ölümün qarşısını alar və Allah-Təala onunla təkəbbürü, kasıblığı və lovğalanmağı aparar.*" (Heysəmi, III, 110)

"*Sədəqə verməyə tələsin! Çünki bəla, sədəqənin qarşısına keçə bilməz.*" (Heysəmi, III, 110)

"İnsanlar arasında hökm verilənə qədər, hər kəs sədəqəsinin kölgəsində olacaqdır."

Bu son hədisi bizə rəvayət edən ravilərdən biri olan Əbu-l-Xeyr رضي الله عنه hər gün mütləq bir sədəqə verməyə çalışardı. Verdiyi şey bir qoğal, bir soğan və buna bənzər şeylər olsa belə... (Əhməd, IV, 147-148; Heysəmi, III, 110)

Həzrət Peğəmbərimizin xəbər verdiyinə görə bir qrup insan Həzrət İsanın عليه السلام yanına gedir. Onlar getdikdən sonra İsa عليه السلام yanındakılara:

"-Bunlardan birisi Allah istəyərsə, bu gün öləcək!"- buyurdu.

Axşam olunca, həmin insanlar bellərində odun dəstəsi təkrar Həzrət İsanın yanına qayıtdılar. İsa عليه السلام:

"-Odunları yerə qoyun!-buyurdu. Sonra o gün öləcəyini dediyi insana:

"-Odun dəstəsini aç!"-buyurdu. Həmin adam odun dəstəsini açarkən içindən qara bir ilan çıxdı. Həzrət İsa عليه السلام:

"-Bu gün hər hansı bir saleh əməl iş gördünmü?"-deyə soruşdu. Həmin insan:

"-Bu gün hər hansı bir saleh əməl etmədim!"-dedi. İsa عليه السلام:

"-Yaxşı düşün, bu gün nə etmisən?"-buyurdu. Bu dəfə həmin adam:

"-Bir əməl etmədim, lakin əlimdə bir çörək parçası var idi. Həmin vaxt yanıma bir yoxsul gəlib bir şey istədi. Mən də çörəyin bir hissəsini ona verdim."-dedi.

Bu cavabdan sonra Həzrət İsa عليه السلام

"-Məhz bunun sayəsində (bəla) səndən uzaqlaşdırılmışdır!"-buyurdu." (Heysəmi, III, 109-110; Əhməd, Zöhd, I, 96)

Mövlana Həzrətləri var-dövləti Allah yolunda xərcləməyin bərəkətini nə gözəl izah edir:

"Var-dövlət, sədəqə verməklə əsla azalmaz. Əksinə xeyirxahlıq etmək, var-dövləti itirməkdən, zay olmaqdan qoruyar! Verdiyin zəkat, cibinə gözətçilik edərək onu qoruyar. Qıldığın namaz da sənə çobanlıq edər, səni pisliklərdən və qurdlardan qurtarar.

Əkin əkənin anbarı boşalar, lakin biçin vaxtı gəlincə səpdiyi toxumların qarşılığında neçə mislini geri alar! Boşaltdığı bir anbar müqabilində neçə anbar dolusunu geri alar! Lakin buğda yerində istifadə edilməyərək anbarda saxlanılarsa, bitlərə, balaca qurdlara və siçanlara yem olar. Bunlar onu tamamilə məhv edərlər.''

Zəkat və İnfaq Ədəbi

Zəkat və sədəqə verərkən ədəbə riayət etmək çox mühümdür. Xüsusilə verən, alana təşəkkür hissiyatı içində olmalıdır. Çünki onu fərz olan bir borcdan qurtarıb bir çox bərəkətlərə nail edir.

Zəkat və ya sədəqə verərkən ən azından malın ortabab olanından verilməlidir. Bizə verildiyində almaq istəyə bilmədiyimiz bir şeyi başqa birinə verməməliyik.[167]

Yenə başa qaxmaq və incitməklə sədəqələri boşa çıxarmamaq lazımdır. Çünki Allah-Təala, bu çirkin davranışı qəti şəkildə qadağan edir.[168]

Möhtaca bir şey verdikdən sonra fikrindən daşınıb verilən şeyi geri istəmək doğru deyildir. Bu davranış, son dərəcə ləyaqətsiz bir davranışdır.[169]

Zəkat, sədəqə və xeyir işlərində diqqət ediləcək mühüm xüsuslardan biri də, gizliliyə riayət etməkdir. Çünki aşkar şəkildə verilən sədəqə, alan adamın həya hisslərini zəiflədir, zamanla alışqanlıq halına çevrilincə də işləməyə səy göstərməz. Bununla yanaşı verən insa-

167. Bax. əl-Bəqərə, 267; Əbu Davud, *Zəkat*, 5/1582
168. Bax. əl-Bəqərə, 262-264; əl-İnsan, 8-11.
169. Bax. Müslim, Hibat, 5.

nın da təkəbbür, lovğalıq və özündənrazılıq kimi pis xüsusiyyətlərə meyl etməsinə səbəb olar.

Sədəqəni ixlas və səmimiyyətlə, sırf Allah rizası üçün verməlidir. Özünü göstərərək və dünyəvi məqsədlər üçün edilən infaqlar boşuna gedər və insana bir fayda verməz.[170]

Zəkatı Tərk Etməyin Təhlükəsi

Zəkat borcunu ödəyə bilməyən fərd və cəmiyyətləri maddi və mənəvi bir çox böyük təhlükələr gözləyir. Bu təhlükəyə diqqət çəkən Allah-Təala belə buyurur:

"(Malınızı) **Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** (ehsan) **edənləri sevir.**" (əl-Bəqərə, 195)

Verən Əl Alan Əldən Üstündür

İslam, ehtiyac sahibi bir insanın başqalarından bir şey istəməsini qadağan etməz. Bununla yanaşı əxlaqi baxımdan bu halı çox da bəyənməz. Lakin böyük zərurətlər halında istəməyə icazə verir. Çünki başqalarına əl açmaq, insanı alçaldar. Bu səbəbdən də Allah Rəsulu ﷺ əshabından beyət alarkən bir çoxuna "heç kimdən bir şey istəməmə"lərini şərt qoşmuşdur.[171]

Yəni zəkat almağa deyil zəkat verməyə səy göstərməlidir. Çünki Allah Rəsulu ﷺ belə buyurmuşdur:

170. Bax. əl-Bəqərə, 264.
171. Bax. Müslim, Zəkat, 108; Əbu Davud, *Zəkat*, 27/1643; Əhməd, I, 11.

"Verən al, alan əldən daha xeyirlidir. Yardım etməyə, dolanışığını üzərinə götürdüyün insanlardan başla! Sədəqənin xeyirlisi, ehtiyacdan artıq maldan veriləndir. Kim insanlardan bir şey istəməzsə, Allah onu heç kimə möhtac etməz. Kim də gözütox olarsa, Allah onu zəngin edər." (Buxari, Zəkat 18; Müslim, Zəkat 94-97, 106, 124)

Bununla yanaşı Allah-Təala, zəkat və sədəqə verən infaq əhli saleh möminlərin qəlb həssaslığına diqqət çəkər. Onların bir rəhmət dərgahı olan könül dünyalarının, eyni zamanda həqiqi möhtacları tanımaq xüsusunda sanki mənəvi bir rentgen halına gəlməsinin zəruriliyinə işarə edərək belə buyurur:

"(Sədəqə) **Allah yolunda canından keçərək** (dolanmaq, ruzi kəsb etmək üçün) **yer üzündə hərəkət edə bilməyən** (və ya buna imkanı olmayan) **yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər.** (Ya Rəsulum!) **Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan** (bunlara) **nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!** " (əl-Bəqərə, 273)

Faizin Zərərləri

Zəkat və infaq kimi hökmləri ilə islam, çətin vəziyyətdə olan insanlara, qarşılıq gözləmədən əl uzatmış və neçə-neçə qanayan yaranı kökündən şəfaya qovuşdurmuşdur. Bununla yanaşı zahirdə insanlara yardım və asanlıq kimi görünən, həqiqətdə isə çətin vəziyyətdəki çarəsizlərin bu hallarını istismar etməkdən başqa bir işə yaramayan faiz müsibətini də qadağan etmişdir.

Çünki sələm verən, başqalarının sıxıntıda olmasını və bu vəziyyətdən istifadə etməyi istəyər. Çünki zəkat verən insan isə, möhtac və sıxıntılı insanların dərd ortağıdır. Onun yeganə arzusu Allah-Təalanı razı sala bilməkdir. Bu səbəbdən Onun dərdli bəndələrinə dəva olmağa çalışar.

Həris və acgöz bir insanın, var-dövləti nə qədər çox olsa da, gözündə daima az görünər. Lakin sədəqə və zəkat verməyə alışan insanlar gözütox (comərd) olurlar. Cüzi var-dövlətlə kifayətlənirlər. Sələmçinin gözünü isə elə bir hərislik bürümüşdür ki, başqalarını məhv etmək bahasına öz var-dövlətini artırmağa çalışar. Lakin aqibəti həmişə müflislik və pərişanlıq olar. Çünki Allah-Təala belə buyurur:

"**Allah sələmi** (sələmlə qazanılan malın bərəkətini) **məhv edər, sədəqələri** (sədəqəsi verilmiş malın bərəkətini) **isə artırar.**" (əl-Bəqərə, 276)

Rəsulullah ﷺ də ümmətini belə xəbərdar etmişdir:

"*Kim malını faiz yolu ilə artırarsa, onun aqibəti mütləq malının azalaraq müflis olmağa sürüklənməsidir.*" (İbn Macə, Ticarət, 58; Hakim, IV, 353/7892; Beyhəqi, Şuab, IV, 392/5512" Təbərani, Kəbir, X, 223/10539)

Digər yandan faiz, birindən alıb digərinə verdiyinə görə, yəni birisinin dişini gücləndirmək üçün başqalarının qanını sorduğundan, ictimai prinsiplərə zərər verir. İnflyasiyanı artırır. Zəngini daha zəngin, kasıbı da daha kasıb hala gətirər. Milləti iqtisadi, ictimai, dini və əxlaqi cəhətdən bataqlığa sürükləyər.

Bunun müqabilində cəmiyyətin kasıb və sıxıntılı fərdlərinə yardım mahiyətindəki sədəqə və hədiyyələr, ictimai ahəng və nizamın davamını təmin etdiyindən, dünyada da, axirətdə də bir bərəkət mənbəyidir.

Bir sözlə qardaşlıq hisslərinin zəiflədiyi, ictimai asayiş və sükunətin pozulduğu, kin və düşmənliyin çoxaldığı dövrümüzdə ciddi bir infaq səfərbərliyinə ehtiyac vardır. Unutmamalıyıq ki, məzlum və möhtac insanların yerində biz də ola bilərdik. Ona görə onlara etdiyimiz infaq, eyni zamanda Rəbbimizə qarşı bir şükür borcumuzdur.

5. Həcc

Həc; var-dövlət və sağlamlıq cəhəti ilə gücü çatan bir müsəlmanın, ömründə bir dəfə müəyyən günlərdə Məkkədəki Kəbəni ziyarət edərək və bəzi rüknləri yerinə yetirərək etdiyi bir ibadətdir. Allah-Təala belə buyurur:

"...**Gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur.**" (Ali-İmran, 97)

Həcc, əvvəlki peyğəmbərlərin zamanında da var idi. Lakin zaman keçdikcə müşriklər onu ibadət olmaqdan çıxarmış, zənginlərin kasıblara qarşı nümayiş etdirdiyi bir güc göstərişi və sanki qeyri-əxlaqi rəsmi şənlik halına gətirmişdilər. İslam, həcci təkrar əsl mahiyətinə qovuşdurdu.

Həcc ibadətinin dünyəvi və üxrəvi bir çox hikmətləri vardır.

Həcc, Allahın sonsuz rəhmətinin təcəlli etdiyi mübarək və ehtişamlı bir iqlimdə cərəyan edər. Bu səbəbdən Məkkeyi-Mükərrəmənin bir adı da "Ummu Ruhm"dur, yəni bol-bol endiyi yer...[172]

Həccin yerinə yetirildiyi mübarək məkanlar, ülvi bir aləmin ruhaniyət iqlimləridir. Bu iqlimlər, ilahi nişanələrlə doludur. Oralarda həmişə Allahın rəhmət və bərəkəti yada düşür. Bu mübarək məkanlar, Həzrət Adəmdən bu yana imanlı qəlblərin ruhaniyətləri ilə qidalanmış, aşiqanə göz yaşları ilə sulanmışdır. Arifanə həcc edənlər, həmin məkanlarda bunları və bir çox peyğəmbərin ayaq izlərini axtarar və onların xatirələri ilə feyzlənirlər. Çünki müstəsna bir feyz mənbəyi olan bu müqəddəs məkanlar, nəbilər silsiləsinin möhtəşəm xatirələri ilə doludur.

Bu mənada həccin bir qayəsi də həmin mübarək məkanlara ehtiram, oradakı müqəddəs məqamların xatirəsi ilə qəlbləri zinətləndirməkdir.

Həcc

Həzrət İbrahim عليه السلام və Həzrət İsmailin عليه السلام təvəkkül və təslimiyyətindən pay ala bilməkdir.

İçimizdəki nəfs deyilən düşməni və ətrafımızdakı şeytani təmayülləri daşlaya bilməkdir.

Sinif fərqliliyindən çıxıb kəfən iqliminə girərək Rəbbimizə yalvara bilməkdir.

Qiyamətin həmin dəhşətli mənzərəsinin hissiyatı ilə ürpənməkdir.

172. Bax. Buxari, Təfsir, 18/4.

Müsəlmanlar arasındakı uzaq və yad toplumları bir araya gətirməklə iman qardaşlığı təsis etməkdir.

Yenə həcc, bədən libasından sıyrılıb ruhun dərinliyinə nüfuz edərək nəfsani ehtiraslardan qurtulmağa çalışmaqdır.

Məkkeyi-Mükərrəmə; vətən, rəng, geyim-keçim kimi məfhumların ortadan qalxıb islam islam qardaşlığı altında bütün möminlərin tək bir millət olduğu həqiqətinin təcəlligahıdır. Orada vəzifəli, işçi, qərib, zəngin, kasıb, cahil, alim, padşah hamısı bir arada, eyni libaslar içində, eyni meydanda və eyni səfdədir. O mübarək məkan əminamanlıq, səadət və məhəbbət qucağı, qəlbləri bərəkət və rəhmətlə dolduran peyğəmbərlər ocağıdır. Bu günkü islam aləminin bütün problemlərinə baxmayaraq o mübarək məkanlarda həcc və ümrələrdə nümayiş etdirilən birlik, qardaşlıq və məhəbbət zirvələri, nə möhtəşəm səhnələrdir. Əfv və bağışlanmaya nail olan müsəlmanlar, orada dərin bir iman eşqi, vəcdi və həyəcanı içində qaynaşırlar.

Həcc məhəbbət dolu bir bəndəliyin yerinə yetirilməsidir.

Həcc ibadətinin əsası, bütün hərəkət və davranışlarda hər şeydən uzaqlaşaraq özünü yalnız Allaha həsr etməkdir. Bir baxımdan axirət yolçuluğuna, ölümə hazırlaşmaq, ölümdən sonra yaşanacaq halların bu dünyadakı tətbiqini etməkdir.

Həcc, aşağıda və yuxarıda bir dəsmal ilə başıaçıq və ayaqyalın bəndənin bütün dünyəvi vəzifələrdən uzaqlaşması, bir baxımdan qəbirdən qalxıb məhşər

yerinə gəlməsi və beləliklə Rəbbinə könüldən yalvarış halı, tam bir təslimiyyətdir. Məhz bu həcc ibadəti də bizə göstərir ki, günahların tökülməsi, yalnız yalvarış, təvəkkül və təslimiyyətdən sonra edilən bir ibadətin bərəkəti ilə reallaşır.

Həcc, insanı qəlbi həyata istiqamətləndirir. Çünki bu nəzakətli ibadət, neçə-neçə şəfqət, mərhəmət və məhəbbət təzahürləri ilə doludur. Həccdə ov etmək, Allahın məxluqatını incitmək və hətta yaşıl bir budağı belə qoparmaq qadağandır. Orada Yaradandan ötrü yaradılana sevgi və nəzakət vardır. Belə ki, Rəsulullah ﷺ bir gün Həzrət Ömərə رضي الله عنه belə buyurmuşdu:

"-Ey Ömər! Sən güclü-qüvvətli bir insansan. Həcəri-Əsvədə toxunmaq üçün insanları sıxışdırıb zəiflərə əziyyət vermə! Nə narahat ol, nə də narahat et! Tənha olarsansa Həcəri-Əsvədi sığalla və öp, əks təqdirdə uzaqdan "əl sürüb öpmək" işarəsi et, kəlimeyi-tövhid oxuyaraq və təkbir gətirərək keç!" (Əhməd, I, 28; Heysəmi, III, 241).

Həcc müəyyən bir zaman və məkanda yerinə yetirildiyi üçün müsəlmanlara zaman və məkan məfhumunu, dünyada hər şeyin müəyyən bir nizam içində həyata keçdiyi şüurunu qazandırır. Həyatdakı bəzi mühüm fürsət anları qaçırıldığında insanın böyük itkilərə uğrayacağını xatırladır. Bu səbəbdən insanın daim oyanıq olması və hər işi vaxtında etməsinin zəruriliyini təlqin edir.

Allah Rəsulunun ﷺ vida həcci və vida xütbəsi, ümmətin qiyamətə qədər edəcəyi həcclərə nə gözəl bir nümunədir! Vida həccində Rəsulullahdan ﷺ eyni

zamanda bir məhəbbət hissi aşılanmışdır. İnsanlar arasındakı hüququn başlıca hədəfləri, məhəbbət və mərhəmət hisslərilə bir-birinə bağlanmışdır.

6. Digər İbadətlər

İslamda buraya qədər zikr etdiklərimiz xaricində başqa ibadətlər də vardır. Nafilə ibadətlər, zikr, təsbih, dua, Quran tilavəti kimi... Bu cür ibadətlər üçün müəyyən bir məhdudiyyət təyin edilməmiş, hər kəsin gücü nisbətində etməsi tövsiyyə edilmişdir. Hər kəs bu ibadətləri ixlas və səmimiyyətlə etdiyi nisbətdə səviyyə qazanacaqdır.

Allah-Təala cinləri və insanları ona ibadət (qulluq) etmələri üçün yaratmışdır. Bunun üçün həyatın hər mərhələsi böyük-kiçik ibadətlərlə bəzənməlidir.

Digər yandan Allah-Təala, bəndələri üçün daim asanlıq istəyir. Bu səbəbdən qulluğu onlara asanlaşdırmışdır. Hər səviyyədəki insanın asanlıqla girə biləcəyi neçə-neçə xeyir qapıları açmışdır. Əqli-səlim sahibi hər insan Rəbbinin istəklərini asanlıqla yerinə yetirməklə Onun rizasını qazana bilir.

Belə ki, Allah Rəsulu ﷺ belə buyurmuşdur:

"Qardaşına etdiyin təbəssüm, sədəqədir. Yaxşılığı əmr edib pislikdən çəkindirməyin sədəqədir. Yolunu azan insana yolu göstərməyin sədəqədir. Gözü görməyən insana yardım etməyin sədəqədir. Yoldan daş, tikan, sümük (kimi şeyləri) götürüb kənara atmağın sədəqədir. Səhəngindən qardaşının səhənginə su tökməyin sədəqədir." (Tirmizi, Birr, 36/1956)

"Biriniz edəcəyi ən kiçik yaxşılığı belə əsla xor görməsin! Edəcək bir şey tapa bilməzsə, qardaşını gülər üzlə qarşılasın! Əgər ət alarsansa, ya da bir qazan yemək bişirərsənsə, suyunu bir qədər çox edib, ondan qonşuna da biraz ikram et!" (Tirmizi, Ətimə 30/1833)

İxlaslı bir mömin, Allah yolunda atdığı kiçik bir addım ilə uzun məsafələr qət edər və böyük mükafatlara nail olar. Belə ki, ayeyi-kərimədə belə buyurulur:

"**Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi** (savabı) **verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz.**"(əl-Ənam, 160)

Bir qüdsi hədisdə Allah-Təala belə buyurur:

"Bəndəm Mənə bir qarış yaxınlaşdığı zaman, Mən ona bir arşın yaxınlaşaram; o Mənə bir arşın yaxınlaşınca Mən ona bir qulac yaxınlaşaram; o Mənə yürüyərək gəldiyi zaman, Mən ona qaçaraq gedərəm." (Buxari, Tövhid 50; Müslim, Zikr 2, 3, 20-22, Tövbə 1)

İnsanın niyyəti və səmimiyyəti nisbətində gündəlik işləri belə ibadət halına gələr. Məsələn, fərz olan ibadətləri yerinə yetirən bir mömin, halal qazancla ailəsinin dolanışığını təmin edərsə və onları islami tərbiyə ilə yetişdirməyi düşünərək çalışarsa, həm maddi qazanc əldə edər, həm də ibadət savabı alar. Yemək yeyən insan, sağlamlığını qoruyaraq ibadət həyatına davam etmək məqsədi güdərsə, o da niyyətinə görə mükafat alar.

Bir sözlə fərz və nafiləsi ilə islami ibadətlərə kim daha çox əhəmiyyət verərsə, o daha çox dərəcə əldə

edər və bu səyinin qarşılığını həm dünyada, həm də axirətdə görər. Bu səbəbdən əshabi-kiram, ibadət və xeyir mövzusunda bir-birləri ilə yarışırdılar. Əbu Hüreyrə ﷺ belə rəvayət edir:

Məkkədən Mədinəyə hicrət edən müsəlmanların kasıbları Rəsulullahın ﷺ yanına gələrək:

"-İmkanlı müsəlmanlar Cənnətin yüksək dərəcələrini və əbədi nemətləri alıb apardılar!"-dedilər. Həmin anda Həzrət Peyğəmbərimiz:

"-Xeyir ola! Onlar nə etdilər ki?"-deyə soruşdu. Kasıb mühacirlər:

"-Bizim qıldığımız namazı onlar da qılırlar. Tutduğumuz orucu onlar da tuturlar. Üstəlik onlar sədəqə verirlər, biz verə bilmirik. Kölə azad edirlər, biz edə bilmirik!"-dedilər. Rəsulullah ﷺ:

"-Sizdən öndə gedənlərə çata biləcəyiniz, sizdən sonra gələnləri keçə biləcəyiniz, sizin etdiyinizi edənlər xaricində hər kəsdən üstün olacağınız bir şeyi xəbər verimmi?"-deyə soruşdu. Əshabi-Kiram:

"-Bəli, deyin ey Allahın Rəsulu!"-dedilər. Həzrət Rəsulullah ﷺ belə buyurdu:

"-Hər fərz namazın arxasınca otuz üç dəfə sübhanallah, əlhəmdulilləh, Allahu əkbər deyərsiniz."

Bir neçə gün sonra kasıb mühacirlər Rəsulullahın ﷺ təkrar yanına gələrək:

"-İmkanlı qardaşlarımız bizim etdiyimiz təsbihləri eşitmişlər. Eynisini onlar da edirlər!"-dedilər. Bunu eşidən Rəsulullah ﷺ:

"-Nə edək! Artıq bu Allahın lütfüdür; Allah lütfünü istədiyinə verir." (Buxari, Əzan 155; Dəavat 18; Müslim, Məsacid 142; Əbu Davud, Vitr 24)

Bir sözlə islamın gətirdiyi hər bir ibadətin bir çox hikmət və faydası mövcuddur. Biz burada onların hamısını xatırlada bilmərik. Bu hikmət və faydaların bir qismi zamanla kəşf edilə biləcəyi kimi, böyük bir qismi də axirətdə başa düşüləcəkdir.

Lakin bunu da unutmamaq lazımdır ki, ibadət edərkən bu cür maddi və dünyəvi faydaları düşünmək doğru deyildir. Çünki Həzrət Peyğəmbərimiz ﷺ:

"Əməllər niyyətlərə görə dəyər qazanır. İnsan nəyə niyyət edərsə, onun qarşılığını alar..."-buyurmuşdur. (Müslim, İmarət, 155)

Bir müsəlman, ibadətlərini yalnız Allah-Təalanın rizasını qazana bilmək üçün etməlidir. Bununla yanaşı gələn digər faydaları da Allahın bəndələrinə olan ikram və ehsanları şəklində düşünməlidir. Bunlar üçün də ayrıca Allaha həmd və şükr etməlidir.[173]

Yenə unutmamaq lazımdır ki, niyyətlər əməllərdən daha üstündür. Xorasanın hökmdar və qəhrəmanlarından Amr bin Leysin halı buna gözəl bir misaldır. Vəfatından sonra onu əməlisaleh bir adam yuxusunda görür. Aralarında belə dialoq olur:

"-Allah sənə necə davrandı?"

173. İbadətlərin fəzilətləri xüsusunda təfsilat üçün bax. Osman Nuri Topbaş, İslan İman İbadət, səh. 192-418 (http:/islamicpublishing. net/; http:/www.hudayipress.com/books_en/islamimanibadet_ing.pdf)

"-Allah məni bağışladı."

"-Allah səni hansı əməlinə görə bağışladı?"

"-Bir gün bir dağın zirvəsinə qalxmışdım. Yuxarıdan əsgərlərimə baxınca, saylarının çoxluğu xoşuma getdi:

"Kaş Rəsulullah ﷺ zamanında yaşayıb Ona dəstək olaydım..."-deyə duyğulandım. Məhz bu niyyət və arzum müqabilində uca Allah məni bağışladı." (Qazı İyaz, Şəfa, II, 28-29)

IV Hissə

Muamələt və Əxlaq

İslam, yalnız iman və ibadətlərdən ibarət bir həyat deyildir. O, iman və ibadətlərə əlavə olaraq muamələt, əxlaq və xüsusilə haqq və hüquqa riayət kimi həyatın hər sahəsini bütün incəliyinə qədər tənzim edən, son dərəcə həssas ölçülər mənzuməsidir. Çünki islam insanları yaradan və bu mənada onları özərindən daha yaxşı tanıyan Allah-Təalanın bu dünyada necə yaşanmasının zəruriliyini öyrətməyə göndərdiyi haqq dindir.

Ağlı-səlim sahibi hər mömin, bu sualların təfəkküründə dərinləşməlidir:

"Bu dünya nədir? Bu aləmə nə üçün gəldik?

MUAMƏLAT (davranış qaydaları) və ƏXLAQ

İslam, yalnız iman və ibadətlərdən ibarət bir həyat deyildir. O, iman və ibadətlərə əlavə olaraq muaməlat, əxlaq və xüsusilə haqq və hüquqa riayət kimi həyatın hər sahəsini bütün incəliyinə qədər tənzim edən, son dərəcə həssas ölçülər mənzuməsidir. Çünki islam insanları yaradan və bu mənada onları özərindən daha yaxşı tanıyan Allah-Təalanın bu dünyada necə yaşanmasının zəruriliyini öyrətməyə göndərdiyi haqq dindir.

Beləliklə islamın ən mühüm qismlərindən biri də bəşəri münasibətləri tənzim edən muaməlat (davranış qaydaları) qismidir.

Muaməlat, fiqhin ibadətlər xaricində qalan hissəsini, yəni hüququn bütününü ifadə edir. Buna, "insanın digər fərdlərlə və cəmiyyətlə münasibətlərini tənzimləyən fiqh qaydaları" da deyə bilərik.

İslam, cəmiyyətləri meydana gətirən fərdlərin şəxsi və gündəlik həyatından ailə həyatına, qohumluq və qonşuluq münasiblətərindən ticarət və iqtisadi fəaliyyətlərinə, təlim, tərbiyə və irşad xidmətlərindən ictimai hüzur və asayişi təmin edən davranış qaydalarına qədər hər sahədə insanların vəzifə, məsuliyyət və haqlarını, bunlara biganə yanaşdıqda tətbiq edilməsi zəruri olan cəza qaydalarını tənzim etmişdir.

Yəni bir müsəlman fərdi həyatını islamın ehtivası içində yaşamaq məcburiyyətində olduğu kimi, ictimai həyatını digər insanlarla münasibətlərini də Allahın əmrlərinə uyğun tərzdə nizamlamaq məcburiyyətindədir. Bir sözlə islamı həyatının hər mərhələsinə hakim etməlidir. Buna müvəffəq olmayan bir adam, saleh bir mömin xarakterinə çata bilməz. Belə ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

"*Tabeliyindəki insanlara və ətrafındakılara qarşı pis münasibətdə olan insan Cənnətə girə bilməz.*" (Tirmizi, Birr, 29/1946; İbn Macə, Ədəb, 10; Əhməd, 1, 7)

Həzrət Ömər رضي الله عنه də belə deyir:

"-Bir adamın qıldığı namaza, tutduğu oruca baxmayın;

-Danışarkən doğru danışırmı

-Ona bir şey əmanət edildiyi zaman əmanətə riayət edirmi

-Dünya işləri ilə məşğul olarkən halal-harama diqqət edirmi, ona baxın." (Beyhəqi, əs-Sünənü-l-Kübra, VI, 288; Şuab, IV, 230, 326)

Bir nəfər Həzrət Ömərin yanında başqa birisini mədh edirdi. Ömər رضي الله عنه ona:

"-Mədh etdiyin insanla heç səfərə çıxdınmı?"-deyə soruşdu. O:

"-Xeyr,"-dedi.

"-Alış-veriş kimi ictimai bir münasibətin oldumu?"

"-Xeyr."

"-Bəs axşam-səhər ona qonşu oldunmu?"

"-Xeyr."

Bu cavablardan sonra Həzrət Ömər ﷺ belə dedi:

"-Özündən başqa ilah olmayan Allaha and içirəm ki, sən onu tanımırsan!"[174]

Fiqh kitablarımız davranışla əlaqədar hökmləri bütün təfsilatı ilə izah edir. Bu hökmlər sayəsində dünya həyatı intizam qazanır, müsəlman və ya qeyri-müsəlman bütün insanlar haqsızlıq və zülmlərdən mühafizə edilirlər.

Allah-Təala davranışla əlaqədar hökmlərin tətbiq edilməsi üçün həm dünyəvi, həm də üxrəvi qanunlar qoymuş və bunları bəyan etmişdir. Həqiqi bir mömin, işlərinin yalnız dünyəvi deyil, üxrəvi cəhətini də düşünərək həyatını davamlı Allahın rizası istiqamətində təqva üzrə yaşamağa səy göstərər.

Əxlaq

İslamın bir də əxlaq cəhəti vardır ki, o da fərdi və ictimai həyata dərinlik qazandırar.

İslamın qayəsi, bəşəriyyəti fəzilətkar bir mədəniyyət halına gətirməkdir. Bunun həyata keçməsi isə yalnız insanların yüksək bir əxlaqi səviyyəyə çatmasına və bələləklə fəzilətlərlə vəsflənməsinə bağlıdır. Bu səbəbdən islam, etiqad və əməldən sonra ən çox əxlaqa əhəmiyyət vermişdir.

174. Qəzali, *İhyau Ulumi-d-Din*, III, 312.

Əxlaq, inanc və ibadətlərdəki səmimiyyəti ehtiva etdiyi kimi, bu xüsusiyyətin bəndələrlə münasibətlərə də əks etdirilməsi, onlara qarşı mərhəmətli, comərd, alicənab, ədalətli, səmimi və lütfkar davranılması mənalarına gəlir. Çünki insanın Allah-Təala ilə olan münasibətlərini digər insanlarla olan münasibətlərdən tamamilə təcrid etmək mümkün deyildir.

Gözəl əxlaq, imanı kamilləşdirir, həyatı bəzəyir və sahibini Allahın rizasına yaxınlaşdırır. Əxlaqlı bir insan olmaq, Allah-Təalanın gözəl sifətləri ilə bəzənmək demək olduğundan, eyni zamanda Allaha yaxınlığın da bir əlamətidir.

Rəsulullah ﷺ belə buyurmuşdur:

"Allah-Təala ruzilərinizi aranızda böldüyü kimi, əxlaqınızı da aranızda bölmüşdür. Allah (c.c.) dünyanı sevdiyinə də verir, sevmədiyinə də. Dini isə yalnız sevdiklərinə verir. Allah-Təala kimə dini lütf etmişsə, onu sevir deməkdir." (Əhməd, I, 387)

Bu hədisi-şərifdə din ilə əxlaqın nə qədər bir-birinə bağlı olduğunu, hətta bir-birinin yerinə istifadə edildiyini görürük.

Yenə Rəsulullah ﷺ belə buyurmuşdur:

"Cəbrail عليه السلام mənə Allah-Təalanın belə buyurduğunu dedi: "Bu din, Zatım üçün seçib razı olduğum bir dindir. Ona yalnız comərdlik və gözəl əxlaq yaraşır. Müsəlman olaraq yaşadığınız müddət ərzində onu bu iki xislətlə ucaldın!" (Heysəmi, VIII, 20; Ali əl-Müttəqi, Kənz, VI, 392).

İnsanı insan edən əsl cövhər, əxlaqdır. Şeyx Sədi nə gözəl demişdir:

"Hər gözü, qulağı, ağzı olan Adəm deyildir. Necə şeytanlar vardır ki; Adəmoğlu qılığında görünürlər. Həqiqi Adəm, əxlaqı gözəl olan insandır. Üz gözəlliyi və başqa bəzəklər, dünyadakı fani naxışlara bənzəyir."

Mövlana Həzərətləri də ədəb və əxlaqdan məhrum olan insanların nə pis hallara düşdüyünü belə ifadə edir:

"Yüksək məqamları ələ keçirən əxlaqsızların və nadanların etdikləri pisliklər yüzlərlə vəhşi aslan bir yerə toplaşsa edə bilməz!" (Məsnəvi, c. IV, beyt: 1441)

"Qəmdən, kədərdən, sıxıntıdan başına nə gəlirsə, bunlar nadanlıqdan, ədəbsizlikdən və küstahlıqdan qaynaqlanır. Dost yolunda ədəbsiz, nankor davranan insan, başqalarının da yolunu bağlamış olar. Belə bir insan mərd deyil namərddir.

Ədəbə görə bu göylər, nura qərq olmuşdur. Mələklər də ədəblərinə görə təmiz və məsum olmuşlar." (Məsnəvi, c.1, beyt: 89-91)

Bu səbəbdən müsəlmanlar, ədəb və əxlaqa çox əhəmiyyət vermişdirlər. Belə ki, Osmanlı cəmiyyətini müşahidə edən ingilis səyyah Busbecq, türklərin gündəlik həyatlarında peyğəmbərlərinin sülh yolunu izlədiklərini, küfrdən və savaşdan nifrət etdiklərini ifadə edir.[175]

175. Esther Kafe, *"Renesans dövrü"* tarix araşdırmaları jurnalı, c. II, İzmir 1984, səh. 232

İslam həyatın hər sahəsində əxlaqın ən gözəlini gətirmişdir. Misal olaraq bunların bir neçəsinə nəzər yetirək:

1. Təvazökarlıq

Əxlaqın əsası, insanın həddini bilməsi, təkəbbürlənmədən səmimi davranması və hətta nəfsinə fürsət verməmək üçün özünü olduğundan daha sadə göstərməsidir. Bu hal eyni zamanda insanın həyatda daha zəhmətkeş və çalışqan olmasını da təmin edir.

Təvazökarlıq hissi hər şeydən öncə insanı Allah-Təala qarşısında ədəbə və xüşuya nail edər. Allah-Təalanın qüdrət və əzəmətini bir zərrə də olsa hiss edən insan, öz acizliyini və zəifliyini dərk edər. Sıfır bir sərmayə ilə, yəni bir bədəl ödəmədən dünyaya gəldiyini təfəkkür edər. Üzərində nə imkan və qabiliyyətlər varsa, hamısının Allah-Təalaya aid olduğunu bilər.

Hər halu-karda "Aman ya Rəbb!"... deyərək Allah-Təalaya dua edər. Hər şeyin yaradıcısı olan Allah-Təalanın, bütün düşüncə, söz və davranışlarını bildiyini, eşitdiyini və gördüyünü idrak edər. Hər zaman ilahi müşahidə altında olduğunu bilərək yaşayar. Hətta o hala gələr ki, hər an Allahı görürmüş kimi hərəkət edər. Bütün xətalardan qurtular, hər anı saleh əməllərlə bəzənmiş müstəsna bir həyata qovuşar.

Təvazökar insan, Allahın bəndələrinə dəyər verər, onları sevər, hər birinə məhəbbətlə baxar və xətalarını əfv edə bilmə fəzilətini göstərər. Özündənrazı təkəb-

bürlü insanlarda isə bu halların görülməsi olduqca çətindir.

Allah-Təala belə buyurur:

"**Sənə tabe olan möminləri qanadın altına al!** (Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!)" (əş-Şüəra, 215)

"**Rəhmanın** (əsl) **bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə** (təvazökarlıqla) **gəzər, cahillər onlara söz atdıqları** (xoşlarına gəlməyən bir söz dedikləri) **zaman** (onları incitməmək üçün) **salam deyərlər.**" (əl-Furqan, 63)

Həzrət Peyğəmbərimiz də belə buyurmuşdur:

"*Allah-Təala mənə: "O qədər təvazökar olun ki, heç kim, heç kimə qarşı lovğalanmasın; heç kim, heç kimə zülm etməsin!" deyə əmr etdi.*" (Müslim, Cənnət 64)

Kim Allah-Təalanın rizası üçün bir dərəcə təvazökar davranarsa, bu səbəblə Allah onu bir dərəcə ucaldar. Kim də Allaha qarşı bir dərəcə təkəbbürlənərsə, Allah da onu bu səbəblə bir dərəcə alçaldar; bu belə davam edə-edə nəhayət onu əsfəli-səfilin (aşağıların aşağısına) çevirər. (İbn Macə, Zöhd, 16).

Allah Rəsulu ﷺ Allah-Təalaya bəndə olmağı hər şeydən üstün tutmuşdur. Peyğəmbərimizin bu seçimini izah edən rəvayətlərdən biri belədir:

Bir gün Allah Rəsulu ﷺ Cəbrail عليه السلام ilə oturub söhbət edirdi. Həmin anda səmadan bir mələk endi. Cəbrail عليه السلام bu mələyin dünyaya ilk dəfə endiyini dedi. Mələk:

"-Ya Muhəmməd! Məni Sənin yanına Rəbbin göndərdi. Hökmdar bir peyğəmbər olmaq istəyirsən, yoxsa qul bir peyğəmbər olmaq istəyirsən?"-deyə soruşur."-dedi.

Peyğəmbərimiz ﷺ Cəbrailə عليه السلام baxdı. O da:

"*-Ey Allahın Rəsulu! Rəbbinə qarşı təvazökar ol!*"-dedi.

Rəsulullah ﷺ da:

"*-Qul bir peyğəmbər olmağı istəyirəm*"-buyuraraq müstəsna bir təvazö nümunəsi göstərmişdir. (Əhməd, II, 231; Heysəmi, IX, 18, 20)

Bu hədisdən sonra peyğəmbərimizin Rəbbinə qovuşana qədər bir yerə dirsəklənərək yemək yediyinə rast gəlinməmişdir. (Heysəmi, IX, 20)

Rəsulullah ﷺ ona həddindən çox təzim göstərən insanlara:

"*Siz məni, haqqım olan dərəcənin üzərinə qaldırmayın! Çünki Allah-Təala məni Rəsul etməzdən öncə, qul etmişdi.*"-xəbərdarlığını edərdi. (Heysəmi, IX, 21)

Peyğəmbərimiz ﷺ kölələr arpa çörəyinə dəvət etsələr belə, dəvətlərini qəbul edər[176] və hətta uşaqlara salam verirdi.[177]

Həzrət Ənəsin bildirdiyinə görə mütəmadi Ənsarı ziyarət etməyə gedər, evlərinə getdiyində ayrıca uşaqlara da salam verər, başlarını sığallayar və onlara dua edərdi. (Nəsəi, əs-Sünənü-l-Kübra, VI, 90)

176. Bax. Heysəmi, *Məcməu-z-Zəvaid*, IX, 20.
177. Bax. Buxari, İstizan,15.

Ənəs ﷺ Rəsulullahın təvazökarlığına və əxlaqi kamilliyinə dair belə bir hadisə rəvayət edir:

"Həzrət Rəsulullaha ﷺ təxminən on il xidmət etdim. Allaha and olsun ki, səfərdə və evində ikən, xidmət etmək üçün yanında olurdum, Onun mənə olan xidməti, mənim Ona etdiyimdən daha çox olurdu. Bu qədər zamanda mənə bir dəfə olsun "Of!" demədi. Etdiyim bir şey üçün "Nəyə görə belə etdin?"-demədi.

Rəsulullah ﷺ bir dəfə əshabından qoyun kəsib bişirmələrini istəyir. Səhabədən bir nəfər:

"-Ya Rəsulallah, onu mən kəsim."-dedi. Başqa biri:

"-Ya Rəsulallah, soymaq da mənim vəzifəm olsun."-dedi.

Başqa birisi də:

"-Ya Rəsulallah, bişirmək də mənə aid olsun."-dedi. Həzrət Peyğəmbərimiz də:

"-O halda odun toplamaq da mənə aid olsun."-buyurdu. Səhabələr:

"-Ya Rəsulallah! Biz onu da edərik, Sizin yorulmağınıza ehtiyac yoxdur."-desələr də Həzrət Peyğəmbərimiz ﷺ

"-Sizin mənim işimi də edə biləcəyinizi bilirəm. Lakin mən, sizə görə imtiyazlı bir vəziyyətdə olmaqdan xoşlanmıram. Çünki Allah-Təala, bəndəsinin yoldaşları arasında imtiyazlı (üstün) durumda olmasını sevməz."-buyurdu və qalxıb odun topladı.

Yenə bir dəfə Rəsulullah ﷺ namaz qılmaq üçün qonaqlamışdı. Namaz qılacağı yerə tərəf getdi, sonra geri qayıtdı. Səhabələr:

"-Ya Rəsulallah hara gedirsiniz?"-deyə soruşdular.

"-Dəvəmi bağlayacağam."-buyurdu. Əshabi-Kiram:

"-Biz edərik, siz zəhmət etməyin , biz sizin dəvənizi bağlayarıq!"-dedilər. Rəsulullah ﷺ:

"-(Gücü çatan) insan, misvaqın ucunu çeynəmək kimi xırda bir iş üçün olsa belə, insanlardan kömək istəməsin!"-buyurdu."[178]

Allah Rəsulunun ﷺ tərbiyəsində yetişən səhabələr də eyni əxlaqa sahib idilər. Həzrət Ömər رضي الله عنه həcc səfərində yanındakılara xidmət edər, onlar dincələrkən dəvələri otarırdı. Bu onun kamilliyindən və əxlaqının gözəlliyindən irəli gəlirdi.

Təbiun alimlərindən Mücahid bin Cəbr belə deyir:

"İbn Ömərin yanına gedər, ona xidmət etmək istərdim. Lakin o mənə xidmət edərdi." (Əbu Nuaym, Xilyə, III, 285-286)

Bir gün Rəsulullah ﷺ Mühacirlər və Ənsardan bəzi əshabı ilə səfərə çıxmış, Muaz bin Cəbəli رضي الله عنه Yəmənə vali olaraq göndərirdi. Muaz رضي الله عنه atın belində, Allah Rəsulu ﷺ isə onun yanında piyada olaraq gedirdilər. Muaz رضي الله عنه

178. Muhibbuddin ət-Təbəri, *Xülasətu Siyəri Seyyidi-l-Bəşər*, səh. 19; Qastalani, *əl-Məvahibul-l-Ladunniyyə*, Misir 1281, I, 385.

"-Ya Rəsulallah! Mən at belindəyəm, Siz isə piyadasınız! Mən də enib Sizinlə və əshabınızla birlikdə addımlasam olmazmı?"-deyə xəcalətini dilə gətirdi. Onu təskin edən Peyğəmbərimiz ﷺ, onu maraqlandıran əsas düşüncəsinin nə olduğunu belə ifadə etdi:

"-Ey Muaz! Bu addımlarımın Allah yolunda atılan addımlar olmasını arzu edirəm." (Diyarbəkri, Tarixu-l-Xamis, Beyrut ts. II, 142)

Məhz Peyğəmbərimiz ﷺ təvazökarlıqda belə bir abidə şəxsiyyət idi. Onun təlaşı şəxsi ilə əlaqədar deyildi. Onun bütün dərdi, hətta özünü əldən salacaq qədər əndişəsi, insanların hidayət olub dünya və axirət səadətinə nail olmaları idi.

Allah Rəsulu ﷺ öz işini özü görər, ailəsinə kömək edərdi. Bu xüsusdakı rəvayətlərdən belə bir nəticəyə varmaq olar:

Həzrət Rəsulullah evdə öz paltarlarını təmizləyər, qoyunları sağar, söküyünü tikər, ayaqqabısını təmir edər, evini süpürər, dəvəsini bağlayıb yemini verər, xidmətçiləri ilə birlikdə yemək yeyər, xəmir yoğurar, bazardan aldıqlarını özü daşıyardı. Bir dəfə satın aldığı paltarı Əbu Hüreyrə رضي الله عنه daşımaq istəyərkən:

"Bir adamın əşyasını özü daşıması daha məqsədəuyğundur. Lakin daşımaqda acizlik çəkərsə, müsəlman qardaşı ona yardım edər."-buyurmuş və paltarı onun daşımasına icazə verməmişdi. (Heysəmi, V, 122)

Peyğəmbərimizin ən böyük fəthi olan Məkkə fəthində on min insandan artıq ordunun başında şəhərə

girişi, nə möhtəşəm bir təvazökarlıq nümunəsidir. Orada iştirak edən səhabələr bu hadisəni belə təsvir edirlər:

Rəsulullah ﷺ Məkkə fəthinə gedən ordunun başında dayanmışdı. Zəfər müyəssər olub dəvəsinin belində Məkkəyə daxil olarkən, başını Uca Rəbbinə qarşı təvazökarlıqla o qədər əymişdi ki, saqqalının ucları hardasa dəvənin yəhərinə dəyirdi. Sanki şükür səcdəsi edirdi. Həmin anda davamlı olaraq:

"Ey Allahım! Həyat yalnız axirət həyatıdır!"-deyirdi. (Vakidi, II, 824; Buxari, Riqaq, 1)

Həzrət Aişə anamızın bu davranışı da gözəl bir təvazökarlıq misalıdır:

Abdullah bin Əbi Müleykə belə rəvayət edir:

Aişə رضي الله عنها ölüm döşəyində ikən İbn Abbas رضي الله عنهما hüzuruna girmək üçün icazə istədi. Aişə رضي الله عنها yanındakılara:

"-Məni tərifləməsindən qorxuram."-buyurdu (və icazə vermək istəmədi). Ona:

"-İcazə istəyən Rəsulullahın ﷺ əmisinin oğlu və müsəlmanların məşhurlarındandır."-deyildikdə:

"-İcazə verin, girsin!"-buyurdu.

İbn Abbas رضي الله عنهما:

"Özünü necə hiss edirsən?"-deyə Həzrət Aişədən halını soruşdu. Aişə رضي الله عنها:

"-Əgər təqva sahibiyəmsə xeyir üzrəyəm, yaxşıyam!"-deyə cavab verdi. İbn Abbas رضي الله عنهما:

"-İnşallah sən xeyir üzrəsən, yaxşısan. Çünki Rəsulullahın ﷺ xanımısan. Rəsulullah ﷺ səndən başqa bir bakirə ilə evlənmədi. Sənə iftira atdıldığında təmiz olduğuna dair bəraətin səmadan endi."-dedi.

İbn Abbas ﷺ ziyarətini bitirib çıxıdıqdan sonra, içəriyə Abdullah bin Zübeyr ﷺ daxil oldu. Aişə ﷺ bacısı oğlu olan Abdullaha:

"-Bir az öncə İbn Abbas ziyarətimə gəldi və məni mədh edən sözlər dedi. Həmin anda yox olmağı, unudulub yaddan çıxmağı, yəni zikr edilməməyi nə qədər çox istədim."-dedi. (Buxari, Təfsir, 24/8)

Göründüyü kimi Həzrət Aişə anamızın hər halından və sözündən onun gözəl əxlaqı, təvazökarlığı, Allah qorxusu və təqva hissləri müşahidə edilir.

Son bir misal ilə bu mövzunu bitirək:

Əziz Peyğəmbərimizin ﷺ sevimli nəvəsi Həzrət Həsən ﷺ bir gün Kəbəni təvaf etdi, sonra Məqami-İbrahimə gedib iki rükət namaz qıldı. Sonra yanağını Məqama qoyub ağlamağa başladı:

"Ya Rəbb, Sənin kiçik və zəif bəndən qapına gəldi; Allahım, aciz xidmətçin qapına gəldi; ya Rəbb, dilənçin qapına gəldi; Sənin yoxsulun qapına gəldi!"-deyir və bunu dəfələrlə təkrar edirdi.

Sonra oradan ayrıldı. Yolda quru çörək qırıntıları ilə qarınlarını doyuzdurmağa çalışan yoxsul insanlara rast gəldi. Salam verdi, onlar da Həzrət Həsəni yeməyə dəvət etdilər. Həsən ﷺ yoxsullarla birlikdən əyləşdi:

"-Bu çörəyin sədəqə olmadığını bilsəydim sizinlə birlikdə yeyərdim."-buyurdu və:

"-Haydı, qalxın bizim evə gedək!"-dedi.

Yoxsullar onunla birlikdə evə getdilər. Həsən ﷺ onlara yemək yedizdirdi, paltarlar geyindirdi və müəyyən məbləğdə cibxərcliyi verdi. (Əbşihi, əl-Mustatraf, Beyrut 1986, I, 31)

2. Canıyananlıq və Comərdlik

İslamda özündənrazılıq, yəni lovğalıq yoxdur. İslam lovğalanmağı qəti şəkildə qadağan etmişdir. Birlikdə yaşadığımız bu dünyada digər insanları da ən azı özümüz qədər düşünmək məcburiyyətindəyik. Özümüz üçün istədiyimiz şeyləri onlar üçün də istəməliyik. Xüsusilə xəstə, zəif, möhtac və kimsəsizlərə daha yaxından əlaqə göstərməliyik. Çünki hamımız tək olan Allahın bəndələriyik. Uca Rəbbimiz bizdən birbirimizə kömək etməyimizi istəyir:

"**Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! – deməmişdən əvvəl sizə verdiyim ruzidən** (Allah yolunda) **xərcləyin. Və** (bilin ki) **Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!**" (əl-Munafiqun, 10-11)

"**Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün** (qiyamət günü) **gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən paylayın! Kafirlər** (bunu inkar edənlər) **isə** (özlərinə) **zülm edənlərdir!**" (əl-Bəqərə, 254)

"...(Allah yolunda) **nə xərclərsiniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır**" (Səbə, 39)

Həzrət Rəsulullah ﷺ də canıyananlığa bu şəkildə təşviq etmişdir:

"*Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu düşmənin əlinə təslim etməz. Kim bir qardaşının ehtiyacını qarşılayarsa, Allah da onun ehtiyacını qarşılayar. Kim bir müsəlmanın hər hansı bir sıxıntısını apararsa, Allah da onun qiyamət günündəki sıxıntılarından birini aparar. Kim bir müsəlmanın eyibini örtərsə, Allah da qiyamət günündə onun eyiblərini örtər.*" (Buxari, Məzalim, 3; Müslim, Birr, 58)

Yalnız özünü düşünmək, digər insanlara qarşı hissiyatsız davranmaq, müsəlmana yaraşmaz. Çünki Allah Rəsulu ﷺ:

"Qonşusu ac ikən tox yatan insan (kamil) mömin deyildir!"-buyurmuşdur. (Hakim, II, 15; Heysəmi, VIII, 167; Buxari, əl-Ədəbu-l-Müfrəd, 112)

Müsəlmanlar Allah Rəsulunun bu xəbərdarlığını həyatlarının əsasına yerləşdirmişdirlər. İbn Ömər ﷺ belə rəvayət edir:

"Yeddi ev var idi, hamısı da yoxsul idi. Bir nəfər bu evlərdən birinə bir qoyun kəlləsi göndərdi. Ev sahibi qonşusunun daha möhtac olduğunu düşünərək kəlləni digər qonşuya göndərdi. İkinci qonşu da eyni düşüncə ilə kəlləni üçüncü qonşuya göndərdi. Bu şəkildə kəllə yeddi evə getdikdən sonra təkrar ilk hədiyyə edildiyi evə qayıtdı." (Hakim, II, 526)

Müsəlmanlar mallarını Allahın bəndələrinə ikram etməyi özlərinə ikram etməkdən daha dəyərli sayırlar. Bu düşüncəni ifadə edən ən gözəl misallardan biri bu hadisədir:

Bir gün Həzrət Peyğəmbərimizin ﷺ ailəsi bir qoyun kəsmişdi. Rəsulullah ﷺ bir dəfə:

"-Ondan geriyə nə qaldı?"-deyə soruşdu. Həzrət Aişə رضي الله عنها:

"-Yalnız bel sümüyü qaldı."-cavabını verdi. Rəsulullah ﷺ:

"*-Həqiqətdə bir bel sümüyü xaric, hamısı durur!*"-buyurdu. (Tirmizi, Qiyamət, 33/2470)

Allah Rəsulu ﷺ Həzrət Aişə anamıza belə bir tövsiyə etmişdir:

"*-Ya Aişə! Yarım xurma ilə də olsa, kasıbları əliboş qaytarma! Ya Aişə! Kasıbları sev və onları özünə yaxınlaşdır ta ki, qiyamət günü Allah da səni özünə yaxınlaşdırsın!*" (Tirmizi, Zöhd, 37/2352)

Bundan sonra Həzrət Aişə anamız həyatı boyunca doğurdan da canıyanan bir insan olmuşdur. Belə ki, bacısı oğlu Urvə bir Zübeyr belə demişdir:

"-Həzrət Aişə رضي الله عنها elə comərd bir insan idi ki, Allahın ruzi olaraq yaratdığı şeylərdən ona gələn heç bir şeyi yanında saxlamaz, dərhal paylayardı..." (Buxari, Mənaqib, 2)

Rəsulullah ﷺ bütün ümmətinə canıyanan olmağı tövsiyə edirdi. Bunun misallarından birini Əbu Səid əl-Xudri رضي الله عنه belə rəvayət edir:

"Bir dəfə Peyğəmbər ﷺ ilə bir səfərə çıxmışdıq. Qarşımıza dəvəsinin belində bir adam çıxdı. Bir şeylər umaraq sağa-sola boylanmağa başladı. Bunu görən Rəsulullah ﷺ:

"-Yanında ehtiyacından artıq minik heyvanı olanlar, olmayanlara versinlər. Artıq azuqəsi olanlar, azuqəsi olmayanlara versinlər..."-buyurdu.

Allah Rəsulu ﷺ daha bir neçə mal növü sadaladı. Məhz həmin vaxt heç kimin ehtiyacından artıq bir şey saxlamağa haqqı olmadığını başa düşdük." (Müslim, Luqata, 18)

Çünki Allah-Təala belə buyurur:

"**...** (Ya Rəsulum!) **Sənə** (Allah yolunda) **nəyi paylamalı olduqlarını soruşanlara isə,** (قُلِ الْعَفْوَ) **De: "Ehtiyacınızdan artıq qalanını** (möhtaclara paylayın)**!**" (əl-Bəqərə, 219)

Yəni Allah-Təala biz bəndələrini, ehsan etdiyi nemətləri onun yolunda xərcləməyimiz xüsusunda imtahana çəkir.

İnfaq isə, mömini Rəbbinə yaxınlaşdıran ən mühüm vasitələrdən biridir. Belə ki, Uca Rəbbimiz belə buyurur:

"**Sevdiyiniz şeylərdən** (haqq yolunda) **sərf etməyincə savaba çatmarsınız.**" (Ali-İmran, 92)

Hər Xüsusda Canıyananlıq

Canıyananlıq insanların yalnız maddi ehtiyacları ilə deyil bütün sıxıntıları ilə məşğul olmağı zəruri edir.

Rəsulullah ﷺ səfərə gedərkən və savaş vaxtı ən öndə gedir, getməyə çətinlik çəkən zəiflərə kömək edir, onları tərkinə mindirir və onlara dua edirdi.[179]

Bu xüsusda gözəl bir misal da bu hadisədir:

Rəsulullah ﷺ bir gün geyim mağazasına gedib dörd dirhəmə bir köynək satın almışdı. Köynəyi geyinərək bayıra çıxdı. Həmin anda Ənsardan bir nəfərlə qarşılaşdı. Həmin şəxs:

"-Ya Rəsulallah! Mənə bir köynək geyindir, Allah Sənə Cənnət libasları geyindirsin!"-dedi.

Peyğəmbərimiz ﷺ dərhal köynəyi çıxarıb həmin səhabəyə geyindirdi. Mağazaya geri qayıdaraq dörd dirhəmə daha bir köynək aldı. Yanında iki dirhəmi qalmışdı.

Birdən yolda ağlayan balaca xidmətçi bir qız gördü və:

"-Niyə ağlayırsan?"-deyə soruşdu. Qızcığaz:

"-Ya Rəsulallah! Yanlarında işlədiyim ailə mənə iki dirhəm verib un almağa göndərmişdi, pulu itirdim!"-dedi.

Peyğəmbər ﷺ qalan iki dirhəmi də ona verdi. Qayıdıb gedərkən qızcığazın hələ də ağladığını gördü. Yanına çağırıb:

"-Niyə ağlayırsan, dirhəmləri vermədimmi?"-deyə soruşdu. Qızcığaz:

179. Bax. Müslim, *Cihad*, 79; Əhməd, I, 86, 126.

"-Gecikdiyim üçün mənə əziyyət verərlər deyə qorxuram!"-dedi.

Allah Rəsulu ﷺ onunla birlikdə xidmət etdiyi ailənin evinə qədər getdi və salam verdi. Evdəkilər Həzrət Peyğəmbərimizin səsini tanıdılar, lakin cavab vermədilər. Peyğəmbərimiz ikinci dəfə salam verdi, yenə qarşılıq vermədilər. Üçüncü salamında "Aleykum salam" deyərək böyük bir sevinclə bayıra çıxdılar. Rəsulullah ﷺ:

"İlk salamı eşitmədinizmi?"-dedi.

"-Eşitdik ya Rəsulallah, lakin çox salam verib bizi bərəkətləndirməyinizi istədik, ona görə dərhal cavab vermədik. Sizin bura gəlməyinizə səbəb olan nədir? Anamız atamız sizə fəda olsun!"-dedilər.

"-Bu qızcığaz ona əziyyət verməyinizdən qorxur."-buyurdu.

Bu sözü eşidən ev sahibi:

"-Madam siz onunla birlikdə buraya qədər təşrif etdiniz, o artıq Allah rizası üçün azaddır!"-dedi. Rəsulullah ﷺ də onları xeyirlə və Cənnətlə müjdələdi. Sonra da belə buyurdu:

"-Allah on dirhəmə nə qədər bərəkət lütf etdi. Onunla Peyğəmbərinə və Ənsardan bir nəfərə köynək geyindirdi və bir köləni də azad etdi. Allaha həmd olsun! Bütün bunları bizə qüdrəti ilə lütf edən Odur." (Heysəmi, IX, 13-14)

Əshabi-kiram da eyni əxlaq üzrə idi. Belə ki, Abdullah bin Abbas رضي الله عنهما bir gün Həzrət Peyğəmbərimizin məs-

cidində etiqafda ikən bir nəfər yanına gələrək salam verib əyləşmişdi. İbn Abbas ﷺ:

"-Qardaşım görürəm kədərli və peşmansan!"-dedi və sözünə belə davam etdi:

"-Bəli, ey Rəsulullahın əmisi oğlu, kədərliyəm! Filan adamın mənim üzərimdə haqqı var. Lakin bu qəbirin sahibi (Allah Rəsulu ﷺ haqqı üçün deyirəm ki, borcumu ödəyə bilmirəm."

"-Sənə görə onunla söhəbt edimmi?"

" –İstəyirsənsə danış."

İbn Abbas ﷺ ayaqqabılarını geyinərək məsciddən çıxdı. Sıxıntısı olan adam ona:

"-Etiqafda olduğunu unutdunmu, nəyə görə məsciddən çıxdın?"-deyə səsləndi. İbn Abbas ﷺ belə dedi:

"-Xeyr! Mən bu qəbirdə yatan və hələ aramızdan yeni ayrılmış olan Möhtərəm şəxsdən ﷺ eşitdim, -bunları deyərkən gözlərindən yaşlar axırdı- belə buyururdu:

"*-Hər kim, qardaşının bir ehtiyacını qarşılamaq üçün səy göstərər və həmin işi yerinə yetirərsə, bu onun üçün on il etiqafda qalmaqdan daha xeyirlidir. Halbuki bir adam Allah rizası üçün bir gün etiqafa girsə, Allah-Təala həmin insan ilə Cəhənnəm arasında üç xəndək yaradar ki, hər bir xəndəyin arası, Şərq ilə Qərb arasındaki məsafə qədər uzaqdır.*" (Beyhəqi, Şuab, III, 424-425; həmçinin bax. Heysəmi, VIII, 192)

İslamın gətirdiyi canıyananlığın gözəl bir nümunəsini də Bəyazid Bistami –qüddisə sirruh- rəvayət edir:

"Dövrümüzdə minlərlə vəli var idi. Lakin əsrin qütblüyü vəzifəsi Əbu Hafs adında bir dəmirçiyə verilmişdi. Bunun hikmətini öyrənmək üçün dükanına getdim. Onu çox dərdli gördüm və səbəbini soruşdum. Böyük bir kədərlə belə dedi:

"-Əcəba mənim dərdimdən daha böyük bir dərd, məndən daha dərdli bir insan varmı? Fikirləşirəm ki, görəsən qiyamət günündə bu qədər ibadullahın halı necə olacaq?"

Sonra ağlamağa başladı və məni də ağlatdı. Təəccüblə soruşdur:

"-Xalqın əzaba düçar olmasına nəyə görə bu qədər kədərlənirsən?"

Əbu Hafs həzrətləri cavabında:

"-Mənim fitrətim mərhəmət və şəfqət mayası ilə yoğrulmuşdur. Əgər Cəhənnəm əhlinin bütün əzabı mənə yüklənilib onlar əfv edilərsə, mən bundan artıqlaması ilə məmnun olaram və dərdimdən də qurtularam..."-dedi.

Bundan sonra başa düşdüm ki, Əbu Hafs həzrətləri "nəfsi nəfsi" deyənlərdən deyil, peyğəmbər məşrəbində (xarakterində) olub "ümməti ümməti" deyənlərdəndir. Onun yanında bir müddət qaldım. Bu müddət ərzində ona bəzi Quran surələrini öyrətdim. Lakin qırx ildir öyrənə bilmədiyim və idrak etmədiyim dərəcəyə onun vəsiləsi ilə çatdım. Batinim feyzi-Rəbbani ilə

doldu. Yenə başa düşdüm ki, qütblük, başqa bir sirdir. Fəzilət, yalnız elm və çox ibadət ilə deyil, onların irfana çevrilməsi və Allah-Təalanın yardımı ilə mümkündür. Belə ki, bu ilahi yardımın Əbu Hafs həzrətlərinə nəsib olmasını, ondakı böyük şəfqət və mərhəmətin xarakterinə (varlığına) hopmuş olmasının bərəkətini də unutmamaq lazımdır."

Osmanlı Cəmiyyətində Comərdlik

XV əsrdə Türkiyəni gəzən fransız Bertrandon de la Broquiere belə deyir:

"Türklər bir-birlərinə ehtiram göstərən xoş niyyətli insanlardır. Yemək yeyərkən çox vaxt görmək olar ki, yanlarından bir yoxsul keçirsə onu özləri ilə birlikdə yemək yeməyə çağırırlar. Bu bizim heç vaxt etmədiyimiz bir xüsusiyyətdir."[180]

İngilis səyyah Fellows da, Osmanlı cəmiyyətində paşadan, dağda çadırında yaşayan bir türkə qədər hər təbəqədəki insandan qonaqpərvərlik gördüyünü və bunu edərkən də qarşılıq gözləmədiklərini ifadə edir. Ona görə türklərin yeganə düşüncəsi; din, milliyət, varlı, kasıb ayrıseçkiliyi etmədən *"**yad insanın (qonağın) qarnını doyuzdurmaqdır.**"*[181]

XIX əsrdə Anadolunu gəzən **Burnaby** isə, türk millətini qonaqpərvərliyi və comərdliyi ilə mədh edər. Hətta bu xüsusda mübaliğəyə vardıqlarını ifadə edərək belə deyir:

180. B. Broquiere, Dənizin O Tərəfinə Səyahət, ist. 2000, səh. 174.
181. C.Fellows, Pravels in Asia Minor, London 1852, səh. 222.

"-Bir dəfə bir atı bəyəndiyimi demişdim. Sahibi həmin atı qəbul edilməsini xahiş edən bir qeydlə birlikdə arxamca göndərdi. Bu hadisəyə çox təəccüb etdim."[182]

Bir sözlə insan, Allah-Təalanın bütün məxluqatına, xüsusilə də insanlara qarşı mərhəmət, şəfqət, məhəbbət və canıyananlıq hissləri ilə dolu olmalıdır. Bu vəsflər onun, Uca Yaradanımızın dərgahında gözəl bir məqama yüksəlməsinə vəsilə olacaqdır.

3. Sədaqət və Etibar

Sədaqət; niyyətdə, düşüncədə, sözdə və əməldə doğru olmaq, ixlas və səmimiyyətlə hərəkət etmək deməkdir.

Etibar da əmin olmaq, etibarlı bir şəxsiyyət nümayiş etdirməkdir.

İslam yalanı böyük günahlardan saymış və qəti şəkildə qadağan etmişdir. Sözündə durmamaq, etibarsız olmaq, insanları aldatmağı normal hal kimi saymaq, nifaq əlaməti olan son dərəcə pis və zərərli vəsflərdir. İnsanların başına gələn sıxıntıların ən böyük mənbəyi də bu cür pis vəsflərdir, yəni konkret olaraq yalandır. O halda insanları doğru və etibarlı olmağa alışdırmaq, yeni nəsilləri bu gözəl əxlaq ilə tərbiyə etmək hər birimizin vəzifəmizdir. Belə ki, bütün bəşəriyyətə örnək olaraq göndərilən peyğəmbərlərin və saleh insanların

182. Bax. Dr. Gürsoy Şahin, İngilis Səyahətnamələrində Osmanlı Cəmiyyəti və Türk Xarakteri, ist.2007, səh.215.

gözəl vəsfləri arasında ən başda doğruluq və etibar gəlir.

Allah-Təala bəndələrinə qurtuluş və doğru yolu belə göstərir:

"**Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** (Əgər belə etsəniz, Allah) **əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə** (Cənnətə) **nail olar.**" (əl-Əhzab, 70-71)

"**Ey iman gətirənlər! Allahdan qorxun və** (imanında, sözündə, işində) **doğru olanlarla olun! (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)**" (ət-Tövbə, 119)

"**Əhdə vəfa edin. Çünki** (insan) **əhd barəsində** (qiyamət günü) **cavabdehdir.** (İnsan verdiyi əhdi yerinə yetirib-yetirmədiyi haqda sorğu-suala tutulacaqdır)**.**" (əl-İsra, 34)

Rəsulullah ﷺ belə buyurmuşdur:

"*Mənə bu altı şey haqqında söz verin, mən də sizin Cənnətə girəcəyinizə zamin olum;*

1. Danışdığınız zaman doğru danışın!

2. Söz verdiyiniz zaman yerinə yetirin!

3. Əmanət məsələsində etibarlı olun!

4. İffətinizi mühafizə edin!

5. Gözlərinizi haramdan qoruyun!

6. Əllərinizi haramdan uzaq tutun!" (Əhməd, V, 323).

Doğruluq və etibar islamın əsasıdır. Belə ki, Süfyan bin Abdullah ﷺ Həzrət Peyğəmbərimizə:

"-Ya Rəsulallah! Mənə islamı elə izah edin ki, onu Sizdən sonra başqa birinə bir daha soruşma ehtiyacım olmasın!"-demişdi. Rəsulullah ﷺ:

"*Allaha iman etdim de, sonra da dosdoğru ol*! buyurdu O:

"-Ya Rəsulallah, bəs ən çox özümü nədən qoruyum?"

Allah Rəsulu ﷺ mübarək əli ilə dilinə işarə etdi. (Əhməd, III, 413, həmçinin bax. Müslim, İman, 62: Tirmizi, Zöhd, 61; İbn Macə, Fitən 12)

Əbu Musa ﷺ

"-Ey Allahın Rəsulu! Müsəlmanların ən fəzilətlisi kimdir?"-deyə soruşur. Allah Rəsulu ﷺ:

"*-Dilindən və əlindən müsəlmanların amanda olduğu insan.*"-cavabını verdi. (Buxari, İman, 4, 5, Riqaq 26; Müslim, İman 64, 65)

Yenə Rəsulullah ﷺ:

"*Etibarı olmayanın imanı da yoxdur.*"-buyurmuşdur. (Əhməd, III, 135)

Rəsulullah ﷺ bazarda bir satıcının yanına gedir və qarşısındakı buğdanın içinə əlini salır. Buğdanın nəm olduğunu görür. Satıcıya:

"*-Bu nədir?*"-deyə soruşur. Satıcı:

"-Ey Allahın Rəsulu yağış islatdı."-deyincə Peyğəmbərimiz ﷺ:

*"-Bu yaş hissəni üst tərəfə qoyub insanların görməsinə şərait yarada bilməzdinmi?**Aldadan məndən deyildir!**"*-buyurdu. (Müslim,İman, 164)

İslam insanların adi gördüyü xüsuslarda belə dürüst olmağı əsas götürmüşdür. Abdullah bin Amir ﷺ belə rəvayət edir:

Bir gün anam məni çağırdı. Rəsulullah ﷺ da evimizə gəlmişdi. Anam:

"-Gəl sənə bir şey verim!"-dedi. Allah Rəsulu ﷺ:

"-Ona nə verməyi düşünmüşdün?"-deyə soruşduqda, anam:

"-Ona bir xurma vermək istəyirdim."-cavabını verdi. Bunu eşidən Rəsulullah ﷺ:

"-Bunu bil ki, əgər ona bir şey veməsəydin, sənə bir yalan günahı yazılardı."-buyurdu. (Əbu Davud, Ədəb, 80/4991; Əhməd, III, 447)

Zarafat edərkən belə yalan danışmaq qadağan edilmişdir. Həzrət Peyğəmbərin ﷺ bu xüsusdakı xəbərdarlıq və irşadlarından bir qismi bu şəkildədir:

"Bəndə zarafat edərkən yalan danışmağı və haqlı olsa belə mübahisəni tərk etmədikcə tam iman etmiş sayılmaz." (Əhməd, II, 352, 364; Heysəmi, I, 92)

"Vay o insanın halına ki, insanları güldürmək üçün yalan danışır! Vay onun halına, vay onun halına!" (Əbu Davud, Ədəb, 80/4990; Tirmizi, Zöhd, 10/2315)

Müsəlmanların dürüstlük və etibarlı olmaq vəsflərindən qeyri-müsəlmanlar belə istifadə etmişdirlər. Əshabdan Hüzeyfə ﷺ belə rəvayət edir:

"Atam Hüseyl ilə Məkkədən Mədinəyə tərəf yola çıxmışdıq. Qüreyş karvanları bizi tutdular və:

"-Siz mütləq Muhəmmədin səfinə keçmək istəyirsiniz."-dedilər. Biz də:

"-Xeyr, Mədinəyə bu səbəbə görə deyil, başqa bir iş üçün gedirik."-dedik. Bundan sonra bizdən, Allah Rəsulunun tərəfinə keçib Onunla birlikdə savaşmayacağımıza dair söz aldılar. Mədinəyə gəlib baş verənləri Həzrət Rəsulullaha ﷺ ərz edincə Allah Rəsulu:

*"**-Haydı gedin. Biz sizin verdiyiniz sözü tutar, onlara qarşı da Allahdan kömək istəyərik!**"*-buyurdu. Məhz mənim Bədr savaşında iştirak edə bilməməyimin səbəbi budur." (Müslim, Cihad 98)

Bu xüsusda zikr edilə biləcək saysız misaldan biri də belədir:

Uhud müharibəsindən sonra düşmənlərin başçısı Əbu Süfyan uzaqdan:

"-Ey Ömər! Səni Allaha and verirəm, biz Muhəmmədi öldürdükmü?"-deyə təəccüblə soruşurdu. Həzrət Ömər ﷺ:

"-Allaha and olsun ki, xeyr! Öldürə bilmədiniz! İndi O, sənin dediklərini eşidir!"-dedi. Əbu Süfyan:

*"**-Sən mənim nəzərimdə, Muhəmmədi öldürdüyünü deyən öz adamımız İbn Qamiədən daha doğru sözlü və***

daha yaxşısan!"-dedi. (İbn Hişam, III, 45; Vaqidi, I, 296-297; Əhməd, I, 288; Heysəmi, VI, 111)

Dünyada sadiq və əmin olaraq yaşayanlar, hamının yardıma ən çox möhtac olduğu və heç kimin heç kimə fayda vermədiyi qiyamət günündə həqiqi qarşılıqlarını alacaqlar. Ən sıxıntılı anlarında imdadlarına çatan bu gözəl vəsfləri sayəsində salamat olacaqlar. Allah-Təala o günü;

"**... Bu sadiqlərə sədaqətlərinin fayda verəcəyi gündür...**"[183] səklində vəsf edir. Yenə ayeyi-kərimədə buyurulduğu kimi həmin gün;

"**Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) məğfirət** (bağışlanma) **və böyük bir mükafat** (Cənnət) **hazırlamışdır!**" (əl-Əhzab, 35)

Rəsulullah ﷺ doğruluğun insanı əbədi səadətə aparacağını belə ifadə edir:

"*Sidq (doğruluq) insanı yaxşılığa, yaxşılıq da Cənnətə aparar. İnsan doğru danışmağa davam etdikcə, sonunda siddiqlərdən olar. Yalan insanı günaha, günah da Cəhənnəmə aparar. İnsan yalan danışmağa davam etdikcə, sonunda Allah nəzdində yalançılardan yazılar.*" (Buxari, Ədəb, 69; Müslim, Birr, 103-105)

İslam insanın özünə edilməsini istəmədiyi bir şeyi başqasına etməsini qadağan edir. O halda aldatmağı və haqsızlığa uğramağı istəməyən hər insan, doğruluq və etibara sarılmalıdır. Çünki qurtuluş doğruluqdadır. Bu səbəbdən Rəsulullah ﷺ buyurmuşdur:

183. əl-Maidə, 119

"Zahirən içində həlak olduğunu görsəniz belə sidqə/doğruluğa sarılın! Şübhəsiz ki, onda qurtuluş və uğur vardır." (Ali əl-Müttəqi, III, 612/6855)

4. Zəriflik və Nəzakət

İslam müsəlmanın həyatında səmimi və göstərişdən uzaq nəzakətin hakim olmasını istəyir. Geyim-kecimdə, oturub-durmaqda, danışmaqda, yürüməkdə, baxmaqda, bir şey istəyərkən, verərkən, bir sözlə hər cür bəşəri münasibətlərdə, hətta hiss və həyəcanda belə zəriflik və nəzakət qaydalarına riayət etmək lazımdır. Belə ki, bir müsəlman hər hansı bir şəkildə nə kimsəni incitməli, nə də heç kimsədən inciməlidir. Şair bu halı, yəni heç kimsəyə zərər verməyib özünə zərər verənləri də bağışlaya bilməyin fəzilətini nə gözəl ifadə edir:

Cahan bağında ey aşiq budur maqsudi insü cin;
Nə kimsə səndən incisin nə sən bir kimsədən incin!

Yəni müsəlman özünə edilən kobudluqları afv etməsini bilməlidir. Bağışlaya bağışlaya Allahın bağışlanmasına layiq hala gələ bilməyə çalışmalıdır. Çünki ayeyi-kərimədə belə buyurulur:

"**Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə** (heç bir şey) **verməyəcəklərinə and içməsinlər.** (Onları) **əfv edib,** (cəzalandırmaqdan) **vaz keçsinlər! Məgər siz** (bu yaxşılıq müqabilində) **Allahın sizi** (günahlarınızı) **bağışlamağını istəmirsiniz? Allah** (bəndələrini) **bağışlayandır, rəhm edəndir!**" (ən-Nur, 22)

Hər baxımdan üsveyi-həsənə (ən gözəl örnək) Allah Rəsulu ﷺ nəzakət və zəriflikdə də bizlərə ən mükəmməl bir misaldır. Həzrət Aişə ﵂ belə deyir:

"Əxlaqı Həzrət Peyğəmbərimizdən daha gözəl başqa birisi yoxdur. Onun nəzakətinə kiçik bir misal vermiş olsaq, əshabından və ya ailəsindən kim onu çağırsa, dərhal; "Buyur!" deyə ona qarşılıq verməsi zikr edilə bilər. Sahib olduğu bu uca əxlaqa görə Allah-Təala:

"**Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!**" (əl-Qələm, 4) ayəsini nazil etdi."(Vahidi, Əsbab, səh. 463)

Rəsulullah ﷺ mərhəmətli, nəzakətli, zərif ruhlu və incə qəlbli bir insan idi. Kobud bir insanın dəfələrlə:

"-Ey Muhəmməd, ey Muhəmməd!"-deyə qışqırmasına baxmayaraq, hər dəfə mülayim bir tərzdə:

"-Buyur, nə istəyirsən?" cavabını vermiş və ehtiyacını qarşılamışdır. (Bax, Müslim, Nüzur, 8; Əbu Davud, Eyman, 21/3316; Heysəmi, IX, 20)

Allah Rəsulu ﷺ kobudluq edən bir insanı utandırmadan irşad edərdi. Bir cəmiyyətdəki xəta edən insanları tanısa belə, onu utandırmamaq üçün görmək xətasını özünə aid edər və:

"-Mənə nə olur ki, sizi belə görürəm?!"-buyururdu.[184]

Bəzən də xitabı üçüncü şəxsə yönləndirərək:

"İnsanlara nə olur ki, belə belə deyirlər?!"-buyururdu. (Əbu Davud, Ədəb, 5/4788)

184. Bax. Buxari, Mənaqib, 25; Müslim, Salat, 119; Əbu Davud, Hatəm 4, Ədəb 14.

Peyğəmbərimizin nəzakətinə dair saymaqla bitməyən misallardan başqa biri də budur:

Bir gün Rəsulullah ﷺ yolda gedərkən, bir nəfər ulağı ilə gəldi:

"-Ey Allahın Rəsulu! Buyurun siz də minin!"-dedi və özü uzunqulağın gerisinə tərəf çəkildi. Rəsulullah ﷺ:

"-Xeyr! Sən öz heyvanının ön hissəsinə minməyə məndən daha çox sahibsən. Lakin o yeri mənə ikram edirsənsə, o başqa!"-buyurdu. Həmin səhabə də:

"-Bəli, ön tərəfi sizə ikram edirəm."-dedi. Bundan sonra Rəsulullah ﷺ də ulağa mindi. (Əbu Davud, Cihaad, 58/2572)

İslami nəzakətin tələblərindən biri də insanlara əziyyət verməmək üçün olduqca həssas davranmaqdır. Muaz bin Ənəs رضي الله عنه belə rəvayət edir:

"Mən Rəsulullah ﷺ ilə birlikdə bir savaşa getmişdim. Əsgərlər (əşyalarını hara gəldi qoyaraq) qonaq yerlərini daraltdılar və yolu kəsdilər. Bunu görən Peyğəmbər ﷺ bir nəfər göndərib əsgərlər arasında belə xitab etdirdi:

"-Kim bir yeri daraldar və ya bir yolu kəsərsə (və ya bir möminə əziyyət verirsə) onun cihadı[185] yoxdur,

185. Burada zikr edilmişkən onu da qeyd edək ki, islama görə cihad, zülmü aradan qaldıraraq insanları səadətə çatdırmaq və hidayətlərinə vəsilə ola bilmək üçün edilir. Əks halda qılınc torpağı qanla sulamaq, güc göstərişi nümayiş etdirmək və var-dövlət qazanmaq üçün edilə bilməz. Əsas fəth, qəlblərin fəthidir. Qılınca və zor gücünə əsaslanan fəthlər, bəşəriyyətin üz qarasıdır. Həqiqi fəth, könüllərin fəthidir. Xidmətin və eşqin fəthləridir. Qəlbləri Allaha yönəldən fəthlərdir. Bu fəthləri də yalnız bəşəriyyətin sirrinə

yəni cihad savabı ala bilməz.” (Əbu Davud, Cihad, 88/2629; Əhməd, III, 441)

Rəsulullahın ﷺ insanları nəzakətə dəvət etdiyi digər bir hədisi-şərifində belə buyurmuşdur:

“Kim Cümə günü (məsciddə ön səfə keçmək üçün) müsəlmanların belinə tapdalaya-tapdalaya ön tərəfə keçərsə, Cəhənnəmə uzanan bir körpü hazırlamış olar.” (Əhməd, III, 437)

Həzrət Peyğəmbərimizin qadınlara olan nəzakətinə dair də bu misalı zikr edə bilərik:

Bir səyahətdə Əncəşə adlı bir xidmətçi, musiqi oxuyaraq dəvələri çapmışdı.[186] Bunu görən Rəsulullah ﷺ qaçan dəvələrin belindəki xanımların zəif bədənləri inciyə bilər düşüncəsi ilə zərif bir təşbih edərək:

“Ya Əncəşə! Diqqət et, büllurlar, kristallar qırılmasın!”-buyurdu. (Buxari, Ədəb, 95; Əhməd, III, 117).

Əshabi-kiram da o qədər nəzakətli insanlar idi ki, Ənəs bin Malik رضي الله عنه:

“-Rəsulullahın ﷺ qapısı dırnaqlarla çalınırdı.”-deyir. (Buxari, əl-Ədəbu-l-Müfrəd, 1080)

Bu hadisə də əshabın zəriflik və nəzakəti xüsusunda gözəl bir misaldır:

Həzrət Ömər رضي الله عنه bir evdə insanlarla birlikdə idi. Aralarında Cərir bin Abdullah رضي الله عنه da var idi. Həmin anda Həzrət Ömər bir qoxu hiss etdi. Ətrafındakılara:

və qəlbin həqiqətlərinə çatanlar edə bilirlər.

186. Dəvələr gözəl səs və musiqiyə məftundurlar. Dəvə çobanları da, sürülərini sürətləndirmək üçün musiqi oxuyurlar. Buna “Hida” və ya “Huda” deyilir.

"-Bu qoxunun sahibi dərhal qalxıb dəstəmaz alsın!"- dedi. Cərir ﷺ:

"-Ey möminlərin Əmiri! Buradakı hər kəs dəstəmaz alsa daha yaxşı olmazmı?"-dedi.

Bu zərif anlayışa heyran qalan Həzrət Ömər ﷺ ona:

"Allah sənə rəhmət etsin! Sən cahiliyyə dövründə nə gözəl bir insan idin. İslam dövtündə də nə gözəl bir insansan!"-buyurdu. (Ali əl-Müttəqi, Kənz, 8680)

Möhtaclara yardım edərkən də böyük bir nəzakət içində davranmalı və onlara təşəkkür hissi içində verilməlidir. Çünki onların sayəsində ilahi rizaya nail oluna bilinir. Rəhmətlik atam **Musa Əfəndi** -qüddisə sirruh- və əmilərim, infaq edərkən böyük bir nəzakət göstərirdilər. Zəkat və sədəqə qoyulan zərflərin üzərinə:

"Qəbul etdiyiniz üçün təşəkkür edirik."- deyə yazardılar.

Yenə yoxsullara bir paket təqdim edəcəkləri zaman da bunu ən gözəl şəkildə büküb olduqca nəzakətli, incitmədən və könüllərini alaraq təqdim edərdilər. Alan insan sevinərək alar, verən insan da mənəvi rahatlıq duyardı. Biri Allahdan gəldiyini qəbul edərək alar, digəri də Allahın verdiyi bu əmanəti yerinə yetirdiyinə görə sevinərdi.

Eyni şəkildə, Osmanlı cəmiyyətində şəhid ailələrinə ağzıbağlı qablarda və qaranlıqda yemək paylanılması, onların izzət və heysiyətlərini qorumaq xüsusunda təsəvvür edilməz bir nəzakət və vəfa nümunəsidir. Bu, gələcək nəsillərə də müstəsna bir nəzakət və ədəb təlimidir.

Yenə möhtacların sıxılmadan ehtiyaclarını qarşılaya bilmələri üçün təsis edilən "**Sədəqə daşları**" da misili görünməmiş nəzakət nümunəsidir.

Üzərində xırda bir oyuq (dəlik) olan bu daşlar, məhəllənin münasib yerlərinə yerləşdirilirdi. İmkanlı insanlar; "sağ əlin verdiyini sol əl görməyəcək şəkildə" infaq edə bilmək üçün gecənin qaranlığında sədəqələrini bu daşın yuxarısındakı oyuğa (dəliyə) qoyurdular.

Daha sonra həmin ərazinin fəzilətli və iffətli yoxsulları da ehtiyacları qədər pulu oradan götürür, artığına toxunmazdılar. Vəziyyətləri düzəldiyində isə aldıqlarını qat-qat artıqlaması ilə yerinə qoyurdular.

Həmin pullar açıqda qalmasına baxmayaraq həqiqətən möhtac olanlardan başqası onları götürməzdi. Belə ki, on yeddinci əsr İstanbulundan danışan bir fransız səyyah, üzərində pul olan bir daşı, tam bir həftə nəzarət etdiyini, lakin oradan sədəqə almağa gələn bir adamı görmədiyini yazır.

Danışıq Ədəbi

Zəriflik və nəzakət, xüsusilə danışarkən çox böyük bir əhəmiyyət kəsb edir. Allah-Təala bəndələrinin yerişində və danışıqlarında bir nəzakətin olmasını arzu edərək belə buyurur:

"**Yerişində müvazinət gözlə** (nə çox yeyin, nə də çox asta get) **və** (danışanda) **səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!**" (Loğman, 19)

Yenə Rəbbimiz belə buyurur:

"**...İnsanlara gözəl söz söyləyin!..**" (əl-Bəqərə,83)

"**Bəndələrimə de, sözün ən gözəlini söyləsinlər!..**" (əl-İsra, 53)

İslam lüzumsuz və nalayiq söhbətləri qadağan edir. Çox danışmağı xoş qarşılamaz. Allah Rəsulu ﷺ:

"Allaha və axirət gününə iman edən insan ya xeyir söyləsin, ya da sussun!"-buyurmuşdur. (Müslim, İman, 77)

Allah və Rəsulu insanların gözəl söz və ifadələrlə danışmasını, istifadə etdikləri hər kəlməni diqqətlə seçmələrini tövsiyə edir.[187]

Yenə Rəsulullah ﷺ:

"Şübhəsiz ki, bir sıra sözlər, sehr (kimi təsir gücünə sahib)-dir."-buyurmuşdur. (Buxari, Nigah 47)

Yəni bəzi sözlər qəlbdə sehrləyici bir təsir meydana gətirir. Bu isə dilə hakimiyyət və məqsədə ən münasib kəlmələri seçə bilməklə mümkündür. Bu qüdrətin zirvəsi isə Qurani-Kərimdə müşahidə edilir. Quran ayələri, səlislik və bəlağətin zirvəsində olub böyük bir möcüzədir. Bu səbəbdən Quranın hikmət dolu xitablarından istifadə etmək lazımdır.

Qurani-Kərim harada necə danışmağın zəruriliyinə, yəni söz söyləmək ədəbinə böyük əhəmiyyət verir. Belə ki:

قَوْلًا لَيِّنًا Zalımlara qarşı həlim söz,

قَوْلًا مَيْسُورًا Yoxsula qarşı könül alan, təsəlli edici söz,

187. əl-Bəqərə, 104; ən-Nisa 46; Buxari, Ədəb 100, Dəavat 6.

قَوْلًا كَرِيمًا Valideynlərə qarşı şirin və gözəl söz,

قَوْلًا سَدِيدًا Bütün insanlara qarşı doğru söz,

قَوْلًا مَعْرُوفًا Yetimlərə və möhtaclara gözəl söz,

قَوْلًا بَلِيغًا Təbliğ üçün aşkar, dəqiq və hikmətli söz söyləməyi tələb edir.

Bir sözlə İslam hər xüsusda insanların zərif, nəzakətli, ehtirama layiq olmasını təmin edəcək ən gözəl əsasları gətirmişdir. Bu əsaslara riayət edən müsəlmanlar, iki dünyada da məsud olar və əbədi səadətə qovuşarlar. İslamı qəbul etməyib insanların qoyduğu qaydalara görə yaşamaq istəyənlərin isə səadəti müvəqqəti olur və nəticədə əbədi peşmanlığa sürüklənirlər.

5. Xidmət

Allaha iman etmək, mərhəmətli olmağı tələb edir. Çünki Allah-Təalaya iman edən şəxs Onu sevər və əmrlərinə itaət edər. Hətta zaman keçdikcə Onunla əlaqəsi olan hər şeyi dərəcə-dərəcə sevməyə başlayar. Allah-Təala isə Qurani-Kərimdə ən çox Rəhman və Rəhim sifətlərini xatırladır və davamlı olaraq məxluqatına mərhəmətli davranmağı əmr edər. Belə vəziyyətdə bir möminin həm Allah-Təalanın əmrinə riayət etməsi, həm də Onun əxlaqı ilə əxlaqlanmasını zəruri edir. Mərhəmətdən uzaq bir könül isə Allahdan uzaq və nəsibsiz bir könüldür.

Rəsulullah ﷺ bir gün nəvəsi Həsənin رضي الله عنه yanağından şəfqətlə öpür. Həmin anda yanında Aqra bin Xəbis əyləşirdi. Aqra:

"-Mənim on uşağım var, bu günə qədər heç birini öpməmişəm!"-dedi.

Rəsulullah ﷺ ona yandan baxdı və:

"*-Mərhəmət etməyənə mərhəmət olunmaz!*"-buyurdu. (Buxari, Ədəb, 18)

Yenə Peyğəmbərimizin yanına bir bədəvi gəlir və:

"-Siz uşaqları öpürsünüzmü, biz heç öpmürük!"-deyir. Allah Rəsulu ﷺ:

"*-Allah sənin qəlbindən mərhəmət və şəfqət hissini çıxarıbsa, mən sənə nə edə bilərəm ki?*"-buyurdu. (Buxari, Ədəb, 18)

Huneyn müharibəsindən sonra Peyğəmbərimizin hüzurun bir sıra əsirlər ətirildi. Aralarında uşağını itirmiş bir qadın var idi ki, harada bir uşaq görsə dərhal onu şəfqətlə bağrına basıb əmizdirirdi. Rəsulullah ﷺ bu yüksək şəfqət mənzərəsini görüncə:

"*-Nə deyirsiz, bu qadın uşağını atəşə ata bilərmi?*"-buyurdu. Əshabi-Kiram:

"*-Xeyr, atmamağa gücü çatdığı qədər atmaz!*"-dedilər.

Bunu eşidən Rəsulullah ﷺ:

"*-Məhz Allah-Təala bəndələrinə, bu qadının uşağına olan şəfqətindən daha çox mərhəmətlidir.*"-buyurdu. (Buxari, Ədəb, 18)

Rəsulullah ﷺ daha sonra sayları təxminən altı minə çatan bu əsirlərin hamısını qarşılıqsız olaraq sərbəst buraxdı.

Məhz şanı Uca Rəbbimizin çox sevdiyi və hər zaman mərhəmətlə davrandığı bəndələrinə xidmət etmək, ən mühüm islami əsaslardandır. Allaha ibadət etmək üçün yaradılan insana xidmət etmək, bir baxımdan Allaha ibadət etmək mahiyətindədir.

Xidmət, aciz və ya möhtac adamın ehtiyacını qarşılamaqdır. Böyük bir təvazökarlıqla hamının köməyinə çatmaq və sıxıntıları ilə maraqlanmaqdır. Çünki Rəsulullah ﷺ belə buyurmuşdur:

"İnsanların ən xeyirlisi insanlara faydalı olandır." (Beyhəqi, Şuab, VI, 117; İbn Həcər, Mətalib, I, 264)

Əbu Musa رضي الله عنه belə buyurur:

"Rəsulullah ﷺ uzunqulağa minər, daranmamış yundan paltar geyinər, qoyunun südünü sağar, qonaqları ilə maraqlanar, onlara xidmət və ikram edərdi."(Hakim, I, 129/205)

Xidmət Allah-Təalanın bəndələrindən tələb etdiyi ictimai bir bəndəlik vəzifəsidir. Uca Rəbbimiz təkəbbür, lovğalıq və özündənrazılığı qəti şəkildə qadağan etməklə yanaşı, özünü düşünən bir həyatı da istəmir. İnsanların canıyanan olmasını istəyir və bəndələrinə xidmət edən möminlərə böyük mükafatlar vəd edir. Belə ki, Rəsulullah ﷺ belə buyurur:

"*-Bəndə qardaşının köməyində olduğu müddət ərzində Allah-Təala da həmin bəndəsinin köməyində olar...Əməlinin özünü arxada qoyduğu insanı, nəsəbi (soyu) irəli keçirə bilməz.*" (Müslim, Zikr, 38; İbn Macə, Müqəddimə, 17)

"Kimin Allah yolunda tək bir saçı ağararsa, bu qiyamət günü onun üçün bir nur olar." (Tirmizi, Fəzailu-l-Cihad, 9/1635; Nəsəi, Cihad, 26)

"Səhər və ya axşam Allah yolunda bir azca yürümək, dünya və içindəkilərdən daha xeyirlidir..." (Buxari, Cihad, 6)

Bu tam bir həqiqətdir ki; **xidmət ediləndən daha çox xidmət edən insan həm dünyada, həm də axirətdə daha qazanclı çıxır.** Belə ki, hikmət əhli:

"Həqiqi məsud insanlar, başqalarına necə xidmət edəcəyini bilən insanlardır."-demişlər.

O halda bizim kamilliyə çata bilmək və axirət salamatına nail ola bilmək üçün xidmət etməyə ehtiyacımız vardır. Bu səbəbdən xidmət etdiyimiz insanlara minnətdar olmalıyıq. Çünki onlar, bizim Allah-Təalaya yaxınlaşmağımıza vəsilə olurlar.

6. Cihad və Terrorla Mübarizə

a. İslam İlahi və Haqq Bir Dindir

İnsanlar, heyvanlar və digər bütün varlıqlarla birlikdə bütün kainatı yaradan və onu möhtəşəm bir nizam ilə saxlayan Allah-Təaladır. Uca Rəbbimiz ağıl və iradə lütf etdiyi insanların öz aralarındakı münasibətləri və digər varlıqlara qarşı davranışlarını tənzim etmək üçün İslamı göndərmişdir. Yəni İslam ilahi və haqq bir dindir. İslamı insaf ilə araşdıran hər kəs bunu qəbul edir.

Allah-Təala bütün nöqsan sifətlərdən münəzzəhdir. Bu mənada O, heç vaxt fəsadı, yəni terroru və

pisliyi istəməz. Belə ki, Allah-Təala münafiq və pis insanlardan bəhs edərkən belə buyurmuşdur:

"(O şəxs səndən) **ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli** (islam cəmiyyətini) **məhv etməyə çalışar. Halbuki, Allah fitnə-fəsadı sevməz!**" (əl-Bəqərə, 205)

Yenə Allah-Təala fəsadı (fitnəni) istəməyi, onu xoş qarşılamağı, fəsad çıxarmaq üçün fürsət və yol axtarmağı bəndələrinə qadağan edərək belə buyurur:

"**Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!**" (əl-Qəsəs, 77)

Allah-Təala bəndələrinə qarşı çox mərhəmətlidir. Onlar üçün həmişə xeyiri, sülhü və ədaləti istəyir. Qul haqqına girməyi ən böyük günahlardan biri olaraq qəbul edir. Belə bir günahı, haqsızlığa məruz qalan bəndə bağışlamadıqca Allah da bağışlamaz. Allah-Təala günahkar bəndəsinə belə əfv və mərhəmətlə davranar. Hətta onun arxasınca danışaraq qeybətini etməyin böyük bir günah olduğunu bildirir və bundan qəti şəkildə uzaq durmağı əmr edir.

Nə mənada Allah-Təala tərəfindən bəşəriyyətin hüzur və səadəti üçün göndərilən İslamın məsum insanların öldürülməsini istəməsi və terrora göz yumması qətiyyən mümkün deyildir.

İslam hər insanın canının, malının, namusunun, ağlının və nəslinin mühafizəsini zəruri hesab edir.

Bu səbəbdən tarixə nəzər saldığımızda terrorla ən çox mübarizə edən insanın Həzrət Peyğəmbərimiz ﷺ olduğunu görürük. Onun 23 illik peyğəmbərlik həyatı həmişə terrorla mübarizədir. İnsana qarşı terror, heyvanlara qarşı terror, nəbatata qarşı terror... Peyğəmbərimiz həmişə bunlarla mübarizə aparmışdır. Kafir olsun, mömin olsun daima hər insanın haqqına riayəti əsas götürmüşdür. Nəticədə Onun səyi ilə bütün dünya sükunət tapmış, qan gölünə dönən səhralar xoşbəxtliyə qovuşmuş və bəşər tarixi, o zamana qədər görünməmiş fəzilətlər mədəniyyətinə səhnə olmuşdur.

Belə olduğu halda bir sıra insanlar uca İslamı, günümüzün ən böyük faciələrindən olan terror kəlməsi ilə yanaşı istifadə etməyə başlamışlar. Halbuki terror və anarxiya, qəlbsiz insanların idarə etdiyi əxlaq kimi ülvi hisslərdən tamamilə uzaq bir cərəyandır. Terrorun göz yaşı yoxdur, mərhəmət və vicdanı yoxdur. İslam isə şəfqət və mərhəmət üzərində qurulmuşdur. Allah-Təala Qurani-Kərimdə ən çox **Rəhman** və **Rəhim** adlarını, yəni bütün varlıqları əhatə edən ümumi mərhəməti təlqin edir. İslam haqq və hüququ bərqərar edən bir insanlıq və mədəniyyət dinidir. İslamı layiqincə öyrənənlər, onun terror kəlməsi ilə eyni cümlədə istifadə edilməsinin belə nə qədər yersiz olduğunu dərhal idrak edərlər.

b. Hər Can Əzizdir

Canı Allah vermişdir və yalnız O geri ala bilər. Bu səbəbdən haqsız yerə bir cana qıymaq, Allaha qarşı edilmiş çox böyük bir günahdır. Çünki islama görə hər

bir can, bütün bəşəriyyətə bərabər bir qiymət ifadə edir. Allah-Təala Qurani-Kərimdə belə buyurur:

"**Hər kəs bir kimsəni öldürməmiş** (bununla da özündən qisas alınmağa yer qoymamış) **və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə** (ölümdən qurtarsa)**, o, bütün insanları diriltmiş kimi olur.**" (əl-Maidə, 32)

İslam insanları bu böyük günahdan uzaqlaşdırmaq üçün ağır bir cəza qoymuşdur. Buna görə haqsız yerə adam öldürən insan qisas olaraq öldürülür. Bir adamın öldürülməsində çox sayda insan iştirak etmiş olsa, hamısına da eyni cəza verilir.[188] Başqasının canına qıymaq bir yana, insanın öz canına qəsd etməsi belə şiddətlə qadağan edilmiş və intihar etmək böyük günahlardan sayılmışdır. Buna görə veriləcək cəza da çox ağır ifadələrlə bəyan edilmişdir. (Buxari, Tibb, 56; Müslim, İman, 175)

İslamın insanı bu dərəcə mükərrəm (möhtərəm) saymasına görə Rəsulullah ﷺ düşmənləriylə belə savaşmamaq üçün əlindən gələn bütün səylərini sərf edərdi. Onlarla razılığa gələ bilmək üçün hər cür asanlığı göstərir, savaşa ilk başlayan olmaz, düşmən başlayarsa o zaman hücum edərdi. Savaşmaq məcburiyyətində qaldıqda da az sayda insanın ölməsi üçün ağıllı taktikalardan istifadə edərdi. Çox vaxt düşmənlərini heç kimsənin qanı tökülmədən təslim olmağa məcbur ed'r, sonra da onları bağışlayardı.

188. Buxari, Diyat, 21

Belə ki, Məkkəni heç kimsənin burnu qanamadan fəth etdiyində, bütün düşmənləri Allah Rəsulunun əlinə keçmişdi. Lakin o hamısını bağışladı və:

"-Bu gün mərhəmət günüdür. Gedə bilərsiniz, sərbəstsiniz!"-buyurdu.[189]

Sonra ona ən böyük düşmənliyi edən Əbu Ləhəbin oğullarını soruşdu. Əmisi Həzrət Abbasa:

"-Qardaşın Əbu Ləhəbin iki oğlu Utbə və Muattib harada qaldılar? Onları görmədim!"-buyurdu. Abbas ﷺ:

"-Hər halda qüreyş müşriklərindən uzaq yerlərə çıxıb gedənlərlə birlikdə onlar da qaçmışdırlar."-dedi. Rəsulullah ﷺ:

"-Onları tapıb mənim yanıma gətirin!"-buyurdu.

Abbas ﷺ heyvanına minib Əbu Ləhəbin oğullarını axtarmağa getdi. Onları taparkən:

"-Rəsulullah ﷺ sizi çağırır!"-dedi. Onlar da dərhal heyvanlarına minib Həzrət Abbasla birlikdə Allah Rəsulunun hüzuruna gəldilər. Həzrət Peyğəmbərimiz onları İslama dəvət edincə, dərhal müsəlman oldular. Rəsulullah ﷺ onların islamı qəbul etməsinə çox sevindi. Əllərindən tutub Mültəzəmə[190] apardı və onlar üçün bir

189. Bax. İbn Hişam, IV, 32; Vaqidi, II, 835, III, 352; İbn Sad, II, 142-143; Ali əl-Müttəqi, Kənz, 30173.

190. Mültəzəm: Kəbənin qapısı ilə Həcəri-Əsvəd arasında qalan hissəsidir. Həzrət Peyğəmbərimiz Mültəzəmdə dayanıb köksünü, üzünü, qollarını və ovuclarını Kəbənin divarına qoymuş, qollarını və əllərini geniş şəkildə açaraq dua etmişdir. (Əbu Davud, Mənasik, 54/1899) Bir hədisi-şərifində də : *"Həcəri-Əsvəd ilə Məqami-İbrahim arası Mültəzəmdir. Burada dua edən xəstələr şəfa tapar."*-buyurmuşdur.

müddət Allaha dua etdi. Sonra qayıtdı. Üzündə böyük bir sevinc müşahidə edilirdi. Abbas ﷺ

"-Ya Rəsulallah! Allah-Təala sizi daim sevindirsin! Mübarək üzünüzdə böyük bir sevinc görürəm!"-dedi. Rəsulullah ﷺ:

"-Bəli! Rəbbimdən əmimin oğullarını mənim üçün bağışlamasını niyaz etdim, O da bağışladı!"-buyurdu.

Utbə ﷺ ilə Muattib ﷺ artıq Peyğəmbərimizdən heç ayrılmırdılar. Onunla birlikdə Məkkə yaxınlarındakı Huneynə getdilər. Huneyn savaşında bir anlıq geriləmək olsa belə onlar Allah Rəsulunun yanından heç ayrılmadılar. Hətta Muattib ﷺ həmin savaşda Həzrət Peyğəmbərimizi müdafiə edərkən gözündən yaralandı.[191]

Rəsulullah ﷺ bunlar kimi uzaqlara qaçan bir çox tanınmış məkkəliyə aman verib yanına çağırdı və hamısını əfv etdi.[192]

Rəsulullah ﷺ kafirlərin belə həyatda qalmasını istəyir, onların və nəsillərinin həqiqəti idrak edərək tək Allaha iman etməsi üçün dua edirdi. Çünki "Çıxmayan candan ümid kəsilməz!"-deyilmişdir. İnsanları öldürdüyünüzdə onların Allah-Təalanı tanımaları və Ona iman etmələri kimi bir ümid də ortadan qalxmış olur.

Və nəhayət Allah-Təala ölüdən dirini çıxardı və Rəsulullahın ﷺ bu arzusunu həyata keçirtdi. Allahdan

(Heysəmi, III, 246)

191. Bax. İbn Sad, IV, 60, Suyuti, Xasaisu-l-Kübra, II, 82; Hələbi, İnsanu-l-Uyun, III, 48.

192. Məsələn, bax. Muvatta, Nigah, 44-45; Tirmizi, İstizan, 34/2735; Hakim, III, 269/5055, 271/5059; Vaqidi, II, 851-853.

gələn bir rəhmət sayəsində Rəsulullah ﷺ elə gözəl bir siyasət yürütdü ki, ən azğın düşmənlərinin bir çoxu öz arzusu ilə müsəlman olduğu kimi, demək olar ki, hamısının övladları da iman etdilər və insanlıqda zirvə şəxsiyyətlər halına gəldilər. Peyğəmbərimizin hədisi-şəriflərini və İslam ehkamını bizə rəvayət edən ravilərə baxdığımızda bir çoxunun atalarının müşrik olduğunu görmək olar. Hətta Allah Rəsuluna ən şiddətli düşmənliyi edən insanların belə daha sonra böyük İslam alimi olmuşdurlar.

c. Günahın Şəxsiliyi

İslamın gətirdiyi prinsiplərdən biri də insanın günahını başqa birisinin çəkməyəcəyidir. Allah-Təala bu hökmü dəfalarla təkrar etmişdir:

"**Heç bir günahkar başqasının günahını çəkməz.**"[193]

Rəsulullah ﷺ başlarına mədinəli Asim bin Sabiti komandir təyin etdiyi on nəfərdən meydana gələn bir dəstəni irşad və məlumat üçün vəzifələndirmişdi. Lihyan qəbiləsi yüzə yaxın oxçu ilə bu dəstəni izləməyə başladılar. Bu səhabələrdən səkkiz nəfəri şəhid oldu, Hubeyb ilə Zeyd bin Dəsinə də əsir düşdü. Onları aparıb Məkkədə satdılar. Hubeybi Bədr savaşında öldürdüyü Haris bin Amirin oğulları satın aldı. Hubeyb onu şəhid etdikləri günə qədər onların əlində əsir olaraq qaldı.

Bu əsarət günlərində Hubeyb təraş olunmaq üçün Harisin qızlarının birindən ülgüc istədi. O da ülgücü üç

193. əl-Ənam, 164; əl-İsra, 15; Fatir, 18; əz-Zümər, 7; ən-Nəcm, 38.

yaşındakı oğlunun əlinə verib, "Get bunu əsirə ver!"-dedi. Hadisənin davamını qadın belə rəvayət edir:

"Uşaq ülgücü əsirə apardı. Mən "Aman Allahım mən nə etdim!"-deyə tələşlə uşağın arxasınca qaçdım. Getdiyimdə uşağı Hubeybin qucağında oturmuş onunla söhbət edərkən gördüm və bərkdən qışqırdım. Hubeyb mənə baxdı:

"-Uşağı öldürəcəyimdənmi qorxursan? Mən əsla belə bir iş etmərəm! Haqsız yerə cana qıymaq bizim hal və şanımızdan deyildir. Sanki məni öldürəcək olan sizsinizmi?" dedi."

Hubeyb ilə Zeydi Məkkəyə on kilometr məsafədəki Tənimə deyilən yerə aparıb neştərləyərək şəhid etdilər. (Buxari, Məğazi, 28, 10; Cihad, 170; İbn Həcər, İsabə, I, 418)

Yəni İslam yalnız günahkarı cəzalandırır. Onun yanında günahsız insanların da zərər görməsini istəməz. Günahkarı cəzalandırarkən də ifratdan, həddi aşmaqdan çəkindirər. Ayeyi-kərimələrdə belə buyurulur:

"**Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin.** (Onu yalnız və yalnız böyük bir günah işlədikdə, məsələn, iman gətirdikdən sonra küfrə düşdükdə, yaxud zinakarlıq etdikdə öldürmək olar)**. Haqsız yerə öldürülən məzlum bir şəxsin sahibinə** (və ya varisinə qatil barəsində) **bir ixtiyar verdik** (istəsə, qatildən qisas alar, istəsə, bağışlayar və ya qanbahası tələb edər)**. Lakin o da qətl etməkdə ifrata** varmasın (qisas almalı olsa, yalnız qatili öldürməklə kifayətlənsin)**!**

Çünki (şəriətin bü hökmləri ilə) **ona artıq kömək olunmuşdur.**" (əl-İsra, 33)

"(Ey möminlər! İntiqam almaq məqsədilə birinə) **cəza verəcək olsanız, sizə nə cəza verilibsə, eynilə həmin cəzanı verin.** (Artıq cəza isə zülm etməkdir ki, bu da günahdır)**. Əgər** (onlardan intiqam almayıb) **səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir.**" (ən-Nəhl, 126)

d. İslami Cihad

Cihadı savaşdan ibarət görmək, həqiqəti ifadə etməməklə yanaşı, cihadın Quran və Sünnəyə verilən məna və ehtivası baxımından da nöqsan və yanlışdır. "Səy göstərmək, çalışmaq" kimi mənalara gələn cihad; qəlb, dil, mal, can, mədəniyyət, iqtisadiyyat, silah kimi hər cür vasitə ilə edilə bilər. İslam insanların daha çox səmimi bir qəlb və şirin bir dil ilə cihad etməsini istəyir. Bu vəzifəni yerinə yetirənlərə, Qurani-Kərimdə mülayim və bəlağətli ifadələr istifadə etmələri tövsiyə edilir. Könüllərin Allah-Təala ilə görüşərək ehya edilə bilməsi üçün möminlərin malları və canları ilə çalışmaları əmr edilir.

İslam sülhü əsas götürür. Bunun ən böyük dəlili budur: Qurani-Kərim müsəlmanlar əleyhinə çox ağır şərtlər ehtiva edən Hüdeybiyə sazişinə "Fəthi Mübin: Aşkar bir fəth" adını vermişdir. Və bu "Fəth", Qurani-Kərimdəki surələrdən birinin adı olmuşdur.

Həzrət Peyğəmbərimizin etdiyi savaşların hamısı müdafiə savaşıdır. Ya müsəlmanlara qarşı edilən hü-

cumların qarşısını almaq, ya da verilən xəbər əsasında müəyyən edilən hücum hazırlıqlarını pozmaq üçün edilmişdir. İlk böyük savaşın edildiyi Bədrə gedən Həzrət Peyğəmbərimizin niyyəti savaş deyildi. Hicrət edən müsəlmanların qəsb edilən malları ilə varlanan və qazancı ilə yenə müsəlmanların əleyhinə ordu hazırlanacaq olan bir karvanı dayandırmaq idi. Karvan yol dəyişdirərək qurtuldu. Lakin Məkkədən çıxıb 400 kilometr yol qət edərək Mədinə yaxınlığında özünə mövqe tutan müşrik ordusu, dəfələrlə təklif edilən sülhü qəbul etmədikdə məcburi savaşa girildi və zəfər əldə edildi. (Vaqidi, I, 61-65)

Uhud və Xəndək Mədinənin bitişiyində edilən müharibələrdir. Müşriklər hücuma hazır vəziyyətdə idi. Müsəlmanların kökünü kəsmək üçün sağdan və soldan Mədinənin üzərinə ordular yığırdılar. Allah Rəsulu ﷺ isə Mədinədə müdafiə savaşı aparırdı. Üstəlik Rəsulullah ﷺ şəhərin ətrafına xəndək qazdıraraq can itkisini minimuma endirdi.

Mutə və Təbuk şəhid edilən elçinin haqqını almaq və hücuma hazırlaşan düşməni dəf etmək üçün edilmişdir. Hətta Təbukda hər hansı bir döyüşə girilməmiş, bir sıra sazişlər əldə edildikdən sonar geri qayıdılmışdır.

Məkkənin fəthi müşriklərin müqaviləyə xəyanət etmələri nəticəsində baş vermişdir. Bir hicrət edən müsəlmanların qəsb edilən haqlarının geri alınmasıdır. Bu, tarixdə bənzəri görülməmiş bir sülh hərəkəti və könüllərin fəthidir. Çünki fəth edilən şəhərdə nə yağma edilmiş, nə insan öldürülmüş və ya sürgün edilmiş, nə

intiqam alınmış, nə də qan davası güdülmüşdür. Əksinə hamısı, illərlə edilən zülmə baxmayaraq qarşılıqsız əfv edilmişdir.

Peyğəmbərimizin digər savaşları da bu şəkildə hücum edən və ya hücuma hazırlaşan düşmənin qarşısını almaq üçün edilmişdir.

Müsəlmanlar sülh üçün göstərdikləri bütün səylərə baxmayaraq düşmənlə vuruşmaq məcburiyyətində qaldıqlarında isə müəyyən bir hüquq daxilində hərəkət etmişlər. Uşaqlara, qadınlara, yaşlılara, din xadimlərinə, savaşla əlaqəsi olmayan insanlara, məbədlərə, heyvanlara və ağaclara toxunmamışlar. Yalnız müharibədə iştirak edən əsgərlərə qarşı silah istifadə etmişlər. Bununla yanaşı onlara da işgəncə verməmişlər.

Rəsulullah ﷺ hər hansı bir hərbi birləşməni səfərə göndərdiyi zaman komandana Allaha qarşı təqvalı, yanındakı müsəlmanlara qarşı xeyirxah olmasını və xoş davranmasını tövsiyə edir, sonar da belə buyururdu:

"Allahın adı ilə Allahın yolunda savaşın! Allahı tanımayanlarla vuruşun! Qənimət mallarına xəyanət etməyin! Zülm etməyin! Müslə etməyin (qulaq, burun kimi orqanları kəsərək işgəncə verməyin). Uşaqları öldürməyin!" (Müslim, Cihad, 3; Əhməd, V, 352, 358)

Digər rəvayətlərdə Rəsulullah ﷺ:

"...Uşaqları, məbədlərinə çəkilib ibadətlə məşğul olan insanları[194] *və yaşlıları öldürməyin!*[195] *Kilsələri yandırmayın,*

194. Əhməd, I, 300; Təbərani, Kəbir, XI, 224/11562.
195. Təbərani, Evsat, I, 48/135

ağacları kökündən kəsməyin![196]"-buyurmuş, binaların uçurulmasını da qadağan etmişdir.

Həzrət Peyğəmbərimiz savaşların birində bir qadının öldürüldüyünü görür. Bu hadisəyə çox üzülür və dərhal qadınlarla uşaqların öldürülməsini qadağan edir. (Buxari, Cihad, 148; Müslim, Cihad, 24, 25)

Huneyndə Süleym oğulları irəlidə gedən süvari qoşun idi. Xalid bin Vəlid də onlara komandanlıq edirdi. Həmin anda Rəsulullah ﷺ bir qadın meyidinə rast gəldi:

"*-Bu qadın bizə qarşı savaşanlar arasında deyildi!*"-buyurdu. Yanındakılardan birinə:

"*-Dərhal özünü Xalidə çatdır və ona "Rəsulullah ﷺ "Qəti şəkildə heç bir qadını, uşağı, yaşlı insanları və savaşdan kənar işlər üçün çalışdırılan insanları öldürmə!"-deyə əmr edir"de!*"-buyurdu.[197]

Həzrət Peyğəmbərimizə bəzi uşaqların da öldürüldüyü xəbər verilincə çox kədərləndi və əsəbi bir halda:

"*-Bəzilərinə nə olur ki, bu gün öldürməkdə həddi aşırlar, məsələni uşaqları öldürməyə qədər çatdırırlar?!*"-buyurdu. Oradakılardan bir nəfər:

"-Ya Rəsulallah! Onlar, müşriklərin uşaqları deyilmi?!"-dedi. Bunu eşidən Rəsulullah ﷺ:

"*-Sizin ən xeyirliləriniz də (sizlər də) müşriklərin uşaqları deyilsinizmi?*"-buyurdu. Sonra da belə davam etdi:

196. Əbdürrəzzaq, *Müsənnəf*, V, 220.
197. Əbu Davud, Cihad, 111; İbn Macə, Cihad, 30; Vaqidi, III, 912.

"-Diqqət edin! Uşaqları öldürməyin! Diqqət edin! Uşaqları öldürməyin! Hər bir uşaq, İslam fitrəti üzrə doğular, dili dönənə qədər belə gedər. Sonra valideynləri onu yəhudi və ya xristian edər." (Əhməd, III, 435)

Moxaç meydan müharibəsində (1528) türklərə əsir düşən və sərbəst buraxıldıqdan sonra *Türklərin Adət və Ənənələri* adlı bir kitab yazan Macar əsilli **Bartholomaus Georgiyeviç** belə deyir:

"Müharibə vaxtı Osmanlı ordusunda elə bir nizam-intizam vardır ki, heç bir əsgər ədalətsiz bir şey etməyə cəsarət edə bilməz. Ədalətsizlik edən, heç tərəddüd edilmədən cəzalandırılır. Nəzarətçilər və nizam-intizam qaydalarına riayət edənlər vardır... Keçilən yollardakı bağ-bağçalarda sahiblərinin icazəsi olmadan bir alma belə qoparıla belməz." (Onur Bilgə Kula, Alman Mədəniyyətində Türk təxəyyülü, Ankara, 1993, səh. 164)

Yavuz Sultan Səlim xan Misir səfərinə gedərkən ordunun Gəbzə yaxınlığından keçdiyi yerlər hər tərəf bağ-bağat idi. Sultan Səlim xan:

"Əcəba əsgərlərim sahibindən icazəsiz üzüm və alma qoparıb yedilərmi?!"-deyə fikirə getdi. Sonra yeniçərini hüzuruna çağırıb:

"-Padşahın fərmanıdır; Bütün yeniçəri və əsgərlərimin heybələri yoxlanılsın! Heybəsində bir alma və ya üzüm salxımı çıxan əsgər olarsa, dərhal hüzuruma gətirilsin!"-deyə əmr etdi.

Yeniçəri ağası dərhal hərəkətə keçərək heybələri araşdırdı. Daha sonra Padşahın hüzuruna gələrək:

"-Padşahım qoparılmış heç bir alma və ya meyvə tapa bilmədik."-dedi.

Yavuz Sultan bu xəbərə çox sevindi. Üzərindəki ağırlıq qalxdı. Sonra əllərini açaraq:

"Allahım! Sənə sonsuz həmd və şükürlər olsun! Mənə haram yeməyən bir ordu ehsan etdin!.."-deyərək dua etdi və ağaya:

"***-Əgər əsgərlərim icazəsiz meyvə qoparsaydılar, Misir fəthindən imtina edərdim. Çünki, haram yeyən bir ordu ilə torpaqların fəthi mümkün deyildir!***"-dedi.

Yavuzun bu gözəl halı nəticəsində ilahi nüsrət və ehsan təcəlliləri daim ona yar olmuşdur.[198]

Göründüyü kimi İslam hər şeydən öncə sülhü üstün tutur, savaşmaq məcburiyyətində qaldığında isə ölçülü, ədalətli və insan kimi davranmağı, heç vaxt həddi aşmamağı əmr edir. Çünki Allah-Təala belə buyurur:

"(Ey möminlər!) **Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!**" (əl-Bəqərə, 190; əl-Maidə, 2)

Müharibə şərtlərində belə müsəlman olmayan məsum insanların və birbaşa savaşda iştirak etməyənlərin öldürülməsinə icazə verməyən İslam, savaş xaricindəki məsum insanları öldürməyə necə icazə verə bilər?!

198. Osman Nuri Topbaş, *Abidə Şəxsiyyətləri və Müəssisələri ilə Osmanlı*, səh. 161.

Savaş Xəncər Kimidir

Bunu deyə bilərik ki, İslam başdan sona qədər terrorla mübarizədir. Qılınc bir dəmir parçasıdır. İslamda qan tökmək və torpaq zəbt etmək üçün savaşmaq, torpağı qanla sulamaq qadağandır, haramdır. Qılınc yalnız zülmü aradan qaldırmaq və hidayətlərə vəsilə ola bilmək üçün istifadə edilir.

Yəni cihad həkimin pıçağı kimidir. Fitnə-fəsad çıxaran, öz mənfəətləri uğrunda insanlara qarşı qırğın törədən pis insanların qarşısını almaq üçün istifadə edilir. Necə ki, qanqrena olmuş bir üzv bütün bədənin rahatlaması üçün kəsilirsə, bəşəriyyətin salamatı və islahı üçün də islahı mümkün olmayan pis insanlar ortadan qaldırılır.

Allah-Təala belə buyurur:

"**Onlar Calut və əsgərləri ilə qarşılaşdıqları zaman dedilər: "Ey Rəbbimiz, bizə bollu səbr və dizimizə** (ayaqlarımıza) **qüvvət ver! Bizə kafir qövm üzərində qələbə qazandır!" Nəhayət, onlar Allahın izni** (iradəsi və köməyi) **ilə Calutu və qoşununu məğlub etdilər. Davud Calutu öldürdü. Allah Davuda həm hökmranlıq, həm də hikmət** (peyğəmbərlik) **verdi və ona istədiyini** (zireh düzəltmək, quşların dilini bilmək, gözəl səslə oxumaq) **öyrətdi. Əgər Allah insanların bir qismini, digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfkardır.**" (əl-Bəqərə, 250-251)

"**Barı, sizdən əvvəlki nəsillərin ağıl və fəzilət** (hünər) **sahibləri yer üzündə fitnə-fəsad törətməyi qa-**

dağan edəydilər! Onların xilas etdiyimiz az bir qismi istisnadır. (Onlar keçmiş peyğəmbərlərin əshabələridir ki, insanlara yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edərdilər.) **Zalımlar isə onlara verilmiş nemətə** (dünyanın ləzzətinə) **uydular və günahkar oldular. Məmləkətlərin əhalisi əməlisaleh olduğu ikən Rəbbin onları haqsız yerə məhv etməz!**" (Hud, 116-117)

Dində Məcburiyyət Yoxdur

İslam doğruları insanlara çatdırıb başa salmaq istəyir. Lakin heç vaxt bunları qəbul etmələri üçün insanları məcbur etməz.[199] Çünki Allah-Təala imtahan üçün göndərildiyi bəndələrinin azad olmasını istəyir. İslamı qəbul edənlər hür iradələri ilə qəbul etməli, rədd edənlər də hür iradələri ilə rədd etməlidir ki, axirətdə mükafat və ya cəza verilə bilsin.[200] Bu səbəbdən insanlara islamı təbliğ etməyin qarşısını alan, onların hür iradələri ilə islamı araşdırmalarına mane olan güclərlə də savaşmaq zəruri ola bilər. Çünki onlar inancsız insanların azadlığını məhdudlaşdırmaqla onları islamdan uzaq qalmağa məcbur edirlər.

İman yalnız hür iradə ilə əldə ediləcək bir nemətdir. İnsanları zorla və təzyiqlə iman etdirmək mümkün deyildir. Məcbur edilən insanlar yalnız münafiq olarlar. İslam isə münafiqlikdən daha pis hesab edir. Bu səbəbdən müsəlmanlar tarix boyunca heç kimi İslamı qəbul etməyə məcbur edilməmiş, əllərindəki əsərləri

199. Bax. əl-Bəqərə, 256; Yunus, 99; Əbu Davud, Cihad, 116/2682.
200. Bax. əl-Ənfal, 42; əl-Kəhf, 29; əz-Zümər, 7; əl-Casiyə, 15.

belə bu xüsusda sərbəst buraxmışdırlar. Misirin fəthində iştirak edən Ziyad bin Cəz belə rəvayət edir:

"**...Savaşdan sonra əlimizdəki Misirli müharibə əsirlərini bir yerə yığdıq; xristian olan qarşı tərəf də gəldilər. Biz əsirləri, İslamı və ya xristianlığı seçmələri xüsusunda sərbəst buraxdıq. Biri islamı seçdiyində biz fəth zamanı gətirdiyimizdən daha güclü bir səslə təkbir gətirir və onu yanımıza alırdıq.** (Artıq o bizimlə eyni haqq və vəzifələrə sahib olurdu.) **Xristianlığı seçən olduqda isə onu sərbəst buraxırdıq və xristianlar qışqıraraq onu yanlarına alırdılar; biz cizyəsini təyin edirdik. Lakin buna sanki aramızdan biri onlara qoşulmuş kimi çox üzülürdük...**" (Təbəri, Tarix, I, 512, 20-ci il)

e. Əsirlərə Gözəl Davranmaq

Rəsulullah ﷺ müxtəlif təlimat, tövsiyə və icraatları ilə əsirlərə xoş davranılmasını istəmiş, onlara əziyyət və işgəncə verilməsini qadağan etmişdir. Şəxsindən məlumat almaq üçün belə əsirə təzyiq edilməsinin uyğun olmadığına işarə etmişdir.[201] İslam hüquqşünasları da əsiri ac və susuz qoymaq kimi işgəncələrin doğru olmadığını ifadə edirlər. (Kasani, Bədəiu-s-sənai, 1406, Dəru-l-kutubi-l-ilmiyyə, VII, 120)

Musab bin Umeyrin qardaşı Əbu Əziz Bədrdə müşriklərin bayraqdarlığını etmişdi. Müsəlmanlara əsir düşdüyündə onlardan gördüyü şəfqət və mərhəməti belə dilə gətirir:

201. Bax. Əbu Davud, Cihad, 115; İbn Hişam , II, 255; Vaqidi, II, 514.

"Bədr savaşında mən də əsir düşmüş, Ənsardan bir camaata təslim edilmişdim. Bədrdən qayıdarkən səhər və axşam yeməkləri gəldiyində çörəyi mənə verir, özləri isə quru xurma ilə kifayətlənirdilər. Çünki Rəsulullah ﷺ əsirlərə gözəl davranılmasını tövsiyə etmişdi. Onlardan birinin əlinə bir tikə çörək düşən kimi dərhal onu gətirib mənə verirdilər. Mən həya edər və həmin çörək loxmansını onlardan birinə geri qaytarardım. Lakin həmin çörəyi təkrar mənə verir və əsla ona toxunmazdı." (İbn Hişam, II, 288; Heysəmi, VI, 86)

Əsirlərdən Əbul-As bin Rəbi və Vəlid bin Vəlid də onlara eyni şəkildə davranıldığını demişdir. Hətta Qüreyş əsirlərindən Yezidin xəbər verdiyinə görə Mədinəyə gələrkən əsirlər heyvanlara minmiş, müsəlmanlar isə piyada getmişdirlər. (Vaqidi, I, 119)

Rəsulullah ﷺ Bədr savaşında ələ keçirilən əsirləri toplu halda bir yerdə saxlamamışdır. Onları səhabələrə bir-bir paylamış və onlara ikram etmələrini tövsiyə etmişdir. (İbn Hişam, II, 288)

Bu əsirlər edilən məsləhətləşmələr nəticəsində fidyə qarşılığında sərbəst buraxıldılar. Oxuma-yazma bacaranların fidyəsi isə mədinəli on uşağa oxumaq-yazmaq öyrətmək idi. Belə bir imkanı olmayanlar, qarşılıqsız sərbəst buraxıldılar. (Əhməd, I, 247; Vaqidi, I, 129; İbn Sad, II, 22)

Huneyn savaşında Həvazin qəbiləsindən çox sayda əsir ələ keçirilmişdi. Rəsulullah ﷺ Büsr bin Süfyana əsirlərə paltar verməsini əmr etdi. Büsr də satın aldığı paltarları əsirlərə geyindirdi. Rəsulullah ﷺ əsirlər ara-

sında olan süd bibiləri və süd xalalarının xatirinə öncə özünün və Ədülmüttəlib oğullarının payına düşən əsirləri sərbəst buraxdı. Bunadan sonra əshabi-kiram da paylarına düşən əsirləri fidyə almadan sərbəst buraxdılar. Rəsulullah ﷺ əsirini qarşılıqsız sərbəst buraxmayan müsəlmanlara fidyələrini şəxsən özünün ödəyəcəyini söz verdi. Bu şəkildə 6000 əsir qarşılıqsız sərbəst buraxıldı. Həmçinin qənimət olaraq alınan mallardan 24000 dəvə, 40000 qoyun və 4000 uqiyyə (475 kq) gümüş geri qaytarıldı. (İbn Hişam, IV, 135; Vaqidi, III, 943, 950-954)

Rəsulullah ﷺ daha bir çox savaşda götürdükləri əsirləri qarşılıqsız sərbəst buraxmışdır.[202]

Rəsulullah ﷺ müxtəlif vəsilələrlə əsirləri sərbəst buraxmağı sevərdi. Məsələn, Ramazan ayı girdiyində bütün əsirləri sərbəst buraxar, ondan bir şey istəyən hər kəsə ehtiyacını qarşılayardı. (İbn Sad, I, 377)

Həzrət Əbu Bəkr رضي الله عنه da var-dövlətinin çoxunu əsir və kölələri azad etmək yolunda xərcləmişdi. Sərvətini bu şəkildə xərcləməsindən xoşlanmayan atası Əbu Kühafə bir gün:

"-Oğlum, sən həmişə zəif və gücsüz kölələri satın alıb azad edirsən. Madam kölə azad edəcəksən, belə güclü, qüvvətli kölələr satın al ki, təhlükə və pisliklərə qarşı önündə dayanıb səni mühafizə etsinlər."-demişdi.

Həzrət Əbu Bəkr رضي الله عنه isə bu möhtəşəm cavabı verdi:

202. Baxş Müslim, Cihad, 132, 133; Əbu Davud, ıtq, 2/3931; İbn Hişam, IV, 32; Vaqidi, II, 599, 560, 835; İbn Sad, II, 88, 142-143.

"-Atacan, mənim belə davranmaqda yeganə məqsədim Allahın rizasını qazanmaqdır. Mən onları azad etməklə yalnız Allah dərgahındakı mükafatı istəyirəm!"

Həzrət Əbu Bəkr bu və buna bənzər comərdliklərini mədh etmək üçün bu ayələr nazil oldu:

"**Kim** (malını Allah yolunda) **versə,** (Allahdan) **qorxsa, Və ən gözəl sözü** (lə ilahə illallah kəlməsini) **təsdiq etsə, Biz ona ən asan olanı** (Cənnəti) **müyəssər edəcəyik!**" (əl-Leyl, 5-7)[203]

Müəyyən bir hüquqi sistem tətbiq edilərək əsir götürülən qadınların iffət və şəxsiyyətləri də toxunulmaz hala gətirilmişdir.

f. Bütün Bəşəriyyətin Salamatı Üçün Çalışmaq

İslam Allahın bütün bəşəriyyətə göndərdiyi sülh və əminamanlıq dinidir. Həzrət Peyğəmbərimiz də Allah-Təalanın bütün aləmlərə hədiyyə etdiyi Rəhmət Peyğəmbəridir.

Allah-Təala belə buyurur:

"(Rəsulum!) **Biz səni yalnız aləmlərə rəhmət olaraq göndərdik.**" (əl-Ənbiya, 107)

İbn Abbas ﷺ bu ayə haqqında belə buyurmuşdur:

"Kim Allaha və Rəsuluna iman edərsə, o dünyada və axirətdə tam olaraq rəhmətə nail olar. Kim də Allaha

203. İbn Hişam, *Sirətu-n-Nəbi*, I, 341; Təbəri, *Camiu-l-Bəyan*, XXX, 279 (əl-Leyl, 5-7); Suyuti, *Lübabu-n-Nuqul*, səh. 257-258.

və Rəsuluna iman etməzsə, əvvəlki qövmlərin dünyada uğradığı "yerin dibinə keçmə", "meymuna çevrilmə", "üzərlərinə daş yağdırılması" kimi ilahi əzablardan mühafizə edilər. Bu onun, Allah Rəsulu sayəsində nail olduğu dünyəvi rəhmətdir. (Beyhəqi, Dəlailu-n-Nübüvvə, V, 486; Heysəmi, VII, 69)

Həzrət Peyğəmbərimiz ﷺ ümmətinin ümumi bir qıtlıqla, suda boğulmaqla və toplu halda həlak olmamaları üçün Rəbbinə dua etmişdir.[204] Peyğəmbər olaraq göndərildiyi gündən etibarən bütün insanlar Onun ümmətidir.[205] Bu mənda Peyğəmbərimiz ﷺ bütün bəşəriyyəti böyük afətlərdən mühafizə etməkdədir.

Rəsulullah ﷺ bir hədisi-şərifində:

"İnsanların Allah-Təalaya ən sevimli olanı, insanlara ən faydalı olanıdır."-buyurmuşdur. (Heysəmi, VIII, 191)

Bu səbəbdən müsəlmanlar bütün bəşəriyyətin salamatı üçün səy göstərirlər. Hansı inanca sahib olursa olsun, insanların yaxşılığı üçün çalışır, məzluma yardım edərlər. "Yaradılanı xoş gör Yaradandan ötrü!" düsturuna tebe olurlar. Allah-Təalanı sevdikləri üçün Onun yaratdığı bütün insanları da sevərlər. Haqsızlıq etmədiyi, insanların fikir azadlığını məhdudlaşdırmadığı müddət ərzində inancı nə olursa olsun heç kimsəyə müdaxilə etməzlər.

Tarixə nəzər yetirdiyimizdə İslam mədəniyyəti heç vaxt digər mədəniyyətləri yox etməyə çalımamışdır.

204. Müslim, *Fitən*, 19-20; Tirmizi, *Fitən*, 14/2177; Əbu Davud, *Fitən*, 1/4252
205. Heysəmi, I, 174.

Əksinə onlardakı öz dəyərlərinə uyğun adətləri götürüb inkişaf etdirmişdir. Tabeliyində olanları isə himayə etmişdir. Həzrət Peyğəmbərimizn təsis etdiyi Mədinə şəhər dövlətində dörd xəlifə dövründə, Əməvi, Abbasi, Əndəlus, Hindistan və Osmanlı dövlətlərində yəhudi, xristian, buddist, hindu və məcusi mədəniyyətləri mühafizə edilmişdir. Əgər İslam yalnız öz mənsublarının salamatı üçün çalışsaydı, bu gün adı keçən mədəniyyətlərin ən azından bir qismi tarix səhnəsindən silinmiş olardı.

İslamın bu xöşgörüsü (tolerantlığı) və üstün anlayışı (beynəlmiləlliyi), bir çox irq, din və millət tərəfindən Afrika, Asiya və Avropa qitələrində təcrübədən keçirilmişdir.

İslamın bütün bəşəriyyəti qucaqladığını nümayiş etdirən bir çox misal mövcuddur. Bunlardan biri bu şəkildədir: Həzrət Əli ﷺ Misirə vali təyin etdiyi Malik bin Harisə bir əmirnamə yazmışdı. Orada bu ifadələrə yer verdi:

"İnsanlara canavarın sürüyə baxdığı kimi baxma! Onlara qarşı qəlbində sevgi, mərhəmət və mehribanlıq hissləri bəslə! Çünki istisnasız bütün insanlar ya dində qardaşın, ya da yaradılışda bənzərindir. İnsanlar xəta edə bilər, başlarına iş gələ bilər. Yıxılanın əlindən tut, özün üçün Allahın bağışlamasını istəyirsən, sən də insanları bağışla, onlara səmimi davran! Allaha qarşı əsla üsyan etmə! Bağışladığına görə əsla peşmanlıq duyma! Verdiyin cəzaya görə də sevinmə!"[206]

206. Muhyiddin Seydi Çələbi, *Buxaridə İdarəçilik Əsasları*, İstanbul 2000, səh. 47.

İslama görə müharibə vəziyyəti xaricində kafir olsa belə, insanların malı, canı və namusu haramdır.

İnsanları öldürmək bir yana onlara lənət etmək belə İslamın xoş görmədiyi bir davranışdır.[207]

Allah Rəsulu ﷺ daim mülayimliyi və mərhəməti tövsiyə etmiş, şiddəti, kobudluğu və zorakılığı həmişə məzəmmət edərək belə buyurmuşdur:

"Allah-Təala məni comərd və gözəl əxlaq sahibi bir bəndə olaraq yaratdı, qoluzorba və inadkar bir zalım etmədi." (Əbu Davud, Ətimə, 17/3773)

"Allah-Təala məni zor (şiddət) tətbiq edən bir insan olaraq göndərmədi, əksinə tərbiyələndirici və asanlaşdırıcı olaraq göndərdi." (Əhməd, III, 328)

Həqiqətən Rəsulullah ﷺ ən gözəl əxlaqı tamamlamaq və bütün bəşəriyyətə gözəlliklər bəxş etmək üçün göndərilmişdir.

Dövlət başçısı olan Peyğəmbərimizin özünə tələ quran yəhudi insanlara qarşı göstərdiyi bu gözəl əxlaq, saymaqla bitməyən ibrətlərlə doludur:

Bir dəstə yəhudi Peyğəmbərin ﷺ yanına gəlmişdi. (Müsəlmanların "əs-Sələmu aleykum" şəklindəki salamına bənzədərək):

"-əs-Samu aleykum (Ölüm sənin üzərinə olsun)"- dedilər.

Bu hiyləni başa düşən Həzrət Aişə ؓ pərdə arxasından:

207. Müslim, Birr, 84-86; Əbu Davud, Ədəb 45.

"-O sizin üzərinizə olsun, Allah sizlərə lənət etsin, Allahın qəzəbi sizin üzərinizə olsun!"-deyə səsləndi.

Gözəl əxlaqı kamilləşdirmək üçün göndərilmiş olan Rəsulullah ﷺ ona müdaxilə edərək:

"-Yavaş ol ya Aişə! Nəzakət və həlimliklə davran! Şiddətdən və çirkinliklərdən uzaq dur!"-buyurdu.

Həzrət Aişə anamız:

"- (Ya Rəsulallah!) Onların nə dediyini eşitmədinizmi?"-dedi. Rəsulullah ﷺ belə buyurdu:

"Sən də mənim onlara nə dediyimi eşitmədinmi? Yalnız "Və aleykum: Əslində sizin üzərinizə olsun!"deyə sözlərini onlara geri qaytardım. Mənim onlar haqqındakı duam qəbul olar, lakin onların mənim haqqımdakı duaları qəbul olunmaz!" (Buxari, Ədəb, 38)

Digər bir rəvayətə görə Rəsulullah ﷺ Aişə anamıza bunu da demişdir:

"Allah-Təala hər işdə mülayimliklə davranmağı istəyir və sevir!" (Buxari, İstizan, 22)

Ənəs bin Malik رضي الله عنه belə demişdir:

"Həqarət, ədəbsizlik və lənət ifadə edən sözlər Həzrət Peyğəmbərimizə yad kəlmələr idi. Bu cür sözlərdən həmişə uzaq durardı. Bizlərdən birimizə hirslənib onu azarlayacaq olduqlarında yalnız:

"-Ona nə olur, alnı torpaq olmuş!"-buyururdu. (Buxari, Ədəb, 38, 44)

Peyğəmbərimizin bi sözü bir dua olub *"Namaz qılıb səcdə etsin ki, alnı torpaq olsun!"*deməkdir.

Bu hadisə də kobudluğun və gözəl əxlaqa zidd çirkin davranışların Rəsulullahın ﷺ həyatında yeri olmadığını göstərir:

(Münafiqlərdən) biri Həzrət Peyğəmbərimizin hüzuruna girmək üçün icazə istədi. Rəsulullah ﷺ onu uzaqdan görüncə, (insanları şərindən qorumaq üçün):

"-O, əşirətin nə pis qardaşdır və ya əşirətin nə pis oğludur!"-buyurdu.

Adam içəri girib əyləşdikdə Peyğəmbərimiz ﷺ ona təbəssüm etdi, şirin dillə danışdı və səmimi davrandı. Adam getdikdən sonra Həzrət Aişə رضي الله عنها:

"-Ya Rəsulallah! Adamı gördüyünüz zaman onun haqqında belə-belə dediniz, sonra da üzünə təbəssüm edib xoş davrandınız?!"-dedi.

Rəsulullah ﷺ:

"-Ya Aişə! Sən nə zaman məni pis söz deyərkən və pis davranarkən gördün?! Qiyamət günü Allah nəzdində ən pis insan, (dünyada ikən) şərindən qorunmaq üçün insanların ondan uzaq durduğu insandır."-buyurdu. (Buxari, Ədəb 38)

Burada bəhs edilən insanın pis xüsusiyyətləri daha sonra xeyli artmış və Həzrət Əbu Bəkr رضي الله عنه zamanında müsəlmanlara qarşı savaşarkən əsir götürülmüşdür. Məhz həmin vaxt Həzərt Peyğəmbərimizn onun haqqındakı sözünün gələcəyə aid bir möcüzə olduğu başa düşülmüşdür.[208]

208. İmam Nəvəvi, *əl-Minhac şərhu Səhihi Müslim*, Beyrut 1392, XVI, 144.

Bu mənada müsəlmanların dinlərindən qaynaqlanan bir terror fəaliyyətində iştirak etmələri mümkün deyildir. Bəzi insanlar terroru İslam ilə əlaqəli imiş kimi göstərirsə, bu iddia ya İslamı pisləmək üçün qəsdən edilən bir xəyanət və ya böyük bir qafillik və cəhalətdir.

SON SÖZ

İnsan haqqa və həqiqətə meyilli olaraq yaradılmasına görə məchula razı olmaz. Daim həqiqəti maraqlanıb araşdıraraq məlumun arxasınca qaçar. Çünki bilmədiyi və bilməyəcəyi şeylər ona ruhən iztirab verər.

Tarix boyunca insan idrakını ən çox düşündürən ən böyük müəmma isə, "**ölüm**" və "**axirət aləmi**"nə dair məchullar olmuşdur.

Həqiqətən insanlar həyat şərtləri nə olursa-olsun, ölüm qarşısında müştərək bir iztirab içindədirlər. Bütün həyat yollarının dönüb dolaşıb ölüm üfüqlərində yox olması, könülləri dərindən sızıldadır.

Hər kəsi "**həyat**" möcüzəsindən daha müdhiş və atəşli bir girdab halında əhatə edən "**ölüm**" vaqiəsi, bu dünyada -istisnasız- hamının başına gələcək ən çətin həqiqət olduğuna görə, ona dair məchulları məluma bağlamaq, bəşəri qayələrin ən başında gəlir.

Çünki həyat, beşiklə tabut arasındakı məsafəyə sığmayacaq qədər ülvi bir həqiqətdir. İnsanların idrakında zühur edən "**Həyat nədir**?" sualına, yalnız torpağın rütubəti və qəbir daşlarının qatılığı cavab olaraq yüksələcəksə, belə qafilanə bir həyatdan daha acı nə ola bilər?!

Sırf ağılla və bəşər düşüncəsi ilə qavranmasına imkan tapa bilməyən ölüm və sonrasına dair istiqbal düyününü, yalnız vəhyin qüdrəti çözə bilər.

Həyat nədir? Bu dünya nə üçün yaradıldı? Bu dünyaya gəliş və ondan qəbir aləminə axış nəyə görədir? Ölümdən sonra nələr olacaqdır? Bütün bu sualların cavabını ən qaneedici şəkildə verən din, yalnız islamdır. İnsana iztirab verən ölüm və axirətə dair qaranlıq məqamları ən gözəl şəkildə aydınladaraq bəşəriyyəti səadətə çatdıran yeganə din, islamdır.

Həyatın qayəsi, Quran və Sünnə həqiqətlərinin könül feyzi və mənəvi hüzuru içində yaşayaraq əbədi səadətə nail ola bilməkdir. Dünya; əkib, axirətdə isə əkdiyini biçmək yeridir. İnsan bir əbədiyyət yolçusu, dünya bir müsafirxanadır. Yəni dünya, əbədi səadəti qazanmaq üçün gəlinən fani bir imtahan diyarıdır. Əsas həyat; Cənnəti ilə, Cəhənnəmi ilə əbədi bir axirət həyatıdır.

Məhz bütün peyğəmbərlərin və xüsusilə son peyğəmbər Həzrət Muhəmməd Mustafanın ﷺ verdiyi bu istiqbal xəbəri, bəşəriyyət tərəfindən təşəkkürlərlə, minnətdarlıqlarla qarşılanmalı olduğu halda, -nə yazıq ki- bir çox qafillər tərəfindən ələ salınmaqla, həqarət edilməklə və biganə yanaşmaqla qarşılıq verilmişdir. Yaradılışın hikmət və qayəsinin ziddinə bir həyat yaşayan müşriklər və münkirlər, Rəsulullahın ﷺ vəhy yolu ilə bildirdiyi axirət xəbərini əvvəlcə təəccüblə qarşılamış, sora da nəfsani yaşayışlarına ziddiyət təşkil edən bu əbədi qurtuluş dəvətinə, müdhiş bir inadkarlıq və üz qızardıcı bir mənfiliklə arxa çevirmişdirlər. Zehnlərində

sanki zəhərli bir ilan kimi qıvrılan və qımıldadıqca insanı pərişan edən "ölüm" və "sonrası"na dair sualar, -vəhyin və peyğəmbərlərin irşadından uzaq qalanlar tərəfindən- hər dövrdə müxtəlif batil inanclarla susdurulmaq, basdırılmaq və şüuraltına həbs edilmək istənilmişdir.

Şübhəsiz ki, bu hal, insan nəfsinin hoyratlığına görə hesabını verməkdən xoşlanmadığı həqiqətlərin) mənəvi ağırlığı altında əzilməmək üçün müraciət etdiyi bir "qaçış psixologiyası"nın təzahürüdür. Lakin heç bir həqiqət, ondan qaçmaq və ya onu fərz etməklə dəf etmək olmaz. Əksinə insan belə boş təsəllilərlə oyalanaraq və səfalətini səadət zənn edərək yalnız özünü aldatmış olar. Bir gün ölümə hazırlıqsız yaxalanmaqdan, Əzrailə qafil ovlanmaqdan və -canı istəməsə belə- əbədi həyatın çətin sürprizləri ilə qarşılaşmaqdan qurtula bilməz.

Yaşayanlar üçün ölümdən əhəmiyyətli bir hadisə olmadığına görə, ona dair ilahi xəbərlərdəki əzəmətin də layiqincə qavranılması lazımdır. Belə ki, Qurani-Kərin, bütün səmavi dinlərin ittifaqla xəbər verdiyi axirətdən , "Nəbəi Azim: Böyük Xəbər"-deyə bəhs etmiş və onu əqli, hissi, əxlaqi dəlillərlə izah etmişdir.

Vəhyin səsinə qulaq asaraq axirət xəbərinin əzəmətini layiqincə idrak edə bilənlər, fani və müvəqqəti nemətlərə aldanmaqdan qutulmuş, yalançı gələcəkdən, həqiqi və əbədi istiqbala yönəlmişdirlər. Onlar idrak etmişlər ki, salxım-salxım ulduzlu çilçıraqlarla bəzənmiş göylər, müxtəlif zinət və ehtişam içində bəzənmiş yerüzü, əsla qayəsiz və təsadüfi bir qurtuluş mənzə-

rəsini vermir. Əksinə hər zərrəsində neçə-neçə sir və hikmətlərin gizli olduğunu, idrak edənlərə hal dili ilə təlqin edir.

Həqiqətən, bəşər idrakının və zövqünün o tərəfində, sanki bir gəlin otağı həssaslığı və etinası ilə döşənmiş olan bu kainat, -bitkiləri ilə, heyvanları ilə, insanları ilə ən kiçik hüceyrələrinə, zərrələrinə, hətta atom içindəki elektron və proton kimi əsrarlı ünsürlərinə qədər, ilahi qüdrət və əzəmət təcəllilərinin vitrini səviyyəsindədir.

Məhz vəhyin işığında özünə, həyata, kainata və hadisələrə ibrət və hikmət nəzəri ilə baxan bir insan dərhal başa düşər ki, bütün varlıqların var oluşu, varlıqlarını davam etdirməsi və nəhayət faniliyə məkhum olşunda meydana çıxan ilahi qüdrət və səltənət qaşısında axirətin imkansılığından bəhs etmək son dərəcə gülünc və ikrah hissi yaradan bir iddiadır.

Unutmamaq lazımdır ki, ölümdən ibrət alınmayaraq yaşanan bir həyat, qaranlıq bir zülmətdən fərqsizdir. Əbədi səadət günəşi, ilahi həqiqətlər işığında və Haqqa qulluq üzrə yaşanmış bir həyatın sonunda gələn ölümlə doğar. Bu səbəbdəndir ki: islam dini, ölümü daima xatırlayıb ona hazırlıqlı olmağı, beləliklə ölümün ürküdücü halını dəf edərək onu gözəlləşdirməyi tövsiyə etmişdir. Mövlana Həzrətlərinin ifadəsi ilə ölümü sanki yəni bir "**toy gecəsi**" sevinci ilə qarşılaya bilməyin yollarını təbliğ etmişdir.

Ölüm və axirət müəmmalarını daxili aləmində vəhyin nuru ilə çözə bilən, ölümə layiqincə hazırlaşıb

axirətini əbədi bir səadətə çevirməyin zəhməti içində yaşayan saleh möminlər nə xoşbəxtdir.

Allah-Təala cümləmizi, islamı ən gözəl şəkildə öyrənib yaşayaraq rizasına nail olan, bu dünyada könül xoşbəxtliyini əbədi bir səadətə çevirən və həm dünyada könül hüzurunu, həm də axirətdə əbədi səadəti qazanan bəndələrindən eyləsin...

Amin!

MÜNDƏRİCAT

Önsöz 5

I Hissə
İSLAM NƏDİR? / 15

1. Allah-Təala Bəndələrini Çox Sevir 15
2. İnsanın Ən Böyük Ehtiyacı:
Əmin-Amanlıq və Səadət 18
3. İslam Dünyada Xoşbəxtlik və
Əmin-Amanlıq Mənbəyidir 19
    a. İnsanlar Səadətə Qovuşar 19
    b. Heyvanlar Rahatlığa Qovuşdu 31
    c. Nəbatat Salamatlığa Qovuşar 36
    d. Cansız Varlıqlar Rahatlığa Qovuşdu 41
4. İslam Əbədi Həyatda Salamata Çatdırar 48

II Hissə
İMAN ƏSASLARI / 59

1. Kəlimeyi-Tövhid 59
    a. Kəlimeyi-Tövhidin Əhəmiyyəti 62
    b. Kəlimeyi-Tövhidin Fəziləti 66

2. Allaha İman 70
a. Allahın Varlıq və Birliyinin Dəlilləri 83
b. Allaha İmanın Faydaları 94
3. Mələklərə İman 96
4. Kitablara İman 99
a. Qurani-Kərim 100
1) Xüsusiyyətləri 101
2) Ehtivası 104
3) Möcüzə Olması 106
a) Qanunauyğunluğu və Bəlağəti 110
b) Qeybdən Xəbər Verməsi 116
c) Elmi Kəşflərə İstiqamət Verməsi 119
Peyğəmbərlərə İman 131
a. Son Peyğəmbər Həzrət Muhəmməd Mustafa ﷺ 135
1) Gözəl Əxlaqı 147
2) Bəşəriyyətin Qurtuluşu Üçün Çırpınması 165
3) Möcüzələri 170
6. Axirətə İman 183
7. Qədərə İman 196

III Hissə

İBADƏTLƏR / 211

1. Dəstəmaz və Təmizlik 218
2. Namaz 220
3. Oruc və Mübarək Ramazan Ayı 227

4. Zəkat 236
5. Həcc 253
6. Digər İbadətlər 257

IV Hissə

MUAMƏLAT və ƏXLAQ / 265

1. Təvazökarlıq 270
2. Canıyananlıq və Comərdlik 278
3. Sədaqət və Etibar 287
4. Zəriflik və Nəzakət 293
5. Xidmət 300
6. Cihad və Terrorla Mübarizə 303
a. İslam İlahi və Haqq Bir Dindir 303
b. Hər Can Əzizdir 305
c. Günahın Şəxsiliyi 309
d. İslami cihad 311
e. Əsirlərə Gözəl Davranmaq 319
f. Bütün Bəşəriyyətin Salamatı Üçün Çalışmaq .. 322
Son Söz 329